V əsrdə yəhudi missionerləri Himyarın cənubundakı ərəb krallığının kralı Əbu Karibi yəhudiliyə çevirməyə müvəffəq oldular. Onun varisi Yusif Zu-Nuvas xristianların qanlı təqibçisi və əzabçısı kimi şöhrət qazandı. Onun hakimiyyəti dövründə xristianların məruz qalmadığı işgəncə yox idi. Xristianların ən kütləvi qırğını 523-cü ildə baş verdi. Zu-Nuvas xaincəsinə xristian şəhəri Nəcranı ələ keçirdi, bundan sonra sakinlər yanan qatranla doldurulmuş xüsusi qazılmış xəndəklərə aparıldı; yəhudiliyi qəbul etməyənlərin hamısı onların üstünə diri-diri atıldı. Bir neçə il əvvəl o, eyni şəkildə Zəfər şəhərinin sakinlərini də məhv etmişdi.

Ümumiyyətlə, Talmud bütün qeyri-yəhudilərə, o cümlədən xristianlara qarşı kəskin mənfi, aşağılayıcı münasibət aşılayır. Mərhum halachic fərmanları kitabı "Şulçan-Aruch" mümkünsə, xristianların kilsələrini və onlara aid olan hər şeyi məhv etməyi (Şulçan-Aruch. Iore de "a 146); xilas üçün bir

1. John Chrysostom (354-407), "Yəhudilərə qarşı ilk söz"
2. Romalı Hippolitus, müqəddəs. Daniel peyğəmbərin kitabının şərhi

sərvət (Iore de'a 158) , 1); bir xristian üzərində sınaqdan keçirməyə icazə verilir, sağlamlığa və ya ölümə dərman gətirir və nəhayət, bir yəhudi xristianlığı qəbul edən bir yəhudini öldürmək öhdəliyi ilə ittiham olunur[1] (Iore de a 158, 1; Talmud. Aboda zara 26).

Talmudda Rəbb İsa Məsih və Ən Müqəddəs Theotokos haqqında çoxlu təhqiramiz, küfredici ifadələr var. Erkən orta əsrlərdə yəhudilər arasında Məsih haqqında son dərəcə küfr uydurmaları ilə dolu olan “Toldot Yeshu” (“İsanın şəcərəsi”) antixristian əsəri geniş yayılmışdır. Bundan əlavə, orta əsr yəhudi ədəbiyyatında, xüsusən də Sefer Zerubaveldə başqa anti-xristian traktatlar da var idi.

Yəhudilərin sosial vəziyyətini məhdudlaşdıran tədbirlər çox vaxt imperatorların gözündə vətəndaş etibarsızlığını nümayiş etdirən hərəkətləri ilə baş verirdi. Məsələn, 353-cü ildə imperator Konstansın dövründə Yeparxiya yəhudiləri şəhərin qarnizonunu öldürdülər və müəyyən bir Patrisiusu başçı seçərək qonşu kəndlərə hücum edərək həm xristianları, həm də samariyalıları öldürməyə başladılar. Bu üsyan qoşunlar tərəfindən yatırıldı. Çox vaxt Bizans şəhərlərində yaşayan yəhudilər xarici düşmənlərlə müharibələr zamanı xain çıxdılar. Məsələn, 503-cü ildə farslar Konstans şəhərini mühasirəyə alarkən yəhudilər şəhərdən kənarda yeraltı keçid qazaraq düşmən qoşunlarını içəri buraxdılar. Yəhudilər 507 və 547-ci

1. Iore de a 158, 1; Talmud. Aboda zara 26

illərdə üsyan qaldırdılar. Hələ sonralar, 609-cu ildə Antakyada üsyankar yəhudilər çoxlu varlı vətəndaşı öldürdülər, evlərini yandırdılar və Patriarx Anastasiyanı küçələrdə sürüyərək çoxlu işgəncələrdən sonra oda atdılar.

## Ədəbiyyat

1. Quran-Kərim

2. Təfsirlər (Məhəmməd Hüseyn Təba-təbai, "əl-Mizan fi təfsiril-Quran"
Nasir Məkarim Şirazi, " Nümunə təfsiri "
Fəxri Razi, “Kəbir təfsiri”,
Feyz Kaşani, Molla Möhsin, Təfsir Safi)
3. Quranda Pəjuheşlər, yay. Bahar, 1380
4. Məclisi, Baqir ibn Muhəmmədtəqi, Biharul-ənvar
5. Muhəmməd həsən Hürr Amuli, Vəsailiş-şiə..., Beyrut, 1983
6. Müttəqi, Əli ibn Hesabuddin, Kənzul-ummal fi sunənil-əqval vəl əfal, Beyrut: Müəsser-resale, 1401=1981
7. Məhəmməd ibn Yaqub Kuleyni, “Kafi”
8. Məhəmməd ibn Həsən Tusi, “Təhzibul-əhkam”
9. Məhəmməd ibn Həsən Tusi, “İstibsar”
10. Məhəmməd Rza Zibayi Nijad, “Məsihiyyətşenasiye muqayiseyi”
11. Məvaizi Süleyman (Süleymanın nəsihətləri)
12. Muhəddis Nuri, “Mustədərəkul-vəsail”
13. Mirzə Nuri Təbərsi, Qum: Müəssiseye Alul-beyt (ə) əlihyaut-turas, 1412=1991
14. Nuri, Huseyn ibn Muhəmmədtəqi, Mustədrəkul-vəsail və mustəmbikul-məsail
15. Nəbi Huseyni, Muhəmmədsadiq, Dünya dinləri və məzhəbləri
16. Bedavi Leyla, İslam dinində qadın, London, 1994
17. Talmud: Həzrət Musanın (ə) qayda-qanunlarını izah və təfsir edən xaxam adətlərinin (sünnət) məcmuəsi

18. Telman Orucov, 525-ci qəzet, 9 may, 2014-cü il
19. Turanto ulduzu, 1995
20. Cavadi Amuli, "Zən dər ayineye cəlal və camal",
21. Cəlaləddin Aştiyani, "Təhqiqi dər din-e Məsih"
22. Sabiq, Seyid, Fiqhus-sünne, h.q 1387
23. Sara Abdullazadə, "Qadın: Dünən və bu gün (Qadın Arxetipinə fərqli baxış)"
24. Sənəm Mustafayeva, "AYNHA Hüquq Jurnalı" (IV Sayı)
25. Suidler, Yəhudizmdə qadın
26. Karmudi, Denis, Yəhudiyyət
27. E. Luis, Yəhudizmdə evlilik, Nyu-York, 1973
28. İsanın İncili, Müasir dövrün təfsir tərcüməsi, Tehran, h. q 1357
29. İdris Abbasov, 525-ci qəzet, 6 dekabr, 2013-cü il
30. Hazleton, Leslie ,"İsrailli qadınlar"; "Təsəvvürlər arxasındakı həqiqət"
31. Həvarilərin işləri
32. Əbdürrəhman Yusifpur, "İslam dinində qadın məsələsi" (1995-ci il)
33. Lalə Mənsimova, "İslamda Qadının Statusu"
34. Yeremyanın mərsiyələri
35. Qanunun təkrarı
36. Schaulchan Aruch, Choszen Hamiszpat 388
37. John Chrysostom (354-407), "Yəhudilərə qarşı ilk söz"
38. Romalı Hippolitus, müqəddəs. Daniel peyğəmbərin kitabının şərhi
39. Leonard C, Svidler: "Yəhudilikdə qadın"
40. Dennis L. Carmody, "Yəhudilik"
41. Epstein, "Yəhudilikdə Evlilik"
42. Ed Menachem Elon, "Yəhudi Qanununun Prinsipləri"
43. Mahmut Salihoğlu, "Yahudi Hukukunda Mamzer", EKEV Akademi Dergisi, 2011

# ƏLLAMƏ MƏCLİSİNİN "BİHARÜL-ƏNVAR" ƏSƏRİNDƏ YARADILIŞ FƏLSƏFƏSİ VƏ PROBLEMLƏR

**İBRAHİM QULİYEV**[1]

## Abstrakt

İslam mədəniyyəti tarixinin korifey alimlərindən sayılan Əllamə Məhəmməd Bağır Məclisinin İslam ilahiyyatşünaslığındakı, xüsusilə də hədis elmindəki müstəsna xidmətlərini öyrənmək və tədqiq etmək müasir dövrümüz üçün mühüm əhəmiyyət kəsb edir. Onun ilahiyyat elmləri, xüsusilə də bu elmlərin əsası olan hədis elmləri sahəsində ensiklopedik xarakter daşıyan "Biharül-ənvar" əsərinin hədisşünaslıq elminin araşdırılması baxımından aktuallıq kəsb etməsi sözü gedən sahə üzrə mütəxəssis olan hər kəsə yaxşı məlumdur. Əllamə Məhəmməd Bağır Məclisi kimi ilahiyyat aliminin yetkin bir elmi əsər yazıb ortaya qoyması XVII əsrdə Azərbaycan Səfəvilər dövlətinin elm və mədəniyyətə verdiyi yüksək diqqətdən xəbər verir. Bundan başqa Əllamə Məclisi Azərbaycan İslam mədəniyyəti tarixində Mirzə Abdullah Əfəndi Təbrizi və digər iyirmidən artıq hədis alimlərinin yetişməsində mühüm rolu olmuşdur. Onun özünün yetişməsində isə Ağa Hüseyn Xonsari və Molla Xəlil Qəzvini kimi Azərbaycan alimlərinin mühüm xidmətləri olmuşdur.

[1] - İslam araşdırmaları fakültəsinin məzunu, İslam Araşdırmaları İnstitutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, Qum, İran

**Açar sözlər:** Əllamə, Məclisi, Biharül-Ənvar, yaradılış, fəlsəfə

## Giriş

Səfəvilər dövlətinin şeyxülislamı, Gəncə, Şamaxı və bir çox Azərbaycan bölgələrində dini mədrəsələrin açılmasında birbaşa rolu olmuş, o dövrün Azərbaycan İslam mədəniyyətinin inkişafına xidmət etmiş Əllamə Məclisinin həyat və yaradıcılığına diqqət yetirmək, onun ən böyük elmi əsərini və bu əsərin mənbələrini tədqiq etmək aktual əhəmiyyət kəsb edir. Son illərdə İslam dininin əsaslarının, keçdiyi mürəkkəb və zəngin tarixi inkişaf yolunun öyrənilməsi, onun bəşər mədəniyyətinin yüksəlişindəki həqiqi yerinin, eləcə də müasir həyatımızın ictimai-siyasi, etik-əxlaqi, hüquqi-psixoloji və s. sahələrində artan rolunun araşdırılması qanunauyğun bir zərurət kimi qarşıya çıxır.

İslam mədəniyyətinin inkişafında və yayılmasında nəzərə çarpan xidmətləri olmuş Səfəvilər dövlətinin şeyxülislamı Məhəmməd Bağır Məclisi kimi klassik alimlərin irsini çoxşaxəli şəkildə tədqiqatlara cəlb etmədən qarşıya qoyulmuş bu zərurəti həyata keçirmək çətindir.

XVII əsrin hədis ədəbiyyatı tarixinin ən görkəmli nümayəndəsi Əllamə Məhəmməd Bağır Məclisinin "Biharül-ənvar" əsəri İslam ilahiyyatını öyrənməklə yanaşı, təbiətşünaslıq elmlərini öyrənib tədqiq etmək baxımından da ən mötəbər və ən sanballı bir əsərdir. Əbəs deyildir ki, müəllif bu əsəri yazmasından 300 ildən artıq bir vaxtın keçməsinə

baxmayaraq, əsər hələ də müsəlman aləmindəki şöhrətini itirməmiş, əksinə zaman ötdükcə daha da məşhurlaşmışdır. Təəssüflər olsun ki, ölkəmizdə indiyə kimi belə bir mötəbər və fundamemental əsər haqqında heç bir araşdırma aparılmamışdır. Amma İran alimləri əsəri fars dilinə tərcümə etmiş, müasir dövr Cənubi Azərbaycan ilahiyyatşünaslığının ən görkəmli nümayəndəsi olan Əllamə Məhəmmədhüseyn Təbatəbai Təbrizi (öl. 1983) 110 cildlik bu əsərin altı cildini təshih etmiş, onun hədislərinin hansı kateqoriyaya aid olduğunu göstərmişdir. Təəssüflər olsun ki, Əllamə Təbatəbai müəyyən səbəblər üzündən bu işi başa çatdıra bilməmişdir.

Bundan başqa yenə də müasir İran alimi Hüseyn Dərgahi "Mənahilül-əbrar fi təlxisi Biharil-ənvar" adlı on cildlik bir əsər yazaraq burada əsər və onun müəllifi haqqında geniş məlumat vermiş və daha sonra isə əsərdəki səhih bildiyi hədisləri fəsillərə ayıraraq adı çəkilən kitabında bira araya toplamışdır.

Yuxarıda "Biharül-ənvar" əsərinin təkcə İslam ilahiyyatını deyil, eyni zamanda təbiətşünaslığa aid bəzi problemlərin elmi-dini baxımdan araşdırılmasında da mühüm rolunun olduğunu qeyd etmişik. Məlum olduğu kimi, bəşər mədəniyyəti tarixinin iftixarlarından sayılan İslam elimləri orta əsrlərdə Yunan mədəniyyəti və fəlsəfəsi ilə birlikdə müsəlmanlar vasitəsiylə Avropa ölkələrinə ötürülmüşdür. İspaniyada (Əndəlusda) hökümranlıq edən müsəlmanlar bu elmlərin Şərqdən Avropaya yayılmasında böyük xidmət

göstərmişlər. Orta əsrlərdə meydana gələn İslam mədəniyyəti və bu mədəniyyətə xidmət edən müsəlman alimləri dünya elminə olduqca böyük töhfələr vermişlər. İstər humanitar, istərsə də dəqiq elmlər sahəsində dünya elminə yeniliklər gətirən müsəlman alimlərinin yetişməsində şübhəsiz ki, ilahi elmin qaynağı olan Qurani-Kərimin xüsusi rolu olmuşdur. Qurani-Kərimin gətirdiyi yeni din olan İslamın yaratdığı mədəniyyəti doğru anlamaq üçün ilkin olaraq onu dini nöqteyi-nəzərdən təhlil etmək lazımdır.

## Əllamə Məhəmməd Bağır Məclisinin həyatı və elmi-dini fəaliyyəti

Hədis ədəbiyyatı tarixinin ən ğörkəmli nümayəndələrindən biri XVII əsrin ensiklopedik düha sahibi Əllamə Məhəmməd Bağır Məclisidir. O, öz dövrünün məşhur mərcəi-təqlid müctəhidi Məhəmməd Tağı bin Maqsud Əli Məclisi Əvvəlin oğludur. Bəzi mənbələrə görə onun nəsli Livanın Cəbəlülamil bölgəsindən olub Şah İsmayıl Səfəvinin dövründə İrana gəlib məskunlaşmışdır.[1] Bizim fikrimizcə, bu, doğru deyildir. Çünki Əllamə Məclisinin nə özünün, nə də atasının nəsəbində “əl-Amili” nisbəsi keçmir. Əllamə Məclisinin “Məclisi” ləqəbini daşımasının səbəbi həm atasının, həm də onun evinin daim alimlər yığıncağı (məclisi) olmasına

---

Diyanet İslam Ansiklopedisi, c. XXVIII, Ankara, Diyanet Vakfı Yayınları, II baskı, 1 2000, “Meclisi” maddəsi.

görədir. Onun adı Məhəmməd Bağır, ləqəbi isə Əllamə Məclisi əs-Sanidir. O, daha çox Əllamə Məclisi adı ilə tanınır.

Əllamə Məclisi müsəlman dünyasında ən çox müraciət edilən alimlərdəndir. Alimin elm aləmindəki titullarının sırasında "Əllamə", "Xatəmül-mühəddisin", "Şeyxülislam" və s. göstərilir.[1]

Əllamə Məclisinin doğum tarixi dəqiq bilinmir. Mənbələr onun doğum tarixi kimi müxtəlif illəri göstərməkdədir. Belə ki, ərəb alimi Seyid Möhsün əl-Əmin (v.1953) yazır: "O, hicri 1027-ci (miladi 1618) ildə İsfahanda doğulmuşdur".[2] Əbdülhüseyn bin Məhəmməd Xatunabadi isə onun 1037-ci (miladi 1627) ildə doğulduğu qənaətindədir.[3] Bu fikri XX əsrin məşhur İran alimi Əli Əkbər Dehxuda da "Lüğətnamə" əsərində təsdiq etməkdədir.

Əllamə Məclisi hicri 1110-cu (miladi 1699/1700) ildə İsfahanda vəfat etmişdir.[4] Lakin bəzi müəlliflər onun vəfatının hicri 1111-ci ildə ramazan ayının 27-də (miladi 18. 03. 1700) vəfat etməsi qənaətindədirlər. Əllamə Məclisi İsfahan şəhərində öz camisində atasının yanında dəfn edilmişdir.[5]

---

[1] Seyid Möhsün Əmin, Əyanüş-şiə: 10 cilddə, c. IX, Beyrut, Darüt-təarif, 1403/1983, səh. 181

[2] Həmin mənbə, c. X, səh. 182

[3] Məhəmməd Saleh Xatunabadi, Rövzatül-cənnat, c. II, ikinci nəşri, səh. 154

[4] Seyid Möhsün Əmin, Əyanüş-şiə, c. X, səh. 182

[5] Məhəmməd Baqir əl-Xonsari, Rövzatül-cənnat: 7 cilddə, c. I, Qum, Darül-islamiyyə, 1390/1970, səh. 123

Əllamə Məclisi elmin müxtəlif sahələrinə aid çoxlu əsərlər yazmışdır. Sözsüz ki, onun qələmə aldığı əsərlərin böyük əksəriyyəti dini elmləri ehtiva etməkdədir. O, əsərlərini iki dildə-ərəb və fars dillərində - yazmışdı. Mənbələrdə onun aşağıdakı əsərlərinin adı çəkilməkdədir:

1. Biharül-ənvaril-camiəti li durəril-əimmətil-əthar.
2. Miratul-üqul fi şərhi əxbari Alir-Rəsul. "Miratül-üqul" əsəri Küleyninin "əl-Üsul minəl-kafi" əsərinə şərh olaraq yazılmışdır. Əsər iyirmi beş cilddə nəşr olunub (hicri 1401/1981 və 1409 cu illərdə Tehranda nəşr olunub).
3. Mulazil-əxyar fi şərhi təhzibül-əxbar" (1406/1985/86-ci illərdə Qumda nəşr olunub).
4. Şərhül-ərbəin.
5. əl-Fəvaidüt-tərifə fi şərhis-səhifə.
6. əl-Vəcizətu fir-rical.
7. Risalətül-itiqadat. (Əsər İsfahanda hicri 1409-cu ildə nəşr olunub).

Əllamə Məclisinin "Biharül-ənvar" əsəri hələ onun sağlığında müəllifə böyük şöhrət gətirmişdir. Əsərə yaxından bələd olan alimlər onu yüksək səviyyədə qiymətləndirmiş və haqqında tərifli sözlər demişlər.

Əllamə Məclisinin "Biharül-ənvar" əsəri bir hədis kitabı olmasına baxmayaraq, demək olar ki, bütün dini mövzularla yanaşı, bir çox dünyəvi mövzuları da əhatə etməkdədir. Çünki müəllif burada bütün dini mövzular haqqında olan hədisləri toplamış və onları dəyərləndirmişdir. Buna görə də "Biharül-ənvar" əsərində din və təbiətşünaslıq problemləri baş mövzu hesab olunur. Müəllif adı çəkilən əsərində dinin mənşəyi və

mahiyyəti, onun idrak kökü, dinin yer üzərində insanın əmələ gəlməsinə münasibəti, cinlərin və mələklərin yaradılması, kainatın əmələ gəlməsi və bir sözlə, din və təbiətşünaslıq problemlərinə aid məqamlara toxunmuş və bunları İslamdüşüncəsi çərçivəsində və elmi əsaslarla izah etməyə çalışmışdır. O, dinin necə və nə zaman əmələ gəlməsini doğru-düzgün başa düşmək və onun ictimai həyatdakı rolunu təyin etmək üçün hər şeydən əvvəl elmə müraciət etməyin zəruri olduğunu vurğulamışdır. Buna görə də müəllif əsərdə ilk öncə elmə aid xüsusi fəsil açmış, orada Qurani-Kərimin ayələrini, daha sonra isə hədisi-şərifləri yazmaqla başlamış, İslamın elmə verdiyi dəyəri ön plana çəkmişdir. Əllamə Məclisi adı çəkilən əsərində din və təbiətşünaslıq arasında olan münasibəti İslam təfəkkürü çərçivəsində işıqlandıraraq elmlə dinin arasında heç bir ziddiyyətin olmadığını, əksinə elmlə dinin vəhdət təşkil etdiyini xalq kütlələrinə göstərmişdir.

Əllamə Məclisi əsərdə yerin və göyün yaradılması haqqında böyük fəsillər açaraq əsərin 54-cü cildindən 63-cü cildinə qədər olan məlumatları tam olaraq təbiətşünaslıq problemlərinə həsr etmişdir. O, yerin və göyün yaradılmasını mütləq ilahi qüdrətə bağlayaraq[1] Onun izni olmadan heç bir varlığın yarana bilməyəcəyini qeyd etmişdir. Həmçinin o, elmin insanlara Allah tərəfindən verildiyini və onun ilahi xarakterə malik olduğunu bildirmişdir. O, hər bir səmavi dinin elm üzərində qurulduğunu, elmsiz heç bir ibadətin fayda

---

[1] Həmin mənbə, c. 54, səh. 2; c. 60, səh. 95, 130

verməyəcəyini qeyd etmişdir. Müəllif elmin təbiət və cəmiyyətin inkişaf qanunlarını üzə çıxardığını, insanı maarifləndirdiyini və onun mənəvi görüş dairəsini genişlətdiyini yazır. Elmlə yanaşı dini ideologiyanın da insanlara müsbət biliklər verdiyini, din vasitəsilə cəhalət və nadanlığın aradan götürüləcəyini və nəhayət, elmsiz insanın əşyadan da dəyərsiz bir varlıq olduğunu vurğulayan müəllif insanlara elm öyrənməyin zərurətini anlatmışdır.[1]

Əllamə Məclisinin "Biharül-ənvar" əsərində riyaziyyat elmlərinə aid bəzi problemlər də öz əksini tapmaqdadır. O, bu elmin Allah tərəfindən insanlara bir nemət olaraq verildiyini qeyd etmiş və İmam Əlinin (ə): "Hesab Allah tərəfindən insanlara verilmiş bir nemətdir" hədisini rəvayət etmişdir. Əllamə Məclisi astronomiya və riyaziyyat elmlərində mükəmməl məlumatlara malik olmuş bir alim idi. O, adı çəkilən əsərinin müxtəlif cildlərində[2] məsələ ilə əlaqəli problemləri işıqlandırmışdı.

Şübhəsiz ki, Əllamə Məclisi öz dövründə olan təbiətşünaslıq elmləri nöqteyi nəzərindən çıxış edərək bəzi nəzəriyyələr irəli sürmüşdür. Onun astronomiya və riyaziyyat elmləri sahəsindəki fikirləri alimin o dövrdə məlum olan və bu sahələrdə yazılan əsərləri dərindən mütaliə etməsindən və bu sahədə mükəmməl bilik sahibi olmasından xəbər verir. O, "Biharül-ənvar" əsərində astronomik məlumatları izah etmişdir. Müəllif Qurani-Kərimdə keçən "səma" və "ərz"

---

Həmin mənbə, c. I, səh. 150[1]

Həmin mənbə, c. 83, səh. 137-144; c. 61, səh. 270; c. 70, səh. 139; c. 82, səh. 260[2]

kəlmələrinin leksik mənasını belə izah edir: "Yer aşağı olduğuna görə ərz adlanıb. Çünki ərz sözü aşağı, alçaq mənalarındadır. Səma isə yüksək və ucalıq mənalarını ifadə edir".[1] Alim yerin və göylərin altı gündə yaradılması problemi haqqında İbn Abbasdan belə bir hədis nəql edir: "Ayədə olan altı gündə məqsəd axirət vaxtıdır".[2] Lakin müəllif bu fikri qəbul etməyərək burada dünya vaxtı olduğu qənaətindədir. Həmçinin o, Allahın bütün aləmləri bir göz qırpımında yaratmağa qadir olduğunu, lakin mələklərə ibrət olsun deyə onları tədricən yaratdığını söyləyir.[3]

Əllamə Məclisi "Biharül-ənvar" əsərində astronomiya elminin mühüm məsələlərindən olan göy cisimlərinin tərkibi, göy cismlərinin hərəkəti, ulduzların uzaqlığı və bu tədqiqatlardan əldə edilə biləcək hər hansı bir bilgi haqqında məlumat vermişdir.[4] O, günortanın yarı olması xəttini, qiblənin bilinməsi və başqa məsələləri araşdırmaq üçün astronomik və digər həndəsi cihazlardan istifadə etmişdir. O, bu elmlər sahəsinə aid bəzi problemləri o zaman daha məşhur olan qədim müsəlman və hind alimlərinin görüşləri əsasında işıqlandırmışdı. Əllamə Məclisi astronomiyaya aid problemlərə toxunan zaman demişdir: "Biz tanınmış ölkələrin dəyişmə meylinin miqdarını qeyd etdik, necə ki, tədqiqatçılar

---

Həmin mənbə, c. 54, səh. 4[1]
Həmin mənbə, c. 54, səh. 6[2]
Həmin mənbə[3]
Həmin mənbə, c. 74, səh. 76[4]

astronomiya sahəsində yazılan əsərlərə müraciət edə bilərlər. Ola bilsin ki, oxucu bi kitabda başqa şeylərə ehtiyac duysun”.[1]

Müəllif adı çəkilən əsərində günəşin əyilməsi nəticəsində namazın vaxtının müəyyən edilməsi haqqında da məlumat vermişdir. O yazır: “Burada bölgəmiz İsfahan şəhərində olan zavalın (günəşin əyilməsi) kölgəsinin miqdarını qeyd etdik. Həmçinin bu şəhərə yaxın olan bölgələrin də. Onun ərazisi $32^0$-dir və yaxudda ona yaxındır”.[2] Əllamə Məclisi din və təbiətşünaslığın kainatın əmələ gəlməsi və mahiyyəti haqqında olan məlumatları təkcə bir yerə toplamaqla kifayətlənməyib, eyni zamanda bu məsələyə də öz münasibətini bildirmişdir. O, Qurana (Bəqərə, 29) əsaslanaraq göylərin yeddi təbəqədən ibarət olduğunu,[3] bu haqda Bətlyəmusun (Ptolomeyin) “göylər doqquz təbəqədir” dediyi fikrinin yanlış olduğunu vurğulamışdır.[4] Müəllif Əllamə Suyutinin “əd-Durrul-Mənsur” əsərində rəvayət olunan “yerlə göyün və hər göyün bir-birləri ilə olan ara məsafələri beş yüz min illik məsafə qədəridir” hədisinə də münasibətini gizlətməmişdir.[5] Həmçinin o, qədim astronomların yerin bütün kainatın mərkəzi olduğunu və hərəkətsiz vəziyyətdə qaldığını görüşünü də qəbul etməyərək yer kürəsinin hərəkətdə olduğu fikrini təsdiqləmişdir.[6] O, əsərində Yerin günəş ətrafında orbita üzrə hərəkət etməsi, onun günəş ətrafında tam bir il müddətində hərəkət etməsi,

---

Həmin mənbə[1]
Həmin mənbə, c. 82, səh. 371[2]
Həmin mənbə, c. 54, səh. 1[3]
Həmin mənbə, c. 54, səh. 5[4]
Həmin mənbə, c. 55, səh. 98[5]
Həmin mənbə, c. 54, səh. 8[6]

günəş və ayın da hərəkətdə olması fikrini qeyd etmişdir.[1] O, Allahın yer kürəsini yaradaraq onun üzərində insanların yaxşı yaşamasını, günəşin yeri qızdırması, ayın qaranlıq gecələri işıqlı etməsi və ulduzların isə vaxtı təyin etmək üçün yaradıldığını vurğulamışdı.[2] Həmçinin o, yerin əzəli deyil, Allah tərəfindən sonradan yaradıldığı fikrini təsdiq edib bunu fəlsəfi dəlillərlə də əsaslandırmağa çalışmışdır.[3]

Müəllifin əsərdə münasibət bildirdiyi məsələlərdən biri də təbiətşünaslığın ən mühüm problemlərindən biri olan yer üzündə insanın yaradılması problemidir. Bu haqda o, yazır: "Yer üzü bom-boş idi. Orada heç bir kimsə belə yox idi. Bu zaman Allah mələklərə: «Mən yer üzündə xəlifə yaradacağam» dedi. Bunun üçün O, Cəbraili (ə) yer üzünə göndərib onun müxtəlif şirin və şoran torpaqlarından götürməsini və insanın indiki şəklindəki kimi yoğurmasını əmr etdi. Cəbrail (ə) əmri yerinə yetirdikdən dərhal sonra Allah ona öz ruhundan üfürdü və beləliklə, ilk insan Adəm (ə) yarandı. Adəm (ə) yer üzünün torpağından yaradıldığı üçün (ədimul-ərz) belə adlandırılmışdı.[4]

Əllamə Məclisi gecə və gündüzün yaranma səbəbləri və s. haqqında məlumatlar vermişdir. O, gecə və gündüz saatlarının iyirmi dörd saat olduğunu qeyd etmişdir.[5]Hətta o,

---

Həmin mənbə, c. 54, səh. 216[1]
Həmin mənbə, c. 54, səh. 11-15[2]
Həmin mənbə, c. 54, səh. 225[3]
Həmin mənbə, c. 54, səh. 94[4]
Həmin mənbə, c. 56, səh. 1[5]

qədim ərəblərin gecə və gündüzün hər saatına xüsusi adların verdiyini də əsərdə qeyd edib.[1]

Beləliklə, Əllamə Məclisi "Biharül-ənvar" əsərində günəş sistemini, onun hərəkət və inkişaf qanunauyğunluqlarını, yerin və göylərin yaranması, gecə və gündüzün bir-birini əvəz etməsi və nəhayət yer üzərində həyatın əmələ gəlməsi problemlərini dinə və elmi nailiyyətlərə əsaslanaraq şərh etməyə çalışmışdır. İndi onun dövründən 300 ildən artıq vaxt keçmiş, göy cismlərini, yerdə həyatın əmələ gəlməsini və s. problemləri öyrənmək üçün yeni və daha təkmil cihazlar ixtira olunub, nəzəriyyələr irəli sürülmüşdür. Məsələn, Əllamə Məclisinin ölümündən təxminən 160 il sonra göy cisimlərinin tərkibini öyrənmək üçün 1858-ci ildə spektroskop adlı cihaz kəşf edildi. Spektroskopun astronomiya elmində kəşf edilib tətbiq edilməsi günəş, ulduzlar, planetlər və s. göy cisimlərinin tərkibində hansı maddələrin olduğunu öyrənməyə imkan verdi.

Əllamə Məclisinin "Biharül-ənvar" əsərində təbiətşünaslıq problemləri haqqında dediyi ayələr, hədislər və fikirlər kainat və onun qurluşu haqqında olan elmi məlumatlarla uyğun gəlir. O, ən azından bu dedikləri ilə sübut etmişdir ki, maddi olan bu aləmlərin hamısı ilahi qüdrətlə yaranıb və onunla da idarə olunur.

Əllamə Məclisinin "Biharül-ənvar" əsərində diqqəti çəkən məqamlardan biri də İslam fəlsəfəsi məsələsidir. O, bu əsərində bəzən fəlsəfi bəhslər açmış və materialistləri tənqid

---

Həmin mənbə, c. 56, səh. 7[1]

atəşinə tutmuşdur. O, Allahın varlığının isbatı, ağılın mahiyyəti, ruhun ölməzliyi, peyğəmbərlik missiyasının hikməti, vəhyin mahiyyəti, əxlaqın tərifi qəbir haqq-hesabı və s. bu kimi problemlərin çözülməsində hədislərə söykənən mühüm fəlsəfi fikirlər söyləmişdir. Həmçinin o, yuxarıda izah etdiyimiz "Dəhrilər", "Təbiətçilər" və bu kimi İslam dünyasında ortalığa çıxmış materialist fikirlərə tutarlı fəlsəfi cavablar vermişdir. O, adı çəkilən əsərinin müxtəlif yerlərində "Dəhrilərə" və "Təbiətçilərə",[1] Allahın birliyini inkar edənlərə,[2] Qəza və Qədər haqqında,[3] Cəbr və Təfviz (fatalizm və özbaşnalıq)[4] və digər İslam fəlsəfəsinə aid olan problemləri çözmüşdür. O, fəlsəfi dünyagörüşündə İbn Sinanın yolunu izləyənlərdəndir. Əllamə Məclisinin İbn Sina fəlsəfəsinin təsirində qalmasının başlıca səbəbi isə onun ustadı Molla Feyz Kaşaninin, onun da ustadı Molla Sədranın ona təsir etməsi olmuşdur.

Əllamə Məclisi "Biharül-ənvar"ın müqəddiməsində kiçikliyindən bəri elmə büyük bir maraq duyduğunu, uzun iş və araşdırmalardan sonra doğru məlumatın Allahın kitabında və Onun vəhyinin açıqlayıcıları olan Peyğəmbərin (s) və imamların (ə) xəbərlərində olduğu nəticəsinə çatdığını, yaşadığı dövrdəki bir çox kimsənin əksinə bütün səylərini həqiqətlərin təməli olan bu xəbərlərin araşdırılmasına

---

Həmin mənbə, c. 6, səh. 331[1]
Həmin mənbə, c. 2, səh. 230[2]
Həmin mənbə, c. 11, səh. 89[3]
Həmin mənbə, c. 5, səh. 82[4]

yönəltdiyini ifadə edir. Beləcə o, əsərini müxtəlif mövzulardakı dağınıq rəvayətlərin bir yerə toplanılmasını və hər kəsin bunları asanca taparaq faydalanmasını arzulamaq düşüncəsiylə yazdığını izah edir. O, əsəri yazmağa başlayarkən ilk öncə ona müqəddimə yazmış və həmin müqəddimədə Allahı, Peyğəmbəri (s) və məsum imamları (ə) orada vəsf etmişdir. Bu barədə o, yazır: "Allahın fəzilətindən umuram ki, İmam Mehdinin (ə) qiyamına qədər bu kitabımı fəzilətli insanlar üçün qaynaq, İmamların (ə) elmlərini istəyən hər kəs üçün bir mənbə, tənə vuranların danlağ və tənələrindən uzaq, mənim üçün isə qiyamət günü bir kölgəlik qərar versin..".[1]

Əllamə Məclisi mənbələrdən istifadə edərkən onların dəqiqləşdirilməsi üzərində çox çalışmışdır. O, əsərin müqəddiməsində ikinci fəsilə "istifadə olunmuş kitabların sağlam və güvənilən hala salınması" adı vermiş və burada istinad etdiyi mənbələri necə təshih etdiyi haqqda məlumat vermişdir.[2]O, "Kütubu-ərbəa"nın heç bir təshihə ehtiyac olmadığını, əsrlərdir ki, alimlərin ona etimad etdiyini deyərək, bununla yanaşı Şeyx Səduqun bir çox əsərlərini də bu qurupdan olduğu qənaətindədir. Lakin bunlara baxmayaraq onun "əl-Amali", "əl-Xisal" və "Kitabu əxbarir-Rza" əsərlərini isə təshih etdiyini yazır.[3]

Əvvəlki fəsillərdə də qeyd etdiyimiz kimi, Əllamə Məclisi "Biharül-ənvar" əsərinin 54-cü cildində kainatın xəlq edilməsi haqqında xüsusi fəsillər açmış və burada yerlərin, göylərin və digər varlıqların yaradılışı haqqında Quran-kərim

---

Həmin mənbə, c. VI, səh. 6[1]
Həmin mənbə, c. 18, səh. 26, 29[2]
Həmin mənbə, c. 14, səh. 26, 29[3]

və hədisi-şəriflər çərçivəsində məlumatlar vermişdir.[1] O, mövzunun elmi təhlilini verməmişdən qabaq bu haqda ayələri, daha sonra isə hədisi-şərifləri qeyd etmişdir. Bundan sonra isə ayə və hədislərdə keçən bəzi sözləri lüğətşünaslıq baxımından izah etmiş və daha sonra isə mövzunun elmi təhlilinə başlamışdır. Əlbbətə, burada xüsusi şəkildə qeyd etmək lazımdır ki, artıq Əllamə Məclisinin vəfatından 300 ildən artıq vaxt ötmüşdür. Son üç yüz il ərzində təbiətşünaslıq elmlərdə olan inkişaflar hər bir kəsə bəllidir. Buna görə də Əllamə Məclisinin adı çəkilən əsərindəki bəzi elmi görüşlər öz əhəmiyyətini itirmiş olur. Lakin buna baxmayaraq onun dövrünə qədər olan bəzi elmi məlumatlarla da tanış olmağın xüsusi əhəmiyyəti ola bilər.

Qeyd olunduğu kimi, müəllifimiz adı çəkilən əsərinin 54-cü cildindən 63-cü cildinə kimi olan məlumatları, daha doğrusu topladığı ayə və hədisləri sırf təbiətşünaslıq elmlərinə həsr etmişdir. O, əsərin 54-cü cildində I fəsilə "Aləmin xəlq edilməsi" adını vermiş və buraya ilk olaraq Qurani-Kərimin "əl-Bəqərə" ayə 29, "əl-Ənam" ayə 1, "əl-Əraf" ayə 4, "Yunus" ayə 3, "Hud" ayə 7, "əl-Fürqan" ayə 59 və digər surələrin müvafiq ayələrini toplamışdır. Ayələri qeyd etdikdən sonra o, bu ayələrə qısa təfsir vermiş və təfsirində daha çox bu ayələrin insanlara Allahın qüdrətinin xatırlandığını, hər bir varlığın yalnız və yalnız onun qüdrəti sayəsində yaradıldığını önə çəkmişdir. Həmçinin müəllif qeyd olunmuş ayələrə

---

Həmin mənbə, c. 54, səh. 2-5[1]

verdiyi təfsirində insanların dünyaya çox meyl etməməsi, dünya ləzzətləri müqabilində axirət dünyalarını puç etməmələrini vurğulamışdır. Müəllifin ilkin olaraq bu qənaətlərə gəlməsi qeyd olunmuş ayələrin məntiqi mənaları ilə də üst-üstə düşməkdədir. Çünki Uca Rəbbimizin bu ayələri endirməsində əsas məqsədlərindən biri yuxarıda da qeyd etdiyimiz kimi, insanları düşünməyə vadar etməsidir, yoxsa Qurani-Kərim bir təbiətşünaslıq kitabı deyildir.

Əllamə Məclisi adı çəkilən əsərində Allah tərəfindən ilk öncə nəyin yaradılması üzərində dayanmış və bu haqda müxtəlif hədisləri qeyd etmişdir. O, Cəlaləddin Süyutinin (öl.1505) "əd-Dürrul-mənsur" əsərinə (c. VI, səh. 13) istinadən Allah tərəfindən ilk yaradılan məxluqun qələm olduğunu bildirmişdir. İbn Abbasdan gələn həmin hədisdə deyilir:

وعن ابن عباس قال: إن أول ما خلق الله من شئ القلم، فأمره أن يكتب ما هو كائن إلى يوم القيامة والكتاب عنده قرأ (وإنه في ام الكتاب لدينا لعلي حكيم).

"Allahın ilk yaratdığı şey qələmdir. Çünki onun vasitəsilə qiyamətədək olacaqları yazmışdır.".[1]

Müəllif kainatın yaradılması haqqında danışarkən, ayədə keçən "**səma**" sözünü lüğətşünaslıq baxımından təhlil etmiş və bunun üçün görkəmli ərəb leksikoqrafı Rağib əl-İsfahaninin "Müfrədati əlfazil-Quran" əsərinə istnadən yazmışdır: "Səma sözü "sümuvv" kökündən alınmış və lüğətdə "ucaldılmış" mənasını ifadə edir. Daha sonra isə o, bu sözü ərəb

---

Həmin mənbə, c. 54, səh. 372[1]

qrammatikası nöqteyi-nəzərindən izah edərək onun qadın cinsində olduğunu qeyd etmişdir.[1]

Müəllifin burada qeyd etdiyi maraqlı məqamlardan biri budur ki, o qədim astronomiyada məşhur olan göyün doqquz təbəqədən ibarət olması fərziyyəsini də mənasız saymışdır. O, ayədə qeyd olunmuş **"yeddi qat göy"** ifadəsini dəlil gətirərək, qədim astronomların bu barədəki fikirlərini əsassız adlandırmışdır. Həmçinin o, bu fərziyyələrin Bətlyəmusa (Ptolomeyə) aid olduğunu da vurğulamışdır.[2] Əlbəttə ki, müəllif bu fərziyyələri puç adlandırmaqda bir neçə dəlil də irəli sürmüşdür.

Yuxarıda qeyd edilmiş ayələrdə yerlərin və göylərin altı gündə xəlq edildiyini görürük. Burada keçən "gün" kəlməsi haqqında təfsir və hədis kitablarında müxtəlif fərqli görüşlərin və hədislərin olmasına baxmayaraq, Əllamə Məclisi qətiyyətlə bu fikrin üzərində dayanır ki, burada məqsəd dünya vaxtı ilə ölçülən zaman ölçüsüdür. O, İbn Abbasın ayəyə verdiyi təfsirlərin birində "altı gün axirət vaxtı ilədir və hər bir gün axirət ölçüsü ilə min ilə bərabərdir" sözünün əsassız olduğunu, bu hədisin ayənin zahiri mənası ilə də uyğun gəlmədiyini vurğulamışdır.[3] Onun yerlərin və göylərin altı gündə xəlq edilməsinə olan münasibətindən biri də budur ki, Allah

---

Həmin mənbə, səh. 5[1]
Həmin mənbə, səh. 6[2]
Həmin mənbə, səh. 7[3]

istəsəydi, bir göz qırpımında da bunları yaradardı. Lakin o, bununla insanlara ibrət verir ki, öz işlərində tədrici olsunlar.

Əllamə Məclisi ayədə keçən **“altı gün”** ifadəsini Fəxrəddin Razinin “Məfatihül-qeyb” əsərində “əs-Səcdə” surəsinə verdiyi təfsirə istinadən yazırdı: “Allah taala peyğəmbərlikdən bəhs etdikdə, peyğəmbərin tövhidə çağırma və dəlil gətirmə barəsində üzərinə düşən vəzifələri də bəyan etmək üçün **“Allah göyləri və yeri yaradandır”** – deyə buyurmuşdur. Ayədəki **“alt gündə”** kəlməsinin düşünən kəslərə görə, altı vəziyyətə işarə olduğunu daha əvvəl (“Əraf” surəsində də) söyləmişdik. Bu belədir. Çünki **“göylər”**, **“yerlər”** və **“bunların arasında”** ifadələri üç ayrı şeydir. Bunların hər biri üçün şəxs və sifətlərdən söz gedir. O halda Allahın göyləri yaratması bir hal, onun əlamətlərini yaratması başqa bir haldır. Yenə yeri yaratması bir hal, əlamətlərini yaratması başqa bir haldır. Həmçinin Allahın bunların arasında olan şeyləri yaratması bir hal, onların əlamətlərini yaratması başqa bir haldır. Beləcə, bu üç şey, altı hal üzrə olan altı şey olmuş olur. Allah burada **“gün”** sözündən istifadə etmişdir. Çünki insan Allahın yaratmasına baxıb onu düşündüyündə bunu bir hərəkət olaraq görür. Hərəkətin zərfi isə zamandır. Günlər də zamanların ən məşhurudur. Əgər ayənin mənası belə qəbul edilməzsə onun mənası da aydın olmayacaqdır. Çünki göylər yaradılmamışdan əvvəl gecə və gündüz deyə bir şey yox idi. Bu eynilə birinin bir başqasına “Sənin doğulduğun gün mübarək bir gün idi” deməsinə bənzəyir. O kimsənin gecə doğulması da mümkündür. Onun gecə doğulması bu sözlə

nəzərdə tutulan mənadan xaric deyil. Çünki bu kimsənin nəzərdə tutduğu xüsus, o kimsənin doğumunu içinə alan zaman kəsiyidir”.[1]

Əllamə Məclisi “dünya” sözü haqqında da maraqlı açıqlamalr etmiş, sözün etimoloji mənalarını izah etməyə çalışmışdır. O, adı çəkilən əsərində Şeyx Səduqun “əl-İləl” əsərinə (c. I, səh. 2) istinadən belə bir hədis nəql etmişdir:

عن علي بن أحمد بنمحمد، عن محمد بن يعقوب، عن علي بن محمد، بإسناده رفعه قال: أتى علي بن أبيطالب عليه السلام يهودي فسأله عن مسائل، فكان فيما يسأله لم سميت الدنيا دنيا؟ ولم سميت الآخرة آخرة، فقال عليه السلام: إنما سميت الدنيا دنيا لانها أدنى من كل شئ، وسميت الآخره آخرة لان فيها الجزاء والثواب.

“Bir yəhudi İmam Əlinin (ə) yanına gəlib ondan bir neçə məsələ haqqında sual soruşdu. Soruşduğu suallardan biri bu idi ki, nə üçün dünya dünya, axirət də axirət adlanır? İmam (ə) onun sualının cavabında buyurdu: “Dünya hər bir şeydən aşağı olduğu üçün dünya, axirət də orada savab və cəzaların veriləcəyi üçün axirət adlanmışdır”.[2]

Bundan başqa o, dünya sözünün “dünv” kökündən yarandığını və lüğətdə “yaxın” mənasını bildirdiyini, həmçinin Qurani-Kərimin ayəsində[3] də bu mənada istifadə edildiyini

---

[1] Həmin mənbə, səh. 9. Fəxrəddin Razinin “Məfatihül-qeyb” (c. VI, səh. 751, “əs-Səcdə” surəsi) əsərinə istinadən

[2] Əllamə Məclisi, Biharül-ənvar, c. 54, səh. 356

[3] Rəd surəsi, ayə 21

qeyd etmişdir. Müəllif dünya sözünün “alçaq” mənasında olduğunu və bunun da təhqiramiz bir söz olduğunu, yəni dünyaya bağlı olanların dünya tərəfindən həmişə rəzil edildiklərini də önə çəkmək istəmişdir.[1]

Müəllif adı çəkilən əsərinin 55-ci cildində “Səmalar, onların keyfiyyəti və sayları” adlı xüsusi fəsildə (8-ci fəsil) səma ilə əlaqəli bütün ayələri, sonra da mövzuya aid hədisləri bir araya toplamışdır. Onun burada toxunduğu incə məqamlardan biri də göylərin stunsuz halda ucaldılması məsələsidir ki, buna da müəllif hədislər vasitəsilə aydınlıq gətirmişdir. O, yazır: “Qurani-Kərimin “Rəd” surəsində (ayə 2) buyurduğu: **“Göyləri, gördüyünüz kimi dayaqsız olaraq yüksəldən, sonra ərşi yaradıb hökmü altında alan müəyyən vaxtda** (qiyamətə) **qədər** (səmada) **dolanan Günəşi və Ayı** (iradəsinə) **tabe edən, bütün işləri yoluna qoyan, ayələri müfəssəl izah edən məhz Allahdır.** (Bütün bu dəlillərdən sonra), **Rəbbinizlə qarşılaşacağınıza** (qiyamət günü dirilib haqq-hesab üçün hüzurunda duracağınıza), **bəlkə, inanasınız!**” ayəyə verdiyi izahda arada sütunların olduğunu, lakin bizim onları adi gözümüzlə görmədiyimizi aşkar şəkildə bəyan edir”.[2] Yəqin ki, müəllif bu şərhi İmam Rzadan (vəf. 818) nəql olunan bir hədisə istinad etməsidir. Çünki bu ayənin şərhi barədə İmam Rzadan (ə) soruşdular. İmam (ə) onlara dedi: “Allah deyirmi “**Göyləri dayaqsız olaraq yüksəldən**”? Dedilər:

---

Əllamə Məclisi, Biharül-ənvar, c. 54, səh. 357[1]
Həmin mənbə, c. 55, səh. 67[2]

-Bəli.İmam (ə) dedi:

-Sütunlar var, lakin siz olnları görmürsüz”.

İmamın (ə) cavabından məlum olur ki, **“gözə görünməz sutun”** dedikdə, məhz cazibə güvvəsi nəzərdə tutulmuşdur. Çünki bu qanunu o vaxtki avam cammata açıq şəkildə bəyan etmək mümkün deyildir. Qurani-Kərim isə bu qanunu sadə yolla insanlara çatdırmışdır.

Əllamə Məclisi “Biharül-ənvar” əsərində (c. 56, 23-cü fəsil) mələklər haqqında geniş bəhs etmişdir. O, mələklərin təsnifatı haqqında yazırdı: “Mələklər aşağıdakı qruplara bölünürlər:

1.Kəribiyyun və ya aliyyun dəstəsinə aid mələklər.

Bu dəstəyə aid olan mələklər Haqqın substansiyasına vurğun olar, Onun cəlal və camal sifətlərinin seyrinə qərq olarlar. Onlar nə özlərinə, nədə başqalarına diqqət yetirməz, yalnız Allahı anarlar. İmam Cəfər Sadiq (ə) bu mələklər haqqında belə buyurur: “Kəribiyyun dəstəsinə aid mələklər Allahın yaratdığı ilkin varlıqlardandır. Onlar ərşin arxasında yerləşərlər. Bu mələklərdən bircəsinin işığı yer üzərindəki varlıq aləmi arasında paylanarsa, onların hamısına bəs edər”.

İmam Sadiq (ə) sonra belə davam edir:

“Musa (ə) öz istədiyini Allahdan xahiş etdikdə, Allah bu mələklərdən birinə əmr etdi ki, təcəlli etsin. Həmin mələk Tur dağına təcəlli etdi və dağ parçalandı”.

Bu hədis Quran ayəsində Musanın (ə) Tur dağında Allaha müraciətini və təcəlli məqamını izah edir”.[1]

Bu dərəcədə olan mələklər qeyd etdiyimiz kimi, Allahdan başqa heç bir varlıq haqqında düşünməz və hətta Allahın Adəmi (ə) və kainatı yaratdığını belə bilməzlər. Bunu Əllamə Məclisi belə nəql edir: “Aliyyin dəstəsindən olan mələklər Allahdan savayı başqa şeylərə diqqət yetirməzlər. Onlar Adəmə (ə) səcdə etməyə göndərilməmişlər. Onlar Allahın Adəmi (ə) və dünyanı yaratdığını da bilmirlər”.[2]

2.İbadət edən mələklər.

3.İşgüzar mələklər.

Biz Qurani-Kərimdən şeytanın və bilavasitə cinlərin atəşdən, insanın da torpaqdan yaradıldığını öyrənirik. Amma mələklərin nədən yaradıldıqlarını dəqiq öyrənə bilmirik. Onların nurdan yaradıldıqları ancaq hədislərdə və bəzi təfsir kitablarında qeyd edilmişdir. Bu haqda Əllamə Məclisi İmam Cəfər Sadiqin (ə) belə buyurduğunu nəql edir: “ إن الله عزوجل خلق الملائكة من نور – Allah mələkləri nurdan yaratmışdır”.[3]

---

Əllamə Məclisi, Biharül-ənvar, c. 56, səh. 184[1]
Həmin mənbə[2]
Həmin mənbə, c. 56, səh. 191[3]

Daha sonra müəllif mələklərin bir qisminin adlarını və vəzifələrini, Cəbrayılın (ə) vəhyə, İsrafilin (ə) suru üfürməyə, Əzrayılın (ə) can almağa, Mikayılın (ə) təbiət hadisələrinə, Malikin (ə) cəhənnəmin, Rizvanın (ə) isə cənnətin gözətçisi olduqlarını, bunlardan başqa Ərşi daşıyan mələklərin, qəbirdəki sorğu-suala Nəkir (ə) və Münkir (ə) adlı iki mələyin, insanların əməllərini yazmaq üçün sağ və sol çiyinlərdə oturan mələklərin olduğunu da əsərində qeyd etmişdir.[1]

Mələklərin insan və cindən fərqləri budur ki, yeyib-içmək, nəsil vermək, cins növünə malik olmaq xüsusiyyətləri yoxdur. Onlar mükəmməl yaradılan varlıqlardır. Biz mələklərin maddə və kainatın hansı mərhələsində yaradıldıqlarını bilmirik. Mələklər ilk ağıllı yaradılan varlıqdırlar. İnsanlar isə yaranış baxımından cinlərin ardından sonrakı mərhələni təşkil edirlər. Mahiyətini bilmədiyimiz mələklər və cinlər haqqında Qurani-Kərimdə bir çox ayə vardır ki, bunların da bir hissəsini yuxarıda qeyd etdik.

Cinlərin bizim dünyamızın ilk şəraiti içərisində yaradılmalarına baxmayaraq, mələklər bu yer kürəsinin maddələrindən yaradılmamışlar.

Əllamə Məclisi mələklərin sayının yalnız və yalnız Allah tərəfindən bilindiyini, onların sayının son dərəcə çox olduğunu, hər bir mələyin özünəməxsus şəkildə işlərinin

---

Həmin mənbə, c. 56, səh. 193[1]

olduğunu da qeyd etmişdir.[1] O, bir şəxsin İmam Əlidən (ə) "Allahın yer üzündə Adəmdən (ə) qabaq ona ibadət edəcək varlıqlar yaratmışdırmı?" sualına, İmamın (ə) belə cavab verdiyini yazır: "Bəli. Yer üzünü yaratmamışdan əvvəl göyləri yaratmış, sonra mələkləri yaratmışdır. Mələklər qanadlı məxluqlardır. Onlar göyün müxtəlif təbəqələrində məskunlaşmışlar və gecə-gündüz Allahı zikr etməklə məşğuldurlar. Onların içindən İsrafili, Mikayılı və Cəbrayılı seçmişdir. Allah bundan sonra yeri yaratmışdır. Orada cinləri xəlq etmiş və onlara da qanadlar vermişdir. Amma onlar mələklərin yaradıldığı maddədən yaradılmamışlar. Allah cinləri yerin müxtəlif təbəqələrində məskunlaşdırmışdır. Onlar da orada Allaha zikrlər deməklə məşğuldurlar. Bundan sonra isə bunlara bənzəməyən, bədənləri, ruhları, qanadsız və yeyib-içən cinlər yaratmışdır.. Sonra bunların bəziləri Allahın əmrindən çıxmış, bir-birlərinin qanlarını tökmüş və fəsad yaratmışlar..".[2]

Müəllif "Mələklərin həqiqəti, onların əlamətləri və işləri" haqqında xüsusi fəsildə mövzu ilə əlaqəli bütün problemləri incələməyə çalışmışdır. İlk öncə mələklər haqqında olan "əl-Bəqərə", 30-34, 97-98, 234, "Ali-İmran" 18, 39, 42, 45, "əl-Ənam", 61, 93, 98, 158, "ər-Rəd", 11, 13 və digər bütün ayələri bir araya toplayan müəllif, daha sonra onları öz adəti üzrə təhlil etmişdir. O, mələklərin adi insanlar tərəfindən görünməsinin qeyri-mümkün olduğunu, lakin Allahın izni ilə onların istədikləri zaman insan şəklində və ya öz həqiqi

---

Həmin mənbə, c. 54, səh. 319[1]
Həmin mənbə, c. 54, 322-323[2]

surətlərində görünə biləcəklərini də əsərində qeyd etmişdir. Buna misal olaraq Cəbrayılın (ə) Peyğəmbərimizə (s) Dihyə əl-Kəlbinin surətində göründüyünü, İbrahim (ə) və Lut (ə) peyğəmbərin mələklərdən ibarət qonaqlarını dəlil olaraq göstərmişdir.[1] Bundan başqa qəbirdə möminlərdən Bəşir və Mübəşşir, kafir və günahkarlardan isə Nəkir və Münkir adlı iki mələyin insandan sorğu-sual edəcəklərini və bu zaman onların insana görünəcəklərini də qeyd etmişdir.[2]

Mələklərlə bağlı məlumatlardan biri də onların Allahın əmrlərinə tam itaətkar olmaları, heç vaxt günaha, Allaha qarşı üsyana qalxmayacaqlarıdır. Həmçinin mələklərin bir-birlərini əvəz etdikləri, gecə və gündüz mələklərinin olduğunu, növbə ilə insanların əməllərinə nəzarət etdikləri də əsərdə vurğulanmışdır.[3]

Müəllif qoruyucu (mühafizə) mələklərinin olduğunu, onların insanların həm əməllərini, həm də onların özlərini cinlərdən və digər məxluqlardan qoruduqlarını da hədislərə əsasən əsərində qeyd etmişdir. O, Kəbə istinadən yazırdı: "Əgər mühafizə mələkləri olmasaydı, cinlər sizin yemək-içməklərinizə ... sahib olardılar".[4]

Mövzu ilə əlaqəli diqqəti çəkən məsələlərdən biri də insanların sağ və sol çiyinlərində mələklərin oturması,

Həmin mənbə, c. 56, səh. 149[1]
Həmin mənbə, c. 56, səh. 212[2]
Həmin mənbə, c. 56, səh. 150-151[3]
Həmin mənbə, c. 56, səh. 151[4]

insanların gün ərzində etdikləri savab və ya günahların onlar tərəfindən yazılmasıdır. Bu haqda müəllif Fəxrədin Raziyə istinadən yazırdı:

“Peyğəmbərə (s) deyildi:

-Bizə bəndəyə neçə mələyin təyin olunması haqqında xəbər ver. Peyğəmbər (s) buyurdu:

-Sağ çiynində olan mələk savab işləri yazır. Bir savab etsən, o, on savab yazacaq. Günah iş görsən, sol tərəfində əyləşən mələyə deyər: “hələ yazma, ola bilsin ki, tövbə edəcək” deyər..”.[1]

Müəllif mələklərin oddan yaradıldığını İmam Cəfər Sadiqdən (ə) nəql olunmuş hədisə əsasən qeyd edib. Həmin hədisdə deyilir: “Allah mələkləri oddan (nurdan) xəlq etmişdir”.[2]

Daha sonra o, mələklərin yeyib-içməmələri və evlənməmələri haqqında aşağıdakı hədisi nəql etməkdədir. Hədisdə deyilir: “İmam Cəfər Sadiqdən (ə) soruşuldu:

-Mələklər necə yeyib-içir və evlənirlər? İmam (ə) buyurdu:

-Xeyr! Onları Ərşin nəsim (küləyi) ilə yaşayırlar. Dedilər:

-Onların yuxusu haqqında nə deyə bilərsiniz? İmam (ə) buyurdu:

---

Həmin mənbə, c. 56, səh. 151-152[1]
Həmin mənbə, c. 56, səh. 191[2]

-Onlarla Allah arasında fərq vardır. Allah nə mürgüləyər, nə də yuxulayar”.[1]

Müəllif əsərində cəhənnəm mələyinin adının Malik, cənnət mələyinin adının isə Rizvan olduğunu da qeyd etmişdir.[2]

Mələklərin mahiyyətini dinşünaslıq baxımından ayə və hədislər çərçivəsində izah edən Əllamə Məclisi daha sonra mövzunu filosofların baxışları əsasında da izah etməyə çalışmışdır. O, filosofların mələklər haqqında olan fikirlərini belə yekunlaşdırmışdır: “Mələklər ağıl sahibi olan və kainatın mücərrəd varlıqlardır..”.[3]

Əllamə Məclisinin mələklər haqqında verdiyi maraqlı məlumatlardan biri də adları məlum olan bəzi mələklərin adlarının yazılış forması və mənalarıdır. Belə ki, o, Cəbrayıl (ə) adının ona yaxın (جبرئيلجبرئلجبريلجبرالجبرائيلجبراعيلجبراعل) yazılış formasının olduğunu, “Allahın qulu” mənasını verdiyini də əsərində qeyd etmişdir.[4]

Cin sözünün mənası “gizli, örtülü” deməkdir. Onların yarandığı maddə haqqında Qurani-Kərim belə bəyan edir: **“وَخَلَقَ الْجَانَّ مِنْ مَارِجٍ مِنْ نَارٍ** - (Cinlərin əcdadı) **cannı da tüstüsüz** (təmiz) **oddan O xəlq etdi”.**[5]Burada xüsusi şəkildə

Həmin mənbə, c. 56, səh. 193[1]
Həmin mənbə, c. 56, səh. 193[2]
Həmin mənbə, c. 56, səh. 204[3]
Həmin mənbə, c. 56, səh. 222[4]
Rəhman surəsi, ayə 15[5]

xatırlatmaq istəyirik ki, ayədə nəzərdə tutulmuş **“od”** ifadəsi adi bizim başa düşdüyümü od mənasında deyil. Burada söhbət xüsusi oddadn gedir ki, onun da mahiyyətini yalnız Allah taala bilir.[1]

Cinlərin insanlarla olan münasibətlərinə gəldikdə, ümumilikdə onların insanlara zərəri yoxdur. Cinlər dünyanın imkanlarını insanlarla paylaşmadıqlarından onlarla insanlar arasında keçmişdə bir döyüş olmadığı kimi, gələcəkdə də belə bir şeydən söz gedə bilməz. Bununla bərabər Qurani-Kərimdə onlardan gələ biləcək pis fikir və zərərli xəyallara qarşı insanların diqqəti çəkilərək bundan Allaha sığınılması istənmişdir.

Qurandan başa düşüldüyünə görə, cinlər kainatın təhlükəsiz yerlərində gəzib otura bilirlər. Bunu Qurani-Kərim belə bəyan edir:

**وَأَنَّا لَمَسْنَا السَّمَاء فَوَجَدْنَاهَا مُلِئَتْ حَرَساًشَدِيداً وَشُهُباً. وَأَنَّا كُنَّا نَقْعُدُ مِنْهَا مَقَاعِدَ لِلسَّمْعِ فَمَنيَسْتَمِعِ الْآنَ يَجِدْ لَهُ شِهَاباً رَّصَداً.**

“**Biz** (cinlər yuxarı aləm əhlinin söhbətinə oğrun-oğrun qulaq asmaq üçün) **göyə qalxmaq istədik** (səmanı yoxladıq), **amma onun** (mələklərdən ibarət) **güclü gözətçilər və yandırıb-yaxan** (axan) **ulduzlarla dolu olduğunu görürük. Biz** (Məhəmməd əleyhissəlamın peyğəmbər göndərilməsindən əvvəl mələklərin söhbətinə) **qulaq asmaq üçün** (göyün) **bəzi yerlərində otururduq. Lakin indi kim** (onların söhbətinə)

---

[1] Bax: Abdulla Nəsri, Quranda dünyaşünaslığın əsasları, Bakı, Qələm nəşriyyatı, 2003, səh. 188

**qulaq asmış olsa, yandırıb-yaxan bir ulduzun onu gözlədiyini görər".**[1]

Lakin əslində bizim dünyamızın səssiz və zərərsiz sakinləri olan cinlər haqqında çox şey demək imkanına sahib deyilik. Yalnız bunu deyə bilərik ki, biz cinlərlə və hətta bəzi mələklərlə bir yerdə yaşayırıq.

## İnsanın (Həzrət Adəm və Həvvanın) yaradılması

Beləliklə, yer üzərində həyatın əmələ gəlməsi haqqında ən düzgün və ən dolğun məlumatı müqəddəs dinimiz olan İslamın əsas mənbələrindən öyrənirik ki, bu öyrəndiklərimiz də heç şübhəsiz ki, bir azdan sonra izah edəcəyimiz müasir elmi nailiyyətlərlə tam uyğundur.

İslama görə Allah ilk insan olan həzrət Adəmi (ə) torpaqdan yaratmış və ona öz ruhundan üfürərək can vermişdir. Beləcə insan fiziki varlığı ilə dünya həyatına, ruhi varlığı ilə də mənəvi aləmə uyğun bir formaya sahib edilmişdir. Ona verilən ağıl, iradə, hafizə, səbir, qəzəb kimi duyğu və bacarıqlarla uca Allahın dəyər verdiyi bir varlıq olan insan olmuşdur. İnsana eyni zamanda "Allahın xəlifəsi" adı da ona məhz uca Rəbbimiz tərəfindən verilmişdir. İnsan gözəl bir şəkildə yaradılmış və ona insanlıq dəyəri verilərək eyni zamanda məsuliyyət əmanəti ilə də cavabdeh qılınmışdır. Bu mənada insanın yaradılması, yaşadılması, xəlifə qılınması

---

Cin surəsi, ayə 8-9[1]

məsələsi və s. kimi insan mahiyyətinin müəyyənləşdirilməsi, mövzumuz üçün əhəmiyyət kəsb etməkdədir.

İnsan dəyərli varlıqdır və onun yaradılışı haqqında çoxlu fikirlər mövcuddur. Əllamə Məclisi Qurani-Kərimə və hədisi-şəriflərə, həmçinin özündən əvvəlki alim və filosofların fikirlərinə istinadən ilk insanın Allah tərəfindən torpaqdan yaradıldığı qənaətinə gəlmişdir. O, insanın nə üçün insan adlanması haqqında adı çəkilən əsərinin 57-ci cildə "İnsan nə üçün insan.". adlanır adlı fəsil (38-ci fəsil) açmış burada mövzu ilə bağlı bir neçə hədisi-şərif nəql etmişdir. İnsanın insan adlanması haqqında İmam Cəfər Sadiqdən (ə) aşağıdakı hədisi nəql etmişdir:

عن علي بن أحمد بن محمد بن جعفر الاسدي، عن معاوية بن حكيم عن ابن أبي عمير، عن بعض أصحابنا، عن أبي عبدالله عليه السلام قال: سمي الانسان إنسانا لانه ينسى، وقال الله عزوجل:**"ولقد عهدنا إلى آدم من قبل فنسي."**

"İnsan unutqan olduğu üçün insan adlanmışdır. Necə ki, Allah taala buyurmuşdur: **"Doğrusu, bundan əvvəl Adəmə də** (Şeytana uymamağı) **tövsiyə etmişdik. Lakin o** (tövsiyəmizi) **unutdu"** (Taha, 115).[1]

Müəllif bundan sonra insan sözünün etimoloji təhlilini vermiş, onun qrammatik baxımından hansı kökdən yarandığını və s. izah etməyə çalışmışdır. O, Bəsrə qrammatika alimlərinə görə, insan sözünün "üns" kökündən yarandığını, Kufə qrammatiklərinə görə isə "nisyan" kökündən əmələ gəldiyini, birincilərə görə "ünsiyyət qurmaq", ikincilərə görə isə

---

Həmin mənbə, c. 57, səh. 265[1]

"unutmaq" mənasını daşıdığını da qeyd etmişdir. Müəllif bu fikirləri Xəlil bin Əhməd əl-Fərahidinin "Kitabül-eyn" və Şeyx Tusinin "ət-Tibyan" əsərlərinə istinadən işıqlandırmışdır.

Müəllifin əsərində yer verdiyi, lakin bütün alimlər tərəfindən heç də doğru qəbul edilməyən fikirlərindən biri də qadının kişinin qabırğasından yaradılmasıdır. O, qadının (المرأة) adlanmasının səbəbini İmam Cəfər Sadiqdən (ə) nəql olunmuş "Qadın ona görə qadın (mərətun) adlanır ki, o kişinin qabırğasından xəlq edilmişdir" hədisinə bağlayır.[1] Doğrudur, müəllif əsərinin başqa yerində Həvvanın (ə) Adəmin (ə) yarandığı palçığın qalığından yaranması fikrini təsdiqləmişdir. Onun maraqlı açıqlamalarından biri də qadınların "nisa" adlanmasının səbəbidir. O, bu səbəbi "nisa" sözünün "nisyan" (untqanlıq) sözündən törədiyini bildirmişdir.[2]

Həvvanın (ə) "Həvva" adlanması haqqında müəllifin gəldiyi qənaət budur ki, Allah Adəmi (ə) yaratdıqdan sonra ona qısa müddətli yuxu vermiş, Adəm (ə) oyandıqdan sonra yanında bir şəxsin olduğunu görmüş, onun kimliyini soruşduqda Allahın Adəmin (ə) onunla ünsiyyətdə olacağını və adının da Həvva olduğunu bildirməsidir. Onun Həvva adlanması isə canlıdan yaranmasına və ya hər bir canlının anası olmasına görədir.[3]

---

[1] Həmin mənbə, c. 57, səh. 265
[2] Həmin mənbə, c. 57, səh. 265
[3] Həmin mənbə, c. 57, səh. 265-266

Müəllifin insanla əlaqədar yazdıqları içində diqqəti çəkən məqamlardan biri də insanın bütün məxluqatdan və hətta mələklərdən də fəzilətli və üstün olmasını qeyd etməsidir. O, bu haqda xüsusi paraqraf açaraq ayə və hədislər vasitəsilə sübut etməyə çalışmışdır ki, insan öz insanlıq vəzifəsini yerinə yetirdiyi müddətcə bütün məxluqatdan daha üstün və daha şərəflidir.

O, “Biharül-ənvar” əsərində insanın dəyəri və yaradılış hekayəsini izah edərkən ilk olaraq Qurani-Kərimdəki bu ayəni yazır:

**وَإِذْ قَالَ رَبُّكَ لِلْمَلَائِكَةِ إِنِّي جَاعِلٌ فِي الْأَرْضِ خَلِيفَةً ۖ قَالُوا أَتَجْعَلُ فِيهَا مَنْ يُفْسِدُ فِيهَا وَيَسْفِكُ الدِّمَاءَ وَنَحْنُ نُسَبِّحُ بِحَمْدِكَ وَنُقَدِّسُ لَكَ ۖ قَالَ إِنِّي أَعْلَمُ مَا لَا تَعْلَمُونَ.وَعَلَّمَ آدَمَ الْأَسْمَاءَ كُلَّهَا ثُمَّ عَرَضَهُمْ عَلَى الْمَلَائِكَةِ فَقَالَ أَنْبِئُونِي بِأَسْمَاءِ هَٰؤُلَاءِ إِنْ كُنْتُمْ صَادِقِينَ. قَالُوا سُبْحَانَكَ لَا عِلْمَ لَنَا إِلَّا مَا عَلَّمْتَنَا ۖ إِنَّكَ أَنْتَ الْعَلِيمُ الْحَكِيمُقَالَ يَا آدَمُ أَنْبِئْهُمْ بِأَسْمَائِهِمْ ۖ فَلَمَّا أَنْبَأَهُمْ بِأَسْمَائِهِمْ قَالَ أَلَمْ أَقُلْ لَكُمْ إِنِّي أَعْلَمُ غَيْبَ السَّمَاوَاتِ وَالْأَرْضِ وَأَعْلَمُ مَا تُبْدُونَ وَمَا كُنْتُمْ تَكْتُمُونَوَإِذْ قُلْنَا لِلْمَلَائِكَةِ اسْجُدُوا لِآدَمَ فَسَجَدُوا إِلَّا إِبْلِيسَ أَبَىٰ وَاسْتَكْبَرَ وَكَانَ مِنَ الْكَافِرِينَ.وَقُلْنَا يَا آدَمُ اسْكُنْ أَنْتَ وَزَوْجُكَ الْجَنَّةَ وَكُلَا مِنْهَا رَغَدًا حَيْثُ شِئْتُمَا وَلَا تَقْرَبَا هَٰذِهِ الشَّجَرَةَ فَتَكُونَا مِنَ الظَّالِمِينَ.فَأَزَلَّهُمَا الشَّيْطَانُ عَنْهَا فَأَخْرَجَهُمَا مِمَّا كَانَا فِيهِ ۖ وَقُلْنَا اهْبِطُوا بَعْضُكُمْ لِبَعْضٍ عَدُوٌّ ۖ وَلَكُمْ فِي الْأَرْضِ مُسْتَقَرٌّ وَمَتَاعٌ إِلَىٰ حِينٍ.**

“(Ya Rəsulum) **Sənin Rəbbin mələklərə: Mən yer üzündə bir xəlifə** (canişin) **yaradacağam dedikdə** (Mələklər)**: Biz Sənə şükr etdiyimiz, şəninə təriflər dediyimiz və Səni müqəddəs tutduğumuz halda, Sən orada** (yer üzündə) **fəsad törədəcək və qan tökəcək bir kəsmi yaratmaq istəyirsən? – söylədilər.** (Allah onlara:) **Mən**

**bildiyim şeyi siz bilmirsiniz!- buyurdu.** (Allah Adəmi yaratdıqdan sonra) **Adəmə bütün şeylərin adlarını öyrətdi. Sonra onları** (həmin şeyləri) **mələklərə göstərərək:** (iddianızda) **doğrusunuzsa, bunların adlarını Mənə bildirin! - dedi. Onlar: Sən paksan, müqəddəssən!** (Bütün eyib və nöqsanlardan kənarsan) **Sənin bizə öyrətdiklərindən başqa biz heç bir şey bilmirik.** (Hər şeyi) **bilən Sən, hikmət sahibi Sənsən, - dedilər.** (Sonra) **O: Ey Adəm, bunların** (kainatda mövcud olan əşyanın) **adlarını onlara bildir!- dedi.** (Adəm) **onlara** (mələklərə) **onların adlarını xəbər verdikdə** (Allah)**: Mən sizə, göylərin və yerin gözə görünməyən sirrlərini və sizin gizlində - aşkarda nə etdiyinizi bilirəm, söyləmədimmi? – buyurdu.** (Ya Peyğəmbər) **biz mələklərə: Adəmə səcdə edin! – dedikdə İblisdən başqa** (hamısı) **səcdə etdi.** (Yalnız) **o, lovğalanaraq** (səcdə etməkdən) **imtina etdi və kafirlərdən oldu.** (Sonra) **Biz** (Adəmə) **dedik: Ey Adəm, sən zövcənlə** (Həvva ilə) **Cənnətdə qal və hər ikiniz oradakı meyvələrdən istədiyiniz kimi, bol-bol yeyin, yalnız bu ağaca** (buğdaya) **yaxın gəlməyin. Yoxsa** (özünüzə) **zülm edənlərdən olarsınız.** (Lakin) **Şeytan onları azdırıb** (buğdadan yedizdirməklə nemətlər içində) **olduqları yerdən uzaqlaşdırdı. Biz də** (Adəmə, Həvvaya və şeytana)**: bir-birinizə düşmən kəsilərək** (buradan kənar olub yer üzünə) **enin! Yerdə sizin üçün müəyyən vaxta qədər** (ömürünüzün

axırınadək) **sığınacaq və yaşayış** (dolanacaq) **vasitələri var, - dedik".**[1]

İnsan oğlunun nə qədər şərəfli olduğunu Quran ayələrindən açıq bir şəkildə görürük. O, hər şeydən öncə Allahın xəlifəsidir. Əllamə Məclisi bu ayəni təfsir edərkən Qazı Beyzavinin (öl.1286) təfsirinə istinad edərək yazırdı: "Ayədə işlədilən xəlifə kəlməsi başqasının ardınca gəlmək mənasındadır və bu sözdəki **"ة-tə"** hərfi isə mübaliğə üçün istifadə olunub. Xəlifə dedikdə isə yer üzünü abadlaşdıranların ardınca getmək və beləliklə, oranı abadlaşdırıb düzəltmək mənasında ola bilər. Həmçinin mələklərin Allaha qarşı ünvanladıqları sual etiraz və Adəm övladını pisləmək deyildir. Onlar Allahın onlara əvvəlcə verdiyi xəbərdən, yaxudda lövhi-məhfuz vasitəsilə onlara Adəm övladının yer üzündə fitnə-fəsad törədəcəyini bilirdilər".[2] Allah ona yer üzündə öz adına bəzi vəzifələri icra etməsi üçün güc və səlahiyyət vermişdir. Bu səlahiyyət sadəcə Adəmə (ə) deyil, qiyamətə qədər gəlib gedəcək bütün insanlara verilmişdir. Belə ki, başqa bir ayədə belə buyurulur: **"Sizi yer üzünün varisləri edən** (bir-birinizin yerinə gətirən) **Odur".**[3]

Xəlifənin xilafət məqamına layiq sifətlərlə hazırlanmış olması lazımdır. Ayrıca ona xilafəti bəxş edənin nurundan daşıması, hökm edəcəyi varlıqlardan üstün olması lazımdır. İnsanın üstünlüyü, ilk öncə bilikli və ağıllı olmasından

---

Bəqərə surəsi, ayə 30, 36[1]
Əllamə Məclisi, Biharül-ənvar, c. XI, səh. 97[2]
əl-Fatir surəsi, ayə 39[3]

qaynaqlanır. Allah insana mələklərin belə bilmədiklərini öyrətmişdir. İnsanın digər əsas xüsusiyyətlərindən biri də iradə sahibi olmasıdır. Sadəcə insana verilən bu sərbəst iradə onu cavabdeh bir varlıq halına gətirmişdir. Allahdan insana yönəlmiş olan əmr və qadağalar onun azad olduğuna dəlalət edir. Çünki iradəsi və azadlığı olmayan kimsəyə əmr və qadağanın söylənməsi düşünülə biməz. Mələklərdə və digər canlılarda insanların sahib olduğu iradə və hürriyyət olmadığına görə onlar insan qədər cavabdehlik daşımırlar.[1]

İnsanın palçıqdan yaradılmasını elm də dəstəkləyir. Çünki insan bədənini təşkil edən elementlər torpağın məhsuludur. İnsan yer üzündən götürülmüş bir ovuc palçıq və Allahın ruhundan üfürülmüş bir nəfəsdən ibarətdir. Palçıq bədəni, İlahi nəfəs isə ruhu təmsil edir. İnsana ruhun üfürülməsi İlahi bir sirdir və bunun keyfiyyətini heç kəs dərk edə bilməz. Ancaq bunu söyləmək olar ki, Yaradanına iman gətirməsi, şükr edərək Ona yönəlməsi, dünyada Allahın iradəsinə uyğun hərəkət etməsi, xeyir və haqq sevgisi, doğruluq və ədalət kimi əxlaqi xüsusiyyətlərlə bəzənməsi üçün Allah insanı bu İlahi ruhla dəstəkləmişdir. Bu ruhdan ilk düşünülən məqsəd canlılıq deyildir. Çünki heyvanlar da insanlar kimi canlılıq dəyərini daşıyırlar. Əgər ruhdakı məqsəd canlılıq olsaydı, insanın digər canlılardan fərqi olmazdı və Allah mələklərə Adəmə (ə) səcdə etmə əmrini verməzdi. İslama görə, insan yaradılmışların ən şərəflisi olmaqla yanaşı,

---

Əllamə Məclisi, Biharül-ənvar, c. XI, səh. 98[1]

eyni zamanda istər ruhi, istərsə də fiziki xüsusiyyətlərilə digər canlılardan fərqlənir. **“Biz insanı ən gözəl biçimdə yaratdıq!”**[1]İnsan iki ayaq üzərində dik dura bilən, ağıllı və şüurlu bir varlıqdır. Baş, beyin quruluşu, orqanlarının ahəngi və səs sistemindəki zənginlik onun gözəl bir şəkildə yaradılmasından xəbər verir. Yüksək zəkası səbəbilə hadisələrə cəld və ən uyğun şəkildə reaksiya vermək qabiliyyəti vardır. İnsan yüksək zəkası hesabına ona faydalı olan şeyləri götürür, zərərli şeylərdən isə uzaqlaşır. Qavraması digər canlılardan çox yüksək olduğundan, onların edə bilmədiklərini edir. Yəni daha konkret desək, insan dil, düşüncə, mədəniyyət, əxlaq, vicdan, duyğu və dini vəzifələrə sahibdir. Lakin bütün bunların eynisini heyvanlar və digər canlılar üçün düşünmək olmaz. **“Biz, Adəm övladını şərəfli və hörmətli etdik, onları suda və quruda** (gəmilərə, heyvanlara və başqa nəqliyyat vasitələrinə) **mindirib sahib etdik, özlərinə** (cürbəcür nemətlərdən) **təmiz ruzi verdik və onları yaratdığımız məxluqatın çoxundan xeyli üstün etdik”.**[2]

İnsan şüur, nitq qabiliyyəti, gözəl surət, boy-buxun, əllə yemək, və s. bu kimi məziyyətlərinə görə həmişə Allaha şükür edib yalnız Ona tapınmalıdır. Rəbbinə heç bir şərik qoşmamalıdır.

Adəmin (ə) yaradıldığı maddə, müxtəlif ayələrdə dəyişik terminlərlə ifadə edilmişdir. Fəxrəddin ər-Razi (1149-1209) bu

---

Tin surəsi, ayə 4[1]
əl-İsra surəsi, ayə 70[2]

ayələrdə Adəmin (ə) yaradılış keyfiyyətinin müxtəlif şəkillərdə təsvir edildiyini bildirmiş və onları: torpaq (**turab**) (Ali-imran, 59), su (**mau**), palçıq (**tin**), tərtəmiz süzülmüş palçıq (**sulalə min tin**) (əl-Muminun, 12), yapışqan palçıq (**tini-ləzib**) (əs-Səffat, 11) və qurumuş palçıq (**salsal**) (ər-Rəhman, 14) şəklində sıralamışdır.[1]

Əllamə Məclisi Adəmin (ə) belə adlanması haqqında yazır: “Adəm sözü yer üzünün üst torpağı mənasındakı “ədimül-ərz” sözündəndir. Həvva (ə) sözü isə “hey” sözündən əmələ gəlib və canlı mənasındadır. Çünki o, canlının qabırğasından yaranıb”.[2]

Bundan başqa o, Adəm sözünün digər mənaları haqqında da müxtəlif alimlərin görüşlərini qeyd etmişdir.

İlk insanın yaranması ilə əlaqədar diqqəti çəkən xüsuslardan biri də elm və mədəniyyətin məhz ilk insana verilməsidir. Bunu Allah Qurani-Kərimdə belə bəyan edir: **وعلم آدم الأسماء كلها ثم عرضهم على الملائكة فقال أنبئوني بأسماء هؤلاء إن كنتم صادقين**-(Allah Adəmi yaratdıqdan sonra) **Adəmə bütün şeylərin adlarını** (isimlərini) **öyrətdi. Sonra onları** (həmin şeyləri) **mələklərə göstərərək: “**(İddianızda) **doğrusunuzsa, bunların adlarını Mənə bildirin!**”- **dedi”.**[3]

---

Fəxrəddin ər-Razi, Təfsirül-Kəbir[1]

[2] Əllamə Məclisi, Biharül-ənvar, c. XI, səh. 99

Bəqərə surəsi, ayə 34[3]

Ayəyə təfsir verən alimlər qiyamətə qədər olacaq hər bir şeyin Adəmə (ə) öyrədildiyini yazırlar.[1] Əllamə Məclisi İmam Cəfər Sadiqdən (ə) belə nəql edir:

**عن الفضل بن عباس، عن أبي عبدالله عليه‌السلام قال: سألته عن قول الله عزوجل: «وعلم آدم الاسماء كلها» ماهي؟ قال: أسماء الاودية والنبات والشجر والجبال من الارض.**

Fəzl bin Abbas İmam Cəfər Sadiqdən (ə) soruşur: Allahın **"Adəmə (ə) bütün isimlərin adlarını öyrətdi"** ayəsinin mənası nədir? İmam (ə) buyurdu:

"Yer üzündə olan vadilərin, bitkilərin, ağacların, dağların adlarını".[2]

Əllamə Məclisi "Biharül-ənvar" əsərində Həvvanın (ə) yaradılması haqqındakı xəbərlərə geniş yer vermiş[3] və bu haqda Qurani-Kərimin: "**Ey insanlar! Sizi tək bir kəsdən** (Adəmdən) **xəlq edən, ondan zövcəsini** (Həvvanı) **yaradan və onlardan da bir çox kişi və qadınlar törədən Rəbbinizdən qorxun!"**[4]ayəsini təfsir etmişdir.O, Təbərisiyə istinadən yazırdı:

**قوله: «من نفس واحدة» قال الطبرسي رحمه‌الله. المراد بالنفس هنا آدم «وخلق منها زوجها» ذهب أكثر المفسرين إلى أنها خلقت من ضلع من أضلاع آدم، ورووا عن النبي صلى‌الله‌عليه‌وآله أنه قال: «خلقت المرأة من ضلع إن أقمتها كسرتها، وإن تركتها وفيها عوج استمتعت بها.»**

---

Bax: Təfsiri-Bəğəvi, qeyd olunan ayənin təfsirinə[1]
Əllamə Məclisi, Biharül-ənvar, c. XI, səh. 147[2]
Həmin mənbə, c. XI, səh. 99[3]
Nisa surəsi, ayə 1[4]

Allahın **“..Sizi tək bir kəsdən.”.**ayəsi haqqında Təbərisi deyir: “ ayədəki **“nəfs”** sözündə məqsəd Adəmdir (ə). **“Ondan zövcəsini yaratdı”** ayəsində məqsəd əksər təfsirçilərə görə, Adəmin (ə) aşağı qabırğasıdır. Peyğəmbərdən (s) belə rəvayət olunur: “Qadın qabırğadan yaradılıb. Əgər onu düzəltmək istəsən sınacaqdır.”.[1]

Sonra müəllif İmam Cəfər Sadiqdən (ə) bunun əksini bildirən bir hədis nəql etmişdir. Həmin hədisdə deyilir:

**وروي عن أبي جعفر الباقر(ع): أن الله خلق حواء من فضل الطينة التي خلق منها آدم.**

“Allah Həvvanı (ə) Adəmin (ə) yaradıldığı torpağın qalığından yaradıb”.[2]

Hədisi-şəriflərə nəzər salarkən görürük ki, Peyğəmbər (s) bizə qadının yaradılışına dair bioloji biliklər vermişdir. Yəni Həvvanın (ə) Adəmdən (ə) yaradilmasına dair məlumatlar verərək həm də qadınla necə davranmaq lazım olduğunu bizə öyrətmişdir.[3]

Qurani-Kərimin başqa-başqa yerlərində insanın yaradılması haqda keçən ayələr müxtəlif şəkildə açıqlanmışdır. Məsələn, insanın tək bir nəfsdən[4] yaradılması, bir tərəfdən ilk insan nümunəsinin yaradılmasına işarə edərkən, digər cəhətdən

---

Əllamə Məclisi, Biharül-ənvar, c. XI, səh. 99[1]
Həmin mənbə, c. XI, səh. 99[2]
Səhihi-Buxari, Nigah-80, 81[3]
Nisa surəsi, ayə 1[4]

isə bununla bütün insanlığın ortaq ana-atadan gəldiyi xatırladılaraq insanların qardaşca yaşamalarının zəruriliyi bildirilməkdədir. Buradan məlum olur ki, eyni nəsil və kökdən gələn insanların nəsil və nəsəblə öyünmələrinin bir mənası yoxdur. Ümumiyyətlə yuxarıdakı ayədə keçən **“nəfs”** kəlməsindən məqsəd Adəmdir (ə). Ancaq eyni ayənin davamında **زَوْجَهَاوَخَلَقَ مِنْهَا“zövcəsini də ondan yaratdıq”**[1] cümləsini **“onun cinsindən”** şəklində məna verənlər olmuşdur. Bu təfsirə görə, Həvva (ə) ilk insanın bədənindən deyil, onun da əsli olan torpaqdan yaradılmasıdır. Bu görüş haqqında Əllamə Məclisi İmam Məhəmməd Baqirdən (ə) belə bir hədis rəvayət edir: “Allah Adəmi (ə) onu yaratdığı torpağın qalığından yaratdı”.[2] Həmçinin Allah taalanın Adəmi (ə) torpaqdan yaradmağa qadir olduğuna görə, Həvvanı (ə) da torpaqdan yaradmağa qadirdir. Belə olduqda Həvvanın (ə) Adəmin (ə) qabırğa sümüyündən yaradıldığını deməyin bir mənası yoxdur.[3] Əllamə Məclisi ayədə keçən **“min”** ön qoşmasının səbəb mənasında olduğu və belə olduğu halda ayənin “Həvvanı (ə) Adəmə (ə) görə yaradıldığı” mənasında izah edilə biləcəyi ehtimalını da irəli sürmüşdür.[4] Beləliklə də o, Həvvanın (ə) Adəmin (ə) qalan palçıqdan yaradıldığı fikrinin mümkün olduğunu qeyd etmişdir.

Ola bilsin ki, müəllif bu növdən olan hədislərin deyilməsində məqsədin əziyyət verməklə qadını istənilən şəklə

---

Nisa surəsi, ayə 1[1]

Əllamə Məclisi, Biharül-ənvar, c. XI, səh. 99[2]

[3] Fəxrəddin ər-Razi, Təfsirül-Kəbir, c. VII, səh. 311

Əllamə Məclisi, Biharül-ənvar, c. XI, səh. 103[4]

salmanın mümkün olmayacağını açıqlamışdır. Kobudluq yerinə onlara ülfət və şəfqət göstərməyi tövsiyə etmişdir. Ailə yuvasının davamlılığı və ailə üzvlərinin xoşbəxtliyi üçün yol budur. Lakin kişiyə qadının dünyasına və axirətinə zərər verə biləcək xüsuslarda doğrunu başa salmaq lazımdır. **"Özünüzü və ailə üzvlərinizi cəhənnəmdən qoruyun!"**[1] ayəsindən də görürük ki, Allah doğrunu tapmaqda ailə üzvlərinin bir-birinə yardım etmələrini tövsiyə edir.

Həvvanın (ə) Adəmin (ə) qabırğasından yaradılması hədisi hərfi mənada izah edilərək Həvvanın (ə) Adəmin (ə) qabırğa sümüyündən yaradıldığı görüşünün mənimsənməsinə səbəb olmasına baxmayaraq, Tövrata da uyğun olan bu görüş bəzi alimlər tərəfindən qəbul edilmir.[2]

Qurnari-kərimdə Həvvanın (ə) yaradılışından bəhs edilmir, təkcə Adəmlə (ə) birlikdə cənnətdə yerləşdirilmələri və oradan çıxarılmalarından danışılır.[3]

Beləliklə, qeyd etmək lazımdır ki, Həvvanın (ə) Adəmin (ə) qabırğa sümüyündən yaradılması fikrini təsdiqləyəcək Qurani-Kərimdə heç bir ayə və hökm yoxdur. Həmçinin, Allah taalanın buyurduğu **"zövcəsini də ondan yaratdıq"** ayəsini bu görüş əsasında izah etmək də düzgün deyildir. **"Zövcəsini də**

---

Təhrim surəsi, ayə 6[1]
Ömer Faruk Harman, Diyanet İslam Ansiklopedisi, c. XVI, "Havva" maddəsi,səh. [2] 544
Bax: əl-Bəqərə, surəsi, ayə 35, 38; əl-Əraf, surəsi, ayə 19; Taha, surəsi, ayə 117, 123[3]

**ondan yaratdıq”** ayəsini izah edənlərin məqsədi Quranı Tövratın təkvin kitabı ilə uyğunlaşdırmaqdır.[1]

Atamız Adəm (ə) və anamız Həvva (ə) ilə başlayan insanlıq tarixi o ikisindən çoxalan nəsillər günümüzə qədər gəlmiş, qiyamətə qədər də davam edəcəkdir. Çünki bu aləm Uca Allahın xəlifəsi olan insanla mənalı və dəyərlidir.

İnsanı insan olaraq göstərən, ona şərəf qazandıran ağıldır. İmam Qəzaliyə (öl.1111) görə ağıl elmin qaynağı, əsası və bünövrəsidir.[2] Ağıl həm də insana dünya və axirət səadətinə vəsilə qazandırır. Ağıl insanları iri cüssəli heyvanlardan belə güclü edir. Azğın və qüvvəli heyvanı ağıl işlədərək ya tələyə salır ya da məhv edir. Əllamə Məclisi “Biharül-ənvar” əsərinin birinci hissəsini[3] məhz ağıl mövzusuna həsr etməsi və bu haqda ayələrlə birlikdə hədisləri qeyd etməsi bütün bu deyilənlərə bir dəlildir.[4]

---

İbn Kəsir, Təfsirül-Quranil-əzim, c. II, səh. 2971

Qazzali, İhyai Ulumid-Din, tərcümə: Ali Arslan, Merve Basım, Yayın Dağıtım, 2 Çağaloğlu, İstanbul, Baskı Eko Ofset, 1993, səh. 271

Əllamə Məclisi, Biharül-ənvar, c. I “Ağıl” fəsli3

İbrahim Zöhrab oğlu Quliyev, Suallara cavablar (Hədisi-şəriflər kontekstində), Bakı, 4 Elm və Təhsil, 2016

## NƏTİCƏ

Əllamə Məhəmməd Bağır Məclisinin “Biharül-ənvar əsərində yaradılış fəlsəfəsi və problemlər” mövzusu haqqında tədqiqatı tamamlayaraq aşağıdakı nəticəyə gəlirik:

**1.** Əllamə Məclisinin “Biharül-ənvar” əsəri də böyük bir hədis əsəridir və özündən əvvəlki hədis əsərlərindən bəzi üstün cəhətlərə malikdir. Belə ki, müəllif əvvəlki əsərlərdən daha da səmərəli şəkildə istifadə edərək onlarda olan bəzi xətaları təshih etmiş, bizim dövrümüzədək gəlib çıxmayan bəzi əsərlərdən iqtibaslar etməklə bizi də həmin əsərlərdən bəhrələndirmişdir.

Əllamə Məclisi haqqında bu Kitabmiz bir daha onu göstərir ki, o, öz dövrünün bir çox elmləri sahəsində dərin bilikli olmuşdur. Onun yazdığı “Biharül-ənvar” əsəri əsrlərdir ki, İslam ümməti içərisində rəğbətlə oxunmuş və həmişə əsas qaynaqlardan hesab edilmişdir. Onun yüzlərlə mötəbər qaynaqdan istifadə edərək belə bir fundamental əsər yazması alimin İslam mədəniyyəti xəzinəsinə belə böyük töhfə verməsi heç şübhəsiz ki, onun ilahi elmə, Peyğəmbər (s) və əhli-beytə (ə) olan məhəbbətinin təcəssümüdür.

Vəfatından üç yüz ildən artıq bir vaxt keçməsinə baxmayaraq o, heç vaxt müsəlman ümmətinin yaddaşından silinməmiş, əksinə həmişə onun adına böyük elmi konfranslar, tədqiqat işləri, məqalələr yazılmışdır. Ümidvarıq ki, belə bir

elm nəhəngi dünya durduqca duracaq, elm sevildikcə seviləcəkdir.

**2.** XVII əsrdə Səfəvilər dövlətində siyasi sabitliyin yaranması nəticəsində dövlətin bütün ərazilərində elm və mədəniyyətin yüksəliş dövrü başlamışdır.

Ərəb xilafəti dövründə yüksək inkişaf mərhələləri keçmiş İslam mədəniyyəti artıq XVII əsrdə tənəzzül dövrünü yaşayırdı. Fəlsəfə elmi İbn Rüşdlə, astronomiya və riyaziyyat elmləri Uluğ Bəylə, hədis elmləri isə Şeyx Tusi (997-1068) ilə sona yetmişdir deyən bəzi tədqiqatçılar bəlkə də bu sözlərində yanılmamışdılar. Lakin Əllamə Məclisinin Səfəvilər dövlətində Şeyxülislam vəzifəsinə təyin olunması bu fikri tamamilə kökündən dəyişdirdi. Belə ki, "Biharül-ənvar"ı yazmaqla hədis, təfsir, tarix, bir sözlə bir çox din elmlərinə yenidən rəvac verdi. Onun İsfahan Rəsədxanasını yaratması isə müsəlman aləmində çökmüş olan dünyəvi elmləri, xüsusilə də astronomiya və riyaziyyat elmlərinə xüsusi bir inkişaf qazandırdı.

**3.** "Biharül-ənvar" əsərinin əvvəlində müəllifin geniş müqəddiməsi verilmiş, burada əsərin yazılmasının səbəbləri göstərilmiş, hədis elmlərinin ilahiyyat elmləri içərisində çox mühüm əhəmiyyət kəsb etdiyi qeyd edilmişdir. Əsərin mənbələri haqqında məlumatı əsəri oxuduqca müəllifin istinadından toplamaq mümkün olur. Belə ki, "Biharül-ənvar" Kuleyni, İbn Babaveyh əl-Qumi, Əbu Cəfər ət-Tusi, İbn Şəhraşub, Əminüddin ət-Təbərsi, Məhəmməd bin Məkki, Şərif

ər-Rəzi və Şərif əl-Murtaza, Əli bin Musa bin Tavus əl-Həsəni, İbnül-Mutahhar əl-Hilli, Məhəmməd bin Əli əl-Kərakiçi kimi tanınmış alimlər başda olmaq üzrə çox sayda şiə müəllifin əsərindən istifadə edilərək hazırlanmışdır. Əllamə Məclisi bunlardan başqa şiə olmayan müəlliflərdən Cövhəri, Firuzabadi, Mutarrizi, Rağıb əl-İsfahani, İbn Faris, İbn Düreyd və Zəməxşəri kimi alimlərin lüğət və bəlağətlə əlaqəli qırxa yaxın əsərini, şiə nəqllərin doğruluğunu isbat üçün də Kutubu-Sittədən başqa Əhməd bin Hənbəlin "əl-Müsnəd"i Əbu Cəfər ət-Təbəri, İbn Quteybə və İzzəddin İbnül-Əsir kimi yazarların tarixləri, Fəxrəddin ər-Razinin "Məfatihül-ğeyb"i, Zəməxşəri, Beyzavi və Süyutinin təfsirləri, Seyid Şərif əl-Cürcaninin "Şərhül-Məvaqif" və Təftəzaninin "Şərhul-Məqasid"inin də daxil olduğu əllidən çox qaynaqdan istifadə etmişdir (110.cild, s.6).

Müəllifin istinad etdiyi mənbələrin hamısı İslamşünaslıq tarixində mühüm rol oynamış şəxsiyyətlər və onların əsərləridir.

**4.**Əllamə Məhəmməd Bağır Məclisinin mənbələrdən istifadə metodu da özünün zənginliyi ilə diqqəti cəlb edir. Bəlkə də İslam aləmində bunun qədər zəngin mənbədən istifadə edən ikinci bir müəllif tapmaq olmaz. O, təqribən altı yüzə yaxın mənbədən istifadə etmişdir. Təhlil göstərir ki, müəllif şiə olsa da "Biharül-ənvar" əsərini yazmaq üçün hansısa konkret bir radikal etiqada, məzhəbə və təriqətə istinad etməmiş, əksinə müxtəlif dünyagörüşünə və məzhəblərə malik

alimlərin əsərlərini seçməklə İslamdakı təfriqəni aradan qaldırmağa, ümumi bir məxrəcə gəlib, əsl həqiqətə gəlməyə cəhd göstərmişdir. Onun istinad etdiyi mənbələr içərisində şiə məzhəbinə məxsus mənbələr üstünlük təşkil etsə də, hənəfi, maliki, şafei və hənbəli məzhəblərinə mənsub şəxsiyyətlərin əsərləri də olmuşdur. Demək olar ki, müəllifin dilçiliyə aid istifadə etdiyi mənbələr daha çox sünnü məzhəbli mənbələrdir. Bu mənbələrin başında Cövhərinin "Sihah", Firuzabadinin isə "Qamus" əsərləri dayanır.

**5.**Məlum olduğu kimi hədis elmində hədislər iki yöndən araşdırılır. Birincisi, hədis sənəd (və ya isnad), ikincisi, isə mətn baxımından. Əgər hədisin sənədində və ya isnadında adı çəkilən ravilər (hədis nəql edənlər) tənqid edilmişlərsə, onların rəvayət etdikləri hədislər "zəif" hədis hesab olunur və onlara etiqadi məsələlərdə isnad etmək olmaz. Həmçinin hədis mətn baxımından araşdırıldıqda onun Qurani-Kərimə və yaxud da səhih yolla nəql olunmuş hədislə ziddiyyəti olarsa, həmin hədis də mətn baxımından zəif hesab olunacaqdır.

Əllamə Məclisi "Biharül-ənvar" əsərində hədisləri kor-koranə şəkildə deyil, onu sənəd və mətn baxımından araşdırmış və səhih bildiyi hədisləri kitabına salmışdır. Əlbəttə ki, bu o demək deyildir ki, onun əsərində keçən bütün hədislər doğrudur.

**6.**"Biharül-ənvar" əsərinin məzmununun öyrənilməsi göstərir ki, burada aşağıdakı məsələlər əhatə edilmişdir:

**A).**Müəllif əsərdə yazacağı mövzu ilə əlaqəli fəsil açır, burada ilkin olaraq Qurani-Kərimin ayələrini, sonra mövzuya uyğun hədisləri qeyd etmişdir.

**B).**Ayələrdə və hədislərdə keçən çətin başa düşülən kəlmələri izah etmiş və bu zaman dilçiliyə aid yazılmış ən qədim qaynaqlardan müqayisəli şəkildə istifadə etmişdir.

**C).**Qurani-Kərimin ayələri ilə hədisləri məna baxımından tutuşdurmuş və bunun da nəticəsində daha dolğun və düzgün bir fikrə gəlmişdir.

**Ç).**Qurani-Kərimin və hədislərin elmin müxtəlif sahələrinə (tarixə, fəlsəfəyə, məntiqə, dilçiliyə və s.) dair mənbələri tutuşdurması və izahı.

Bütün faktlar göstərir ki, Əllamə Məhəmməd Bağır Məclisi özünün “Biharül-ənvar” üçün mənbələri təsadüfən, kortəbii şəkildə seçməmiş, hədis, təfsir, tarix və dilçilik elmlərinə aid daha çox ədəbiyyatla tanış olandan sonra özünün elmi fikirləri ilə səsləşən mənbələrə müraciət etmişdir. Onun bu əsəri Azərbaycan ilahiyyatşünaslığı üçün də öz aktuallığını saxlamaqdadır.

**7.** “Biharül-ənvar” əsəri din və təbiətşünaslıq baxımından zəngin elmi mənbədir. Burada kainatın yaradılması, yer üzündə həyatın əmələ gəlməsi, ilk insanın yaranması və s. mövzular haqqında çoxlu sayda məlumatlar öz əksini tapmışdır.

**8.** Din heç vaxt elmin əleyhinə olmayıb. İslam dini və onun iki əsas mənbəsi olan Quran və hədislər həmişə insanlar elm və mədəniyyətə səsləyib, elmin əhəmiyyət və faydalarının əbədi olacağını vurğulmışdır.

**9.** Elmi məlumatlarımız çoxaldıqca Quran və hədislərdəki sətiraltı mənalar insanı daha da dərindən düşünməyə və daha da inanclı olmağa səbəb olur.

**10.** “Biharül-ənvar” əsəri kontekstində vəhyin keyfiyyəti, mahiyyət və növləri haqqında məlumatların sistemləşdirilməsi.

# ƏDƏBİYYAT

1. Abdulla Nəsri. Quranda dünyaşünaslığın əsasları. Tərc: Nəsib Göyüşov. Bakı: 2003.
2. Ali Ünal. Kuranda Temel Kavramlar. İstanbul: Beyan, 1986.
3. Aydın Topaloğlu. Ateizm və Onun Tənqidi. Tərcümə edən: Mehman Musaoğlu. Ankara: Diyanət İşləri Başqanlığı Nəşrləri, 1999.
4. Ayətullah Dəstğeyb. Böyük günahlar. Tərc: M. Əlizadə. Bakı: Dinin fəxri nəşriyyatı, 2000.
5. Ayətullahül-üzma Məhəmməd Fazil Lənkərani. İzahlı şəriət məsələləri. Mütərcim: M. Əlizadə. Qum: II nəşri, tarixsiz.
6. Cafer Sadık Yaran. Din ve Bilim Çağdaş Batı ve İslam Düşüncesinden Seçme Felsefi Yazılar. Samsun: Sidre Yayınları, 1997.
7. Celal Kırca. Qurani-Kərimdə fənn bilimləri. İstanbul: 1989.
8. Celal Yeniçeri. Uzay ayələrin təfsiri. İstanbul. 1995.
9. Cəfər Sübhani. İlahiyyat elmləri və İslam maarifi. Tərc: Mirzə Rəsul İsmayılzadə. Qum: 1993.
10. Cəfər Sübhani. İslamda əqidə əsasları. Tərc: E. Mustafayev. Bakı.
11. Dini Terminlər Lüğəti. Bakı İslam Universiteti. Bakı: İpəkyolu, 2010.
12. Diyanət İslam Ensiklopediyası (DİA), I cild (İstanbul: 1988), II cild (İstanbul: 1989), VI cild (İstanbul: 1992), XII cild (İstanbul: 1995), XVIII cild (Ankara: 2000).

13. Əbu Davud Süleyman bin Əşəs. Sünəni-Əbi Davud. Dəməşq: Məktəbətu-İbn Həcər, 1424/2004.
14. Əhməd bin Hüseyn əl-Beyhəqi. əs-Sünənül-kübra. Heydərabad. 1352 h/q.
15. Əhməd bin Şüeyb ən-Nəsai. Sünəni-Nəsai. I nəşri, Məktəbətu-İbn Həcər, 1424/2004.
16. Əhmədağa Əhmədov. Nikatül-Quran və Əsrarül-Quran. Bakı: Öyrətmən, 1994.
17. əl-Bakuvi Mir Məhəmməd Kərim Mir Cəfər əl-Ələvi əl-Hüseyni əl-Musəvi. Kitabü-kəşfil-həqayiq ən nükətil-ayat vəd-dəqayiq. Təfsiri-Qurani-Şərif: 3 cilddə. Bakı: 1322 h/q.
18. Əli bin Əbu Talib (ə). Nəhcül-bəlağə (tərcümə və şərh): Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev. İİR, Mədəniyyət mərkəzi, 2009.
19. Əllamə Mirzə Məhəmməd Bağır əl-Xonsari. Rövzatül-cənnat fi əhvalil-üləma vəs-sadat. Qum: İsmailiyan çapı, tarixsiz.
20. Əllamə Təbatəbai. İnsan dünyadan əvvəl. Tərc: Rövşən Abdullaoğlu. Bakı: II nəşri, 2013.
21. Əllamə Təbatəbai. əl-Mizan təfsiri. Tərc: M. Yaqub, E. Mustafaoğlu. Bakı: 2014.
22. Əllamə Təbatəbai. İnsan dünyadan sonra. Şərh və əlavələr: Rövşən Abdullaoğlu, Bakı: II nəşri, Qədim Qala nəşriyyatı, 2015.
23. Əllamə Təbatəbai. Təfsirül-mizan. 20 cilddə. Müəssisə ələmi, I çap, 1997.
24. Əllamə Təbatəbai. Vəhy və Quran. Tərc: Nurəddin Əliyev. Bakı: I çap, 2009.
25. Fəxrəddin Razi. Məfatihül-qeyb. Beyrut: Darül-kütubil-elmiyyə, 1411/1990 və Türkiyə çapı.

26. Fəzlurrəhman. Ana Konularıyla Kuran. Tərc: Alparslan Açıkgenç, Ankara: Okulu Yayınları, 1999 və Ankara: 2000.
27. İbn Kəsir. Təfsirül-Quranil-əzim. Beyrut: Darül-mərifə, 1988.
28. İbn Kəsir. Təfsirül-Quranil-əzim. Çevirən: Bekir Karlığa, Bedrettin Çetiner, İstanbul: Çağrı Yayınları, 1993.
29. İbrahim Quliyev. Əllamə Məhəmməd Bağır Məclisinin "Biharül-ənvar" əsərində islam fəlsəfəsinin bəzi problemləri // "Dövlət və Din" ictimai fikir toplusu, iyul-avqust, 2011 № 4 (24), səh. 104-114.
30. İbrahim Quliyev. Əllamə Məhəmməd Bağır Məclisinin "Biharül-ənvar" əsərində din-tibb münasibətləri // Bakı Dövlət Universiteti, İlahiyyat fakültəsi, Elmi məcmuə, № 17, iyun, 2012, səh. 169-186.
31. İbrahim Quliyev. Əllamə Məhəmməd Bağır Məclisinin "Biharül-ənvar" əsərində din və təbiətşünaslıq problemləri // Orta Əsr Əlyazmaları və Azərbaycan mədəniyyəti tarixi problemləri XIII Respublika elmi konfransının materialları, Bakı: 24 may 2013, səh. 520-525.
32. İbrahim Quliyev. Hədisi-şəriflərdə müqəddəs şəhərlərin tarixi. Bakı: Nurlar nəşriyyatı, 2012.
33. İbrahim Quliyev. Hədisşünaslığın əsasları. Bakı: Elm nəşriyyatı, 2013.
34. İbrahim Quliyev. Suallara cavablar (hədisi-şəriflər kontekstində). Bakı: Elm və Təhsil nəşriyyatı, 2016.
35. İbrahin Quliyev. Əllamə Məhəmməd Bağır Məclisinin Azərbaycan ilahiyyatşünaslığında rolu və xidmətləri // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 89-

cu ildönümünə həsr olunmuş Azərbaycanşünaslığın aktual problemləri III Beynəlxalq elmi konfransın materialları, 2-5 may, 2012-ci il, Bakı: Azərbaycan. AMEA Humanitar və İctimai elmlər bölməsi və Bakı Slavyan Universiteti, səh. 410-413.

36. İlqar İsmayılzadə. Quran elmləri ensiklopediyası. Bakı: Beynəlxalq İslam Elmləri Akademiyası, I nəşri, 2006.
37. İmam Zeynülabidin (ə). Səhifeyi-Səccadiyyə. Müəssisətu nəşril-İslami, Qum: 1404 h/q.
38. Qazzali. İhyai-ulumiddin. Tərc: Ali Arslan, Merve Basım, Yayın Dağıtım. İstanbul: Çağaloğlu: 1993.
39. Qurani-Kərim. Tərc: Z. Bünyadov, V. Məmmədəliyev. Bakı: Azərnəşr, 1991.
40. Məhəmməd bin Həsən Hürr əl-Amili. Vəsailüş-şiə. Beyrut: Daru-ihyait-türasil-ərəbi, tarixsiz.
41. Məhəmməd bin İsmayıl Buxari. Səhihül-Buxari. İstanbul: Darüt-təbaətil-amirə, 1401/1981.
42. Məhəmməd bin Yaqub əl-Küleyni. Üsuli-kafi. Beyrut: I nəşri, 1429/2008.
43. Məhəmməd bin Yaqub əl-Küleyni. Üsuli-kafi. Tərc: Rüfət Hümbətov. Bakı: 2011.
44. Məhəmməd Reyşəhri. Mizanül-hikmət. Darül-hədis, I çap, 1422 h/q.
45. Məhəmməd Reyşəhri. Mizanül-hikmət. Tərc: Mais Ağaverdiyev, Bakı, Zərdabi LTD, 2014.

# Quranın reallıqlar ilə uyğunluq baxımından möcüzə olması

**Elçin Əliyev**[1]

## Abstrakt

Bu məqalədə əsas məqsəd bundan ibarətdir ki, oxucular Qurandakı hadisələrin real baş vermiş hadisələr olduğunu anlamış olsunlar. Yəni Quranda danışılan bəzi hadisələri gətirib, onların reallıqla uyğun olduğu açıqlanıb, sübuta yetiriləcək.

Bəzi islam düşmənləri, Quranın Allah tərəfindən nazil olduğunu inkar edir və buna dəlil olaraq, Quranda bəyan olunan hadisələrin uydurulmuş olduğunu iddia edirlər. Biz isə Quranda nəql olunan bir neçə tarixi hadisələri gətirərək, onların reallıq ilə uyğun olduğunu sübut edəcəyik. Bununla da İslam düşmənlərinin bu iddialarının yalan olduğu ortaya çıxacaq.

Bundan əlavə, Qurandakı tarixi olayları oxuyanda, bu müqəddəs kitabın möcüzəvi və misilsiz bir kitab olduğu bir daha sübut ediləcək. Çünki bu kitabda bəzən elə hadisələr haqqında məlumat verilir ki, onların doğru olması zaman keçdikdən sonra məlum olub. Misal üçün Allah Quranda Daşa dönərək həlak olmuş Lut peyğəmbərin (ə) qövmü, yerin kürə şəklində olması, atmosfer qatları, dənizlərin bir-birinə qarışmaması, uşağın ana bətnində inkişaf etmə prosesi və bu kimi bir çox məlumatlar haqqında 1400 il bundan öncə xəbər verib. Amma alimlər bu hadisə və məlumatların doğru olduğunu Quranın nazil olmasından əsrlər sonra kəşf edə biliblər.

---

[1] - İslam araşdırmaları fakültəsinin məzunu, İslam Araşdırmaları İnstitutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, Qum, İran

**Açar kəlmələr:** Quran, möcüzə, reallıq, uyğunluq

## Quranın reallıqlar ilə uyğunluğu baxımından möcüzə olması

Uca yaradanımız olan Allah, göndərdiyi müqəddəs kitabında həm keçmişdə baş vermiş, həmdə gələcəkdə baş verəcək bir çox hadisələrdən xəbər verib.

Quranın möcüzəvi və misilsiz bir kitab olmasının bir sübutu da, elə bundan ibarətdir. Yəni əgər Qurandakı keçmiş və gələcəyə aid olan hadisələrə diqqət yetirib, onları araşdırsaq, görərik ki, həmin hadisələrin hamısı tarixdə baş verib və həmin xəbərlər reallıq ilə uyğundur.

Bir sözlə, Quranın keçmiş barədə danışdıqlarının hamısı baş vermiş hadisələrdir. Misal üçün Quran Nuhun (ə) gəmisi, Lut Peyğəmbərin (ə) qövmü, Fironun əhvalatı və bu kimi bir çox hadisələrdən xəbər verir və tarixi araşdıranda, görürük ki, həmin hadisələrin heç biri uydurulmuş əhvalatlar deyil. Eyni zamanda da Quranın gələcəkdən danışdıqlarının bir çoxu baş vermiş hadisələrdir. Misal üçün Quran Rum imperiyasının məğlub olmasından sonra, gələcəkdə qalib gəlməsindən xəbər verib və bu hadisə Quranın buyurduğu kimi baş verdi və Rum imperiyası məğlub olduqdan bir müddət sonra, qələbə qazandı. Təbi ki, Quranda Qiyamət gününün baş verməsi kimi bəzi az saylı hadisələr hələ baş tutmamışdır. Amma ümumi olaraq Quranda keçmişə və gələcəyə aid olan bütün hadisələr doğru əhvalatlardır və hamısı reallıqdan ibarətdir.

Quranın bu özəlliyə sahib olması bir daha sübut edir ki, bu kitab Allah tərəfindən göndərilib və misli olmayan, möcüzəvi bir kitabdır.

Bu mövzunu daha yaxşı dərk etmək üçün, bəzi hadisələr ilə yaxından tanış olmaq daha uyğun olardı. Bunu nəzərə alaraq,

keçmişdə baş vermiş və Quranda haqqında danışılmış bəzi əhvalatlara işarə edəcəyik.

**Daşa dönərək, həlak olmuş Lut peyğəmbərin (ə) qövmü**

Tarixdə bir çox zalim hökmdarlar, eləcə də doğru yoldan çıxıb, azğınlıq və zülm içərisində yaşamış çox sayda qövmlər olub. Onlar böyük gücə və hakimiyyətə malik olsalar da, Allah əzab göndərərək, onları yer üzündən sildi. Uca yaradanımız olan Allah onlara əzab göndərdi ki, insanlar üçün ibrət dərsi olsun və hər kəs başa düşsün ki, əzəli və əbədi qüdrətə malik olan şəxs, yalnız Allahdır və bu fani dünyada yalnız Allahın əmri ilə yaşamaq lazımdır.

Allahın qəzəbinə düçar olan qövmlərdən biri də, Lut peyğəmbərin (ə) qövmüdür. Qısa da olsa, bu qövm haqqında aşağıda məlumat verəcəyik.

Lut Peyğəmbərin (ə) qövmü Pompey şəhərində yaşayıb və onlar zina, şərabxorluq, həmcinsbazlıq və digər haram işlər içərisində qərq olmuşdu. Bu şəhərdə insanlıqdan başqa hər şeyi tapmaq mümkün idi. Tarixi araşdırmalara görə bu şəhərdəki fahişəxanaların sayı, şəhər əhalisinin sayı qədər idi. Bu qövm həddən artıq azğınlığa düçar olduğu üçün Allah onlara əzab göndərdi və onları daşa döndərərək, məhv etdi. Quran bu tayfa haqqında məlumat verdiyi zaman, onların tarixdəki varlığı haqqında bir məlumat, həmçinin tarixi dəlil və iz yox idi. Bu qövmün yaşadığı qədim və torpaqlar altında itmiş şəhər, ilk dəfə 18-ci əsrin əvvəllərində italyalı bir fermer vasitəsi ilə kəşf oldu. 19-cu əsrdə İtalyalı alimlər bu tarixi şəhərdə araşdırma aparmağa başladılar. Onlar geniş qazıntılardan sonra inandırıcı olmayan səhnələr ilə üzləşdilər. Çünki qazıntılar nəticəsində kəşf olunan bütün əşyalar, hətta cəsədlər belə daşa dönmüşdü.

Elmi baxımından Pompey şəhərinin məhv olmasına səbəb olan ən mühim amil, bu şəhərin Vedius vulkan dağının ətəyində tikilməsi idi. Vedius vulkan dağının aktivləşmə ehtimalı olmadığı üçün, bu qövm şəhəri həmin dağın ətəyində qurdu və vulkanın aktivləşməsini ehtimal vermədən yaşayışlarına davam etdilər. İllər keçdi və bu qövm həddən artıq günaha qərq oldular. Lut peyğəmbər (ə) öz qövmünü bu çirkin işlərdən çəkindirməyə cəhd etsə də, onlar yenə öz iyrənc işləri ilə məşğul olmağa davam edirdi.

Nəhayət Allah onlara əzab göndərərək, şəhər və onun əhalisini məhv etdi.

Allah onları aktivləşməsi ehtimal olunmayan vulkanın vasitəsi ilə məhv etdi. Tarixi araşdırmalara görə vulkan aktivləşdi və şəhər əhalisi vulkanın zəhərli maddələri nəticəsində zəhərlənərək, həlak oldular. Vulkan toz-torpaqla birgə, havaya bəzi zəhərli maddələr də buraxdı. Bununla da şəhər əhalisi zəhərlənərək, yerə yıxıldı və vulkandan çıxan toz-torpaq, eləcə də zəhərli kül, onların cəsədləri üzərinə töküldü. Alimlər şəhər əhalisinin daşa dönməsini də, elə zəhərli kül ilə əlaqələndirirlər. Yəni şəhər əhalisinin üzərinə zəhərli kül töküldü və onlar yanaraq yox, bəlkə zəhərlənib öldülər və üzərlərinə tökülmüş zəhərli kül onların cəsədlərini bürüdü, kül soyuduqdan sonra isə, cəsədlərindəki kül daşa çevrildi.

Bu hadisədən uzun illər keçməsinə baxmayaraq, qazıntlar nəticəsində aşkar olunmuş cəsədlər çürümüş olsa da, onların zahiri görünüşü ilk gündə olduğu kimi qalmışdı. Yəni cəsədlər çürüsə də, üzərlərini kül bürüdüyü üçün, onların zahiri görünüşü pozulmamışdı.

Quran Lut peyğəmbərin (ə) qövmü haqqında belə buyurur: Lutu da (yad et)! Bir zaman o öz qövmünə belə demişdi: “Həqiqətən, siz özünüzdən əvvəl heç bir millətin etmədiyi əxlaqsızlığı edirsiniz. Siz kişilərə (şəhvətlə) yaxınlaşır, yol

kəsir və məclislərinizdə çirkin işlər görürsünüz?" Qövmünün cavabı isə: "Əgər doğru söyləyirsənsə, bizə Allahın əzabını gətir!" – demələri oldu. [1]

Ənkəbut surəsinin digər ayələrində isə, Allah Lut peyğəmbərin (ə) qövmünə göndərdiyi əzab haqqında danışaraq, belə buyurur: Elçilərimiz Lutun yanına gəldiklərində Lut onlara görə narahat oldu və ürəyi sıxıldı. Onlar belə dedilər: "Qorxma, kədərlənmə! Şübhəsiz, biz arvadın istisna olmaqla, səni və ailəni xilas edəcəyik. O, (əzab içində) qalanlardan olacaqdır. Etdikləri günahlara görə bu məmləkət xalqının üstünə göydən əzab endirəcəyik". [2]

Allah Quranın digər surələrində də Lut peyğəmbərin (ə) qövmü haqqında danışır. Ayələrin hər birində bu azğın tayfanın yanlış və əxlaqdan kənar əməlləri haqqında danışılır.

Misal üçün əraf surəsində Allah belə buyurur: Lutu da (peyğəmbər) göndərdik. Bir zaman o öz qövmünə belə demişdi: "Siz özünüzdən əvvəl heç bir insanın etmədiyi əxlaqsızlığımı edirsiniz? Çünki siz qadınları qoyub kişilərə şəhvətlə yaxınlaşırsınız. Siz həqiqətən, həddi aşmış bir qövmsünüz!" Qövmünün cavabı isə ancaq belə demək oldu: "Onları (Lutu və ona inananları) məmləkətinizdən çıxarın! Çünki onlar çox-çox təmiz adamlarmış!" Zövcəsi istisna olmaqla, onu (Lutu) və ailəsini xilas etdik. Zövcəsi (əzab içində) qalanlardan oldu. Onların üstünə (daş) yağışı yağdırdıq. Bax gör, günahkarların aqibəti necə oldu! [3]

Hicr surəsində yenə Allah Lut Peyğəmbər (ə) və onun azğın tayfası haqqında danışaraq, belə buyurur: Elçilər Lut ailəsinin yanına gəldikləri zaman; (Lut) dedi: "Həqiqətən, siz

---

Ənkəbut, 28-29.[1]
Ənkəbut, 33-34.[2]
Əraf, 80-84.[3]

tanımadığımız insanlarsınız”. (Mələklər) dedilər: “Əksinə, biz sənə onların şübhə etdiklərini (əzabı) gətirmişik.Sənə haqqı gətirmişik. Həqiqətən, biz doğru söyləyirik. Gecənin bir vaxtı ailəni yola çıxart, sən də onların arxasınca get. Sizdən heç kim dönüb arxasına baxmasın və sizə əmr olunan yerə gedin!” Və ona (Luta) bu əmri vəhy etdik: “Səhər vaxtı bunların (kafirlərin) kökü kəsilmiş olacaq”. Şəhər əhalisi sevinərək (mələklərin yanına) gəldilər. (Lut) dedi: “Bunlar mənim qonaqlarımdır, məni biabır etməyin! Allahdan qorxun və məni rüsvay etməyin!” Onlar dedilər: “Sənə camaatın işinə qarışmağı qadağan etməmişdikmi?” (Lut) dedi: “Əgər (düşündüyünüz şeyi) edəcəksinizsə, bunlar mənim qızlarımdır (qızlarımla evlənin)!” (Ey Peyğəmbər!) Sənin həyatına and olsun ki, həqiqətən, onlar sərxoşluqları (ehtirasları) içində çaşqın bir vəziyyətdə idilər. Beləcə, günəş doğarkən o qorxunc səs onları yaxaladı. Oranın altını üstünə çevirdik və onların üstünə odda bişmiş palçıqdan daşlar yağdırdıq. [1]

Lut Peyğəmbərin (ə) qövmü haqqında nazil olan bu və digər ayələri oxuyanda, bu qövmün fəsad, Allahın peyğəmbərinə (ə) qarşı itaətsizlik, inadkarklıq, Allaha şərik qoşma, bir çox böyük və iyrənc günahlar içərisində qərq olduqları məlum olur. Həmçinin bu surənin son ayələrindən belə nəticəyə gəlmək olur ki, bu qövm göydən yağan isti daş və torpaq nəticəsində həlak olub. Buda bir daha onu sübut edir ki, şəhərdə yaşayan üsyankar tayfa, Allahın əmri ilə aktivləşən vulkanın vasitəsi ilə həlakətə uğradı.

Ümumi olaraq Allah Lut peyğəmbər (ə) və onun üsyankar qövmü haqqında Əraf, Hud, Hicr, Ənbiya, Nəml, Ənkəbut, Saffat, Zariyat və Qəmər surələrində danışaraq, kifayət qədər məlumat verib. Adı çəkilən surələrin bəzi ayələrində bu

---

Hicr, 61-75.[1]

qövmün xüsusiyyəti və əzab növü haqqında oxşar məlumatlar verilir.

**Musa peyğəmbərin (ə) qırmızı dənizi ikiyə bölməsi**

Quranda adı çox çəkilən peyğəmbərlərdən biri də, Musa (ə) peyğəmbərdir. Uca yaradanımız olan Allah Quranın müxtəlif surə və ayələrində, Musa peyğəmbərin (ə) doğulduğu gündən, peyğəmbərliyə seçildiyi günə qədər və başına gələn bir çox hadisələr barədə ətraflı məlumat verdib.

Musa peyğəmbər (ə) haqqında nazil olan ayələri oxuyanda, görürük ki, Allah Musa peyğəmbərin (ə) doğulub, Fironun sarayında inanılmayan və möcüzəvi şəkildə böyüməsini ətraflı olaraq açıqlayır. Firon Musanın (ə) dünyaya gəldiyi ildə doğulmuş bütün oğlan uşaqlarını qətl etməyi əmr etydiyi halda, Musa (ə) Fironun sarayında böyüyür, peyğəmbərliyə seçilənə qədər Fironun gözü önündə və həmin sarayda yaşayır və sonda Fironun zülmlə dolu olan hakimiyyətini alt-üst edir.

Musa peyğəmbərin (ə) İsrail oğulları ilə birgə Misir və Fironun sarayından çıxıb, qırmıza dənizə tərəf hərəkət etməsi və qırmızı dənizin ikiyə bölünməsi, həmçinin Musa peyğəmbərin (ə) digər möcuzələri haqqında Quranda geniş məlumat verilib.

Burada ortaya belə bir sual çıxır ki, Musa peyğəmbərin (ə) möcüzələri haqqında elmi tədqiqatçılar necə düşünür? Yəni günümüzdəki alim və tədqiqatçılar Musanın (ə) möcüzələrinə, o cümlədən dənizi ikiyə ayırma hadisəsinə necə baxır? Bu suala cavab vermədən öncə, Musa peyğəmbərin (ə) möcüzələrindən sadəcə birini misal gətirmək məntiqə daha uyğun olardı. Çünki bir qədər əvvəldə qeyd etmişdik ki, Musa peyğəmbərin (ə) çox sayda möcüzələri olub və onların hər birinə elmi baxımından yanaşsaq, yazı çox uzanar. Bunu

nəzərə alaraq, Musa peyğəmbərin (ə) möcüzələri içərisindən sadəcə bir möcüzəsini araşdıracağıq və həmin möcüzə də, qırmızı dənizin ikiyə ayrılmasından ibarətdir.

Əgər bu tarixi hadisəyə elmi baxımından yanaşsaq, görərik ki, Musa peyğəmbərin (ə) qırmızı dənizi ikiyə ayırıb, keçdiyi yer, coğrafi baxımından dağlıq ərazi olub. Ona görə də Musa (ə) və İsrail oğullarının Fironun əlindən qaçacağı yeganə yer, qırmızı dənizə tərəf idi. Quranda bütün bu deyilənlər haqqında kifayət qədər məlumatlar var. Alim və tədqiqatçılar Musanın (ə) İsrail oğulları ilə birgə Misirdən qaçış hadısəsinə aid olan ayələri oxuduqdan sonra, inanılmaz nəticələr əldə etdilər. Tədqiqatçılar dənizin ikiyə bölünməsi haqqında inanılmaz nəticələr ilə qarşılaşdılar. Belə ki, alimlərin dənizin ikiyə bölünməsi haqqında etdikləri tədqiqatlardan sonra əldə etdiyi nəticələr, Quran ayələrində deyilənlər ilə eyni və çox oxşar idi. Tədqiqatçılar qırmızı dənizin ikiyə bölünməsini, eləcə də Musa (ə) və İsrail oğullarının Firondan xilas olma hadisəsini elmi metodla sübut ediblər.

Tədqiqatçıların əldə etdiyi nəticəyə əsasən, dənizin ikiyə bölünməsi üçün saniyədə 30 metrlik sürəti olan tufanın baş verməsi lazım idi. Musa peyğəmbər (ə) də məhz həmin sürətli tufanın vasitəsi ilə dənizi ikiyə bölərək, misli görülməyən bir möcuzə göstərdi. Bir çox tədqiqatçıların araşdırmalarına əsasən, sürəti çox olan tufanlar dəniz suyunu ikiyə bölmə gücünə malikdir.

Bunları nəzərə alanda, belə bir nəticəyə gəlmək olur ki, Qurandakı bütün hadisələr real hadisələrdir və həmin əhvalatların heç biri uydurulmuş deyil. Yəni dənizin ikiyə ayrılma hadisəsi tarixdə baş vermiş bir hadisədir və hətta günümüzdəki alim və tədqiqatçılar həmin qeyri adi hadisələrin reallıq ilə uyğun olduğunu sübut ediblər.

Allah Quranın bir çox ayələrində Musa (ə) və İsrail olğullarına aid əhvalatı geniş şəkildə açıqlayıb. Aşağıda həmin ayələrdən bəzisini gətirəcəyik.

Şübhəsiz ki, Biz Musaya: "Qullarımla birlikdə gecə yola çıx! (Fironun sizə) yetişməsindən qorxmadan və əndişəyə düşmədən onlar üçün dənizdə quru bir yol aç!" - deyə vəhy etdik. (Bu ilahi əmrdən sonra Həzrət. Musa qövmü ilə birlikdə gecə yola çıxmış, Firon da bundan xəbər tutmuşdu.) Buna görə də Firon ordusu ilə onları təqib etdi. Beləcə, dəniz onları büsbütün suya qərq etdi. Firon öz qövmünü azdırdı və doğru yola yönəltmədi. [1]

İsrail oğullarını dənizdən keçirtdik. Firon və əsgərləri zalımcasına və düşməncəsinə onları izlədilər. Nəhayət, Firon boğularkən dedi: "Mən İsrail oğullarının inandığı ilahdan başqa bir ilah olmadığına iman gətirdim. Mən də müsəlmanlardanam!". [2]

Dənizi (yarıb keçdikdən sonra) açıq qoy! Şübhəsiz ki, onlar suda boğulacaq bir ordudur". (Bundan sonra Həzrət Musa əsasını dənizə vurmuş və dəniz yarılmışdı. Musa peyğəmbər və qövmü dənizi keçdikdən sonra onların arxasınca gələn Firon və ordusu suda boğularaq məhv olmuşdu). [3]

Ayələri oxuyanda, Musa (ə) peyğəmbər və İsrail oğullarının Fironun zülmündən necə xilas olduqları məlum olur. Həmçinin ayələrdə dənizin ikiyə ayrılması barədə də danışılır. Dənizin ikiyə ayrılması həm Musa (ə) peyğəmbərin dövründə, həmdə hal-hazırdakı dövrdə misli görünməmiş möcüzələrdəndir.

---

Ta-ha, 77-79.[1]
Yunus,90.[2]
Duxan, 24.[3]

## Quranın Mələklər aləmindən yer üzünə nazil olması

Quranın möcüzələrindən biri də, bu müqəddəs kitabın Cəbrail mələyinin vasitəsi ilə Peyğəmbərə (s.ə) nazil olmasıdır. Quran Məkkə şəhərində nazil olub və bu kitab islam dininin ən mötəbər və əsas kitabıdır. Ayələrə əsasən Quranın nazil olma tarixi Ramazan ayına və Qədr gecəsinə təsadüf edir. On iki ay içərisində ən önəmli və dəyərli Ramazan ayı olduğu üçün, eyni zamanda da il boyu bütün gecələr içərisində Qədr gecəsi ən üstün gecə olduğunu nəzərə alanda, bu kitabın nə qədər əzəmətli bir kitab olduğu məlum olur.

Təsəvvür edin ki, dünyada mövcud olan milyonlarla kitab içərisində bir tək Quran Allah tərəfindən göndərilib və yalnız bu müqəddəs kitabın müəllifi aləmlərin Rəbbi olan Allahdır. Bundan üstün bir möcüzəmi ola bilər? Təsəvvür edin ki, bir insana Allah çox sayda ismariclar yollayır və sonda həmin ismarıclar kitab həddinə çatır. Ona görə də Quranın misilsiz və tayı-bərabəri olmayan bir kitab olmasının əsas səbəblərindən biri də budur ki, bu kitab mələklər aləmindən və Allahın vasitəsi ilə göndərilmiş bir kitabdır.

Bəzi islam düşmənləri və islamdan xəbəri olmalaynlar Quranın Allah tərəfindən göndərilmədiyini iddia edirlər. Onların iddiasına görə Quranı Peyğəmbərin (s.ə) özü yazıb və bu kitab Allah tərəfindən göndərilməyib.

Bu düşüncədə olan insanlar həm Peyğəmbərin (s.ə) dövründə olub, həmdə hal-hazırdakı dövrdə var.

Allah bu düşüncənin yanlış olduğunu bildirmək üçün bir neçə Quran ayəsi nazil edib və bu ayələrin vasitəsi ilə onların yanlış fikirdə olduqlarını sübut edib.

Allah ayələrin bəzisində bu yanlış fikirdə olan insanları Qurana oxşar olan kitabın gətirilməsini istəyir. Yəni Allah həmin insanlara üz tutaraq, belə buyurur: “Əgər Quranın Allah tərəfindən nazil olmasına inanmayıb, onun bir insan tərəfindən

yazıldığını iddia edirsinizsə, onda sizdə Quran kimi bir kitab yazın".

Təbii ki, Peyğəmbərin (s.ə) sağlığından indiyə qədər Quran kimi və ya Qurana bənzər bir kitab yazmaq istəyənlərin sayı heçdə az olmayıb. Amma onların cəhdi puça çıxıb və bu məntiqsiz addımları ilə özlərini gülünc vəziyyətə salıblar.

Allah ayələrin birində həmin insanlara üz tutaraq, belə buyurur:

De: "Əgər insanlar və cinlər bu Qurana bənzər bir şey gətirmək üçün bir yerə toplaşıb, bir-birinə kömək etsələr belə ona bənzərini gətirə bilməzlər". 1

Diqqət etsək, görərik ki, Allah açıq şəkildə bütün insanlardan və hətta cinlərdən belə Qurana bənzər bir kitabın gətirmələrini istəyir. Allahın bu istəyinin mənası budur ki, əgər Quran Allah tərəfindən yox, insan tərəfindən yazılsa idi, Qurana bənzər digər bir kitabın yazılması mümkün olardı. Əsrlərdir ki, Allahın bu çağırışı öz yerində qalıb, amma Allah və Peyğəmbərə (s.ə) iftira edənlər nəinki Quran kimi bir kitab yaza bilməyiblər, heç Quran ayəsi kimi bir ayə də gətirməyə qüdrətləri olmayıb və ola da bilməz.

**Dağların hərəkət etməsi**

Allah Quranda dağların hərəkət etməsi barədə bizə xəbər verir. Bir qədər düşünsək, başa düşərik ki, on dörd əsir bundan qabaq dağların hərəkət etməsini heç kim kəşf edə bilməzdi. Çünki həmin dövrdə elm günümüzdəki kimi inkişaf etməmişdi və dağların hərəkət etməsini sübut etmək üçün kifayət qədər imkanlar da yox idi. Amma Allah Quranda bu həqiqətə işarə edib, dağların hərəkət etməsindən danışır. Diqqət etsək,

---

İsra, 88.[1]

görərik ki, Allah bu ayədə açıq şəkildə dağların hərəkətsiz olmadıqlarını və onların daim hərəkətdə olduqlarını açıqlayır.

Ona görə də Quranın belə bir mövzu haqqında danışması bir daha onu sübut edir ki, bu kitabda deyilənlərin hər biri reallıq ilə uyğundur.

Allah Peyğəmbərə (s.ə) xitab edərək, belə buyurur: Sən dağlara baxıb onları hərəkətsiz durmuş güman edərsən, halbuki onlar bulud keçdiyi kimi keçib gedərlər. Bu, hər şeyi kamil şəkildə edən Allahın işidir. Şübhəsiz ki, O, etdiklərinizdən xəbərdardır. [1]

Dağların bu hərəkəti üzərində dayandıqları Yer qabığının hərəkətindən meydana gəlir. Yer qabığı özündən daha çox qalın olan mantiya təbəqəsinin üstündə sanki üzür.

İlk dəfə XX əsrin əvvəllərində Alfred Veqner adlı alman alimi Yer kürəsindəki qitələrin dünyanın yaradıldığı ilkin dövrdə bir yerdə olduqlarını, onların sonradan ayrılaraq müxtəlif istiqamətlərə doğru uzlaşdıqlarını iddia etmişdi.

Ancaq geoloqlar Veqnerin iddiasının doğruluğunu onun ölümündən yalnız 50 il sonra, yəni 1980-ci illərdə başa düşə bildilər.

Veqner 1915-ci ildə dərc olunan bir məqaləsində qeyd edirdi ki, Yer kürəsinin quru hissələri təxminən 500 milyon il əvvəl bir-birinə bitişik idilər. Pangeya deyilən bu böyük quru hissəsi Cənub qütbündə yerləşirdi.

Təxminən 180 milyon il əvvəl Pangeya iki yerə ayrılıb. Müxtəlif istiqamətlərə ayrılan bu iki nəhəng qitədən birincisi özündə Afrika, Avstraliya, Antarktika və Hindistanı ehtiva

Nəml, 88.[1]

edən Qondrana idi. İkincisi isə Avropa, Şimali Amerika və Hindistan istisna olmaqla Asiyadan ibarət Lavrasiya idi.

Bu bölünmədən sonra təxminən 150 milyon il ərzində Qondrana və Lavrasiya müxtəlif dövrlərdə daha kiçik hissələrə ayrıldılar.

Pangeyanın hissələrə bölünməsi ilə ortaya çıxan bu qitələr quru və dəniz arasında ildə bir neçə santimetrlik uzaqlaşmalarla Yer üzərində bir-birindən davamlı olaraq uzaqşırlar.

Yer qabığının XX əsrin əvvəllərində aparılmış geoloji tədqiqatlar nəticəsində kəşf edilən bu hərəkəti elmi əsərlərdə belə izah edilir: Yer qabığı və yuxarı mantiyadan meydana gələn 100 km qalınlığındakı Yerin üst qatı «təbəqə» deyilən hissələrdən təşkil edilmişdir.

Dünyanın səthini təşkil edən 6 böyük təbəqə və saysız-hesabsız kiçik təbəqələr mövcuddur. «Təbəqə tetonogiyası» deyilən nəzəriyyəyə görə, bu təbəqələr qitələri və okean tabanını da özü ilə apararaq dünya üzərində hərəkət edir…

Qitələrin hərəkətinin ildə 1-5 sm arasında olması dəqiq şəkildə hesablanıb. Təbəqələr bu cür hərəkət etdikcə dünyanın coğrafiyasında da dəyişikliklər meydana gəlir. Məsələn, Atlantik okeanı hər il bir az genişlənir.

Burada qeyd edilməsi vacib olan bir məsələ də budur: Allah dağların hərəkət etdiyini ayədə «keçib getmə» olaraq bildirib.

Həmçinin alimlərin bu gün bu hərəkəti ifadə etmək üçün ingilis dilində işlətdiyi «shteştutefd vkşae» kəlməsinin də tərcüməsi «qitələrin sürüşməsi»dir.

Qitələrin bir-birindən ayrılması Quranın göndərildiyi dövrdə müşahidə edilə bilməyən bir məsələdir. Allah ayədə bildirilən «dağlara baxıb onları donmuş zənn edərsən» ifadəsi ilə insanların bu məsələni necə dəyərləndirdiyini əvvəlcədən xəbər verib. Ancaq ayənin davamı ilə bir həqiqəti də açıqlayıb və dağların buludların keçdiyi kimi keçib getdiyini xəbər verib.

Göründüyü kimi, ayədə dağların yerləşdiyi təbəqənin hərəkət etməsinə aydın şəkildə diqqət yetirilir. Elmin yeni kəşf etdiyi bu həqiqətin Quranda bildirilməsi şübhəsiz ki, Quranın möcüzələrindən biridir. Eyni zamanda da Quranın dağların hərəkəti barədə söylədikləri həqiqiətlər bir daha onu sübut edir ki, bu müqəddəs kitabda danışılanların hamısı reallıq ilə uyğundur.

**Yağışın meydana gəlməsi**

Uzun illər boyu yağışın necə yaranması insanlar üçün bir sirr idi. Onlar yağışın necə əmələ gəlməsi barədə çox sayda tədqiqatlar etsələr də, heç bir nəticə əldə edə bilmirdilər. Zaman keçdi və meteoroloji radarların ərsəyə gəlməsi ilə, nəhayət ki, yağışın yaranma prosesini başa düşə bildilər.

Yağış üç mərhələdən keçərək əmələ gəlir. Əvvəlcə yağışın "xammalı" külək vasitəsi ilə havaya qalxır, sonra buludlar meydana gəlir, nəhayət, sonda yağış damcıları ortaya çıxır. Quranda yağışın əmələ gəlməsi ilə əlaqədar söylənənlər isə bütövlükdə bu proseslərin mahiyyətini açıqlayır. Bir ayədə yağışın yaranması prosesi haqqında belə məlumat verilir:

"Buludları hərəkətə gətirən, külələri göndərib onları göy üzündə istədiyi kimi yayan və topa-topa edən Allah`dır. Artıq buludların arasından yağış çıxdığını görürsən. Onu (yağışı) bəndələrindən istədiyinə verən kimi onlar sevinərlər". [1]

İndi isə bu ayədə ifadə edilən üç mərhələni araşdıraq:

1-ciI mərhələ. "Allah küləkləri göndərir..." Okeanlardakı suyun köpüklənməsi nəticəsində əmələ gələn saysız hava qabarcıqları davamlı şəkildə ortaya çıxdıqda su zərrələri mütəmadi olaraq havada fırlanır. Duzlarla zəngin olan bu su zərrələri daha sonra küləklər vasitəsilə yuxarıya - atmosferə doğru yol alır. Aerozol adlandırılan bu kiçik su zərrələri dənizlərdən qalxan su buxarını "su tələsi" adı verilən bir mexanizmlə öz ətrafında kiçik damcılar halında toplayaraq bulud topalarını əmələ gətirir.

2-ci mərhələ. "...Buludları hərəkətə gətirər, onları göy üzündə istədiyi kimi yaradar və topa-topa edər..." Duz kristallarının və yaxud da havadakı toz zərrəciklərinin ətrafında sıxlaşan su buxarı sayəsində buludlar əmələ gəlir. Bunların içindəki su damcıları çox kiçik (0,01 və 0,02 mm) olduğuna görə, onlar havadan asılı qalır və havaya yayılırlar. Beləcə, göy buludlarla örtülür.

3-cü mərhələ. "...Artıq buludların arasından yağış çıxdığını görürsən".

Duz kristalları və toz zərrəcikləri ətrafında yığılan su damcıları artıb qalınlaşaraq yağış damcılarını əmələ gətirirlər. Beləcə, havada daha da böyüyən və ağırlaşan damcılar buluddan ayrılaraq yağış şəklində yerə düşməyə başlayır.

---

Rum, 48.[1]

Göründüyü kimi, yağışın əmələ gəlməsinin hər bir mərhələsi Quran ayələrində aydın şəkildə təsvir olunub. Həm də bu mərhələlər elmi mənbələrdəki mərhələlərə uyğun olaraq açıqlanıb. Dünyadakı əksər təbii hadisələrdə olduğu kimi, bu məsələdə də Allah ən doğru olanı açıqlamış, həm də bunu elmi kəşflərdən əsrlərlə əvvəl Quran vasitəsilə insanlara çatdırmışdır.

Başqa bir ayədə isə yağışın əmələ gəlməsi haqda bu məlumatlar verilir:

"Məgər görmürsənmi ki, Allah buludları qovur, sonra onları bir-birinə qovuşdurur, sonra da onları bulud topasına çevirir. Sən onun arasından yağmur çıxdığını görürsən. Allah göydən, oradakı dağlar kimi buludlardan dolu yağdırır. Sonra da onunla istədiyini vurur, istədiyindən də onu uzaq edir. Buludların şimşəyinin parıltısı az qalır ki, gözləri kor etsin". [1]

Buludların tiplərini öyrənən alimlər yağışın əmələ gəlməsi ilə bağlı heyrətamiz nəticələr əldə ediblər. Yağış buludları müəyyən bir sistem və mərhələ daxilində əmələ gəlir və öz formasını alır. Yağış buludlarından biri olan kümülonimbus növlü buludların əmələ gəlməsi prosesinin elmi izahı aşağıdakı kimidir:

1-ci mərhələ. Qovulma: buludlar olduqları yerdən küləklər tərəfindən tərpədilərək qovulurlar.

2-ci mərhələ. Toplanma: külək tərəfindən qovulan bu kiçik buludlar (kümülonimbus) qovulduqları başqa yerdə toplanıb yeni böyük buludları əmələ gətirirlər.

3-cü mərhələ. Yaranma: kiçik buludlar birləşəndən sonra böyük buludun içindəki yuxarı çəkmək gücü çoxalır. Buludun mərkəzindəki yuxarı çəkmə gücü kənarlardakı analoji gücdən daha çoxdur. Bu yuxarı çəkmələr buludun gövdəsindən başlayaraq yuxarı istiqamətə doğru böyüməsinə səbəb olur.

---

Nur, 43.[1]

Bununla da buludlar yuxarı tərəfə genişlənərək üst-üstə yığılır. Bu da yuxarı tərəfə doğru böyüyən buludun gövdəsinin atmosferin daha sərin yerlərinə tərəf uzanmasına səbəb olur. Bu nöqtədə atmosferin sərin qatlarındakı buludda olan su və dolu damcıları böyüməyə başlayır. Bu mərhələlərin nəticəsində su və dolu damcıları yuxarı çəkilmə gücünün onları dəstəkləyə bilməyəcəyi qədər ağırlaşdığı vaxt buludlardan yağış, dolu və s. yağmağa başlayır.

Unutmaq olmaz ki, meteoroloqlar buludun əmələ gəlməsi, strukturu və funksiyası ilə bağlı proseslərin bütün təfərrüatlarını yalnız son dövrlərdə, özü də son dövrün inkişaf etmiş elmi-texniki nailiyyətlərindən (təyyarə, süni peyklər, kompyuter və s.) istifadə etməklə öyrəniblər. Amma nəzərdən qaçırılmamalıdır ki, bütün bunlar barədə hələ 1400 il bundan əvvəl Allahın bu ayələrində məlumat verilmişdi.

**Barmaq izlərindəki " Şəxsiyyət vəsiqəsi"**

Quranda insanları ölümündən sonra diriltmənin Allah üçün çox asan olduğu bildirilir və bu zaman insanların xüsusilə barmaqlarının uclarına diqqət yetirilir.

Əzəli və əbədi yaradanımız olan Allah belə buyurur: İnsan elə zənn edir ki, Biz onun sümüklərini bir yerə yığa bilməyəcəyik? Bəli, biz onun barmaq uclarını da (yenidən) düzəltməyə qadirik. [1]

Ayədə barmaq uclarının vurğulanması son dərəcə hikmətamizdir. Çünki bütün insanların barmaq izləri tamamilə bənzərsiz və təkrarsız, tamamilə özünəməxsusdur. Yer üzündə yaşayan hər bir insanın barmaq izi digər insanın barmaq izindən fərqlənir. Bundan başqa, tarix boyunca yaşamış insanların barmaq izləri də bir-birindən fərqlidir. Həmçinin

---

Qiyamət, 3-4.[1]

eyni DNT düzülüşünə malik olan və eyni yumurtadan yaranan əkizlər də fərqli barmaq izlərinə sahibdir.

Barmaq izi doğuşdan əvvəl dölün üzərində son şəklini alır və barmaq onun dəri strukturunu deformasiyaya uğradaraq tamamilə sıradan çıxaran yara almasa, bu izlər ömür boyu sabit qalır. Buna görə də insanlar barmaq izlərini öyrənən elmdən hansısa bir şəxsi müəyyənləşdirmək məqsədilə istifadə edirlər. Bu elm həmin izləri müəyyənləşdirməkdə əsas vasitədir.

Burada ən mühüm məsələ barmaq izlərinin özünəməxsusluğunun yalnız XIX əsrin axırlarında kəşf edilməsidir. Ondan əvvəl insanlar barmaq izlərini heç bir xüsusiyyəti və mənası olmayan cizgilər kimi qəbul edirdilər. Quranda isə o dövrdə heç kimin ağlına gəlməyən barmaq izlərindən bəhs olunur və bu izlərin ancaq zamanımızda qeyd edilən əhəmiyyətinə diqqət yetirilir.

Peyğəmbərin (s.ə) zamanında yaşayan insanlar üçün barmaq izlərinin heç bir əhəmiyyəti yox idi. Onlar barmaq izlərinə diqqət etsələr də, bu izlər onlar üçün heç bir əhəmiyyət daşımırdı. 1856-cı ildə İngiltərəli bir alim hər insanın barmaq izinin özünə məxsus olduğunu kəşf etdi. Qeyd olunan tarixə qədər insanlar barmaq izlərinin bu xüsusiyyətə malik olduğundan xəbərsiz idilər. Alimlər bütün insanların barmaq izlərinin fərqli və özünə məxsus bir izə sahib olduğunu kəşf edəndən sonra, hər bir insanın barmaq izi, onun şəxsiyyət vəsiqəsinə çevrildi. Zaman keçdi və polislər cinayətkarları tapmaq və ya naməlum vəziyyətə düşmüş cəsədlərin şəxsiyyətini müəyyən etmək üçün barmaq izlərindən istifadə etməyə başladılar. Hər bir insanın, hətta əkizlərin belə barmaq izləri fərqli olduğu üçün, onları dəyişdirmək mümkün deyil və hər bir insanın barmaq izi, əslində onun imzasıdır.

Əzəmətli yaradanımız olan Allah, on dörd əsr bundan öncə insanların barmaq izləri haqqında müqəddəs Quranda xəbər verib və bu xəbər bir daha onu sübut edir ki, Quranda danışılan bütün xəbərlər real məlumatlardan ibarətrdir.

**Yerin kürə şəklində olması**

Əsrlər boyu insanlar yer kürəsinin forması barədə fərqli fikirdə olublar. Bəzi alimlər yerin dairəvi, bəziləri isə düz olmasına inanırdılar. Uzun illər keçdi və bir neçə əsr bundan qabaq alimlər məntiqi və elmi dəlillərə əsaslanaraq, yer kürəsinin kürə şəklində olduğunu sübut edə bildilər.

Zaman keçdi, texnologiya inkişaf etdi və insan kosmosa ayaq qoymağa başladı. Kosmosdan yerin kürə şəklində olduğu çox aydın şəkildə bəlli olurdu.

Əgər Quranı mütaliə etsək, yerin kürə şəklində olduğunu sübut edən ayələrə rast gələ bilərik.

Misal üçün Allah Quranda buyurur: Allah göyləri və yeri haqq ilə yaratdı. O, gecəni gündüzə, gündüzü də gecəyə bürüyür. Günəşi və ayı da (sizə) ram etdi. Hər biri müəyyən bir müddətə qədər (öz orbitində) hərəkət edir. Bilin ki, O, yenilməz qüvvət sahibidir, çox bağışlayandır. [1]

Diqqət etsək, görərik ki, ayədə “Bürüyür” sözü işlədilib. Ərəb dilində “Bürüyür” sözü “ Yukəvviru” olaraq işlənir və ərəblər bu sözü başa əmmamə bükmək üçün də işlədirlər. Yəni necə ki, insanın başı dairəvidi, yer kürəsi də dairəvidir və bu baxımdan da Allah yer kürəsi üçün də ayədə “ Bürüdü” sözünü işlədib.

Yerin kürə şəklində olduğuna dəlalət edən digər ayələr isə aşağıdakılardan ibarətdir.

---

Zümər, 5.[1]

Və həmişə zəif və aciz dəstəni o torpaqların çox xeyir-bərəkətli etdiyimiz şərq və qərblərinin varisi təyin etdik. [1]

Göylərin, yerin və onların arasında olanların Rəbbidir. Məşriqlərin Rəbbidir. [2]

And olsun məşriqlərin və məğriblərin Rəbbinə, biz qadirik. [3]

Ayələr hamısı məşriq və məğriblərin (günçıxan və günbatanların) birdən çox olduğunu göstərir. Bu da təbii ki, yerin kürəvi olmasına dəlalət edir. Çünki yer hamar və düz şəkildə olsaydı dünyanın bir şərqi və bir də qərbi olardı. Yer yalnız kürəvi olduğu təqdirdə əyriliyi ilə mütənasib olaraq hər nöqtəsinin ayrı-ayrılıqda şərq və qərbi olacaqdır. Bu da, günəşin onun bir nöqtəsində doğması digər nöqtəsində batması deməkdir. Deməli, ayələrdəki məşriq və məğribin çoxluğu Yerin kürə şəklində olmasına əyani sübutdur.

Məsum imamların (ə) hədislərində, o cümlədən İmam Sadiqdən (ə) nəql olunan hədisdə, yerin kürəvi olmasını aydın şəkildə anlamaq olar. Hədislərin birində imam Sadiq (ə) buyurur:

“Səfərlərimin birində bir kişi mənimlə yol yoldaşı oldu. O, həmişə məğrib namazını gecənin qaranlığında və sübh namazını tam qaranlıqda (gecənin axırında) qılırdı. Amma mən onun əksinə olaraq günəş qürub edəndə məğrib namazını qılırdım. Fəcr doğanda isə sübh namazını yerinə yetirirdim. Həmin kişi məndən onun kimi etməyimi istədi. O, öz əməlini belə izah edirdi: "Gün bizim torpağımıza doğmazdan öncə başqalarının torpağına doğur. Bizim yerlərdən batandan sonra hələ də başqalarına nur saçır”.

İmam Sadiq (ə) buyurur ki, mən cavabında dedim: Bizim vəzifəmiz budur ki, günəş bizim üfüqdə batdığı zaman məğrib

---

Əraf, 137.[1]
Saffat, 5.[2]
Məaric, 40.[3]

namazını qılaq. Günəşin digər nöqtələrdə də batdığını gözləməməliyik. Fəcr doğan zaman sübh namazını qılmalıyıq, baxmayaraq ki, günəş hələ digər yerlərdə doğmuşdur. Belə ki, həmin nöqtələrdə yaşayan insanlar öz namazlarını fəcr doğan zaman və günəş batan zaman öz üfüqləri ilə yerinə yetirməlidirlər. [1]

Bu həqiqəti İmam (ə) digər bir hədisdə belə bəyan edir: "Sən məntəqənin məşriq və məğribini öz əməlin üçün meyar qərar verməlisən."

Bu ayə və hədislərin hər biri Yerin kürəvi şəklində və Quranın reallıqlar ilə uyğun olmasını sübut edir.

**İnsanın Su və Torpaqdan yaradılması**

Allah-tala insanların yaradılışında istifadə olunan ilkin materialların su və torpaq olduğunu bildirir. Qurana müraciət etsək, görərik ki, bəzən həmin maddələr ayrılıqda zikr olunur. İnsanın yaradılışı haqqında danışılanda, bəzən onun sudan, bəzən isə gildən yaradılması açıqlanır. Necə ki, Allah Muminun surəsində buyurur: Həqiqətən, Biz insanı süzülmüş palçıqdan yaratdıq. [2]

Kimya və biologiya elminin inkişaf etdiyi bir əsrdə, insan və torpaq, eləcə də onların arasındakı oxşar cəhətlər sahəsində elmi tədqiqat və araşdırmalar aparılmağa başlandı.

Bu tədqiqatlar nəticəsində məlum oldu ki, insan və torpaqdakı materiallar, bir-birinə çox oxşardır. Belə ki, insan bədəninin % 61-nı oksijen, %18-nı karbon, % 10-nı hidrojen, % 3-nı azot, % 1.5-nı kalsiumn, % 1-nı fosfor və geridə qalan digər hissələrini isə başqa elementlər təşkil edir.

---

Vəsailuş-şiə,cild 1, səh 237.[1]
Muminun, 12.[2]

Allah bu cansız və şüursuz maddələri məntiqli şəkildə bir araya gətirib, ağıllı və dərrakəli insanı yaratdı.

İnsanın torpaqdan yaradılmasının səbəbini başa düşmək üçün, onun tərkibində torpaqdakı maddələrin olduğunu bilmək kifayət edər.

Bəzi ayələrdə isə insanın sudan yaradılması bildirilir. Aşağıda həmin ayələri gətiririk.

Allah hər bir canlını sudan yaratdı. Onlardan eləsi var ki, qarnı üstə sürünür, eləsi var ki, iki ayaq üstündə gəzir, eləsi də var ki, dörd ayaq üstündə gəzir. Allah dilədiyini yaradar. Şübhəsiz ki, Allah hər şeyə qadirdir. [1]

İnkar edənlər göylər və yer bitişik ikən Bizim onları ayırdığımızı və hər bir canlını sudan yaratdığımızı görmədilərmi?! Hələ də iman gətirmirlərmi? [2]

İnsanı sudan (nütfədən) yaradıb onu nəsillərə çevirən və aralarında qohumluqlar yaradan Odur. Rəbbin hər şeyə qadirdir. [3]

Canlıların və insanın yaradılması ilə bağlı ayələrə nəzər salanda bu cür xəlq edilmənin möcüzəli məsələ olduğunu aydın şəkildə görürük.

Bu möcüzəli yaradılışın formalarından biri canlıların sudan xəlq edilməsidir. İnsanların əksər ayələrdə qeyd edilən bu həqiqətə yetişməsi isə əsrlər sonra mikroskopun icad edilməsi ilə mümkün olub.

Bu gün əsas ensiklopediyalarda "Su canlı maddənin ən böyük xassəsidir. Canlı orqanizmlərin kütləsinin 50-90 faizi sudur" ifadələri geniş yer tutur. Bundan əlavə, haqqında bütün biologiya kitablarında bəhs edilən standart bir heyvan hüceyrəsinin sitoplazması (hüceyrənin əsas maddəsi) da 80

---

Nur, 45.[1]
Ənbiya, 30.[2]
Furqan, 54.[3]

faizi sudan ibarətdir. Sitoplazmanın analiz olunub elmi mənbələrdə qeyd edilməsi Quranın göndərilməsindən əsrlərlə sonra baş verib. Dolayısilə, bu gün elm dünyasının qəbul etdiyi bu həqiqətin Quranın göndərildiyi dövrdə bilinməsi, əlbəttə ki, mümkün deyildi. Ancaq buna baxmayaraq, Quranda bu məsələyə insanların onu kəşf etməsindən 14 əsr əvvəl diqqət çəkilib.

**Dağların vəzifəsi**

Allah Quranda Dağların geoloji xüsusiyyəti haqqında belə buyurur: O, göyləri görə biləcəyiniz dirəklər olmadan yaratdı. Sizi yırğalamasın deyə yerə uca dağlar yerləşdirdi və onun hər tərəfinə növbənöv canlılar yaydı. Biz göydən su endirib onunla orada hər növ gözəl bitkidən bitirdik. [1]

Əgər ayəyə diqqət etsək, dağların silkələnməyin qarşısını almaq xüsusiyyətinə malik olduğunu başa düşərik. Quran nazil olduğu əsrdə heç kimin dağların bu xüsusiyyəti barədə xəbəri yox idi. Əsrlər keçdi və yalnız texnologiyanın inkişaf etməsindən sonra dağların bu xüsusiyyəti insanlar üçün kəşf oldu. Çünki keçmişdə insanlar elə güman edirdilər ki, dağlar yalnız nəhəng obyektlərdir və onların həmin xüsusiyyətindən başqa, digər xüsusiyyətləri yoxdur.

Lakin elm adamları dağların yalnız yer üzündə hündür obyekt olmadığını başa düşdülər. Belə ki, alimlər uzun tədqiqatlardan sonra bu nəticəyə gəldilər ki, dağlar öz hündürlüklərindən də uzun olan çox dərin köklərə də malikdilər.

Dağları bu xüsusiyyətləri ilə mismar ilə yerə bərkidilımiş çadıra bənzətmək olar.

---

Loğman, 10.[1]

Digər bir ayədə isə Allah belə buyurur: Biz yer üzünü döşəmədikmi?! Dağları da dirəklər etmədikmi?! [1]

Bildiyimiz kimi digər dinlərdən fərqli olaraq İslam dini ilə elm bir-birindən ayrılmaz məfhumdur. Son əsrlərdə meydana çıxan bir çox elmlər vardır ki, Qurani-Kərim bu elmlər barədə 14 əsr əvvəl dəqiqliklə məlumat vermiş və nəhayət dünya elmləri inkişaf etdikdən sonra Quranda deyilən elmi həqiqət öz təsdiqini tapmışdır. Buna misal olaraq Quranın Geologiya elminə işarə edərək dağların və onların Yer kürəsində rolu barəsində tam dəqiqliklə xəbər verməsidir.

Hər kəs bilir ki, dağlar şiddətli qasırğa və tufanların zərərinin qarşısını alır, hava axınını düzənləyir, qışda üzərindəki bol qarlar yayda əriyərək çaylara, göllərə axır və bununla da bütün canlılar faydalanmış olurlar.

Həmçinin dağlar olmasaydı Yer üzünün çoxluğunu təşkil edən okean və sular torpağı udar, torpaq yer səthində sabit qalmaz, sular torpaq daxilində cəm ola bilməz və bitkilər də bitməzdi. Qısa desək, Allah yer üzünə lütfü olan dağları yaratmasaydı, Yer kürəsində yaşamaq mümkünsüz olardı.

ABŞ-ın məşhur elmi saytı olan www.qz.com saytında deyilir:

"Dağlar olmasaydı, Yer Mars kimi soyuq və cansız ola bilərdi".

Lakin dağların ən mühüm digər faydası da vardır ki, bu barədə Allah-tala Qurani-Kərimdə buyurur: Məgər Biz yeri döşək və dağları da payalar etmədikmi?! [2]

Uca yaradan Qurani-Kərimdə dağları qısa bir kəlmə ilə "paya" adlandırmasına baxmayaraq onun Yer üzündə olan və gələcək nəsillərin özlərinin də şahidlik edəcəyi böyük bir funksiyasına işarə etmişdir.

---

[1] Nəbə, 6-7.
[2] Nəbə, 6,7.

Keçmiş ABŞ Prezidenti Jimmy Karterin məsləhətçisi olmuş və eyni zamanda 12 il ABŞ Milli Elmlər Akademiyasının rəhbəri vəzifəsində çalışmış professor Emeritus Frank Pressin iki müəllifdən biri olduğu və bir çox dünya universitetlərində tədris edilən "Earth" (Yer) adı ilə tanınan kitabın 158, 220, 413 və 435-ci səhifələrində dağların köklərinin torpağın dərinliklərinə sancıldığını, buna görə də dağların paya və ya çiv rolunu oynadığını qeyd edərək sxematik təsvirini də göstərmişdir.

Yer kürəsini tədqiq edən müasir elmlər dağların yerin altında dərin köklərinin uzandığını və bu köklərin dağların torpağın üst qatında olan hissəsindən 10-20 dəfə daha nəhəng olduğunu təsdiq edir.

ABŞ-ın məşhur testingtheglobe.com adlı elmi saytında: "Dünya dirəklərlə qorunan yaxud bərkidilən və suyun uzərində üzən bir disk kimidir"- yazılmış və bu şəkil də həmin saytda qeyd olunmuşdur.

İlk dəfə dağların kökünün olduğu 19-cu əsrin sonunda məşhur İngilis alimi Corc Bidel Eri (1801-1892) tərəfindən kəşf edilmişdir.

Belə ki, London Geologiya Cəmiyyətinin saytında "Dağların kökü" haqqında yazılmış məqalədə Corc Bidel Erinin dağların yerin altında kökləri olduğu üçün daha az qravitasiya çəkdiklərini və onların daha çox hissəsinin yerin altında suda üzən aysberq kimi uzandqlarını söylədiyi qeyd olunmuşdur.

İngiltərənin məşhur ensklopediya saytında deyilir: "Yüksək dağların mantiyanın altında dərinliklərə enən az sıxlıqlı kökləri vardır".

Fransalı Professor Andre Cailleux 1968-ci ildə çap edilmiş "Anatomy of the Earth" ("Yerin anatomiyası") kitabında deyir:

"Dağlar dirəklər kimi yerə gömülmüş dərin köklərə malikdir. Bu köklər yerin dərinliklərinə gedib çıxır. Ona görə də dağlar, sanki payaya bənzəyir". [1]

Andre Cailleux həmin kitabın 221-ci səhifəsində dağların köklərini belə təsvir etmişdir.

Çox maraqlıdır ki, Quranın nazil olmasından əsrlər sonra dağları Quranın vəsf etdiyi kimi müasir alimlər də həmçinin "paya" adlandırıblar.

Almaniyanın məşhur elmi saytı olan www.researchgate.net saytında D. Pedreira, J. Gallart, J. A. Pulgar və J. Diaz kimi tanınmış alimlər də həmçinin dağların mahiyyətindən bəhs edərkən Qurandan xəbərləri olmaya-olmaya dağları Quran dili ilə "paya" kimi vəsf etmiş və Alp dağlarının kökünün yerin dibinə 42 km dərinliyində uzandığını qeyd ediblər.

Paya ərəb dilində (وتد) "vatəd", ingilis dilində isə "vedge", yaxud "peg" adlanır.

Paya bir şeyi saxlamaq üçün tir, dayaq, sütun, dirək deməkdir. Həmçinin külək tərpətməsin deyə yerə paya vuraraq çadırı iplə bu payaya bağlayırlar.

Yer üzünü saxlamaq üçün paya rolunu oynayan nəhəng dağlardan biri kimi Himalay dağını misal çəkmək olar.

Himalay dağları silsiləsi 7200 metrdən hündür olan 50-dən çox nəhəng dağları əhatə edir və Yer kürəsində olan ən hündür bir neçə zirvələrə malikdir. Everest adlanan ən yüksək zirvəsi 8848 metr, digər 14 zirvələrindən 10-u isə 8000 metrdən hündürdür. Himalay dağlar silsiləsi Nepal, Hindistan, Butan, Çin və Pakistan kimi Asiya qitəsinin 5 ölkəsini əhatə edir. Bu dağların uzunluğu 2413 km, eni isə 250-300 km – dir. Himalay dağının yer səthindəki hündürlüyü 9 km olmasına baxmayaraq onun yerin altına uzanan kökünün dərinliyi 125 km-dən çoxdur.

---

Anatomy of the Earth", Cailleux, səh.220.[1]

Həmçinin də Yer üzünü paya kimi saxlayan dağlara Cənubi Amerika qitəsinin Sakit okean sahili boyunca uzanan və dünyada ən uzun dağ silsiləsi kimi tanınan, uzunluğu 9000, eni 500 və hündürlüyü 7 km olan And dağlarını, Avropada yerləşən Alp dağlarını Avropa və Asiyada yerləşən Qafqaz dağlarını, Afrikada yerləşən Kilimancaro dağını, Avstraliyada yerləşən Kostyuşko dağını misal çəkmək olar.

## Yerin üst qatinin yirğalanmamasi üçün paya rolunu oynayan nəhəng dağlar

Məlumdur ki, Litosferin-yer qabığının aşağısında "Astenosfer" təbəqəsi var. Bu təbəqə Litosferlə müqayisədə daha nazik və hərəkətli təbəqədir. İsti və yarımqatı maddələrdən təşkil olunmuş bu təbəqə yüksək geoloji istiliyə və təzyiqə məruz qalanda yumşalıb əriyir. Bərk Litosfer təbəqəsi yavaş hərəkət edən Astenosfer təbəqəsinin üzərində üzür və ya hərəkət edir. Bu təbəqələrin aşağısında yüksək hərarətə malik olan, yarımqatı qayalardan əmələ gələn, təxminən, 2900 km qalınlığında olan və adına "Mantiya" deyilən bir təbəqə var. Yerin üst səthi ilə müqayisədə özündə daha çox dəmir, maqnezium və kalsium ehtiva edən Mantiya daha isti və qalındır. Çünki Yerin daxilindəki hərarət və təzyiq dərinliyə getdikcə daha da çoxalır.

Ona görə də yarımqatı maddə hesab olunan Astenosfer qatının üzərində duran torpağın möhkəm dayanaraq yırğalanmaması üçün yerin dərinliklərinə uzanan dağların olması labüddür.

Bu barədə Uca Allah buyurur: (Allah yer kürəsi möhkəm olsun) sizi yırğalamasın deyə, yer üzündə möhkəm dayanan

dağlar, çaylar və düzgün səmt götürməniz üçün yollar yaratdı. [1]

Bir qədər əvvəldə Loğman surəsindəki ayəyə yenə diqqət edək. Allah həmin ayədə belə buyurur: O, göyləri görə biləcəyiniz bir dirək olmadan yaradıb saxlamış, yer sizi silkələməsin deyə, orada möhkəm dağlar qurmuş və ora cürbəcür heyvanlar yaymışdır. Biz göydən yağış yağdırıb orada cürbəcür gözəl bitkilər bitirdik. [2]

Əlbəttə ki, 14 əsr öncə Qurani-Kərimin dağların Yer kürəsində olan rolu barəsində dediyi tam dəqiq məlumat Quranın və Məhəmməd peyğəmbərin (s.ə) Allah tərəfindən haqq olaraq göndərilməsinə bir daha sübutdur.

Allah-tala Qurani-Kərimin bir ayəsində belə buyurur: Onun (Quranın) haqq olduğu onlara bəlli olsun deyə, Biz öz dəlillərimizi onlara həm xarici aləmdə (üfüqlərdə, kainatda, göylərin və yerin ətrafında), həm də onların özlərində mütləq göstərəcəyik. (Ey Peyğəmbər!) Məgər Rəbbinin hər şeyə şahid olması (sənin dediklərinin doğruluğuna) kifayət deyilmi?!. [3]

Alllah insanların doğru yola hidayət olmaları üçün, yaratdığı varlıqlardakı qeyri adi xüsusiyyətləri xatırladaraq, digər bir ayədə isə belə buyurur: De: Həmd olsun Allaha! O Öz dəlillərini sizə göstərəcək, siz də onları görüb tanıyacaqsınız. Rəbbin etdiyiniz əməllərdən əsla xəbərsiz deyildir! [4]

## Mikroskopik həyatın varlığı

Allah Yasin surəsinin 36-cı ayəsində buyurur: Torpağın bitirdiklərindən, (insanların) özlərindən və bilmədikləri başqa şeylərdən bütün cütləri yaradan Allah pak və müqəddəsdir!

---

Nəhl, 15.[1]
Loğman, 10.[2]
Fussilət, 53.[3]
Nəml, 93.[4]

Həmçinin Nəhl surəsində belə buyurur:

Sizin minməyinizdən ötrü, həm də zinət üçün atı, qatırı və uzunqulağı (O yaratdı). (Allah) hələ sizin bilmədiyiniz neçə-neçə şeylər də yaradacaqdır. [1]

Ayədən məlum olur ki, Allah insanların xəbərsiz olduğu varlıqları da yaradıb və yaradacaq. Allah Quranın nazil olduğu bir dövrdə, həmin məxluqların yaradılacağına işarə etmişdir.

Belə ki, mikroskopun ixtira olunmasından sonra gözlə görünməyən varlıqlar, mikroskop vasitəsi ilə kəşf oldular. Allahın yaratdığı və onların varlığından insanların xəbəri olmadığı canlılar arasında, uca yaradan olan Allah həddən artıq kiçik canlılar da yaradıb ki, keçmiş zamanlarda onları adi gözlə görmək mümkün olmayıb. Amma zaman keçdi, elm və texnologiya inkişaf etdi və mikraskop vasitəsi ilə onları görmək mümkün oldu. Alimlər Quranın əsrlər öncə işarə etdiyi canlılar haqqında daha çox məlumat əldə etmək üçün, daha geniş və ətraflı tədqiqat aparmağa başladılar. Alimlərin araşdırmaları nəticəsində həmin canlılar haqqında çox sayda və fərqli məlumatlar əldə edildi. Belə ki, bu araşdırmalardan sonra çox kiçik, adi gözlə görünməyən və cüt olmayan varlıqlar kəşf edildi.

Bu kiçik və canlı yaradılmışlar da öz növbəsində həm uca yaradan olan Allahın varlığına, həmdə Quranın möcüzəvi və reallıqlar ilə uyğun olan bir kitab olduğunu sübut edir.

**Kainatın yaradılması**

Allah-tala Qurani-kərimdə Kainatın yaranması haqqında belə buyurur:

---

Nəhl, 8.[1]

"O, göyləri və yeri var edəndir. Allah`ın necə övladı ola bilər ki, Onun heç bir yoldaşı yoxdur. Hər şeyi O yaratmışdır. O, hər şeyi biləndir! [1]

Quranın bu məlumatı müasir elmin kəşflərinə tamamilə uyğundur. Astrofizikanın gəldiyi yekun nəticə ondan ibarətdir ki, Kainat özünün bütün məkan-zaman ölçüləri ilə birgə nəhəng bir partlayış nəticəsində müəyyən bir sıfır anında yaranıb. Böyük partlayış nəzəriyyəsi (ingilis dilində "Biq Banq") güman edir ki, kainat təxminən 15 milyard il əvvəl bir nöqtədəki partlayış nəticəsində heç nədən yaranıb. Bu gün bu nəzəriyyə alimlər arasında kainatın mövcudluğunun başlanğıcı və yaranması haqda yeganə ümumi qəbul edilmiş gümandır.

NASA-nın 1992-ci ildə buraxdığı "COBE" peykinin xüsusilə həssas cihazları kainata böyük partlayışdan sonra yayıldığı güman edilən şüalanmanın qalıqlarını aşkar etdi. Bu kəşf öz növbəsində kainatın heç nədən yaranmasının elmi izahı olan böyük partlayış nəzəriyyəsini təsdiqlədi.

Böyük partlayışa qədər maddə adlı heç nə yox idi. Maddə, cərəyan və zaman nə maddənin, nə cərəyanın, nə də zamanın var olmadığı və sırf metafizik "heç nə" kimi müəyyən edilə bilən mühitdə yaradılıb. Müasir fizikanın elan etdiyi bu böyük həqiqəti Quran bizə 1400 il əvvəl xəbər verib.

**Kainatın genişlənməsi**

Qurani-kərim kainatın genişlənməsindən hələ 14 əsr əvvəl – astronomiyanın hələ inkişaf etmədiyi bir dövrdə bu sözlərlə bəhs edir:

"Biz göyü qüdrətimizlə yaratdıq və Biz onu genişləndirməkdəyik". [2]

---

Ənam, 101.[1]

[2] Zariyat , 47.

"Göy" sözü Quranda bir çox yerdə kainat və ya kosmos mənasında işlədilir. Burada da məhz bu mənada işlədilib. Yəni Quran kainatın genişləndiyini xəbər verir. Bu gün elm də elə məhz bu nəticəyə gəlib.

XX əsrin əvvəllərinə qədər elmdə belə bir vahid baxış hökm sürürdü ki, kainat hərəkətsiz struktura malikdir və o, əbədi surətdə mövcuddur. Yalnız müasir texnologiyanın sayəsində aparılan tədqiqat, hesablama və müşahidələr göstərdi ki, kainatın başlanğıcı olub və o, daim genişlənir.

Rus fiziki Aleksandr Fridman və Belçika kosmoloqu Corc Lemetr XX əsrin əvvəlində kainatın daim hərəkətdə olduğunu və genişləndiyini nəzəri cəhətdən hesabladılar.

Bu kəşf müşahidələr yolu ilə 1929-cu ildə təsdiqləndi. Amerika astronomu Edvin Habbl göyü böyük teleskopla öyrənərək belə nəticəyə gəldi ki, ulduzlar və qalaktikalar daim bir-birlərindən uzaqlaşırlar. Hər şeyin bir-birindən uzaqlaşdığı kainatı isə daim genişlənən kainat kimi anlamaq lazımdır. Bu prosesin şübhəsizliyi sonrakı illərin müşahidələri ilə dəqiq sübut edilmişdir.

O uzaq zamanlarda bu həqiqət insanlara hələ tam məlum deyildi və Quranda xəbər verilmişdi, çünki Quran Allah`ın – Yaradanın və kainatın Hakiminin sözüdür.

**Orbitər**

Quranda Günəş və Ay haqda danışılanda bu göy cisimlərinin hər birinin öz müəyyən orbitinin olduğu xəbər verilir:

"Gecəni və gündüzü də, Günəşi və Ayı da yaradan Odur. Onların hər biri bir göydə üzür". [1]

Quranın başqa ayəsində həmçinin Günəşin hərəkətsiz olmadığından və bir orbitinin olduğundan bəhs edilir:

---

Ənbiya, 33.[1]

“Günəş də özü üçün müəyyən olunmuş yerdə seyr edər. Bu, yenilməz qüvvət sahibi olan, hər şeyi bilən Allah`ın təqdiridir”. [1]

Quranda xəbər verilən həqiqətlər müasir astronomik müşahidələr nəticəsində aydın oldular. Alimlərin hesablamalarına görə, Günəş “Solar Apex” adlanan orbit ilə saatda 720.000 km nəhəng sürətlə Veqa ulduzu istiqamətində hərəkət edir. Beləliklə, bir qədər kobud şəkildə yuvarlaqlaşdırsaq, o, gün ərzində 17.280.000 km məsafəni qət edir. Günəşlə bərabər eyni məsafəni onun cazibə gücünün təsiri ilə Günəş sisteminin planetləri və onların peykləri də keçirlər. Bundan əlavə, kainatdakı bütün ulduzlar da planlı şəkildə oxşar hərəkəti yerinə yetirirlər.

Bütün kainatın bu cür orbitlərlə bəzənməsi haqda yenə də Quranda deyilir:

“Yolları olan göyə and olsun ki”. [2]

Kainatda təxminən 200 milyard qalaktika və onların da hər birində təxminən 200 milyard ulduz var. Bu ulduzların əksərinin planetləri, onların isə peykləri var. Bütün göy cisimləri ustalıqla hesablanmış orbitlərə malikdir. Milyonlarla il ərzində bu cisimlərin hər biri başqa cisimlərlə birlikdə öz orbiti ilə tam və qüsursuz harmoniya halında hərəkət edirlər. Onlardan əlavə, bu məkanda kometalar da öz şəxsi yolları ilə hərəkət edirlər.

Bütün bu göy cisimlərinin incəliklə nəzərdə tutulmuş orbitləri var. Milyon illərdir onların hər biri digəri ilə qüsursuz harmoniyada hərəkət edir.

Kainatdakı orbitlər tək göy cisimlərinə xas deyil. Hesablanmış və planlanmış orbitlərlə nəhəng sürətlə həm də qalaktikalar hərəkət edir. Nə qədər ki, bu hərəkət baş verir,

---

Yasin, 38.[1]
Zariyat, 7.[2]

onlar bir-birinə toxunmur, onların yolları kəsişmir. Bundan əlavə, o da qeydə alınıb ki, bəzi qalaktikalar onları təşkil edən ulduz və planetlərin heç birinin toqquşması baş vermədən bir-birinin üstündən növbə ilə keçirlər.

Təbii ki, Quranın nazil edildiyi dövrdə bəşəriyyət kosmosun dərinliyinə milyonlarla kilometr məsafədən baxa biləcək teleskopa, müasir fiziki və astronomik bilgilərə malik deyildi. Deməli, yuxarıda göstərildiyi kimi, kosmosun kometaların və ulduzların yollarına malik olması həqiqətini elmi cəhətdən üzə çıxarmaq və təsdiqləmək o dövrdə mümkün deyildi. Ancaq o dövrdə nazil edilən Qurani-kərimdə bu həqiqət bizə aydın xəbər verilib, çünki Quran Allah`ın sözüdür.

## Qoruyucu tavan

Allah Quranda bizim diqqətimizi göy quruluşunun bir vacib xüsusiyyətinə cəlb edərək, belə buyurur: Göyü qorunub saxlanılan bir tavan etdik. Halbuki, ayələrimizdən üz döndərirlər. [1]

Göy quruluşunun bu xüsusiyyəti XX əsrdə elmi tədqiqatların gedişatında öyrənilmişdi.

Yer nüvəsini hər tərəfdən əhatə edən atmosfer Yer üzündə həyatın varlığını təmin etmək üçün çox vacib funksiyaları yerinə yetirir. O, Yerə yaxınlaşan çoxsaylı böyük və kiçik kosmik daşları məhv edir, əridir və beləliklə, meteoritlərin düşərkən Yer üzünə verəcəyi ziyanın qarşısını alır.

Bununla yanaşı, atmosfer canlı orqanizmlər üçün zərərli olan kosmik şüaları filtrdən keçirir. Burada o, zərərsiz şüaları, yəni görünən işığı, infraqırmızı şüanı və radiodalğanı buraxır, çünki onlar həyat üçün vacibdir. Atmosferin müəyyən miqdarda

---

Ənbiya , 32.[1]

buraxdığı ultrabənövşəyi şüalar bitkilərdə fotosintez prosesi və beləliklə, Yer üzündə hər cür həyatın qorunması üçün çox vacib rol oynayırlar. Günəşin buraxdığı cod ultrabənövşəyi şüanın böyük hissəsi atmosferin ozon qatında ləngiyir və Yer səthinə onun yalnız həyat üçün vacib olan miqdarı çatır.

Meteoritlər bizim dünya üçün böyük təhlükə ola bilərdilər. Ancaq Allah bizim planeti qoruyan və dam rolunu oynayan mükəmməl atmosfer yaratdı.

Atmosferin qoruyucu funksiyası bununla kifayətlənmir. O, Yeri orta hərarəti mənfi 270 dərəcə S təşkil edən kosmik soyuğun buzundan qoruyur.

Yeri kosmosun zərərli təsirlərindən yalnız atmosfer qorumur. Onunla yanaşı, bizim planetə çatan zərərli şüalara qarşı sipər rolunu həmçinin "Van Allen qurşağı" adlanan və Yerin maqnit sahəsinin mənbəyi olan qalxan rolunu oynayır. Günəşdən və başqa ulduzlardan daima çıxan şüa insanlar üçün ölümcül dərəcədə qorxuludur. Günəşdə baş verən və "parlama" adlandırılan enerji partlayışları da xüsusi əhəmiyyət daşıyır. Onlar elə güclüdürlər ki, "Van Allen qurşağı" olmasaydı, Yer üzündəki bütün canlıları məhv edərdilər.

1)Yerin nüvəsi
2) və 3) Yeri əhatə edən iki maqnit qurşağı
4) Bizim Yeri əhatə edən "Van Allen qurşaqları" spiralvarı orbitlərlə fırlanan elektronlara və protonlara doldurulmuş hissəciklər yerləşir.

Van Allen qurşaqları mənbəyi Yerin maqnit sahəsi olan sferalardır. Bu dairələr bizim planeti zərərli kosmik şüalanmadan qoruyan qalxan rolunu yerinə yetirir.

Yaxın keçmişdə hər bir parlamanın kosmik boşluğa atdığı enerji Xirosimaya atılan atom bombası gücündə 100 milyard bombanın enerjisinə bərabərdir. Parlamadan 58 saat sonra

kompasın əqrəbləri şkala həddini aşdılar. 250 km hündürlükdə hərarətin 2500 dərəcə S-yə qədər sıçrayışı baş verdi.

Başqa sözlə, Yerin üzərində onun xarici təhlükələrdən qorunmasını təmin edən, hər tərəfdən onu bürüyən mükəmməl sistem var. Yerin səmasının bu cür qoruyucu funksiyasının mövcud olması haqda bizə Quranda əsrlərlə bundan əvvəl xəbər verilib.

**Geriyə qaytaran göylər**

Quranın "Tariq" surəsinin 11-ci ayəsində göyün qaytarmaq xüsusiyyətindən danışaraq, belə buyurur:

"Dönüşlü olan göyə and olsun". [1]

Maraqlıdır ki, göyün adı Quranda çəkilən bu xüsusiyyəti Quran nazil olduqdan neçə yüz illər sonra elmi yolla müəyyən edilmişdir.

Məlum olduğu kimi, Yeri əhatə edən atmosfer çoxlu qatlardan ibarətdir. Hər qatın həyatın tələbi nöqteyi-nəzərindən öz vacib funksiyası var. Tədqiqatlar zamanı aydın olduğu kimi, hər bir qat ona çatan cismi və ya şüanı dayandırır və onları ya kosmosa, ya də Yerin səthinə doğru istiqamətləndirir.

1- Müəyyən mərkəzdən ötürülmüş radiodalğanı Yer səthinə əks etdirən ionosfer qatı uzaq məsafələrdən radio və televerilişlər ötürülməsini təmin edir.

2- Ultrabənövşəyi şüalara bənzər zərərli kosmik şüalanmaları geriyə, kosmosa əks etdirən ozonosfer qatı bu şüaların yer səthinə çatmasına və həyata zərər yetirməsinə imkan vermir.

3- Troposfer qatı okeanların üzərindən buxarlanan suyu kondensasiya edir və onu yerə yağış şəklində göndərir.

---

Tariq surəsi, 11.[1]

Məsələn, 13-15 km hündürlüyündə yerləşən troposfer Yer səthindən qalxan su buxarının suya çevrilməsini və onun yağıntı şəklində Yerə qayıtmasını təmin edir.

25 km hündürlüyündə yerləşən ozonosfer kosmosdan gələn ultrabənövşəyi şüaları əks etdirir, şüa yerə çatmamış kosmosa qayıdır.

İonosfer isə Yerdən ötürülən radiodalğaları peyk kimi əks etdirir və bununla məftilsiz əlaqəni, qəbul etməni, radio və telesiqnalların böyük məsafələrə ötürülməsini təmin edir.

Maqnitosferə gəlincə isə o, Günəşdən və başqa ulduzlardan gələn zərərli radioaktiv zərrəciklərin Yerə çatmasına icazə verməyərək onları əks istiqamətə döndərir.

## Atmosferin qatları

Kainat haqda məlumatların yer aldığı Quran ayələrində xüsusən göy qübbəsinin yeddi qatının olmasından danışılır.

Yer üzündə nə varsa, hamısını sizin üçün yaradan, sonra səmaya üz tutaraq onu yeddi qat göy halında düzəldib nizama salan Odur. O, hər şeyi biləndir! [1]

Digər bir ayədə isə Allah belə buyurur: Sonra Allah tüstü halında olan göyə üz tutdu… Beləliklə, iki gün ərzində göylər xəlq edildi. O, hər bir göyün işini özünə vəhy edib bildirdi…[2]

Quranda "Göy" sözündən həm bütün kainatı, həm də planetin göyünü ifadə etmək üçün istifadə edilir. Bu sözün ikinci mənasına nəzər yetirsək, "Yerin göyü" alınır, yəni atmosfer yeddi qatdan ibarətdir.

Bu gün isə məlumdur ki, Yer atmosferinin bir-birinin üzərində yerləşən bir neçə müxtəlif qatı var. Bun-dan əlavə, Quranda da qeyd edildiyi kimi, göy yeddi əsas qatdan ibarətdir…

---

Bəqərə surəsi, 29.[1]
Fussilət surəsi, 11-12.[2]

Elmi mənbələrin birində bu məsələ belə işıqlandırılır:

“Alimlər aşkar ediblər ki, atmosfer bir neçə qatdan ibarətdir. Qatlar bir-birindən əmələ gəldikləri qazların tərkibinə və onlarda olan təzyiq kimi fiziki xarakteristikalara görə fərqlənirlər… Yerə ən yaxın olan atmosfer təbəqəsi TROPOSFERDİR. Troposfer atmosferin ümumi kütləsinin 90 faizini təşkil edir. Troposferdən yuxarıda yerləşən təbəqə STRATOSFERDİR. Stratosferin içində olan və ultrabənövşəyi şüaları udan qat OZONOSFER adlanır. Stratosferin üstündə MEZOSFER, onun üzərində isə TERMOSFER qatları yerləşir. Termosferdəki ionlaşmış qazlar İONOSFERİ əmələ gətirir. Yer atmosferinin ən uzaq xarici qatı isə Yer səviyyəsindən 450 km-dən 960 km hündürlüyə qədər uzanan EKZOSFERDİR”. [1]

Atmosfer öz aralarında onları əmələ gətirən qazların tərkibi və ya bu qatlardakı mövcud təzyiq kimi fiziki xüsusiyyətlərinə görə bir-birindən fərqlənən yeddi qatdan ibarətdir. Bu qatların hər birinin Yerdə həyatın qorunması üçün vacib funksiyaları var.

Bu gün məlumdur ki, Yerin atmosferinin bir-biri üzərində yerləşmiş bir neçə qatı var. Bundan əlavə, Qu-randa da qeyd edildiyi kimi, atmosfer yeddi əsas qatdan ibarətdir.

Əgər biz adıçəkilən qatları saysaq, Quranda da qeyd edildiyi kimi, atmosferin yeddi qatdan ibarət olduğunu görərik:

TROPOSFER

STRATOSFER

OZONOSFER

MEZOSFER

---

[1] theQuranleadsthewaytoscienceaz.wordpress.com

TERMOSFER
İYONOSFER
EKZOSFER

Yəni Allah bizə bildirir ki, hər atmosfer qatına müəyyən tapşırıq verilmişdir. Həqiqətən, əvvəlki bölümlərdə də gördüyümüz kimi, adıçəkilən hər qatın Yer üzündəki bütün canlılara, o cümlədən insana da gətirdikləri fayda nöqteyi-nəzərindən öz vacib funksiyaları var. Hər bir atmosfer qatı yağış əmələ gətirilməsindəki iştirakından şüaların keçməsini qorumağa qədər, radio-dalğaların əks etdirilməsindən meteoritlərin zərərsizləşdirilməsinə qədər öz üzərinə düşən tapşırıqları yerinə yetirir.

Böyük möcüzə də bundadır ki, müasir texnologiyanın köməyi olmadan əldə etməyin mümkün olmadığı bu bilgilər 1400 il əvvəl nazil edilmiş Quranda bizə açıq şəkildə bildirilir.

**Aşılayıcı küləklər**

Quran ayələrinin birində küləyin aşılama kimi xüsusiyyətinə, həmçinin bu küləklərin hərəkəti nəticəsində yağışların əmələ gəlməsinə işarə edilir.

Allah-tala həmin ayədə buyurur: Biz yüklənmiş külək göndərdik, göydən yağmur endirib sizə su verdik. Yoxsa onu yığıb saxlayan siz deyilsiniz! [1]

Quran ayəsində yağıntıların əmələ gəlməsində əsas rolu küləklərin oynadığına diqqət yetirilir. Bununla yanaşı, bu əsrin əvvəlinə qədər elmə küləklərlə yağıntılar arasında əlaqə olması haqda heç nə məlum deyildi. Ancaq müasir meteoroloji tədqiqatlar küləklərin yağışın yağmasında həlledici rol oynadığını anlamağa imkan verdi.

Küləklərin aşılama təsiri bu şəkildə həyata keçir.

---

Hicr surəsi, 22.[1]

Küləklərin aşılama təsiri bu şəkildə həyata keçir. Dəniz və okeanların üzərində köpüklənmə ucbatından hər an xeyli miqdarda hava qabarcıqları əmələ gəlir. Bu qabarcıqlar partladıqda millimetrin yüzdə bir hissəsi diametrindəki yüzlərlə zərrəcik havaya atılır. Aerozol adlanan bu zərrəciklər küləklərin sayəsində qurudan qalxan tozla qarışır və atmosferin üst qatlarına köçürlər. Burada onlar bu zərrəciklərin ətrafına yığışan və su damcılarına dönərək qatılaşan su buxarı ilə toqquşurlar. Bunlar isə öz növbəsində birləşərək buludları əmələ gətirir və müəyyən bir müddətdən sonra yağış şəklində yerə düşürlər.

Gördüyümüz kimi, küləklər havada sərbəst halda olan su buxarını və dənizin üzərindən gələn zərrəcikləri soyudur. Yağış buludlarının əmələ gəlməsi bu yolla təmin edilir.

Əgər küləklərdə bu xüsusiyyət olmasaydı, atmosferin üst qatlarında heç vaxt su damcıları əmələ gəlməzdi və yağışa bənzər heç bir şeyi təsəvvür belə etmək olmazdı.

XX əsrin əvvəllərinə qədər küləklərin yağıntı düşməsi ilə əlaqəsi haqda heç nə məlum deyildi. Küləklərin yağış əmələ gətirmə prosesində oynadığı vacib soyuducu funksiyası yalnız müasir meteoroloji tədqiqatlar nəticəsində məlum oldu.

Əsas odur ki, küləklərin yağış əmələ gətirən bu vacib funksiyası haqda Quranda xəbər verilmişdir.

**Dənizlərin bir-birinə qarışmaması**

Allah-tala dənizlərin alimlər tərəfindən yaxın keçmişdə kəşf edilən bir xüsusiyyəti haqda Qurani-kərimdə belə buyurur:

(Suları şirin və acı olan) iri dənizi O qovuşdurdu. Amma onların arasında maneə vardır, bir-birinə qatışmazlar. [1]

---

Rəhman, 19-20.[1]

Dənizlərin bir-biri ilə maneəsiz şəkildə birləşdikləri halda, onların sularının bir-birinə heç bir halda qarışmaması barədə Quranda qeyd olunan xüsusiyyətini okeanoloqlar bu yaxınlarda aşkar ediblər. Aşkar edilib ki, iki qonşu dənizin suları "səthi gərilmə" adlandırılan fiziki güc sayəsində bir-birinə qarışmırlar. Suyun sıxlıq fərqlərindən yaranan bu qüvvə onların arasında dəqiq bir şəkildə görünməz divar ucaldaraq iki dənizin suyunun bir-birinə qarışmasına mane olur.

Atlantik okeanı

Aralıq dənizi

Duzun Atlantik okeanının suyunda qatılığı 36,0 faizdən az təşkil edir

Ağdənizin suyu

Duzun Aralıq dənizinin suyunda qatılığı 36,5 faizdən artıq təşkil edir

Cəbəllütariq boğazı

Aralıq dənizinin suları Atlantik okeanının suları ilə birləşir. Ancaq bu birləşmənin nəticəsində onların hərarət, duzluluq və sıxlıq kimi xüsusiyyətləri dəyişmir, çünki aralarında gözlə görünməz sərhəd var.

Təbii ki, olduqca maraqlıdır ki, insanlar nə səthi gərilmə, nə okeanologiya, nə də fizika haqda heç nə bilmədikləri dövrdə Quran bu həqiqəti bildirmişdi.

Bu dənizlərdə dalğaların və güclü axınların olmasına, qabarıb-çəkilmələrin baş verməsinə baxmayaraq, dənizlərin suları bir-biri ilə qarışmır. Başqa sözlə, onlar öz aralarındakı sərhədləri keçmirlər. Elmin bu yaxınlarda kəşf etdiyi bu həqiqət Quranın "Rəhman" surəsində hələ 14 əsr əvvəl xəbər verilmişdir.

**Uşağın cinsiyyəti**

Yaxın vaxtlara qədər insanlar belə hesab edirdilər ki, uşağın cinsiyyətini ya ana hüceyrələri, ya da ən azı ana ilə atadan

gələn hüceyrələr birlikdə müəyyənləşdirir. Ancaq Quranda bu mövzuda fərqli məlumat verilmiş, erkəkliyin-dişiliyin bətnə tökülən nütfədən asılı olması bildirilmişdir:

Hər bir cütü erkək və dişi yaradan Odur – nütfədən (döl yatağına) axıb tökülərkən. [1]

Quranda verilən bu məlumatın doğruluğu genetika və mikrobiologiya elmlərinin inkişafı ilə qəti şəkildə təsdiq edildi.

Quranda xəbər verilir ki, həm kişi, həm də qadın cinsi uşaqlığa tökülən nütfə ilə müəyyənləşdirilir. Yaxın zamanlara qədər belə hesab olunurdu ki, uşağın cinsi ana hüceyrəsi ilə müəyyən edilir. Quranda olan bilgiləri elm yalnız XX əsrdə əldə etdi.

Cinsiyyətin tamamilə kişidən gələn sperma hüceyrələri tərəfindən müəyyən edildiyi, qadının isə bu işdə heç bir rolunun olmadığı ortaya çıxdı. Cinsiyyəti müəyyən edən əsas amil xromosomlardır. İnsanın quruluşunu müəyyən edən 46 xromosomdan ikisi cinsiyyət xromosomudur. Bu iki xromosom kişidə XY, qadında isə XX kimi tanınır. Bunun səbəbi bəhs edilən xromosomların bu hərflərə bənzəməsidir. Y xromosomu özündə kişilik, X xromoso-mu isə qadınlıq genləri daşıyır.

İnsanın əmələ gəlməsi kişidə və qadında cütlər halında yer alan bu xromosomların bir dənəsinin birləşməsi ilə başlayır. Qadında yumurtalığın mayalanması zamanı iki yerə ayrılan hüceyrənin hər iki parçası da X xromosomunu daşıyır. Kişidə ikiyə ayrılan hüceyrə isə X və Y xromosomlarını daşıyan iki fərqli sperma yaradır. Qadındakı X xromosomu kişidəki X xromosomunu ehtiva edən sperma ilə birləşərsə, doğulan uşaq

---

Nəcm , 45-46.[1]

qız olur. Əgər Y xromosomunu daşıyan sperma ilə birləşərsə, bu dəfə uşaq oğlan olur.

Yəni doğulacaq uşağın cinsiyyəti kişidəki xromosomlardan hansının qadının yumurtası ilə birləşməsindən asılı olaraq müəyyən olunur.

Şübhəsiz ki, genetika elmi ortaya çıxanadək, yəni XX əsrə qədər bu məsələlərin heç biri insanlara təfərrüatı ilə məlum deyildi. Bir çox ölkələrdə, bir çox xalqlar arasında hətta belə bir yanlış inanc geniş yayılmışdı ki, uşağın cinsiyyətini guya qadın müəyyən edir, yəni körpənin qız, yaxud oğlan olması guya anadan asılıdır. Qız uşağı doğan qadınların qınanması, onların bəzən incidilməsi və alçaldılması məhz bu yanlış təsəvvürlərdən irəli gəlirdi.

Halbuki, Quranda insanlara genlərin kəşfindən hələ 13 əsr əvvəl bu batil inancı rədd edən bir məlumat verilmiş, cinsiyyətin mənşəyinin qadın deyil, kişidən gələn nütfə olduğu bildirilmişdir.

Cinsin müəyyənləşməsində həlledici rol oynayan amil xromosomlardır.

Yoxdan yaradan Rəbbinin adı ilə oxu! O, insanı laxtalanmış qandan yaratdı. Oxu! Sənin Rəbbin ən böyük kərəm sahibidir! [1]

## “Ələq” – Bətndən asılıb qalma

İnsanın əmələ gəlməsi haqqında Quranda verilən məlumatları araşdırmağa davam etdiyimiz zaman yenə də bir çox mühüm elmi möcüzələrlə qarşılaşırıq.

Kişidən gələn sperma və qadındakı yumurta birləşərkən doğulacaq uşağın ilk özəyi – rüşeym əmələ gəl-miş olur. Biologiyada “ziqota” adlandırılan bu tək hüceyrə əsla vaxt

---

Ələq surəsi, 1-3.[1]

itirmədən bölünərək çoxalacaq və getdikcə kiçik ət parçası halına gələcək.

Ancaq ziqota bu cür böyüməsini boşuna həyata keçirmir. O, ana bətninin divarından asılıb qalır. Malik olduğu çıxıntılar sayəsində torpağa yapışan köklər kimi bura yapışır. Ziqota özünün inkişafı üçün ehtiyac duy-duğu zəruri qida maddələrini məhz həmin köklər sayəsində ananın orqanizmindən əmə bilir.

Burada çox mühüm bir Quran möcüzəsi ortaya çıxır. Allah Quranda ana bətninə yapışaraq inkişafa başla-yan ziqotadan bəhs edərkən "ələq" kəlməsini işlədir:

"Ələq" kəlməsinin ərəbcədəki mənası isə "bir yerdən asılıb qalan, bir yerdən yapışıb tutan şey" deməkdir. Bu kəlmə dəriyə yapışaraq oradan qan soran zəlilər haqqında da işlədilir.

Şübhəsiz, ana bətnində inkişaf etməkdə olan ziqotanın bu xüsusiyyətini açıb göstərən kəlmədən istifadə olunması Quranın aləmlərin Rəbbi olan Allahın sözü olmasını bir daha təsdiq edir.

**Sümüklərin əzələ ilə örtülməsi**

Quran ayələri ilə çatdırılan digər bir mühüm məlumat isə insanın ana bətnindəki əmələgəlmə prosesinin mərhələləri ilə bağlıdır. Ayələrdə körpənin ana bətnində, əvvəlcə, sümüklərinin əmələ gəlməsi, daha sonra isə əzələlərinin yaranaraq bu sümükləri örtüb sarıması xəbər verilir:

Sonra nütfəni ələqə çevirdik, sonra laxtalanmış qanı (ələqi) bir parça ət etdik, sonra o bir parça əti sümüklərə döndərdik, sonra sümükləri ətlə örtdük və daha sonra onu bambaşqa bir məxluq olaraq yaratdıq. Yaradanların ən gözəli olan Allah nə qədər uludur. [1]

---

Muminin, 14.[1]

Dölün ana bətnindəki inkişafını araşdıran elm sahəsi embriologiyadır. Embriologiya elmi isə lap elə yaxın zamanlara qədər belə hesab edirdi ki, ana bətnindəki dölün sümükləri ilə əzələləri eyni vaxtda əmələ gələrək paralel şəkildə inkişaf edir. Buna görə də bəzi adamlar uzun zaman bu ayələrin elmlə düz gəlmədiyini iddia ediblər. Ancaq inkişaf etmiş texnologiya sayəsində aparılan daha qabaqcıl mikroskopik araşdırmalar Quranda bildirilənlərin hamısının nöqsansız şəkildə doğru olduğunu ortaya qoydu.

Bu mikroskopik araşdırmalar da göstərdi ki, dölün ana bətnindəki inkişafı prosesi məhz ayələrdə izah edildiyi şəkildə, məhz Quranda təsvir olunmuş ardıcıllıq üzrə gedir! Əvvəl embriondakı qığırdaq toxuması sümüyə çevrilir. Daha sonra isə əzələ hüceyrələri sümüklərin ətrafındakı toxumadan ayrılaraq bir yerə yığışır və sümükləri əhatə edir.

Bu proses "Developinq human" ("İnkişaf edən insan") adlı elmi jurnalda belə izah edilir:

6-cı həftədə qığırdaqlaşmanın davamı olaraq ilk sümükləşmə körpücük sümüyündə ortaya çıxır. 7-ci həftənin sonunda uzun sümüklərdə də sümükləşmə başlayır. Sümüklər yaranmağa davam edəndə əzələ hüceyrələri sümüyü əhatə edən toxumadan ayrılaraq əzələ kütləsini əmələ gətirir. Əzələ toxuması bu şəkildə sümüyün ətrafında ön və arxa əzələ qruplarına ayrılır".

Qısası, insanın Quranda təsvir edilən əmələgəlmə mərhələləri müasir embriologiyanın kəşfləri ilə tam uyğunluq və harmoniya içindədir.

**Uşağın ana bətnindəki üç dövrü**

Quranda insanın ana bətnində üç mərhələli bir prosesla yaradıldığı bildirilir.

"…O sizi analarınızın bətnində üç zülmət içində yaranışdan-yaranışa salaraq yaradır. Bu sizin Rəbbiniz olan Allahdır,

hökm Onundur, Ondan başqa heç bir Allah yox-dur. Elə isə necə döndərilirsiniz?» [1]

"Zumər" surəsinin 6-cı ayəsində insanın ana bətnində üç müxtəlif mərhələlərdən keçərək formalaşmasına işarə edilir. Müasir biologiya bu gün iddia edir ki, ana bətnində toxumun embrioloji inkişafının üç müxtəlif mərhələsi var.

Bu gün müasir biologiya elmi uşağın ana bətnindəki embrioloji inkişafının üç fərqli mərhələdə baş verdiyini ortaya qoyub. Bu gün universitetlərin tibb fakültələrində dərs vəsaiti kimi istifadə olunan bütün embriologiya kitablarında bu mövzu ən fundamental araşdırma mövzuları sırasındadır. Məsələn, embriologiya haqqında əsas kitablardan biri olan "Basic Human Embriology" ("Əsas insan embriologiyası") adlı kitabda bu həqiqət belə ifadə edilir:

"Bətndəki həyat üç mərhələdən əmələ gəlir: preembrionik və ya embrionaqədərki (ilk 2,5 həftə), embrion və ya rüşeym (8-ci həftənin sonuna qədər) və fetal (8-ci həftədən doğuşa qədər) mərhələləri".

Tibbi dildə "trimeester", yəni "üç dövr" adlandırılan bu mərhələlər uşağın fərqli inkişaf mərhələlərindən ibarətdir. Bu üç inkişaf mərhələsinin bəlli xüsusiyyətləri qısaca şəkildə belədir:

**-Preembrionik mərhələ.**

Ziqota əsasən "1-ci meester" olaraq xatırlanan bu ilk mərhələdə bölünərək çoxalır, bir hüceyrə kütləsi halına gəldikdən sonra özünü bətn divarına yapışdırır, hüceyrələr çoxalmağa davam edəndə 3 təbəqə halında təşkilatlanır.

**– Embrionik mərhələ.**

---

Zumər, 6.[1]

"2-ci meester" kimi tanınan ikinci mərhələ cəmi 5,5 həftə davam edir və canlı bu müddət ərzində "embrion" və ya "rüşeym" adlandırılır. Bu mərhələdə hüceyrə təbəqələrindən bədənin başlıca əzaları, təməl orqan və sistemləri əmələ gəlir.

"Zumər" surəsinin 6-cı ayəsində insanın ana bətnində üç müxtəlif mərhələlərdən keçərək formalaşmasına işarə edilir. Müasir biologiya bu gün iddia edir ki, ana bətnində toxumun embrioloji inkişafının üç müxtəlif mərhələsi var.

**– Fetal mərhələ.**

Hamiləliyin "3-cü meester"i adlandırılan mərhələyə daxil olanda rüşeym (embrion) artıq "fetus" adlandırılır. Bu mərhələ hamiləliyin 8-ci həftəsindən etibarən başlayır və doğuşa qədər davam edir. Əvvəlki mərhələdən fərqlənən xüsusiyyəti isə fetusun üzü, əlləri və ayaqları aydın bilinən və insanın xarici görünüşünə malik olan bir canlıya çevrilməsidir. Mərhələnin başlanğıcında döl 3 sm ölçüdə olsa da onun bütün orqanları əmələ gəlir. Bu mərhələ 30 həftəyədək, inkişaf prosesi isə doğuş həftəsinə qədər davam edir.

Dölün ana bətnindəki inkişafı haqqındakı bu məlumatlar yalnız müasir texnoloji avadanlıqların köməyi ilə aparılmış müşahidələr sayəsində əldə edilib. Ancaq göründüyü kimi, bu məlumatlar da bir çox digər elmi həqiqətlər kimi yalnız Quran ayələrində möcüzəvi şəkildə xəbər verilmişdir. Bəşəriyyətin təbabət sahəsində heç bir müfəssəl biliyə sahib olmadığı dövrlərdə Quranda bu dərəcədə dolğun, ətraflı və səhih bilgilərin verilməsi şübhəsiz ki, Quranın Allah kəlamı olduğunun aşkar sübutudur.

"Biz insana ata-anasına tövsiyə etdik. Anası onu çox zəif bir halda daşımışdı. Uşağın süddən kəsilməsi isə iki il ərzində

olur. Biz insana buyurduq: "Mənə və ata-anana şükr et. Axır dönüş Mənədir!"" [1]

**Ana südü**

Ana südü körpənin qidaya olan ehtiyacını qüsursuz olaraq ödəmək və uşağı mümkün infeksiyalardan qorumaq üçün Allah`ın yaratdığı bənzərsiz bir nemətdir. Çağdaş dövrün texnologiyası əsasında istehsal edilən uşaq yeməkləri də bu möcüzəli qidanın yerini verə bilmir.

Ana südünün uşaq üçün zəruri olan faydalı cəhətlərinin siyahısına zaman keçdikcə yeni-yeni məqamlar əlavə edilir. Elmin ana südü ilə bağlı yenicə kəşf etdiyi həqiqətlərdən biri də uşağın ana südü ilə iki il ərzində qidalandırılmasının çox faydalı olmasıdır. Elmin yeni kəşf etdiyi bu mühüm məsələni Allah bizə "(uşağın süddən) kəsilməsi isə iki il ərzində olur…" [2] ayəsi ilə hələ 14 əsr əvvəl məlumat vermişdi.

Yuxarıda nəzərdən keçirdiklərimiz bizə bir daha sübut edir ki, Quran bütün məzmunu həqiqi olan bir kitabdır. Onun ayələrində insanların onun nazil edildiyi dövrdə belə bilməyəcəyi həqiqətlər xəbər verilib. Əlbəttə ki, bunların hamısı, bu müqəddəs kitabın insan sözü olmadığının təkzibedilməz bir sübutudur. Quran hər şeyi heç nədən yaradan və özünün bütün yaratdıqlarına bələd olan Allah-talanın sözüdür.

Ayələrin birində Allah belə buyurur: Onlar Quran barəsində düşünməzlərmi? Əgər o, Allahdan qeyrisi tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ziddiyyət tapardılar". [3]

---

Loğman, 14.[1]
Bəqərə, 233.[2]
Nisa, 82.[3]

Quranda heç bir yanlışlıq və ikimənalılıq yoxdur, onda olan bilgilər hər gün bu İlahi kitabın yeni-yeni möcüzələrini açıqlayır. İnsana gəlincə isə o, Allahın nazil etdiyi Qurana etibar etməli və onu həyatda öz bələdçisi kimi qəbul etməlidir. Başqa bir ayədə isə Allah insanlara xitab edərək, belə buyurur: Bu nazil etdiyimiz mübarək bir kitabdır, ona tabe olun və Allahdan qorxun ki, bəlkə, sizə rəhm edilsin! [1]

## Qaynaqlar

1-Qurani-Kərim.
2- Nəhcülbəlağə
3-Səhifeyi-Səccadiyyə
4- Məclisi, Məhəmməd Baqir, Biharul-ənvaril-camiəti lidurəri əxbaril-əimmətil-əthar.
5- Nuri, Hüseyn, Müstədrakül-Vasail.
6- ibni Yəqub, Kuleyni, Məhəmməd, Üsuli-Kafi.
7- Hurr Amili, Əbu Cəfər, Məhəmməd, Vəsaiuş-Şiə.
8- İbni Əbi Əhməd, Seyyid Rəzi, Məhəmməd, Nəhcül-Bəlağə.
9- Əbdül-Vahid, Əbulfəth Nasihuddin, Ğurərul-Hikəm.
10- İbni Yəqub, Siqətul-İslam, Kuleyni, Muhəmməd, Furuul-Kafi.
11- İbn Hüseyn ibn Musa ibn Bəbaveyhi əl-Qummi, Məhəmməd ibn Əli, Məanil-Əxbar.
12- Təbərsi, ibni Həsən, Fəzl, Məkarimul-Əxlaq.
13- Təbərsi, ibni Həsən, Fəzl, Məcməul-Bəyan.
14- İbni Hüseyn ibni Musa Bəbaveyhi əl-Qummi , Məhəmməd ibn Əli, İləluş-Şərayi.
15- Razi, Fəxruddin, Təfsiri-Kəbir.
16- Zeynul-Abidin, Əli ibni Huseyn, Səhifə Səccadiyyə.

Ənam, 155.[1]

17- Məkarim Şirazi, Nasir, Quranda Əxlaq.

18- Qummi, Şeyx Abbas, Məfatihul-Cinan.

19- Məğribi, Qazi Əbu Əbdullah, Muhəmməd, Şəhabul-Əxbar.

20- Qiraəti, Muhsin, Nur təfsiri.

21- Beyhəqi, İbni Huseyn, Əbul-Fəzl, Muhəmməd, Tarix Beyhəqi.

22- İbni Cümə Huvəyzi, Əbdu-Əli, Nurus-Səqələyn.

23- Tusi, Xacə Nəsruddin, Adabul-Mutəəllimin.

24- İbni Əbdul-Məlik Hindi,Əlauddin Əli, Kənzul-Ummal.

25- İbni Muhəmməd Şuəyri, Şeyx Tacəddin, Muhəmməd, Camiul-Əxbar.

26- Nəraqi, Muhəmməd Məhdi, Camius-saadat.

27- Anatomy of the Earth", Cailleux ( Səhifə 71-dədi)

28- theQuranleadsthewaytoscienceaz.wordpress.com (Səhifə 80)/

29- Сюкияйнен Л.Р.Мусульманское право. М., 1986. с. 7. (Səhifə 98).

30- А.С.Боголюбов. Пересечение и наказание в мусульманском праве /Ислам. Религия. Общество. (Səhifə 99).

31- Давид Рене, Жоффре-Спинози Камилла. Основные правовые системы современности. М., 1998. с. 309. (Səhifə 99).

# Dinə söykənən əxlaq

**Fuad İsayev**[1]

***Abstrakt***

İnsan ictimai bir varlıqdır. Onun sahib olduğu fərdi və ictimai yönlər bir birindən təsirlənir və bir birini tamalayır. İslam dini insanın hər iki tərəfinə xitab edən bir çox prinsiplər gətirmişdir. Fərdi yönü, yəni mənəvi aləmi düzgün inşa etmədən, ictimai yönü yəni sosial həyatı nizamlı şəkildə yaşamq mümkün deyil.
Mövzumuz "Təsdiq sahələsində əxlaqın dinə ehtiyacı" olduğu üçün ilk öncə din və əxlaqın tərifini nəzərdən keçirək, çünki məntiqi nöqteyi-nəzərdən mövzunun düzgün tərif olunması mövzu haqqında düzgün bilgi əldə etməyə zəmin yaradır. "Din" ərəb sözü olub, lüğətdə mükafat mənasını ifadə edir. "Din vəhy ilə gələn, insanların Quran və sünnə vasitəsilə doğru yola hidayəti üçün onlara çatdırılan həqiqətlər və dəyərlər toplusudur. " "Əxlaq" xülq sözünün cəm formasıdır: xəlq və xülq sözləri ərəb mənşəli olub, eyni kökdən götürülmüşdür, lakin məna etibarı ilə bu sözlər bir-birindən fərqlənir: "xülq" daxili xüsusiyyəti, "xəlq" isə zahiri formanı nəzərdə tutur. İnsanlarda müşahidə olunan hər bir daxili keyfiyyət, əməl və hərəkət əxlaq və əxlaqi rəftar adlanır.

**Açar sözlər:** din, əxlaq, fərdi, ictimai

---

1. İslam Araşdırmaları fakültəsinin məzunu, İslam Araşdırmaları institutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, Qum, İran.

## Giriş

Müqəddəs kitabımıza nəzər saldıqda, əxlaq mövzusunda həm fərdi və ictimai yönə üstsnlük verildiyini görürük. İnsanın şəxsiyyəti, davranışı daha çox bəyan olunur.
İnsanın həqiqəti açıqlandıqdan sonra onun təqva, ixlas, ədalət doğruluq və bu kimi mənəvi sifətlərinə toxunulur. Bu xüsusiyyətləri mənimsəməkdən ötrü insan mənəvi aləmini tərbiyə etməlidir. İnsanlığın əsası bu prinsip üzərində qurulmuşdur. Mənəvi dunyamızı tərbiyələndirməklə, sosial həyatda ictimai menasibətlər düzgün tənzimlənəcəkdir.
Dinimizin Tovhid əqidəsi ədalətdən ayrı olmadığından, dünya və axirət əlaqəsi də ayrılmazhissədir. Nəfsin paklanması ilə Allaha yaxınlıq əlaqəsi bir birini tamamlayır. Nəfsi paklaşdırmaqla Allaha yaxınlaşmaq, Allahı tanımaqla nəfsin psaflaşdırılmasına nail oluruq. Bir sözlə, bütün və kamil lan dinimiz, iman, ibadət və əxlaq bütünlüyünü öz pərəstişkarlarına tövsiyə edir.

"Xalis və doğru olan dinə tərəf üz tut! Bu İlahi fitrətdir. Allah insanları onun əsasında yaratmışdır. Allahın yaradılışında heç bir dəyişkənlik yoxdur. Möhkəm din budur, lakin insanların əksəriyyəti (bunu) bilmirlər."
"Əxlaqda qeyd olunan "pis" və "yaxşı" məfhumları insanın ixtiyari işləri ilə həmin işlərin son nəticəsi arasındakı əlaqə növünü göstərir. İnsanın hər hansı işi onun son xeyir məqsədi ilə müsbət əlaqədədirsə, həmin iş "yaxşı", mənfi əlaqədədirsə "pis" sayılır.
İdrak - Obyektin özünün və ya əksinin insan varlığında hazır olması ilə yaranan şüurlu aktiv prosesdir və bu prosesdə insan varlığında yer alan obyekt, yaxud onun əksi, bilik adlanır.

Fəzilətlərin ən üstünü, kamalın ən son həddi məhz ədalətdir. Ədalət varsa, deməli, bütün fəzilətlər də vardır. Ədalətin əksi zülmdür, zülm də bütün qəbahətləri özündə toplayır. Ədalət də elə bir xüsusiyyət, elə bir keyfiyyətdir ki, onun sayəsində bütün işlər normal həddə tənzimlənir, insanın nəfsindəki müxtəlif qüvvələr arasında uyğunluq yaranır, qüvvələrdən biri digərinə qarşı çıxmır.

## Əxlaqın həqiqəti

Əxlaqın həqiqəti dedikdə, insanın yaradılış məqsədi olan Allaha yaxınlıq və kamillik zirvəsi nəzərdə tutulur. Bildiyimiz kimi insanın həqiqəti onun ruhudur. İnsan ruhunu, nəfsini nə qədər yaxşı tanıyarsa, bir o qədər Allahı tanıyar və ona yaxınlaşmış olar. Necə ki hədisi-şərifdə deyilir: "Mən ərəfə nəfsəh fə ərəfə rəbbəh" – hər kəs özünü tanısa Allahını da tanıyar. Allaha yaxınlıq insan yaradılışının ən ömdə prinsiplərindəndir. Onun kamillik dərəcəsinə çatıb, ilahi feyzd\n bəhrələnməsi məhz həqiqəti tanımaqla başlanır. Həqiqət Allahın varlığına yeganəliyinə inanıb, ona yaxınlaşmaqdır. Həqiqi səadət budur. Qüdrətli məbud insana məhəbbətlə nəzər salıb onu öz mərhəmətinə qərq etsin. Bildiyimiz kimi tarix boyu bütün bəşəriyyət həqiqətin axtarışında olmuş, ona yaxınlaşma üçün daim hərəkətdə olmuşlar. Hətta bütpərəstlər belə Allaha yaxınlaşmaq üçün müəyyən ayinlər yerinə yetirirdilər. Bu haqda Quranda oxuyuruq:" Biz bütlərə yalnız Allaha yaxınlaşmaq üçün ibadət edirik. Ayə Məkkə müşrüklərinin dilindən deyilir.
Ən yaxın yol və ən dəqiq yolu bizə elə ilahi vəhy göstərir. Bilirik ki insan əqli bəzi məsələləri dərk edir amma bəzi

məsələlər onun əhatəsindən uzaqdır. Buna görə bəzən insan ağlı ilahi vəhyin köməyi ilə bu cür məsələlərin öhdəsindən gəlir.

Beləliklə, Allah peyğəmbər vasitəsi ilə insanlara həqiqətin nə olduğunu çatdırıb höccətini tamamlamışdır. ”Allah bəşarət verən və xəbərdarlıq edən peyğəmbər göndərmişdir. ”[1]

Digər bir tərəfdən Həqiqəti tanimaq hissi bütün insanlarin vücudunda fitri olaraq vardır. Demək olar ki hamı həqiqət axtarışındadır, hamı ona yaxınlaşmaq istəyir. Bəs, fitri istəkdir. Ancaq necə və hansı yollarla İlahi həqiqətə yanınlaşmaq olar? Görəsən bu yaxınlıqdan məqsəd nədir? Zamanla yaxınlıq mümkündürmü? Yoxsa məkana həm ehtiyac var, yada başqa yaxınlıq nəzərdə tutulur? Bu kimi suallara cavab verməkdən ötrü gəlin bəhsimizə ətraflı nəzər salaq.

## Təsdiq zəmanəti sahəsində əxlaqın dinə ehtiyacı

## İslam - fitrət dini

فَأَقِمْ وَجْهَكَ لِلدِّينِ حَنِيفًا ۚ فطرة اللَّهِ الَّتِي فَطَرَ النَّاسَ عَلَيْهَا ۚ لَا تَبْدِيلَ لِخَلْقِ اللَّهِ ۚ ذَٰلِكَ الدِّينُ الْقَيِّمُ وَلَٰكِنَّ أَكْثَرَ النَّاسِ لَا يَعْلَمُونَ

“Xalis və doğru olan dinə tərəf üz tut! Bu İlahi fitrətdir. Allah insanları onun əsasında yaratmışdır. Allahın yaradılışında heç bir dəyişkənlik yoxdur. Möhkəm din budur, lakin insanların əksəriyyəti (bunu) bilmirlər.”[2]

İslam dini sonuncu və ən kamil din olduğu üçün onun bütün qayda -qanunları insan fitrəti (yəni “anadangəlmə xüsusiyyətlər”) ilə uyğundur və həyatın müxtəlif sahələrində insana nicat (xilas) yolunu göstərir. Beləliklə, dinlər içərisində

1 - Bəqərə surəi, ayə 213

2. Quran: Rum surəsi, ayə: 30.

son və haqq din İslam dini olduğu üçün dinin İslama uyğun tərifini qeyd edirik:

“Din” ərəb sözü olub, lüğətdə mükafat mənasını ifadə edir.

“Din vəhy ilə gələn, insanların Quran və sünnə vasitəsilə doğru yola hidayəti üçün onlara çatdırılan həqiqətlər və dəyərlər toplusudur. ”

Bəşərin səadəti istər bu dünyada, istərsə də axirətdə gündəlik həyatın müxtəlif (həm fərdi, həm də ictimai) sahələrində İslami qayda - qanunlara əməl etməklə birbaşa bağlıdır.

İslam dini əsas üç mühüm sahəyə ayrılır:

1. “Üsuliddin” adlanan əqidə sahəsi insanın fikir və əqidəsinin islah olunması üçün nəzərdə tutulubdur. Bu sahə əqidə məsələləri ilə bağlı olduğuna görə, hər bir müsəlman həmin məsələlərdə əminlik əldə etməli, əminlik isə dəlil - sübuta əsaslanmalıdır.

2. “Firuiddin” – “Fiqh” və ya “Əhkam” adlanan sahə isə əməli göstərişlər sahəsidir ki, insan Allaha itaət etmək məqsədilə bir sıra əməlləri yerinə yetirməli, bir sıra əməllərdən isə çəkinməlidir.

3. “Əxlaq” adlanan psixoloji və rəftar sahəsi isə insanın ruh və rəftarının islahından bəhs edir.

Sadə bir bənzətmə ilə bunu belə ifadə etmək olar: İslam dini sanki bir ağac, üsuliddin bu ağacın kökləri, firuiddin onun gövdə və budaqları, əxlaq isə sanki , onun yarpaq və meyvələridir: gözəl əxlaq şirin meyvə, çirkin əxlaq çürük meyvə !

Bu misaldan aydın görünür ki, ağacın əsas məqsədi, şirin dadlı meyvənin əldə olunmasıdır, lakin meyvənin əldə olunması üçün ağac sağlam kök, möhkəm gövdə və budaqlara malik olmalıdır.

Bu üç sahəni nəzərdən keçirsək, görərik ki, əqidəyə aid məsələlər praktiki məsələlər deyil, yəni birinci sahədə yalnız bu əqidələrə sarılmaq və onlara səmimiyyətlə inanıb, dildə etiraf etmək tələb olunur. Fiqh və əxlaq məsələlərinin məzmunu isə fərqlidir, çünki bu iki sahədə bir sıra İlahi qanunlar və dəyərlərə istinad edən qaydalarla üzləşirik. Məsələn, namaz qılmağın vacib olması, özünü başqalarından üstün tutmağın pis olması kimi digər fiqhi və əxlaqi təlimlər təkcə inanılası əqidələr yox, həm də İlahi qanunlar və dəyərlər toplusuna aid olan əməllərdir. Deməli, İslam dini özündə həm həqiqətləri, həm də dəyərləri əhatə edən bir dindir.

Əxlaq İslam dininin əsas sütunlarından biri olduğu üçün, əxlaqın da tərifinə diqqət etməliyik. Beləliklə, “Əxlaq” xülq sözünün cəm formasıdır: xəlq və xülq sözləri ərəb mənşəli olub, eyni kökdən götürülmüşdür, lakin məna etibarı ilə bu sözlər bir-birindən fərqlənir: “xülq” daxili xüsusiyyəti, “xəlq” isə zahiri formanı nəzərdə tutur. İnsanlarda müşahidə olunan hər bir daxili keyfiyyət, əməl və hərəkət əxlaq və əxlaqi rəftar adlanır.

**Müsəlman mütəfəkkirlərinin “Din və Əxlaq” barədə görüşləri**

İslam filosofları və sxolastları (mütəkəllimləri) arasında hicri IV və V əsrlərdə geniş yayılmış “işlərin yaxşı-pisliyinin zati[1] olub-olmaması və bunun müstəqil ağıl qüvvəsi tərəfindən edilib-edilməməsi” bəhsi əslində din və əxlaq mövzusunun ilkin təzahürü idi.

Həmin bəhsin mahiyyəti haqqında bunu demək olar ki, İslam sxolastikasının erkən çağlarında, yəni hicri IV və V əsrlərdə mütəkəllimlər arasında belə bir məsələ müzakirə olunmağa

1. Ərəbcədir: 1. Əsil, mənşə, mahiyyət, kök, nəsil, nəsəb. 2. köhn. Şəxs, adam, şəxsiyyət, sima. 3. Özü, öz nəfəsi, öz varlığı.

başladı ki, insan ağlı dini hökmlərə və qanunlara müraciət etmədən, işlərin yaxşı və ya pis olduğunu dərk edə bilərmi? Bu problemi digər formada da ortaya qoymaq olar: "İnsanın yerinə yetirdiyi işlərin Allah tərəfindən pis və ya yaxşı olması göstərilməsə, həmin işlər öz-özlüyündə zati olaraq pis və ya yaxşı adlana bilərmi? "

Göründüyü kimi, müsəlman dünyasında sxolastik bəhslərin formalaşdığı ilk çağlarda dinin əxlaqla qarşılıqlı münasibəti əsas müzakirə obyektinə çevrilmişdi. Həmin vaxtlar məsələnin öz həllini tapmasında müsəlman mütəfəkkirlər tərəfindən iki yol təklif edildi: əşərilik və mötəzililik.

Əşərilik cərəyanı işlərin yaxşı və pisliyinin tam şəkildə Allahdan asılı olduğunu, mötəzililik (xüsusilə də, imamilik) təlimləri isə bütün işlərin deyil, bəzi işlərin yaxşı və pisliyinin ağıl tərəfindən dərk edildiyini bildirmişlər.

İndi din və əxlaq münasibətləri barədə irəli sürülən həmin iki görüşlə, daha sonra isə digər müsəlman filosofların bu haqdakı fikirləri ilə tanış olacağıq.

**Əşərilik**

Kəlam elmində əsas qollardan biri kimi, hicri tarixi ilə IV əsrin əvvəllərində Əbülhəsən Əl-Əşəri tərəfindən yaradılan əşərilik dini-fəlsəfi təlim kimi tanınır. Əslində bu məktəb həmin dövrdə İslam sxolastikasının digər fəal cərəyanı olan mötəzililik ilə mübarizə şəraitində yeni kəlam məktəbi kimi formalaşdı. Sözügedən məsələnin ("işlərin yaxşı-pisliyinin zati olub -olmaması və bunun müstəqil ağıl qüvvəsi tərəfindən edilib-edilməməsi") əşərilik məktəbi tərəfindən izahına

gəldikdə, burada problemin qoyuluşu ilə bağlı bir məqam müqəddimə olaraq aydınlaşdırılmalıdır.

Öncə də qeyd edildiyi kimi, İslam sxolastikasında " din və əxlaq münasibətləri " bəhsi işlərin yaxşı və ya pisliyinin İlahi iradədən asılı olmaması mövzusunun müzakirəsi ilə başlamışdı. Burada bir məsələni vurğulamaq lazımdır ki, müsəlman mütəkəllimləri arasında mövcud olan bu problemin iki aspekti var idi. Daha doğrusu, həmin məsələ iki hissədən ibarət idi: birinci hissədə işlərin zati olaraq öz-özlüyündə yaxşı və ya pis adlana bilməsi, ikinci hissədə işlərin pis və ya yaxşı olmasının ağıl tərəfindən dərk olunub-olunmaması müzakirə edilirdi.

**Əşərilikdə problemin həlli**

Əşərilik məktəbi yarandığı dövrdə bəzən dini əqidələrin izahında ağıla istinad etsə də, bir sıra məsələlərdə ağlın rolunu tam inkar edirdi. Hər iki mərhələdə həmin münasibət müşahidə olunur, yəni Əl-Əşəri işlərin yaxşı və ya pis olmasını həm zati, həm də əqli idrak aspektindən tam İlahi iradə və qanunlara əsaslandırır. Deməli, əşərilik məktəbi baxımından heç bir iş öz - özlüyündə yaxşı və ya pis deyil. Təkcə Allahın yaxşı və ya pis hesab etdiyi işlər həmin xüsusiyyətlərə malik ola bilər, həmçinin insan İlahi iradənin köməyi olmadan işlərin yaxşı və ya pis olduğunu dərk edə bilməz. Bu mərhələdə də son söz Allaha məxsusdur. Beləliklə, biz yalnız Allah-Taala tərəfindən günah adlanan işləri günah hesab etməliyik. Qeyd etmək lazımdır ki, Əl-Əşəri özünün " Əl-Lümə " əsərində rasional dəlillərdən istifadə etsə də, " Əl-İbanə " kitabında bütün əqli istinadlardan imtina etmişdir. Əşəri bütün əsərlərində işlərin yaxşı və ya pis olmasının zatiliyini dindən kənarda müəyyənləşməsini inkar etmişdir.

## İmamilik və mötəzililik

İmamilik və mötəzililik cərəyanları öncə qeyd etmək lazımdır ki, din və əxlaq münasibətləri mövzusunda eyni mövqedən çıxış etmişlər. Onlar bəzi işlərin zati və dindən müstəqil şəkildə yaxşı və pis olduğunu təkid edirlər. Nəsrəddin Tusi bu ideyanın öncüllərindən olan mütəfəkkir öz " Təcridül - etiqad" əsərində bildirir ki, biz bəzi işlərin tam rasional şəkildə pisliyini sübuta yetirə bilməsək, şəriət hökmlərini də qəbul edə bilmərik. O deyir: "Əgər bütün işlərin yaxşı və ya pis olmasını yalnız şəriət hökmləri və dinə əsaslandırsaq, bu vaxt məntiq hökm edər ki, şəriətin özünün düzgünlüyü iddia edilməməlidir. Misal üçün, əgər yalan danışmaq ağıl və zəka baxımından pis sayılmasa və yalan danışmağın pisliyinin şəriət mənbəyindən əldə edilməsini zəruri saysaq, bu vaxt Allah tərəfindən din gətirmiş peyğəmbərin də sözlərini və şəriətini qəbul etməyimiz zəruri olmayacaq. Çünki yalan danışmaq pis iş olmadığına görə peyğəmbərin sözlərinin yalan olması ehtimalı mövcuddur. Beləliklə, onun peyğəmbərliyi sübuta yetməyəcək. "[1]

Başqa sözlə, biz hətta peyğəmbərin sözünün düzgün olmasını təsdiq etmək üçün öncədən və tam müstəqil əqli idrak yolu ilə yalanın pisliyini dərk etməliyik. Çünki yalan danışmağın pisliyini şəriətlə əlaqələndirsək, bu vaxt şəriətin hökmlərini qəbul etmək məcburiyyətində qalmayacağıq.

Qeyd edək ki, insani əxlaq normalarının qəbulu digər bir fəlsəfi problemlə bağlıdır. Bu, insanın iradə azadlığına malik olub-olmaması məsələsidir. Əşərilik məktəbində bütün işlər Allahın iradəsinə aid edildiyinə görə insan azad iradə sahibi sayılmır. Bütün işləri ərsəyə gətirən Allah və Onun əzəli

---

1. Hilli, "Kəşful murad fi şərhi təcridil - etiqad", s. 303.

iradəsidir. Bu məqamda normativ əxlaq prinsiplərindən danışmaq cəfəngiyyatdır, çünki ənənəvi əxlaqda insanlara yaxşı işləri həyata keçirmək və pis işlərdən çəkinmək tövsiyyə olunur. Azad iradə olmayan yerdə isə insanlara bu qəbil tövsiyələr vermək tam mənasızdır. Deməli, əşərilik təliminin müddəalarından biri insanda azad iradənin imkansızlığıdır. Bu baxış ikinci dəstənin görüşlərində tam fərqlidir. Onlar insanın azad iradəyə malik bir varlıq olduğuna inanırlar. Buna görə də, insan azad təfəkkür və sağlam düşüncə sahibi olaraq bir sıra ümumi əxlaq qanunlarını dərk edə bilər. Beləliklə də, bu şəraitdə əxlaq prinsiplərindən danışmaq olar.

Əşərilikdə yaranan digər problem ondan ibarətdir ki, Allah-Taala çox rəzil insanları cənnətə, yüksək İlahi və insani dəyərlərə malik olan insanları isə cəhənnəmə ata bilər. Yəni Allah-Taala belə bir iş görsə, biz Allahı bu işinə görə qınaya bilmərik, çünki yaxşı və pis işləri tam İlahi iradə ilə əsaslandırsaq , bu vaxt Allahın bütün işləri yaxşı hesab edilməlidir. Onda Allahın yuxarıda qeyd etdiyimiz işləri də, yaxşı hesab edilir, halbuki bu müddəa imamilik və mötəzililik təlimlərində qətiyyətlə rədd edilmişdir. Həmin təlimlərə əsasən, Allah-Taala ədalətlidir, Onun ədaləti qeyd olunan işlərin Allah tərəfindən həyata keçməsinə izin vermir. Buna görə də, bu iki İslam sxolast cərəyanlarına "ədliyyə" (Allahın ədalətini qəbul edənlər ) adı verilmişdir. Burada artıq daha bir suala cavab verməliyik: Ədliyyə cərəyanının din və əxlaq münasibətləri mövzusuna baxışında əxlaqın ümumiyyətlə, dindən asılı olmadığı bildirilir, yoxsa bəzi əxlaq qanunlarının müstəqil şəkildə dərk edildiyi təkid olunur?

Bu sualın cavabında bildirmək lazımdır ki, ədliyyə məktəbi təlimlərində bir sıra fundamental xarakterləri etik qanunların tam rasional müstəvidə aludə olması mümkün sayılır. Növbəti misallara diqqət yetirək:

Başqalarının hüquqlarına təcavüz etmək pisdir, zəif insanlara kömək etmək yaxşıdır, yalan danışmaq pisdir. Bu tipli əxlaq qanunları tam şəkildə insan zəkası tərəfindən dərk olunur. Lakin həmin bünövrə qanunları ağıl yolu ilə təsdiqlədikdən sonra əxlaq və dinin digər əxlaq qanunları ilə sıx əlaqəsi başlanır. Misal üçün namaz qılmaq dində əxlaqi bir vəzifə kimi insanlara vacib edilmişdir. Bu qəbildən olan əxlaq normalarında əxlaq tamamilə dindən asılıdır.

**Ustad Misbah Yəzdinin baxışları**

Müasir İslam filosofu Misbah Yəzdi din və əxlaq münasibətlərində bir qədər fərqli baxışlarla çıxış edir. O, “Əxlaq fəlsəfəsi” əsərində yazır:

“Əxlaqda qeyd olunan “pis” və “yaxşı” məfhumları insanın ixtiyari işləri ilə həmin işlərin son nəticəsi arasındakı əlaqə növünü göstərir. İnsanın hər hansı işi onun son xeyir məqsədi ilə müsbət əlaqədədirsə, həmin iş “yaxşı”, mənfi əlaqədədirsə “pis” sayılır. Bu ideyanın özü dini qanunlardan götürülməmişdir, yəni bu müddəanı təsdiqləmək Allahı, peyğəmbərləri və dini qanunları qəbul etmək deyil. Bəs insanın varlığının son məqsədi nədir? Bu sualı cavablandırarkən əxlaqın dinlə əlaqəsi üzə çıxır. Biz insanın son məqsədini araşdırarkən və bu suala cavab verərkən, həmin məqsədin “Allaha yaxınlaşmaq” olduğunu vurğulayırıq. Həmçinin yaxşı işləri müəyyənləşdirmək və onların son məqsədlə əlaqəsini səciyyələndirmək üçün insanın əbədiliyini və onun axirət həyatında öz yaşayışını davam etdirəcəyini ortaya qoymalıyıq. Əxlaq qanunlarının təyin edilməsində ölümdən sonrakı həyata inam ona görə zəruridir ki, biz inanclı insana belə bir tövsiyə verə bilərik: sənin son səadətin və

varlığın son məqsədi bir sıra maddi və dünyəvi mənafelərinə zidd olarsa da, əbədi mənafelərini üstün tutmalısan. Çünki həqiqi xeyir məhz bundadır və bunun əksinə olan işlər pis işlərdir. Deməli, Allahın varlığının təsdiqindən əlavə məad əqidəsi də əxlaq qanunlarının müəyyənləşməsi və sabitləşməsi üçün zəruridir."

Misbah Yəzdi bunu da əlavə edir ki, müstəqil insan zəkası bir sıra ümumi əxlaq qanunlarını dərk edə bilsə də, onun nümunələrini müəyyənləşdirməkdə acizdir. Məsələn, ağıl dərk edir ki, ədalətli olmaq yaxşıdır, lakin bir çox xırda məsələlərdə hansı rəftarın ədalətə uyğun olduğu qaranlıq qalır. Həmin məsələlərdən biri də cəmiyyətdə kişi və qadın hüquqlarının bərabərliyi məsələsidir. Biz bu qəbil məsələlərdə ədalətin tətbiqində çətinlik çəkirik və onların həlli üçün dini qanunlara müraciət etmək labüddür. [1]

1. Sekulyar əxlaq humanist ideyalara əsaslanır, dini əxlaq isə teoloji baxışlardan qaynaqlanır. Nəticədə sekulyar əxlaq cəmiyyətdə insanların fərdi hüquqlarının keşiyində dayanır, din məzmunlu əxlaq isə insanların yalnız Allah qarşısında vəzifələrinin düzgün həyata keçirilməsini özünün əsas qayəsi hesab edir. Bir sözlə, dini əxlaq insanların fərdi hüquqlarını tam təyin edə bilmir.

Qətiyyətlə deməliyik ki, bu iradla çıxış edənlər İslam dininin mahiyyətinə yetərincə varmamışlar. İlkin İslam dövrünü ötəri nəzərdən keçirsək görərik ki, bu müqəddəs din insanların bütün maddi və mənəvi ehtiyaclarını təmin etməyə çalışır, cəmiyyətdə bütün insanların həm sosial, həm də fərdi hüquqlarını bərpa etməyə səy göstərir. Quran ayələrini, bu səmavi kitabın İlahi hökmlərini mütaliə edərkən , onun insan hüquqlarına necə diqqət yetirdiyinə şahid oluruq. Burada

---

1. Misbah Yəzdi, "Düruse fəlsəfeye əxlaq", s. 197-199

nümunə olaraq Quranın bir neçə surəsindən bir neçə ayəni nəzərinizə çatdırırıq:

Allah-Taala "Əbəsə" surəsində İslam peyğəmbərinin və yaxud Peyğəmbərə yaxın şəxslərdən birinin[1] kor bir kişi ilə rəftarını bəyan edərkən məlum olur ki, Allah-Taala cəmiyyətdə kimsənin hüquqlarının azacıq olsa belə tapdanılmasına razı deyil, çünki kor bir kişiyə kiçik bir etinasızlıq səbəbindən bu barədə bir neçə ayə nazil olur. Təkcə bu ayələri əsas götürərək dini əxlaqın fərdi insan hüquqlarına sekulyar əxlaqdan yüngül yanaşması fikrini rədd etmək mümkündür. İslamda qeyd olunan ayələrə oxşar ayələr və hədislər kifayət qədərdir. Digər bir tərəfdən İslamda insanlara din ayinləri və qanunlar çərçivəsində təqdim olunan nə varsa, hamısı onların dünya və axirət həyatı üçün faydalı, bəzən də zəruridir. Deməli, bu baxımdan İlahi dəyərləri insani dəyərlərdən ayırmaq əsassızdır.

2. Müsəlman xalqların az bir hissəsi dini əxlaqa yiyələnmişdir. Yalan, rüşvətxorluq və bu kimi əxlaqa zidd işlərin müsəlmanlar arasında geniş yayılması onu göstərir ki, dini əxlaq sistemi cəmiyyətdə işlək ola bilməz.

Bu irada cavab olaraq deyirik:

a). Etik normalara zidd bir çox davranışları müsəlmanlara aid etmək olmaz. Bundan əlavə müasir dövrdə əxlaq problemi sekulyar cəmiyyətləri də narahat edir. Hətta bir çox sahələrdə, o cümlədən, ailə qurumu məsələlərində müsəlmanların problemləri digər dinlərə sitayiş edənlərin problemlərindən daha azdır.

b). Öncədən də qeyd olunduğu kimi, müəyyən qanunlar toplusunun mövcudluğu həmin qanunların cəmiyyətdə tətbiq

1. Quranda adı çəkilmədiyinə görə təfsirçilərin rəyi müxtəlifdir.

edilməsinə zəmanət vermir. İslamda kamil və mütərəqqi əxlaq qanunlarının mövcud olması müsəlman adlanan insanların həmin qanunlara uyğun yaşamasına təminat vermir. Deməli, biz həmin qanunların bəzən işləməməsinin səbəblərini araşdırıb tapmalıyıq.

3. Zaman dəyişdikcə onun tələbləri də dəyişir. Zamanla dəyişən, fərqlənən və inkişaf edən bəşər cəmiyyətləri üçün zamanla ayaqlaşan əxlaq qanunları tələb olunur, dini əxlaq qanunları isə dəyişməz və sabitdir. Deməli, dini əxlaq zamanın tələblərinə cavab verə bilməz.

Qeyd edək ki, İlahi dəyərlər əsasında formalaşan əxlaq sistemi dəyişkənliyə məruz qalan cəmiyyət üçün daimi olaraq əxlaq normaları tənzimləyir. Lakin bu o demək deyil ki, həmin əxlaq qanunları dəyişkənliyə məruz qalır. İnsanlar ilk yaranış günündən dünyanın sonuna qədər bir sıra dəyişməz qanunlara tabe olmalıdırlar. Misal üçün zaman nə qədər dəyişsə də, cazibə qanunu dəyişməzdir; min illər sonra da paradoks hallarının mümükünsüzlüyü dəyişməz qalacaqdır. Deməli, bəşər həyatında yeniləşməyən ( heç vaxt dəyişməyən ) həqiqətlər vardır. Həmin həqiqətlərin bir hissəsi də insanları xoşbəxtliyə yönəldən əxlaq qanunlarıdır. Tam əminliklə deyə bilərik ki, "başqasının hüququna təcavüz etmək qadağandır" qanunu zaman və məkan çərçivəsinin fövqündə dayanan bir qanun kimi dəyişməz qalacaqdır. Bizim qənaətimizə görə, İslamda mövcud olan etika qanunlarının hamısı bu qəbildəndir. Deməli, İslamın əxlaq qanunları bütün zaman və məkanlarda, habelə müxtəlif mədəniyyətlərə mənsub olan xalqlar arasında həyata keçə bilən dəyişməz həqiqətlərdir.[1]

Beləliklə, əxlaqın dinə ehtiyacının təsdiq sahəsini daha yaxşı dərk edə bilməkdən ötrü təfəkkürün nə olduğunu anlamalıyıq.

---

[1]. Mail İsmayıloğlu, "Din fəlsəfəsi" (2009-cu il), s. 112-120.

## İslam dünyagörüşündə idrak vasitələri
## Təfəkkür

Qurani-Kərimdə təfəkkürlə bağlı buyurulur:

- "Biz bu misalları insanlar üçün çəkirik ki, bəlkə, düşünələr".[1]
- "Məgər onlar öz-özlüklərində Allahın göyləri, yeri və onların arasındakıları ancaq haqq-ədalətlə və müəyyən bir müddət üçün yaratdığını düşünmürlərmi?"[2]
- "De: "Kor görənlə bir olarmı? Məgər düşünmürsünüz ? "[3]
- "Yeri (insanların və başqa canlıların yaşaya bilməsi üçün) döşəyən (uzadıb genəldən), orada möhkəm dağlar, çaylar yaradan, bütün meyvələrdən (erkək-dişi, yaxud şirin-acı, turş-meyxoş və s. olmaqla) cüt-cüt yetişdirən, gecəni gündüzlə (gündüzü də gecə ilə) örtüb bürüyən Odur. Şübhəsiz ki, bunda (bütün bu deyilənlərdə) düşünən insanlar üçün (Allahın qüdrətini və təkliyini sübut edən) neçə-neçə dəlillər vardır! [4]
- "O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı xatırlar, göylərin və yerin yaradılması haqqında düşünər".[5]

İndi isə təfəkkürlə bağlı hədislərə nəzər yetirək:

- "Təfəkkür, qəlbin bəsirət gözünə həyat verir".[6]
- "Bir saat təfəkkür yetmiş il ibadətdən xeyirlidir".[1]

---

1. Quran: əl-Həşr surəsi, ayə:21
2. Quran: ər-Rum surəsi, ayə:8
3. Quran: əl-Ənam surəsi, ayə:50
4. Quran: ər-Rad surəsi, ayə:3
5. Quran: Ali-İmran surəsi, ayə:191
6. Təmimi Amidi, Əbdulvahid ibn Məhəmməd "Ğurərul-hikəm və durərul-kiləm", s. 57

- "Allahın nemətləri barədə edilən təfəkkür ən gözəl təfəkkürdür".[2]
- "Allahın nemətləri barədə təfəkkür edin, çünki heç vaxt Onun zatının əzəmətini dərk edə bilməzsiniz".[3]
- "Allahın keyfiyyəti, necəliyi haqqında fikirləşən yolunu azar və məhv olar".[4]
- "Allahın zatı haqqında təfəkkürdən çəkinin, çünki bu, insan üçün yalnız sapqınlıq gətirər".[5]

## Təfəkkürün əhəmiyyəti

Quranda təfəkkürlə bağlı buyurulan ayə və hədislərə nəzər yetirdikdə təfəkkürün aşağıdakı kimi iki mühüm sahəyə ayrıldığı məlum olur:
1. Qadağan olunan təfəkkür:
a) Allahın zatı ilə bağlı
b) Günah və şərlə bağlı

---

1. Təmimi Amidi, Əbdulvahid ibn Məhəmməd "Ğurərul-hikəm və durərul-kiləm", s.. 56 - Bu hədisdən "Elə isə elmlə məşğul olan insana ibadət lazım deyil" - kimi nəticə almaq tamamilə yanlışdır. Çünki elm və ibadətlə bağlı yüzlərlə ayə və hədis mövcuddur. Bunların hər birini nəzərə aldıqda belə nəticə çıxır ki, bu hədisin mənası insanlara elmin müqəddəsliyini, ucalığını və əzəmətini göstərməkdir. Çoxsaylı ayə və hədislər bizə elmlə məşğul olarkən ibadəti unutmamağı, ibadətlə məşğul olduqda isə elmi unutmamağı tövsiyə edir və insanın bu ikisinin əhatəsində kamilləşə biləcəyini bildirir.
2. Müstədrəkül-vəsail, c. 11, s.185
3. Biharul-ənvar, c. 68, s. 322
4. Məhəmməd ibn Yəqub ibn İshaq Kuleyni , Üsuli-kafi, c. 1, s. 93; Biharul-ənvar, c. 3, s. 264
5. Səduq, " Tövhid ", s. 457

2. Bəyənilən təfəkkür:
a) Yaradılış haqqında (Aləmşünaslıq)
b) İnsan haqqında (İnsanşünaslıq)
v) Allahın sifətləri haqqında (Allahşünaslıq).

## İdeoloji və məchullu təfəkkür

Digər tərəfdən, insan, hətta (məsələn, Quranda təfəkkür üçün göstərilən) aləm, dəvə və səma haqqında düşündükdə də, məchullarla üzləşir və bu məchulları məluma çevirmək üçün təfəkkürdə yanlışlığa yol verməməyə çalışır. Allah-Taala Qurani-Kərimdə Ali-İmran surəsinin 191-ci ayəsində buyurur: "O kəslər ki, ... göylərin və yerin yaradılması haqqında düşünər". Əlbəttə, bu ayədə göylərin və yerin yaradılması haqqında təfəkkür edərək heyrət və imanla dolu: "Doğrudan da, Allah göyü və ulduzları nə qəribə yaratmışdır?" nəticəsi alınır. Belə təfəkkür, yalnız imanlı şəxslərə aiddir. Elə şəxslər var ki, səmaya baxdıqda, heç də qeyd etdiyimiz nəticəyə yetişmirlər. Onlar heç ulduzları Allahın yaratdığı varlıq kimi qəbul etmirlər[1]. Yaxud yuxarıdakı iman yönlü sualdan sonra düşünə bilərik ki, "Onda bəs Allahı kim yaradıb?"; "Görəsən, bu Allahdan başqa Allah da varmı?"; "Əgər yoxdursa, bu Allah var ola bilirsə, niyə başqa Allah var ola bilmir?" və s. bu kimi suallar insanı məchullarla üz-üzə qoyur. Demək olar ki, çox zaman iman müstəqil şəkildə məchulları məluma çevirə və onlara cavab verə bilmir. Deməli, təfəkkür yalnız heyrət və

---

1. Materialist görüşünə görə aləm və aləmdəkilər Allah tərəfindən deyil, maddələrin yerdəyişməsi və maddələrdəki dəyişikliklər nəticəsində yaranmışdır. Lakin Aristotel, Farabi və İbn Sina kimi böyük alimlər isbat etmişlər ki, hər şey Allahın iradəsi ilə yaranmışdır və materialist görüşü əsassızdır.

imanla dolu düşüncədən ibarət deyil. Yuxarıdakı birinci növ təfəkkürü ideoloji, ikinci növ təfəkkürü ( həqiqi sualla yanaşı olan təfəkkürü ) isə məchullu təfəkkür adlandırmaq olar. İdeoloji təfəkkürdən, adətən, Allaha iman gətirən və sadə insanlar istifadə edir. Həzrət Peyğəmbərin (s) bir çox dəyərli səhabələri də Allaha belə təfəkkürlə yaxınlaşmışlar. Məchullu təfəkkürdən isə daha çox, hər sözü asanlıqla qəbul edə bilməyənlər, alim və filosoflar istifadə edirlər. Hər halda, deyə bilərik ki, bu iki növ təfəkkürün bir- biri ilə sıx əlaqəsi vardır. Bu məsələ insan psixologiyası və başqa elmlərin mövzusudur. Buna görə də alimlər təfəkkürə ümumi yanaşmış və ona geniş şəkildə izahlar vermişlər.

## Təfəkkürün tərifi

Təfəkkür ümumi camaat arasında "zəruri təsəvvür" dən ibarətdir. Yəni təfəkkür, başa düşülməsində düşüncəyə ehtiyacı olmayan məfhumdur. Amma elm və insan psixologiyası məqamında isə o, "nəzəri təsəvvüf " hesab edilir. Yəni onun mənası, tərifi dəqiq verilməlidir. Çünki elm dəqiqlik tələb edir və hər hansı bir sahə ilə bağlı məsələlərə aydınlıq gətirmək üçün, əlbəttə ki, hər şeyin dəqiq mənası izah edilməlidir. Alimlər ümumi olaraq təfəkkürə aşağıdakı kimi tərif vermişlər:

Təfəkkür - zehnin məchulla məlum arasındakı hərəkətindən ibarət olan aktiv idrak formasıdır.

Burada aktiv dedikdə, kompüter beyninin passiv hərəkətinin, yəni iradəsiz, ixtiyarsız, şüursuz hərəkətinin əksinə olaraq, onun iradəli, ixtiyari, şüurlu hərəkəti başa düşülür və bu hərəkət beş əsas mərhələyə bölünür. Bu mərhələlərə aşağıda işarə olunacaq.

## Zehin və kompüter

Məlumdur ki, kompüterin işləmə prinsipi zehnin işləmə prinsipi ilə eynidir. Alimlər zehin üzərində uzunmüddətli araşdırmalardan sonra, nəhayət, süni zehni — kompüteri ixtira edib təkmilləşdirmişlər.

Siz kompüterdə bir məsələni həll edərkən müəyyən düymələri basmaqla bir anda məsələnin həllini ekranda müşahidə edirsiniz. Amma bəzən bu proses bir qədər uzun çəkir. Zehin də (demək olar ki,) eynilə belədir. Amma gəlin görək kompüterdə, bir anda baş verən hərəkət hansı mərhələləri keçərək sona çatır?

Kompüter ikilik (0;1) say[1] sistemində işlədiyindən, daxil edilən məlumatların hamısını ikilik say sisteminə çevirərək məsələni həmin məkanda həll edib, sonra yenidən, cavabı ikilik say sistemindən, verilən məlumatlar məkanına çevirib ekrana verir. Məsələn, "5+2=7". Əvvəlcə, öz ana məlumatlarının arasından, daxil edilən "5" ədədinə uyğun ikilik say sistemindəki ədədlə "2" ədədinə ikilik say sistemindəki uyğun ədədi toplayıb həmin say sistemində bir ədəd alır. Yeni alınan ədədi ana məlumatlarda axtarıb onluq say sisteminə uyğun olaraq ekrana verir. Maraqlıdır ki, bu qədər proses saniyənin onda, yaxud yüzdə bir hissəsində baş verir.

---

1 Mövqeli say sisteminin 4 say sistemi var: İkilik say sistemi, Səkkizlik say sistemi, Onluq say sistemi, Onaltılıq say sistemi. Onluq say sistemi bizim gündəlik işlətdiyimiz say sisteminə deyilir.

## Beş mərhələli hərəkət və nəticə

İnsan məchulla üzləşdikdə onu məluma çevirmək üçün zehnini hərəkətə gətirir. Bəzən bu hərəkət qısa bir anda, bəzən isə uzun zaman ərzində sona çataraq nəticə verir. Buradakı hərəkət kompüterdəki ixtiyarsız, iradəsiz, şüursuz şəkildə olan passiv fiziki yerdəyişmə ilə baş verən hərəkətdən fərqlənir. Zehnin bu işi, onun öz fəzasına uyğun mərhələləri keçməklə həyata keçir. Zehin də hər hansı bir məchulu məluma çevirmək üçün müəyyən mərhələləri qət edərək məluma yetişir. Amma bu hadisə qısa zaman kəsiyində baş verdiyi üçün bizə elə gəlir ki, məchul birbaşa məlumdan alınır. Bu təhlildə məqsəd belə bir sualı cavablandırmaqdır: nə üçün zehin də kompüter kimi müəyyən mərhələləri keçdiyi halda, kompüterin əksinə olaraq, səhvlərə yol verir?

Cavab: Kompüter iki prinsip etibarilə zehindən fərqlənir. Birincisi budur ki, kompüterin iradəsi yoxdur. Apardığı hər əməliyyat və aldığı nəticə icbari şəkildə həyata keçir. İkincisi, kompüterin "təfəkkür hərəkəti" zahirdə zehnin canlı və mənəvi hərəkəti kimi görünsə də, əslində, mexaniki hərəkətdir. Yəni kompüterin "təfəkkürü" elektronların mexaniki hərəkətindən başqa bir şey deyil. Amma zehnin təfəkküründə beyin hüceyrələri mexaniki hərəkətə gəlsə də, bununla bərabər, ruhda da dəyişikliklər baş verir. Bunun da isbatını fitri olaraq belə vermək olar: bu, "hüzuri elm"in vasitəsi ilə baş verir. Yəni insan qəlbən və öz-özlüyündə hiss edir ki, onun ruhunda da dəyişikliklər özünü göstərir.

Bu iki fərqi nəzərə alsaq, məlum olur ki, "kompüter zehni" hərəkət edən zaman onun hərəkət yolu üzərində heç bir maneə və hərəkətə təsir edən kənar bir qüvvə olmur. Məlumdur ki, maneə olmadıqda məqsədə çatmaq da mütləqdir. Amma zehnin işinə təsir göstərən amillərdən ən əsası olan nəfs,

adətən, təfəkkürün yoluna sədd çəkir. Bu da çox zaman alınan nəticələrə bilavasitə öz təsirini göstərir.

Ümumi şəkildə qeyd edək ki, təfəkkür dörd formada baş verir; "mücərrədləşdirmə", "tərif", "bölgü" və "əqli nəticə" ... və məntiqin elə əsas xətti də bu dörd istiqamətdədir. İndi isə qeyd etdiyimiz beş mərhələnin izahına diqqət yetirək:

**Birinci mərhələ: məchul obyekt, iradə və gərginlik.**

Zehin hər hansı bir obyekti məchul kimi qarşılamalıdır ki, insanda bu məchulu məluma çevirmək iradəsi yaransın. Bəzən insan həqiqətdə məchulla üzləşdiyi halda, həmin mövzuya etinasız yanaşdığından, onda bu sualla bağlı "cəhalət" halından çıxaraq "elm"ə yiyələnmək istəyi oyanmır. Amma cəhalət halından çıxaraq elmə yiyələnmək iradəsi yaranan zaman zehnin aldığı vəziyyət dayandığı yerdən hərəkətə başlayan avtomobilin vəziyyətinə bənzəyir. Mühərriki işlək halda hərəkətsiz qalan avtomobil, yerində işlədiyi kimi, insan da məchulla üzləşdikdə əgər onu məluma çevirməyə iradə göstərsə, onun zehnində gərginlik əmələ gəlir. Bu gərginlik insanın məchulu məluma çevirmək istəyindən törəyir və yuxarıda qeyd etdiyimiz kimi, həm insanın beynində, həm də ruhunda özünü göstərir. Onu da qeyd edək ki, bu mərhələ insan əxlaqına da təsir göstərir. Belə ki, bəzən insan özünü, ona məlum olmayan bir şey qarşısında təkəbbürlülük, inadkarlıq, təəssübkeşlik və s. üzündən alim kimi göstərir. Bu da sonrakı mərhələlərin icrasının qarşısını alır, yəni belə insan üçün məsələ həll olunmadan həll olunmuş kimi qəbul olunur.

**İkinci mərhələ: məchulun növü.**

Məchulu məluma çevirmək istəyindən sonra mütləq məchulun növü aydınlaşmalıdır, yoxsa onu məluma çevirmək

mümkün deyil. Yəni məchulun hansı elmlə və hansı sahə ilə bağlı olduğu aydınlaşdırılmalıdır.

**Üçüncü mərhələ: hərəkət.**

Yəni zehnin məsələni həll etməkdən ötrü münasib məlumatlar seçmək üçün ana məlumatlar məkanına daxil olması. Hər bir sahə ilə bağlı məlumatlar beyində qrup şəklində toplandığından, zehin müvafiq qrupa daxil olmalıdır.

**Dördüncü mərhələ: axtarış.**

Bu mərhələ zehnin ən çətin keçdiyi mərhələdir. Çünki məchul üçün hər məlumatı seçmək olmaz. Saysız zehni məlumatlar arasından münasib məlumat seçilməlidir. Məchulla, onu həll etmək üçün seçilən məlumatlar arasında uyğunluq olmalıdır. Bu uyğunluğu düzgün seçməmək, nəticənin yanlış olmasına səbəb olur. Bəzən zehin bu mərhələdə saatlar və günlər keçirir. Bəzən də bunu bir anda başa vurur. Bu da məchulun növündən, zehnin gücündən və s. amillərdən asılı olur.

**Beşinci mərhələ: qruplaşdırma.**

Zehnin məlumatlar məkanından xaric olaraq, həmin məlumatları qruplaşdırıb nəticəyə çatması. Misal: "Aləm əzəlidir, yoxsa sonra yaranıb?" Bu məchul yuxarıda dediyimiz dörd təfəkkür formasından dördüncüsü ilə bağlıdır. Yəni təfəkkürün "əqli nəticə" formasıdır. Bu suala uyğun olaraq, zehnin yuxarıdakı beş mərhələli hərəkətinə baxaq: Birinci mərhələdə bu sual bizim üçün məchuldursa, onu məluma çevirmək istəyəcəyik. Bundan sonra ikinci mərhələdə bu sualın hansı elmə aid olduğunu aydınlaşdırırıq və əqli elmlərlə bağlı olduğunu görürük. Üçüncü mərhələdə sualımız əqli sual olduğundan, aydındır ki, zehnimizdə əqli elmlərlə bağlı məlumatlar ön plana keçir və zehin bu məlumatlar məkanına daxil olur. Dördüncü mərhələdə zehnimiz bu sualı cavablandırmaq üçün daxil olduğu məlumatlar arasında

gəzərək axtarış aparır və "Aləm dəyişkəndir", "Bütün dəyişkənlər sonradan yaranır" - kimi münasib məlumatları seçərək oradan xaric olur. Nəhayət, beşinci mərhələdə zehnimiz bu iki məlumatı "Aləm dəyişkəndirsə və bütün dəyişkənlər sonradan yaranırsa" - kimi qruplaşdıraraq "Deməli, aləm sonradan yaranıb" - nəticəsini alır.

Bir daha qeyd edək ki, hər hansı bir sahədəki təfəkkür dörd formada ola bilər: ya hər hansı bir ümumi məfhumun yaradılması, ya həmin məfhumun mahiyyətinin düzgün ifadə edilib, ona tərif verilməsi, ya həmin məfhumun xarici nümunələri üzərində düzgün bölgü aparılması, ya da ağıl vasitəsi ilə bu məfhumla bağlı hər hansı bir hökmün ələ gətirilməsi zamanı. Təfəkkürün bu formalarından birincisi "mücərrədləşdirmə", ikincisi "tərif", üçüncüsü "bölgü", dördüncü isə "əqli nəticə" adlanır. Bunlardan birincisini çıxmaq şərti ilə, hər birində yuxarıda qeyd edilən beş mərhələdən keçməmiş nəticə almaq olmaz. Çünki birinci təfəkkür forması olan mücərrədləşdirmə ümumi xarakter daşıyır, belə ki, zehin qarşılaşdığı bir neçə əşyadan, sadə təfəkkür sayəsində müəyyən bir məfhum ala bilər. Bir az diqqət etməklə zehnin, qalan üç təfəkkür formasında, həqiqətən də, bu mərhələləri qət edərək nəticəyə çatmasını hamımız təsdiqləyə bilərik.

Sonda bir məsələyə aydınlıq gətirməklə bəhsimizi yekunlaşdırırıq. O da bundan ibarətdir ki, bir qrup insanlar qeyd etdiyimiz məsələdən müstəsnadırlar. Yəni belə insanlar nəticəyə yetişmək üçün heç də bu "beş mərhələ"ni qət etmirlər, əksinə, onlar nəticəni birbaşa əldə edirlər. Belə şəxslər aşağıdakılardır:

**a) Peyğəmbərlər (s) və imamlar (ə).** Çünki onlar İlahi ilhama, vəhy idrakına, "lədunni elm”ə[1] malikdirlər.

**b) Ariflər.** Onlar Allah dostları; bütün şirk növlərindən uzaq olan şəxslər; tövhidin ən ali məqamına yetişənlərdir. Ariflər, bəzi həqiqətləri “hüzuri idrak" ilə dərk edirlər, yəni həqiqətlərin özünü dərk edirlər; haqqında danışdığımız beş mərhələ mövzusu isə "hüsuli" idraklar qrupuna aiddir.

" Hüsuli " idraka malik olanlar isə alim adlanırlar.

**c) Güclü, qeyri-adi əqli qüvvəyə malik olan insanlar.** Belə insanlar üçüncü və dördüncü mərhələyə ehtiyac duymurlar. Bu cür təfəkkür bəzən hər insanda baş verir və bunun, bir növ, ilhama yaxın olduğunu söyləmək olar. Onun ali forması, qeyd etdiyimiz kimi, öncə peyğəmbərlərdə (s), sonra imamlarda (ə), daha sonra isə ariflərdə olur.[2]

Təfəkkür haqqında müəyyən bir anlayış əldə etdikdən sonra idrak prosesinin də baş verməsi haqda məlumat verməyi zəruri hesab edirik.

## İdrak və biliklər sistemi

"Varlıq" məfhumu zehni baxımdan hər şeydən aşkar, həqiqəti isə nəhayətsiz dərəcədə gizlidir. Bu, özünü filosofların varlıq haqqında tədqiqatlarında da dolğun ifadə edir.

"İdrak" məfhumu da varlıq kimi aşkardır. İdrak, yaxud elm cəhalət müqabilində duran, aydın başa düşülən, amma həqiqəti isə, alimlərin nəzərincə, hələ də insana tam şəkildə məlum olmayan çox böyük sirlərdəndir. Allah-Taala Quranda "ət-Təkasur" surəsinin 3-7-ci ayələrində idrakın, elmin müxtəlif növ və dərəcələrinə işarə edərək buyurur:

"Xeyr! Siz (əməllərinizin aqibətini) mütləq biləcəksiniz!

---

1. Lədunni - Allah tərəfindən vasitəsiz olaraq verilən elm
2. Rauf İmranoğlu, “Məntiq” (2011-ci il), s. 33-43

Xeyr, xeyr! Siz (əməllərinizin aqibətini) mütləq biləcəksiniz!
Xeyr, əgər (Qiyamət günü sizə nə ediləcəyini) tam yəqinliklə ( "elmül-yəqin" ilə ) bilsəydiniz (fani dünya malına uymazdınız)!
Siz o Cəhənnəmi mütləq görəcəksiniz!
Bəli, siz onu mütləq öz gözünüzlə ( "elmül-yəqin" ilə) görəcəksiniz!"

Göründüyü kimi, burada əvvəlcə sadə, sonra da təkidlə bərabər gələn idrakdan söhbət gedir. Sonra isə "elmül-yəqin“ də, daha sonra isə "eynül-yəqin“ də olan idrak irəli sürülür. Məlumdur ki, bunlar müxtəlif adlarla gəldiyinə görə müxtəlif dərəcələri əhatə etməlidir. Bunların daha dəqiq mənası üçün təfsirlərə müraciət etmək lazımdır. Amma biz, idrakın bildiyimiz müxtəlif dərəcələrinə əsasən, ümumi şəkildə deyə bilərik ki, ayədə əvvəlcə sadə idraka işarə edilmişdir. Sonra idrakın yəqin şəklindəki formasına, daha sonra isə yəqindən də üstün formasına, gözlə müşahidə ediləcək qədər yüksək dərəcəsinə işarə olunmuşdur.

Alimlər idrakın bu növləri və hər birinin dərəcələri haqqında geniş şəkildə izahlar vermişlər. Amma idrakın, bu növlərin hər birini əhatə edən tərifini isə ümumi şəkildə aşağıdakı kimi vermişlər:

İdrak - Obyektin[1] özünün və ya əksinin insan varlığında hazır olması ilə yaranan şüurlu aktiv prosesdir və bu prosesdə insan varlığında yer alan obyekt, yaxud onun əksi, bilik adlanır.

İdrak, yəni hər hansı bir ünsürün başqa bir ünsür (insan, yaxud heyvan) hüzurunda, zatında yer almasıdır. Bu yer alma zamanı ikinci ünsürün məkanına çevrilən birinci ünsür (insan,

1. Burada, obyekt dedikdə, gerçək aləmdəki hər bir varlıq başa düşülür. Məsələn: insan, xarici aləm, xarici aləmdəki qanunlar və s.

yaxud heyvan) öz zatının var olduğunu birbaşa dərk etdiyindən, onun zatında yer alan ikinci ünsürün də varlığını öz zatı ilə dərk etməlidir. Belə yer almanın əşyaların aynada əks olunaraq yer almasından fərqi aktiv olmadadır, yəni ikinci ünsürün məkanına çevrilən birinci ünsür aynanın əksinə olaraq, həmçinin bu yer almanı şüurlu şəkildə qavrayır və bu prosesdən agahdır.

İnsanın öz zatını, onun var olduğunu birbaşa hiss etməsi, dərk etməsi "hüzuri", zatında yer alan ünsürlər vasitəsi ilə xarici obyektlərin varlığını dərk etməsi isə "hüsuli" idrak forması olur.

İndi də idrakın növlərinə və idrak sayəsində yaranan biliklər, yaxud məlumatlar sisteminə baxaq.

İdrak prosesi zamanı dərk edən - "alim", dərk olunan "bilik" (yaxud elm, məlumat) adlanır. Aşağıda adı çəkilən hər idrak, bu tərifin nümunəsi olacaq.

**İdrakın növləri və biliklər sistemi**

İdrak prosesi zamanı yaranan biliklər bir neçə cəhətdən növlərə bölünür:

- Ya hüsuli (təcrübi), ya da hüzuridir (fitridir).
- Ya hissi, ya xəyali, ya təxəyyül, ya vəhmi, ya da əqlidir.
- Ya təsəvvür, ya da təsdiqdir.
- Ya zəruri, ya da nəzəridir.

İnsanın bir şeyi dərk etməsi "idrak" prosesi, bu idrak prosesi zamanı dərk edən - "alim" (idrakın "subyekt"i), dərk olunan - "məlum, bilik" (idrakın "obyekt" i) adlanır.

**Hüsuli (təcrübi) və hüzuri (fitri) idrak**[1]

Obyektin "öz"ü və onun zehindəki inikası baxımından idrak iki yerə bölünür:

1. Hüsuli idrak,
2. Hüzuri idrak.

Hüsuli idrak - obyektin insan zehnindəki inikasından ibarətdir.

Yəni obyekt müstəqil olaraq xarici aləmdə mövcuddur və onunla insan arasında fasilə olmasına baxmayaraq, beyində əks olunmaqla insanda onun haqqında müəyyən bilgi formalaşır. Bu bilgi "hüsuli" (təcrübi) idrak adlanır. Adından məlum olduğu kimi, hüsuli idrak obyekt barəsində hasil olan, kəsb edilən məlumatdır. Burada, xaricdə müstəqil olan obyekt məlum, insan alim və həmin məlumun insan beynindəki inikası isə bilikdir. Məsələn: Amazon meşəsində bu vaxtadək bizə məlum olmayan bir canlı haqqında ya eşitmək, ya da onu görməklə aydın, ya da qaranlıq bir təsəvvür əldə edirik. Amma bu canlını tam olaraq tanımaq bizim üçün qeyri-mümkündür. Bunun üçün aşağıda qeyd edəcəyimiz "hüzuri" (fitri) idrak lazımdır ki, canlı haqqında bütün məlumatlar bizə məlum olsun. Burada, canlı məlumdur, biz alim, canlı haqqında qiyabi təsəvvür isə bilikdir.

Hüzuri idrak-obyektin özünün insan varlığında hazır olmasından ibarətdir.

Məsələn, bizim özümüzü dərk etməyimiz kimi, yaxud özümüzə olan elmimiz kimi; hər kəs öz varlığını bütün varlığı ilə dərk edir. Hər kəsin şəxsiyyəti onun təsəvvüründə deyil, onun hüzurunda bütün varlığı ilə hazırdır və insan onu qavrayır, duyur. Burada, obyekt, yaxud insanın özü məlum,

---

1. İdrakın bu iki növü ilk dəfə İbn Sina tərəfindən kəşf edilmişdir. Şeyx İşraq isə bu iki növü elmi dəlillə isbat etmişdir.

yenə insanın özü alim və yenə də insanın özü bilikdir və bu idrak, artıq hüsuli yox, hüzuri idrakdır. Çünki burada, obyekt olaraq insanın özü məlum götürülmüşdür.

Hüzuri və hüsuli idrakların yuxarıdakı təriflərindən sonra onlar arasında aşağıdakı fərqləri əldə etmiş oluruq:

1. Hüzuri idrak hüsuli idrakdan öndədir. Çünki hüsuli idrak xarici aləm haqqında zehni məlumatdır və insan xarici aləmi dərk etməzdən əvvəl öz varlığını hüzuri olaraq dərk edir.
2. Hüsuli idrak zehni, hüzuri idrak isə ruhi hazırlıq tələb edir.
3. Hüsuli idrak obyektin, yaxud məlumun surətinin alimin varlığında, hüzuri idrak isə obyektin özünün alimin varlığında hazır olmasından ibarətdir.
4. Hüsuli idrakda "obyekt # məlum" (yəni obyekt məluma bərabər deyil), hüzuri idrakda isə "obyekt = məlum" bərabərliyi ödənilir.
5. Hüsuli idrak vasitəli, hüzuri idrak isə vasitəsizdir.
6. Hüsuli idrak obyektin mahiyyətinə, hüzuri idrak isə onun varlığına, özünə olan elmdir.
7. Hər hüsuli idrakın özü bir hüzuri idrakdır, çünki hüsuli idrak sayəsində yaranan biliyin özü də insanın varlığında yer alır və insan həmin biliyin özünü hüzuri idrakla dərk edir.
8. Hüzuri idrak şəxsi, yaxud fərdi, hüsuli idrak isə ümumidir.
9. Hər iki idrakda idrakın subyekti insandır.

Hüsuli idrakda idrakın obyekti ilə məlum (yaxud bilik) fərqlənir, amma hüzuri idrakda idrakın obyekti ilə məlum (bilik) eynidir. Başqa sözlə, hüsuli idrakla zehində əks olunaraq dərk olunan xarici aləmdəki obyekt zehindəki məlum (bilik) vasitəsi ilə, amma hüzuri idrakla dərk olunan obyekt isə elə məlumun özü olub birbaşa dərk olunur.

10. Hüzuri idrak "fərdi", hüsuli isə "ümumi" dir. Yəni hüzuri idrak sayəsində yaranan biliyin xarici aləmdəki nümunəsi vahiddir və elə həmin dərk olunan obyektin özüdür, amma

hüsuli idrakın xarici aləmdəki nümunəsi vahiddən çoxdur. Əlbəttə, bu haqda diqqətli bölgü aparmaq tələb olunur. Məsələn, aşağıda gələcək hissi idrak hüsuli olsa da, onun da xarici aləmdəki nümunəsi vahiddir. Hər halda, bu haqda diqqətli olmaq tələb olunur və burada qeyd olunanlar hüzuri idrakla, hüsuli idrakın fərqinin açıqlanması üçün qısa məlumatlardır. İdrakların hər birinin tərifi ilə tanış olduqdan sonra hansının hüzuri, hansının hüsuli olduğunu da aydınlaşdırmaq daha dəqiq olar.

**Hissi, xəyali, təxəyyül, vəhmi və əqli idrak**

İnsana, digər canlılardan fərqli olaraq, Yaradan tərəfindən onun yoluna işıq saçan bir nemət - təfəkkür verilib.

İndi isə görək digər canlılar düşünən varlıq olmamasına baxmayaraq[1] insanla hansı xüsusiyyətlərdə müştərəkdir, hansında isə müştərək deyil?

Yuxarıdakı idraklar öz növbəsində İbn Sinanın nəzərincə ( “İşarat” əsərində dediklərinə əsasən), zehnin malik olduğu "duyğu", "xəyal", "vahimə", "ağıl" və "hafizə" qüvvələri sayəsində meydana gəlir. Qeyd edək ki, yuxarıda göstərilən

---

1. Qeyd edək ki, burada, heyvanın düşünən varlıq olmayaraq qeyd olunması, insanın təfəkkürünü öyrənmək üçündür. Yəni heyvanı düşünməyən varlıq kimi götürmək, onun məhz insan kimi düşünən varlıq olmadığını vurğulamaq üçündür. Digər elmlərdə isə heyvan düşünən varlıq kimi qəbul olunur. Məsələn, irfanda bütün məxluqatın öz həddində şüurlu olduğu deyilir. Buna görə də burada heyvanın şüursuz, yaxud düşünən varlıq olmaması deyildikdə, onun məhz insan kimi təfəkkür edə bilmədiyi başa düşülür. Onu da qeyd edək ki, bunlar çox qısa məlumatlardır və ola bilər ki, heyvan haqqında həqiqət tamamilə başqa cür olsun. Bu deyilənlər, yalnız və yalnız təfəkkürü müəyyənləşdirmək üçündür.

qüvvələr sayəsində zehində yaranan biliklər, məlumatlar hafizə qüvvəsinin vasitəsilə qorunub saxlanılır. Bu məlumatlar hüsuli idrakın ardıcıllıq baxımından mərhələləridir və aşağıdakılardan ibarətdir:
1. Hissi, 2. Xəyali, 3. Təxəyyüli, 4. Vəhmi, 5. Əqli

**Hissi idrak**

Dünyaya yeni gələn insanın məlumatları tədricən əmələ gəlir. Yəni onun yuxarıda qeyd etdiyimiz əqli idrakı olmur. Məsələn, körpə uşaqdan "Ana nədir?" soruşulsa, o öz anasını göstərəcək. Yəni uşaq "analığı", yalnız hissi idrakın sayəsində qavrayır. "Ana" dedikdə, yalnız öz anasını dərk edə bilir. Əqli idrakın "mücərrədləşdirmə", yəni məfhum yaratma qabiliyyəti uşaqda olmadığından,“ o, yalnız öz anasını dərk edə bilir. Bununla yanaşı, dünyaya yenicə göz açmış körpə qısa zaman müddətində, artıq nələrinsə yaxşı və pis olduğunu hiss edir. Gözəl qoxular xoşuna gəlir, nələrdənsə qorxur, anasının mehriban laylasına xumarlanır, dadlı şirin şeyləri xoşlayır, kənardan bədəninə olan ağır təsirdən əziyyət çəkir. Bildiyimiz kimi, bu idraklar, bu məlumatlar beş duyğu üzvlərinin nəticəsidir:1. Görmə 2. Eşitmə 3. Dadbilmə 4. İybilmə 5. Lamisə.

Beləliklə, hissi idrak beş duyğu üzvünün insanda yaratdığı idrakdan ibarətdir. İnsanın idrakı birinci növbədə, həmin bu hissi idraklar vasitəsilə inkişaf etməyə başlayaraq dərin əqli və fəlsəfi mövzulara yetişir. Buna görə də hər kəs bu beş hissi idrakdan birinə malik olmasa, həmin hissi idrakla bağlı başqa idraklardan məhrum olur. Məsələn: anadangəlmə görmə qabiliyyətinə malik olmayan bir şəxs, sonradan rəng haqqında fizikanın kəşf etdiyini anlaya bilməz. O, necə anlasın ki, rəngin görünməsi "cisimlər, yeddi rəngi özündə cəmləmiş ağ

işıq üzərlərinə düşən zaman yeddi rəngdən altısını udaraq birini əks etdirir" qanunu ilə həyata keçir və s.

Bildiyiniz kimi, heyvanlar hissi idrakda insanla müştərəkdir.

Hətta bəzi heyvanlarda bu beş hiss daha güclü olur.

Onu da qeyd edək ki, hissi idrakın özü iki - duyğu (zahiri) və hüzuri (batini) idraka ayrılır. Yəni hüzuri idrak da hissi idrakdır. Məsələn: biz özümüzü, öz daxili, nəfsi istedadlarımızı, qüvvələrimizi də hiss edirik.

**Xəyali idrak**

Hissi idrak, insanın beş duyğu üzvündən biri ilə xarici aləmlə əlaqə yaratdığı zaman onda davam edən həmin hissiyyatdır (idrakdır), xəyali idrak isə bu bağlılıq qırıldıqdan sonra həmin idrakın insan zehnindəki xəyali formasıdır. Xəyal qüvvəsinin sayəsində yaranan "təxəyyül"ə də yuxarıda işarə edildi. Həmçinin hissi idrakın yuxarıda dediyimiz batini forması da belədir.

İdrakın bu forması uşaqlarda və qadınlarda daha güclü olur. Uşaqların bir dəfə görüb xoşladıqları şeyi yaddan çıxara bilməmələrinin, qadınların emosional olmalarının və insanın qorxulu hadisə ilə üzləşib illərlə unuda bilməməsinin bir səbəbi xəyal ilə bağlıdır. İdrakın bu növündə də heyvanlar insanla müştərəkdir.

**Vəhmi idrak**

İnsan obyektlərlə üzləşərkən hissi və xəyali idrakdan əlavə, obyektlərin xarici görkəmləri onda üçüncü bir idrak əmələ gətirir və buna "vəhmi" idrak deyilir. Məsələn: qorxunc, vahiməli obyektlə üzləşərkən onun qorxusu vahimə qüvvəsi ilə dərk olunur. Bunda da heyvan insanla müştərəkdir. Belə ki, bu

idrak, qarşı tərəfdə müşahidə edilən halın, şəxsin özündəki buna uyğun hal ilə müqayisəsi nəticəsində meydana gəlir.

Heyvanın idrakı burada sona çatır, amma insanın yuxarıdakı daxili qüvvələrinə başqa bir qüvvə də əlavə olunur ki, o da "ağıl"dır. Yəni heyvan insanla əqli idrakdan başqa qalan üç idrakda müştərəkdir.

## Əqli idrak

Əvvəlcə bir misalla izah edək. Tutaq ki, eyvanda əyləşib səmanı seyr edirsiniz. Elə bu zaman səmanın dərinliklərində bir obyektin sizə tərəf gəldiyini müşahidə edirsiniz. Sizin "müşahidə etdiyiniz halda gördüyünüz", həmin obyektin zehninizdə canlanaraq hasil olan ( hüsuli ) görüntüsü "hissi" idrak olur. Yəni bu hissi idrakın özü də hüsuli idrakın bir forması olur. Müşahidə etdiyiniz obyekt səmada itdikdən sonra onun zehninizdə qalan surəti "xəyali" idrak, yaxud bilik adlanır. Xəyalınızda hasil olan müxtəlif şeylərin vasitəsilə zehninizdə qurduğunuz surətlər "təxəyyül" olur (məsələn, xəyalınızda özünüzü qədim zamanlarda təsəvvür etməyiniz kimi, yaxud fantastik əsərlərin, filmlərin yaradılması). Bundan sonra, səmadan sizə tərəf gələn obyektin durmadan yaxınlaşdığı zaman onun qorxunc varlıq olduğunu görsəniz, sizdə qorxu hissi yaranır. Onun qorxulu olduğu da vahimə qüvvəsi ilə dərk edilir. Buna da "vəhmi" idrak, yaxud bilik deyilir. Bunlardan sonra zehnin ağıl qüvvəsi ilə əldə edilən yeni idrak meydana gəlir. Əvvəlcə ağıl qüvvəsinin "mücərrədləşdirmə"si (əvvəldə qeyd olunan dörd təfəkkür formasından birincisi) sayəsində həmin xəyali elmlərdən ümumi məfhum yaradılır. Məsələn: əgər insan, yaxınlaşdıqca həmin obyektin cisim olduğunu görsə, onun "göy cismi" olduğunu dərk edəcək. Bu da zehnin onu, əvvəl də qeyd etdiyimiz dörd təfəkkür formasından birincisi olan

"mücərrədləşdirmə" sayəsində "Bu, göy cismidir.” kimi mənalandırmasıdır. Buna bir balaca izah verək: məlumdur ki, insan həmin obyekti müxtəlif xüsusiyyətləri, məsələn: hansısa bir rəngdə, formada, çöküklük-qabarıqlığı ilə birlikdə görür. Amma onu bu cüzi xüsusiyyətlərindən ayıraraq, təmizləyərək, onun üçün ümumi bir məfhum yaradıb, onu bu xüsusiyyətlərdən təmiz halda, göy cismi adlandırır. Bu cüzi xüsusiyyətlərdən əqli ayırma və təmizləməyə "mücərrədləşdirmə" deyilir.

İkinci təfəkkür formasına da qısa olaraq belə işarə etmək olar: insan mücərrədləşdirmədən sonra alınan məfhumun həqiqi mahiyyətini başa düşməyə çalışır. Məsələn: müxtəlif mən, sən, o və s. kimi fərdləri müşahidədən sonra, zehin mücərrədləşdirmə əməliyyatı vasitəsi ilə yeni bir "insan" məfhumu yaradır. Belə ki, artıq zehində yer alan bu məfhumun boy, rəng, haralı olması və s. kimi cüzi xüsusiyyətləri olmur. Bununla belə, mücərrədləşdirmə sayəsində yaranan "insan" məfhumu zehin üçün bir qədər məlum olsa da, amma onun həqiqi mahiyyəti hələ ki, məchul qalır. Yəni "insan"ın əsl mənası nə deməkdir, əsl həqiqəti nədir? Bu sualı cavablandırmaq üçün isə zehin ikinci bir təfəkkür formasından istifadə edir və bu təfəkkür formasına da "tərif" deyilir. Mücərrədləşdirmə əməliyyatı çox asan bir əməliyyat olub, ümumi xarakter daşıdığı halda, "tərif" təfəkkür forması xüsusi insanlara məxsusdur. Yəni hər bir insan heç bir çətinlik çəkmədən mücərrədləşdirmə əməliyyatı apara bilir və bunun üçün, digər üç təfəkkür qanunlarında olduğu kimi, dəqiq şəkildə təfəkkürün şərtlərinə riayət etmək lazım deyil.

Bundan sonra, həmin məfhumun nümunələrini bir-birindən hansısa xüsusiyyətlərinə görə bölünməsinə baxmaq olar.

Məsələn: "insan" məfhumuna düzgün tərif verdikdən sonra onun fərdlərini alim-cahil, güclü-zəif, azərbaycanlı və qeyri-azərbaycanlı kimi bölmək olar. Məlumdur ki, bu bölgü əməliyyatı da ağlın sayəsində həyata keçir və onu təfəkkürün üçüncü forması öyrənir və "bölgü" adlanır.

Nəhayət, insan bu əməliyyatlardan sonra, yaratdığı məfhumun başqa varlıqlarla əlaqəsinə baxa bilər; onun haqqında hökm verə bilər. Məsələn: zehinin yaratdığı həmin "insan" məfhumu haqqında "İnsan heyvanlardan fərqli olaraq cəmiyyət halında yaşamağa və başqalarının hüquqlarına riayət etməyə məcburdur" hökmünü kəşf edə bilər. Bu hökmü isə isbatsız olaraq qəbul etmək düzgün deyil. Ümumiyyətlə heç bir hökm isbatsız qəbul olunmur. Həmin isbat metodunu isə təfəkkürün dördüncü forması araşdırır və "əqli-nəticə" adlanır. Təfəkkürün bu forması ilə bağlı olan aşağıdakı başqa bir misala baxaq:

Alimlər Günəşin Şərqdən çıxaraq Qərbdə batdığını müşahidə etdikdə belə nəticəyə gəlmişlər ki, "ya Yer Günəşin, ya da Günəş Yerin ətrafına fırlanır". Alimlərin bu hökmü verməsi ağıl qüvvəsinin dördüncü təfəkkür forması olan "əqli-nəticə"nin sayəsindədir.

İnsan bu idrakla heyvandan fərqlənir və bu onun kamilliyini göstərir. Əqli idrak zehni təhlillər sayəsində yaranır. Məsələn, insan və heyvan hissi idrakda müştərəkdir, yəni ətraf aləmi müşahidə edən insan və heyvanda hissi təsəvvürlər əmələ gəlir və heyvan bu təsəvvürləri məfhum halına salıb qruplaşdıra (mücərrədləşdirə) bilmədiyindən onun üçün əqli idrak hasil olmur. Amma insan hiss etdiyi şeylərdən (hissi idrak) ümumi məfhumlar alaraq (mücərrədləşdirmə) onları mənalandıra (tərif) bildiyindən, hissələrə ayırdığından (bölgü), onlar arasında bağlılıq qurmağa (əqli-nəticə) qadir olduğundan, əqli məlumatlara da malik ola bilir. Heyvan isə ətraf aləmdəki

varlıqları, yalnız həmin varlıq olaraq dərk edə bilir. Dediyimiz kimi insan isə heyvanın bu idrakından əlavə həmin varlıqlar arasındakı əlaqələri də dərk edə bilir. Məsələn, insan kimi heyvan da Günəşi müşahidə edir. Heyvan hər dəfə Günəşi müşahidə etdikdə təkcə Günəşin özünü müşahidə edir. Onun Yerlə əlaqəsini dərk edə bilmir. İnsan isə Günəşi müşahidə etdikdən sonra onun Yerlə əlaqəsini, yəni Yerin Günəş ətrafında fırlandığını da dərk edir. Yaxud, şiri görən maral, şiri müəyyən formalı rənglərin cəmi olaraq qorxulu bir şey kimi dərk edir. Yəni maral, şirin öz-özlüyündə bir canlı olduğunu və şirin rənglərinin şirdən fərqli olduğunu dərk edə bilmir. İnsan isə şirin mahiyyətinin yalnız vəhşi bir canlı, rənginin də şirin özündən fərqli olduğunu dərk edir. Bundan sonra isə, məsələn, şirə qırmızı-boz rəngi hökm edərək, "şir qırmızı-boz rəngli vəhşi heyvandır" nəticəsini alır. Yəni maral şiri, yalnız şirin rəngi ilə görür, insan isə şiri xaricdə iki şeydən (şirin mahiyyəti və rəngindən) təşkil olmuş bir obyekt kimi dərk edə bilir. Elə bu səbəbdən də, maral və digər heyvanlar şiri hərəkətsiz halda gördükdə təhlükə hiss etmirlər. Şir onlara tərəf hərəkətə başladıqda isə bu zərif heyvanlar şirdən qaçmağa başlayırlar. Amma insan şirin vəhşi olduğunu ümumi məfhum olaraq dərk etdiyindən, hər zaman ondan kənar gəzir.

Əqli biliklər zehnin ağıl qüvvəsinin sayəsində təfəkkürün bu dörd - "mücərrədləşdirmə", "tərif", "bölgü" və "əqli-nəticə" formaları ilə yaranır.

## Ağıl qüvvəsinin xüsusiyyətləri

a) Əqli idrak üçün digər idraklarla müqayisədə hədd yoxdur və insanın, bu əqli idrakı inkişaf etdirmə imkanı var.

b) Ağıl qüvvəsi hissi, xəyali və vəhmi elmlərin yanlışlarının qarşısını almaqda insana kömək edir.

c) Ağıl vasitəsilə insan digər idraklardan istifadə edərək onlar üçün ümumi məfhumlar yaradır (mücərrədləşdirmə).

d) Ağıl vasitəsilə şeylərin əsl mahiyyətinə varılır (tərif).

e) Ağıl vasitəsilə məfhumların xarici nümunələri qisimlərə bölünür (bölgü).

f) Ağıl vasitəsilə verilənlər qruplaşdırılaraq yeni nəticələr alınır, ümumi qanunlar kəşf edilir (əqli nəticə).

Min illər bundan öncə çətinliklər içərisində yaşayan insana, bugünkü müasir texnikanı bağışlayaraq onun rahatlığını təmin edən də məhz ağıldır.

## Rəssamdakı zehni qüvvələr

Tutaq ki, rəssam tablo üzərində bir əsər yaratmaq istəyir. Bu zaman, rəssamın yuxarıda adlarını çəkdiyimiz zehni qüvvələrdən necə istifadə edərək əsər yaratmasına nəzər salaq. Məlumdur ki, rəssam duyğu üzvləri vasitəsilə ətraf aləmi müşahidə etdikdən sonra əsər yarada bilər. Çünki o, əvvəlcə, əşyaları müşahidə etməlidir ki, onların şəklini tablo üzərinə köçürə bilsin. Deməli, əvvəlcə, rəssamın duyğuları, hissi dərk etmə qüvvələri işləməlidir. Bundan sonra tablo ilə üz-üzə duran rəssamın qalan üç - xəyal, vahimə və ağıl qüvvələrinin işə düşməsinə baxaq. Tutaq ki, rəssam hər hansı bir təbiət mənzərəsini tablo üzərində təsvir etmək istəyir. Dedik ki, buna görə o, əvvəlcə, təbiəti duyğu üzvləri vasitəsilə müşahidə etməlidir. Əvvəlcə çay şəkli çəkmək istəyən rəssam, ağıl qüvvəsinin sayəsində dərk edir ki, çayın axın istiqamətini yuxarıdan aşağıya doğru çəkməlidir. Amma çayın, tablonun

hansı tərəfində çəkilməsinə isə, artıq rəssamın təxəyyül qüvvəsi qarışır. Yəni rəssamın zövqünə uyğun olaraq çay tablonun ya sağında, ya da solunda verilə bilər. Məlumdur ki, bu zaman ağıl işləmir. Ümumiyyətlə, rəsm əsərində əşyaların qarşılıqlı münasibətinin gözəl təzahürü rəssamın təxəyyülündən asılı olur. Bu təxəyyül sayəsində də rəssamlar bir-birindən fərqlənirlər. Daha sonra rəssam, əsərə gözəllik vermək üçün çayın kənarında müxtəlif heyvan şəkilləri çəkmək istəyir. Tutaq ki, şir ilə maralı çayın kənarında birgə göstərmək istəyir. Məlumdur ki, şir ilə maral bir yerə cəm olası heyvanlar deyil. Yəni əgər rəssam istəsə ki, tabloda şir ilə maralı bir-birinə yaxın məsafədə versin, mütləq şiri maralın arxası ilə sürətlə qaçan halda çəkməlidir. Bu da rəssamın vahimə qüvvəsinin sayəsindədir. Çünki maralın şirdən qaçmasının səbəbi vahimə qüvvəsinin sayəsində dərk edilir.

Bu misalla zehnin müəyyən hallara düşərək yuxarıdakı qüvvələrdən necə istifadə etməsi daha da aydın olur. Onu da qeyd edək ki, musiqiçilər, konstruktorlar, memarlar, ədiblər, yazarlar və şairlər öz əsərlərini yuxarıdakı misala uyğun olaraq zehnin qüvvələrindən istifadə etməklə yaradırlar.[1]

## Elm və mərifətlə Allaha yaxınlaşma

Məlumdur ki İslam etiqadlarının əsası üç əsas təməl üzərində qurulmuşdur. Bunlar tovhid, nubuvvət və məaddır. Ədalət tovhidin, İmamətisə nubuvvətin əlavəsidir.

Deməк, İslam etiqadının varlıq təməlləri tovhid, məad və onunla bağlı elmlər, nübuvvət və ən əhəmiyyətlisi imamət və vilayətdir. Dinimizdə etiqad mövzularının izahlarında bunların hər birinin tovhiddən qaynaqlandığının şahidi oluruq. Bütün

1. Rauf İmranoğlu, "Məntiq" (2011-ci il), s. 55-68

bunlara elm və mərifət nuru ilə çatmaq olar. Allah barəsində, onun birliyi, subutiyyə( Allahda olan sifətlər), səlbiyyə(Allahda olmayan sifətlər)cəlaliyyə( gözəllik sifətləri), mələklər və qeyriləri, asimani kitablar haqda elm sahibi olmaq gözəl bir xüsusiyyət olduğu halda onun iman və mərifətlə qəbulu insanı ilahi məqama yaxınlaşmasında daha təsirlidir. Burada təkcə elm kifayət eləmir, cünki şeytan da elmə sahib olduğu halda küfr edib kafir olmuşdu.

İman qəlbə xas olan bir hərəkətdir. Əqli dəlillər və ya dinlərin əhəmiyyəti və zərurət dəlili ilə hər hansı bir mövzuda elm sahibi olan bir şəxs, qəlbi ilə də o məlumatlara təslim olmalıdır. Təslimiyyət, xuzu, məsuliyyət və qəbuldan ibarət olan qəlbdə bir sıra əməlləri də yerinə yetirmək lazımdır ki, insan mömin ola bilsin. İmanın kamalı arxyınlıqdır. Cünki imanln artmasının ardından qəlbimizdə arxayınlıq hissi hasil olacaq.

Qəlbin hissəsi olan təslim, ağlın hissəsi olan elmdən çox fərqlidir. bunu belə izah edirik ki bəzən insan Yaradanın, haqq gününü və digər inancları ağıl və elmi dəlillərlə təsdiq edir. amma qəlb onu qəbul etməkdə çətinlik çəkir.

"La ilahə illəllah " həqiqəti ağıl və imanla qəbul edildikdə, qəl Allahla olur. Və insan Onun qarşısında tam surətdə təslim olur. Ondan başqa kimsədən kömək və məqam ummur. Belə bir fərd tamamilə dəyişmiş və riyadan uzaq olur. Allaha öz məhbubuna çatmaqda sadiqanə və saf, möhkəm addımlarla irəliləyir.

Allahı tanımaq onun həqiqətini tanımaq və Onun buyurduğu yolla nəfsi kamala çatdırmaq məcazi deyil, həqiqi əməllərdəndir. Başqa sözlə desək, insanın allaha tərəf hərəkət etməsi agahlıq və ixtiyar üzündən olan birhərəkətdir. Bu hərəkət yolu insan doğulduğu andan quvvədə olub, öldüyü

ana qədər olan zaman məsafəsində baş verir. Burada ilahi eşqin rolunu da unutmaq olmaz.
Digər tərəfdən, Allaha yaxınlıq digər mənalarda olan məkan və zaman və məcazi yaxınlığ deyil, tam fərqli bir mənanı əhatə edir. Məqsəd və hədəf kamal yaxınlığı vücudi yaxınləqdər. Bunu da aydın məsələdir ki elm və mərifət yolu ilə anlamaq olar.
Məsələyə aydınlıq gətirək. Dini əqidə və Kəlam kitablarına diqqət yetirsək görərik ki, vücud və varlıq məsələsində subuta yetirilmişdir ki, onların müxtəlif dərəcə və mərtəbələri vardır. Bu fərqlilik eyniylə şiddətli və zəif nura oxşayır. Nurun ən aşağı mərtəbəsi zəif olsa da nurdur. Kulminasiya mərtəbəsi isə tamamilə nura bələnmişdir. Bu iki mərtəbə arasında yerləşən boşluqlar hər biri dərəcə ölçüsünə görə olsa da nur hesab olunur. Fərqsə yalnız zəif və şiddətli olmaqdadır.
Vücud da eyniylə belədir. Onun aşağı mərtəbəsi təbiət və maddə, ən yüksək mərtəbəsi Allahın vücud baxımında sonsuz olan muqəddəs Zatıdır. Vücudda eyniylə nurda olduğu kimi şiddət və zəiflə fərqlənir. Vücud güclü olduqda kamala çatma şansı daha artıq olur. Əksinə, vücud nə qədər zəif olarsa Allahın vacibul-vücudundan da bir o qədər uzaq olar.
Bu müqəddiməyə əsasən insan ruhunun Allah qatına nə qədər yaxın və uzaq olmasını təsəvvür etmək məncə çətin deyildir. Mücərrəd olan ruhumuz maddi olan bədənimizlə birlikdə hərəkət edə bilir, kamilləşir və nəhayət özvücudunun son mərhələsinə çatır. Bəs biz həyatımız boyu nə qədər çox kamal kəsb edərsək, vücud mərhələlərində bir o qədər təkamülə çatarıq və eyni o həddə Alla yaxınlaşmış olarıq. İman məhz həmin nurdur ki bizə bu yolda yoldaşlıq edir. İman saleh

əməllə birləşərsə, qürb məqamına daha tez çatmağa kömək olar.

Deməli, burdan aydın olur ki, bizim hərəkətimiz sonsuz bir məqsədə doğru davam edir. Hər birimiz öz səy və bacarığımız müqabilində qürb məqamına nail ola bilərik. Başqa cür ifadə etsək, bu “ qürb məqamı” bir nöqtə deyil əksinə, müxtəlif dərəcələrə malik olan bir həqiqətdir. Bəs əslində qürb nisbi məsələdir. Biz də öz fəaliyyətimizin müqabilində onun məqamlarını fəth edib, İlahi feyzlərdən bəhrələnə bilərik.

## Əxlaq, saleh əməldir

İmandan sonrakı ən bəyənilən əməl saleh əməl və yaxşı işlərdir. Bu qənaətə Allahın ayələrinə əsasən gəlmək olar. Allah imandan sonra İlahi dərgaha yaxınlaşmağa və ali-insani dərəcələrə nail olmaqdan ötrü saleh əməlin vacibliyini vurğulayır. :

“Hər kəs iman və saleh əməllə Allaha tərəf gedərsə, məhz onlar çox yüksək dərəcələrə və məqamlara nail olarlar. ”[1]

Saleh əməl müqəddəs şəriətimizdə vacib və ya müstəhəb əməl kimi təqdim edilir. Ən gözəl əxlaqi keyfiyyətlərdən sayılır. Qiyamət günü əməl tərəzisinə qoyulacaq olanlardan ən əsası saleh əməllərdir. Burada imanın rolu da istisna deyil. İmam Sadiqdən bu haqda belə rəvayət olunur ki, iman yalnız saleh əməllə sabit olur. [2]

Əməlin saleh olmasının yeganə meyarı onun şəriət və vəhylə muvafiq, uyğun olmasıdır. Elmi və qəlbi etiqadlar əməllə birləşərsə, təkamul yolunda addımlamaq daha rahat olar. Elm və əməl arasında kökdən gələn bir bağlılıq vardır. Hər kəs öz

---

1 - Taha /75

2 - Vəsailuş-şiə /cild 15, səh 168, hədis 6

daxili aləminə görə əməl edir. Uca Allah İsra surəsində bu mövzuya toxunur:
“De: hər kəs öz qabiliyyətinə görə iş görər “. [1]
Ayə insan əməlinin onun xislətinə və bənzəyişinə uyğun və muvafiq olduğunu bildirir. Bu, əmələ nisbətdə sanki bədəndə cərəyan edən ruh kimidir ki, əzaları və əməlləri ilə ruhun mənəvi halını təmsil edir. [2]
Hasil olan budur ki, əgər insan ondan saleh əməllərin zahir olması üçün Uca Allahın əxlaqları ilə əxlaqlanmaq istəsə, gərək birinci növbədə qəlbi etiqadlarını düzəltsin.
Kamilliyin zirvə nöqtəsi hər şeyi Allahdan bilməkdir. Yəni hədəfə çatmaq üçün irəliləyən kamil insan üçün Allahın iradə və istəyi hər şeydən üstündür. Bu isə ona dəlalət edir ki Allahın buyurduğu hər bir şeyi qəbul və əməl etməlidir. Əməl etmədən öyrənməyin faydası yoxdur. Necə ki Allah buyurmuşdur:
“Tövrata əməl etməyə mükəlləf olan, lakin onun haqqını verməyən kəslər( əməl etməyənlər) belində çoxlu kitab daşıyan ulağa bənzərlər. Allahın ayələrini yalan sayanlar barədə çəkilən məsəl necə də pisdir. Allah zalım qövmü doğru yola yönəltməz!”. [3]
Göründüyü kimi bu və bunun kimi bir çox ayədə yəhudilərin küfrünə, müşriklərin fəsadına, munafiqlərin müsəlmanlara qarşı olan nifaqına eləcə də peyğəmbər və möminlərin imanına, onların əməllərini və hərəkətlərini dəlil olaraq göstərir. Əməlin necəliyi insanın elminə münasibdir və buna dəlalət edir. [4](əlmizan)Ona görə də tovhiddəki terminləri

1 - İsra / 84
2 - Seyyid Kamal Heydəri, Ruhun tərbiyəsi, səh. 30
3 - Cümə /5
4 - Əl-Mizan /cild3, səh 189

tanimaq deyil, əksinə, onları tanımaq insanı hədəfə doğru aparan bir vəsilədir ki, insan onunla kamilləşir. Buda özlüyündə əməli tovhiddir.
Deməli, mühüm etiqad məsələlərindən biri insanın xoşbəxtliyində iman və əməlin roludur. Müqəddəs kitabımız imansız əməli faydasız hesab edir. Çünki insanın gordüyü bütün işlər üçün iki hal mümkündür; İş görənin məqsədi Allahın razılığıdır, yada hansısa şəxsi məqsəddir. [1]
Saleh əməl imanın şərtidir. Bizim əqidəmizə görə axirət səadətini yalnız müsəlman anlaya bilər. Yeganə doğru yol İslam dini olduğundan, onun göstərdiyi yol da, göstərişlərə əməl etməkdir. Bu göstərişləri bizə Peyğəmbərimizvə onun pak Əhli-beyti verir. Əhli- beyt yolunu tutanların həqiqəti tanımaqda heç bir problemləri yoxdur. Onlar məqsədə doğru düzgün hərəkət edən İlahinin bizə bəxş etdiyi rəhmətdir.
Hz Əlinin(ə) yetimlərin qayğısına qalması, onları himayəsinə götürməsi bizə sübut və örnəkdir. Pis işlə Allahın qəzəbinə, onun öz bəndələrindən üz döndərməsinə səbəb olur. “Allah Qiyamət günündə onları dindirməz, onlara nəzər salmaz!”[2]
Saleh əməlli möminlər Allahın etinasızlığından çox qorxurlar. Bu eyni zamanda fitri bir hisdir. Zahirdə kiçik görünən bu əməllər batində Allahın razılığına səbəb olur. İsar, sileyi-rəhm, insaf və mərhəmət də bu katiqoriyaya aiddir. Niyyəti Allahın razılığı olan hər bir iş saleh əməl adlanır. Hədislərimizdə bu haqda çox oxumaq olar. Saleh əməlin savabını saymaqla qurtarmaz. Saleh əməl yerinə yetirən və ya bir ehtiyaclı mömin qardaşının istəyini ödəmək, Həcc əməlini yerinə yetirmək qədər qiymətlidir Allah yanında. Hz Sadiq (ə)

---
1 - Misbah, Allaha doğru, səh 133
2 - Ali İmran /77

buyurur: “Ey Cündəb oğlu! Dostluğun və düşmənçiliyin Allah xatirinə olsun. ”[1]
Saleh əməlin təməlində bu prinsip durarsa, nə xoş bizim halımıza! Bəli, bu olduqca çətin işdir və güclü iman istəyir. Müqəddəs kitabımızda dəfələrlə bu mövzuya toxunulmuşdur. “Rəbbin yalnız ona ibadət etməyi və valideynlərinə yaxşılığı buyurmuşdur”[2], “Biz insana ata-anasına yaxşılıq etməyi tapşırdıq.[2]” Hətta Allah sübhanəhu -təala Əhli-beytə olan sevgisinə işarə edərək buyurur:
“(Ya Peyğəmbər!) De ki, mən sizdən təbliğim müqabilində ən yaxınlarımı sevməkdən başqa bir şey istəmirəm”[3]
Saf məhəbbət, sevgi, mərhəmət və ehtiram özü də saleh əməllərdən sayılır.
Bütün bunlar bir daha sübut edir ki, təkamül yolunda həqiqət axtarışına çıxan hər bir fərd, saleh əməllərdən yn keçməməli, onları öz ömürləri boyu hayata keçirməlidirlər. Səbəb:
“Biz yaxşı iş görənlərin mükafatını zay etmərik”[4]
“Xeyir işlər görənlər mütləq mükafatlanacaqlar”[5]
“Kim zərrə qədər yaxşı əməl etsə, onu görəcək, kim zərrə qədər pislik etsə, onu görəcəkdir”[3]
İnsan xeyir və şər əməllərinin nəticəsini deyil, batinini görəcəkdir.
Qəlblə qılınan namazın dəyəri ölçülməzdir. Zahirən düzgün qılınan namaz daxilən də düzgünvə təmiz surətdə olmalıdır. Diqqətli olaq! Namazı ömrün son namazı kimi qilaq. Bu bizə

1 - İsra /23
2 - Loğman / 14
3 - Şura/23
4 - Kəhf /30
5 - Zəlzələ /7-8

tövsiyə olunur. “Ehsan odur ki, Allaha onu görmüş kimi ibadət edəsən. Əgər sən Onu görmürsənsə, O səni görür.” [1]

**Eqoizmin əxlaqa vurduğu zərərlər**

Eeqoizm fəsadların anası ( ummul- fəsad) və bütün günahların mənşəyi kimi tanınır. Nəfsin paklaşdırılmasında ciddi maneə hesab edilir.

Bilməliyik ki, hər bir canlı varlıq özünün zatına, fel və kamallarına məhəbbət bəsləyir. Yəni təbii olaraq özünü sevir. Deməli, özünü sevmıyi tam şəkildə məzzəmmət etmək olmaz. Digər tərəfdən, əvvəldə qeyd etdik ki insanda iki “öz” insani və heyvani öz mövcuddur. İlahi yönə malik olan insani nəfs vəya həmin öz, mələkut aləmindən nazil olmuşdur. Məqsədi insanı yer üzünün xəlifəsi qərar verməkdir. İnsani öz elm, həyat, qüdrət, rəhmət, ehsan, feyz və kamal sifətlərinə meyillidir və onları sevir. Deməli, biz özümüzü bu yöndən sevərsək, əxlaqi fəzilətlərə, bütün kamallara və yaxşılıqların mənşəyinə yəni Allaha yaxınlaşacağıq.

Bəyənilən sifətlər vücudumuzda canlanacaqdır. Yox əgər heyvani öz dediyimiz bütün heyvani qərizə və meyillərin arxasınca olub, nəfsi -əmmarənin gücləndirsək, agıl və imanı özümüzdən uzaqlaşdırıb, tədricən heyvani “mən”liyi sevəcəyik.

Belə olan halda həqiqi insaniyətdən uzaqlaşacaqıq və bu özünüsevmə bütün pisliklərin açarı və məzəmmət olunanıdır.

Özünü sevmək yalnız heyvani istəklərin təmin olunmasıdır. Nəfs bu hədəfinə nail olmaqçün özünü azad hiss edir, heç bir məsuliyyət qəbul etmək istəmir. İnsan nəfsini razı salmaqdan ötrü başqa bir hədəfi olmadığından, öz hədəfinə nail olmaq üçün bütün yolları mübah sayır, hər bir çirkin işə bəraət qazandırır. Bu yolda zülm etməkdən, yalan danışmaq, töhmət

1 - Biharul-ənvar / 70 -ci cild

vurmaq, xəyanət və digər günahlardan imtina etmir. Zülm etmək onun yaratdığı bir fəsaddır.
Özünəpərəstiş insanı elə bir nöqtəyə gətirib çıxarır ki, insan onu yaradana qarşı baş əyməyə belə razı olmur. Buradan da bütün günahların mənşəyinin eqoism olduöu açıq-aydın görünür. Yalnız öz şəxsi mənafelərini qoruyan "mən", insanı Allah və cəmiyyət qarşısında azğınlığa, cinayətlərə sürükləyir. Eqoizmin ən so həddi isə fironlaşaraq " mən Allaham"deməsidir.
Nəfsini özünə tanrı nisbət qərar verən insanın əslində ağıl qüvvəsi düzgün fəaliyyət göstərmir.
Onun gözləri və qulaqları tutulub, gözləri kor olur. " Həvai nəfsini özünə Tanrı edəni gördünmü? [1]
Allah belə insanların azğınlığını artırır və bütün qurtuluş yollarını onun üzünə bağlayır. Eqoist insanlar heç vaxt Allahı görə bilməz. O hara baxirsa, özünü və istəklərini görür, qəlbləri daşlaşır və təkəbbürlük hissi vücudlarını bürüyürş Nəzərinizə çatdıraq ki, təkəbbürlük hissi elə bir maneədir ki, insanı belə rahatlıqla Allaha boyun əyməyə qoymur.

1 - Casiyə\23

## Nəticə

Fəzilətlərin ən üstünü, kamalın ən son həddi məhz ədalətdir. Ədalət varsa, deməli, bütün fəzilətlər də vardır. Ədalətin əksi zülmdür, zülm də bütün qəbahətləri özündə toplayır. Ədalət də elə bir xüsusiyyət, elə bir keyfiyyətdir ki, onun sayəsində bütün işlər normal həddə tənzimlənir, insanın nəfsindəki müxtəlif qüvvələr arasında uyğunluq yaranır, qüvvələrdən biri digərinə qarşı çıxmır.

Ədalətin əsas əxlaqi fəzilətli və özəlliyi ondadır ki, o müxtəlif işlər arasında heç bir fərq qoymur, müxtəlifliyi, mübahisəni, ayrıseçkiliyi yatırır. İnsanı ayrı-ayrı tərəflərə çəkmək istəyən qüvvələrin hamısını normallaşdırıb ifrata varmağa (həddini aşmağa) və ya əndazəsindən geri qalmağa qoymur. Bütün qüvvələr sanki birləşib eyni məqsədə xidmət etməyə başlayırlar ki, bunun da nəticəsi olaraq vəhdət yaranır. Sözsüz ki, vəhdət çoxluqdan daha yaxşı, daha üstündür. Deməli, varlıqların da ən üstünü heç bir tərkib hissəsi olmayan, vəhdət halında olanıdır ki, bu da yalnız Allah-Taaladır. Digər varlıqlar da məhz Onun sayəsində var olmuşlar. Dünyadakı vəhdətlər də Onun vəhdətinin təcəssümüdür. Vəhdətin elə bir xoş ətri vardır ki, onu əhli olan insanlar hiss edə bilərlər.

Ədalətin işi odur ki, hər şeyi ifrat və onun əks tərəfindən qoruyub orta həddə saxlasın.

Ədalət ya əxlaq və əməllər baxımından olur, ya pay bölgüsündə, ya camaatla rəftarda, ya da, idarəçilikdə. Sadalananların hamısında ədalətli şəxs odur ki, iki tərəfdən birinə meyl göstərməyib tam obyektiv olsun. Hamıya eyni gözlə baxıb normadan ifrata varmasın, yaxud normadan geri qalmasın. Bunun üçün də hər şeyin normal həddini eləcə də onun ifrat və qarşı tərəflərini tanımaq lazımdır. Bu isə olduqca çətin məsələdir. Hər şeyin normal həddini tanımaq hamıya

müyəssər olan şey deyil. Ölçünü dəqiq ölçmək üçün tərəzidən istifadə olunduğu kimi, ədalətin də bir tərəzisi olmalıdır. Ədalət tərəzisi də Allahın hökmləri və Peyğəmbərin sünnəsidir. Deməli, əsl ədalətli şəxs Allahın hökmləri və Peyğəmbərin sünnəsini çöx gözəl bilməlidir.

Ədalət haqqında qeyd edilənlərdən belə məlum olur ki, hər insanın kamal və səadətin son həddinə çatması onun ədalətli olmasına bağlıdır. Ədalət də bütün işlərdə, əməllərdə, hərəkətlərdə orta yolu tutmaqdan ibarətdir. Elə bir yol seçilməlidir ki, nə həddi aşasan (ifrata varasan) , nə də geriyə qalasan: İstər insanın özünə münasibətində olsun, istərsə də, başqalarıilə münasibətdə. Dünya və Axirət səadəti də, məhz orta yolla getməklə hasil olur.

İnsanın orta yolu tutub getməsi üçün ilk növbədə bacardığı qədər elmlə əməli birləşdirib onların arasında irəliləməlidir. Təkcə elmlə kifayətlənib əməlsiz qalmaq olmaz, eləcə də elmsiz, kor-koranə əməl etmək heç bir işə yaramaz. Elm ilə əməldən – ikisindən biri ilə kifayətlənən şəxsdən Peyğəmbər (s) həzər edir.

Əməlsiz elmin heç bir faydası yoxdur. Alimin bir günahı bağışlanılana qədər cahilin yetmiş günahı bağışlanır. Elmsiz əməl də hədərə getmiş zəhmətlərdən başqa şey deyil. Əməl zamanı insan zahirlə batini birləşdirməlidir. Təkcə zahiri bəzəyib batini çirkin saxlamaq və yaxud batini bəzəyib zahiri çirkinliklər içində qoymaq da düzgün deyil. Zahirini bəzəyib batinini çirkin saxlayan şəxs gözəl bəzənib gəlin paltarı geymiş qoca qarıya bənzər. Təbii ki, zahiri nə qədər gözəl görünsə də, qocalığı onu dəyərdən salır. Batinini bəzəyib zahirini çirkinliklər içində qoyan şəxs də nəcasət quyusuna

atılmış qiymətli daşa bənzər. Buna görə, hər ikisinə də diqqəti yönəldib orta yolu tutmaq zəruridir.

Elm, mərifət öyrənərkən də ifrat varmaq, yaxud geriyə qalmaq lazım deyil: Həm batini və əqli elmləri, həm də zahiri və şəriət elmlərini öyrənmək lazımdır. Ayə və hədislərin zahiri mənasını öyrənib əsas mənasından xəbərsiz qalanlardan olmamalıyıq! Belələri özlərini alim hesab edib həqiqi alimlərin fikirlərini öyrənmədən, sözlərini dinləmədən onları nadan, hətta yeri gəldikdə kafir də adlandırırlar.

Bütün ömrünü dəqiq elmlərə sərf edib hər şeyi ağlın ixtiyarına buraxan, ağlın başa düşə bilmədiklərini qəbul etməyənlərdən də olmamalıyıq! Belələri, hətta Quran ayələrini də öz başa düşdükləri kimi təfsir edir, Peyğəmbərin (s) hədislərinə məhəl qoymurlar, şəriət alimlərini qınaq obyektinə çevirirlər. Peyğəmbərlərin vərəsələri sayılan alimləri savadsızlıqda ittiham edib, özlərini alim kimi qələmə verirlər. Ağılla xəyalı ayırd etmədikləri halda özlərini ağıllı hesab edirlər. Onlar şəriətin köməyi olmadan ağlın heç nə edə bilməyəcəyindən xəbərsizdirlər. Buna görə də, həm əqli, həm nəqli elmləri bir araya gətirmək, yəni ikisinin arasında olan bir mövqe seçmək lazımdır.

Elm öyrənmək istəyən şəxs, hər şeydən öncə Şəriət Sahibindən özünə bir bələdçi istəməli, sonra da ağlını həmin bələdçinin ardınca aparmalıdır. Ağlını işə salmaqla yanaşı ibadəti də öz yerində olmalıdır. Məhz belə olduqda ağlın gəldiyi nəticə şəriətə müvafiq olacaqdır.

Ədalət sifətinin tələbinə uyğun olaraq ağıl qüvvəsi digər qüvvələrə hakim kəsilməli, hamısını öz hakimiyyəti altında birləşdirməlidir. Buna görə də hamı çalışmalıdır ki, bütün qüvvələrini ağlına tabe etsin. Belə olarsa, onda insan Allahın yer üzərindəki həqiqi xəlifəsinə çevrilər. Özünü islah etməyib ədalət sifətinə yiyələnməyən insan başqalarını da islah edə

bilməz. Başqalarını islah etməzdən öncə insan ilk növbədə özünü islah etməlidir, əks təqdirdə onun kimisə islah etməyə mənəvi haqqı çatmır. Axı özü ilə bacarmayan şəxs başqaları ilə necə bacara bilər?! ... İnsanlara başçılıq edə biləcək əsl hökmdar özünü islah etmiş şəxsdir. Əgər rəiyyətə belə bir insan başçılıq edərsə, onda cəmiyyətdəki bütün əxlaqi pozğunluqlar aradan qalxar, hər şeydə ədalət öz yerini tutar, nəticədə Allahın maddi və mənəvi nemətləri onların üzərinə yağar. Təsadüfi deyil ki, ədalətin növləri arasında ən şərafətlisi, ən üstünü hökmdarın ədalətli olmasıdır. Hətta digər ədalətlər də məhz onun ədalətindən asılıdır. Hökmdar ədalətli deyil, zalım olarsa, bu zaman başqaları da ədaləti icra edə bilməzlər, çünki ədalətə qarşı çıxan hökmdar hər işi ədalətlə icra etmək istəyənlərin də qarşısını alacaq. Cəmiyyətdə fitnə-fəsad baş alıb gedəcək, hamı ədalətsizliyə tuş gələcək. Bir sözlə, kamala, səadətə çatmağın, elm, mərifət əldə etməyin, şəriətin cəmiyyətdə icra edilməsinin açarı hökmdarın ədalətli olmasındadır...

Hədislərdə buyurulmuşdur ki, ədalətli hökmdar rəiyyətin bütün savab işlərinə şərikdir, həmçinin zalım hökmdar da rəiyyətin bütün günah işlərinə şərikdir. Həzrət Peyğəmbər (s) buyurmuşdur :”Qiyamət günündə Allaha ən yaxın bəndə ədalətli hökmdar, Allahın mərhəmətindən ən uzaq şəxs də zalım hökmdar olacaq.” Başqa bir hədisdə buyurur: “Bir saat ədalətli olmaq yetmiş illik ibadətdən üstündür.” [1]

---

1. Şeyx Əhməd Nəraqi; “Meracus-Səadə” (Səadət zirvəsində, Çap ili: 2012 ), s. 36-41

## Ədəbiyyat

1. Qurani-Kərim
2. Hilli, "Kəşful murad fi şərhi təcridil - etiqad"
3. Misbah Yəzdi, "Düruse fəlsəfeye əxlaq"
4. Mail İsmayıloğlu, "Din fəlsəfəsi" (2009-cu il)
5. Təmimi Amidi, Əbdulvahid ibn Məhəmməd "Ğurərul-hikəm və durərul-kiləm",
6. Mirzə Hüseyn Nuri, Müstədrəkül-vəsail
7. Əllamə Məclisi, Biharul-ənvar, c. 78
8. Məhəmməd ibn Yəqub ibn İshaq Kuleyni, "Üsuli-əl-Kafi", c.2
9. Şeyx Səduq ibn Babuveyh, " Tövhid "
10. Rauf İmranoğlu, "Məntiq" (2011-ci il),
11. Ayətullah əl-üzma Nasir Məkarim Şirazi, "Təfsiri nümunə" (2018), c. 16
12. Şeyx Əhməd Nəraqi; "Meracus-Səadə" (Səadət zirvəsində, Çap ili: 2012 )
13. Şeyx Təbərsi , "Məcməül-bəyan", c.10
14. Sərrac Tusi "Lümə" 1960-cı il
15. S. Xəlilov, "Fəlsəfə: tarix və müasirlik"
16. Əxbər əl-Həllac, 1936-cı il
17. Könül Bünyadzadə, "İnsan: kamilliyin arxitektonikası" (Bakı – 2014-cü il),
18. Mürtəza Mütəhhəri, "İlahi ədalət
19. Molla Sədra, "Əsfari ərbəə"
20. Cəfər Sübhani, "İlahiyyat"
21. Məhəmməd Hüseyn Təbatəbai, "Əl-mizan"
22. Məhəmməd Təqi Misbah Yəzdi, "Amuzeşi fəlsəfə"
23. Məhəmməd Hüseyn Təbatəbai, "Nihayətul-hikmət"
24. İmam Ruhullah Xomeyni, "Qırx hədisin şərhi
25. Görünüş: "Ruzi kəsb etməkdə insanın rolu". Görünüş: "Hidayət və ilahi izlal (zəlalət)"

26. Mətləb Baqir, "İslam fəlsəfəsi ilə tanışlıq", Sadate Razavi nəşriyyatı, Çap tarixi 2005-ci il.
27. "Əl-mənhəcul-qəba", cild 5,
28. Nasir Məkarim Şirazi, "Təfsiri nümunə", cild 10. Nəşr tarixi: hicri şəmsi ili ilə 29/01/1394
29. Ayətullah Nasir Məkarim Şirazinin "Quranda əxlaq" kitabından iqtibas edilib ("İmam Əli ibn Əbi Talib (ə)" mədrəsəsi, Qum, ilk nəşr, 1998), c. 1
30. Misirli Seyid Qütb (1906-1966), "Fi-Zilalil-Quran" təfsiri, c.6
31. Əbdül-Əli ibn Cümə "Nurus-Səqəleyn" təfsiri, c. 4
Rus dili
32."Komsomolskaya Pravda Gürcüstanda" qəzeti, 2-8 fevral 2007 il , Svetlana Kuzina, tərcümə etdi: Əzimov İlqar.
33. Бэкон Фр. Великое восстановление наук // Сочинения в 2 томах. Т.1 М.: Мысль, 1977

# İslamda və Xristianlıqda axirətə inamın ortaq və fərqli cəhətləri

Mirtagi Əsədov[1]

## Absrtakt

Bu məqalədə İslamda və Xristianlıqda axirətə inamın ortaq və fərqli cəhətlərinə nəzər salacağıq. Xristianlar bu inancdadırlar ki, insan maddi və qeyri-maddi olan iki həqiqətdən təşkil tapır. İnsanın addi həqiqəti onun bədəni və qeyri-maddi həqiqəti, onun ruhudur. Matta incili bu məsələyə təkid edir ki, bədən və ruh insanı bütövlükdə təçkil edən iki hissədir. Müqəddəs İslam dini də insanın iki tərəfli varlıq olmasına təkid edir. Müsəlman teoloqlar bu əsas məsələni həm əql yolu ilə həm də nəql yolu ilə isbat edirlər. Onlar deyirlər:

Şübhə yoxdur ki, insanın bədəni bütün xüsusiyyətləri ilə birlikdə ölümdən sonra aradan gedərək torpaq şəklinə düşür. Torpaq şəklinə düşüb tədricən, zaman keçdikcə başqa şeylərə çevrilir.

**Açar kəlmələr:** İslam, xristianlıq, axirət, inam

---

. İslam Araşdırmaları fakültəsinin məzunu, İslam Araşdırmaları institutu, Əl-1 Mustafa Beynəlxalq Virtual Universiteti, Qum, İran.

## Giriş

Xristianlar bu inancdadırlar ki, insan maddi və qeyri-maddi olan iki həqiqətdən təşkil tapır. Bu haqda belə oxuyuruq: “... ondan (Allahdan) qoruxun ki, ruhu və cismi həlak etməyə qadirdir...”1

Elçi Polosun Korinflilərə yazdığı birinci yazısında da oxuyuruq:

“... baxmayaraq ki, mən cismdə deyiləm, amma ruhda varam...”2

Həqiqətdə bu ayədən də başa düşülür ki, ruh və cism ayrı-ayrılıqda insanın vücudunu təşkil edən iki ünsürdürlər.

Mark incili təkid edir ki, insan yaşayışının əsası, onun ruhundan ibarətdir və onu itirən hər şeyi itirər:

“insan üçün nə faydası olar ki, bütün dünyanı götürə və öz canınını verə; ya da ki, insan nəyi canının əvəzində verə.”3

Luka incilində Xanım Məryəm (s)-nın dilindən oxuyuruq:

“mənim ruhum allahı tərifləyir.”4

Yuxarıda qeyd olunan ayələrdən əlavə Əhdi-Cədiddə bir çox digər ayələr də var ki, hamısı insanın iki həqiqətli olduğuna təkid edirlər.1

---

. matta 28:10. 1
. 1 korinflilərə 5:3.2
. Mark 8:36.3
. Luka 1:46.4

Müqəddəs İslam dini də insanın iki tərəfli varlıq olmasına təkid edir. Müsəlman teoloqlar bu əsas məsələni həm əql yolu ilə həm də nəql yolu ilə isbat edirlər. Onlar deyirlər:

Şübhə yoxdur ki, insanın bədəni bütün xüsusiyyətləri ilə birlikdə ölümdən sonra aradan gedərək torpaq şəklinə düşür. Torpaq şəklinə düşüb tədricən, zaman keçdikcə başqa şeylərə çevrilir. Bəzən bitki şəklinə gəlib heyvanların və digər insanların yeməyi olur və bəzən mümkündür, daş və sair şəklinə düşərək onların şəkilni alsın. Hər halda, qəti olan şey budur ki, ölümdən sonra insanın bədəni aradan gedib bir formaya düşür ki, müxtəlif insanların bədənləri arasında bir fərq müşahidə edib onları o fərqlə tanımaq olmur.

Buna əsasən, bəzi filosofların baxışına görə deyə bilərik ki, insan təkcə bu maddi bədənlə xülasələşmir və o qiyamətdə yeni bir bədəndə dirildiləcəkdir və bu yeni maddi cism (bədən) dünya həyatındakına oxşamasına baxmayaraq, həmin əvvəlki bədən olmayacaq, bəlkə, bu başqa bir varlıqdır(cism). Qurani Kərimin ayələrinə əsasən, Allahın insana qiyamətdə verəcəyi bədən (cism) elə əvvəlki bədən olacaq. Ayələr deyir ki, Allah həmin çürümüş bədəni yenidən bərpa edəcək.

Qeyd etdiyimiz kimi, deyə bilərik ki, insanın bədəninin dünyada aradan getməsi onun heç də əbədi məhvi və faniliyi kimi başa düşülməməlidir və bilinməlidir ki, həmin bədəndə

---

. Matta 20: 28 və 27: 50. 1 Saloniklilərə 5: 23. 1 Korinflilərə 2:14. Mark 12: 30...1

elə bir varlıq yerləşdirilib ki, o, məhv olan bu cismlərdən fərqlidir ki, biz ona ruh deyirik.

Şübhəsiz, bu digər cəhətlər cismin xüsusiyyətlərinə malik ola bilməz. Çünki belə olan halda, yenədə aradan getməlidir və bədən xarab olduqdan sonra o, qalma potensialına malik olmur. Bu cəhətdən ruh, gərək, öz-özlüyündə qeyri-maddi və müyyən mənada mücərrəd olsun ki, insanın ölümü ilə məhv olmasın. Belə olmasa, məad prinsipi düzgün və məntiqli izaha malik ola bilməz. Bu qeyri-mücərrəd (qeyri-maddi və qeyri-cismi olan ) varlıq elə həmin ruh adlanan şeydir. Biz indi qısa şəkildə onu izah edəcəyik.

Başqa təbirlə desək, insanda “ruh” adlı mücərrəd bir cəhət var ki, təbiətinə görə maddi xüsusiyyətlərə malik deyil və materialistlərin fikrinə rəğmən, ruh insanın cismani beyni və maddənin xüsusiyyətlərindən deyil. Çünki belə olan halda, gərək, ruhun fəaliyyəti və onun anlamaları maddi duyğular dairəsində məhdudlaşsın və bir halda ki, düzgün yuxuların olması, gələcəkdən xəbər vermələr və bəzi qeybi məsələləri aydınlaşdırmaq ki, bir çox yerlərdə baş verib, bütövlükdə buna dəlalət edir ki, ruhun dərk etməsinin dairəsi maddədən daha genişdir, ona görə ruhun maddi və insan bədəninin xüsusiyyətlərindən olmasını qəbul etmək olmaz.

Qurani-Kərimin ayələri də insanın iki tərəfli varlıq olmasına təkid edirlər. Misal üçün -“Səcdə” surəsinin 10-cu ayəsində əvvəl məad prinsipini inkar edənlərin dilindən məad haqda bir şübhə deyilir və ondan sonra onun cavabı verilir.

(Axirətə inanmayanlar) dedilər: “Məgər biz torpağa qarışıb yox olandan sonra yenidənmi yaradılacağıq?” Bəli, onlar Rəbbi ilə qarşılaşacaqlarını (qiyamət günü dirilib haqq-hesab üçün Allahın hüzurunda duracaqlarını) inkar edən kəslərdir!

(Ya Rəsulum!) De: “Sizə müvəkkil olan ölüm mələyi (Əzrail) canınızı alacaqdır. Sonra da (qiyamət günü) Rəbbinizin hüzuruna qaytarılacaqsınız!”

Allah (əcəli çatan kimsələrin) canlarını (ruhlarını) onlar öldüyü zaman, ölməyənlərin (hələ əcəli çatmayanların) canlarını isə yuxuda alar (çünki yuxu da ölüm kimi bir şeydir, yuxu zamanı ruh bədəni tərk edər). Ölümünə hökm olunmuş kimsələrin canlarını (ruhlar aləmində) saxlayar (onların ruhu bir daha bədənlərinə qayıtmaz, beləliklə də bədən ölüb gedər). Digər (ölümünə hökm olunmamış) kimsələrin canlarını isə müəyyən bir müddətədək (əcəlləri gəlib çatıncaya qədər yuxudan oyandıqda bədənlərinə) qaytarar. Həqiqətən, bunda düşünən bir qövm üçün (Allahın hər şeyə qadir olmasına, qiyamət günü ölüləri dirildəcəyinə dəlalət edən) əlamətlər vardır! (əz-Zumər/42)

Əvvəlinci ayəyə diqqət etməklə, aydındır ki, məadı inkar edənlər bu təxəyyülə düçar olublar ki, insan bədəni aradan getməsi ilə tam şəkildə hər şey aradan gedir. Cavabında Quran deyir: “Ölüm mələyinin sizdən aldığı, həqiqətdə, sizin varlığınızı təşkil edən şeydir ki, itən və aradan gedən deyil və

sizin düşüncənizə əsasən, dünyada aradan gedən şey sizin bədənlərdir ki, sizin həqiqətiniz ona bağlı deyil.”

“Təvəffa” sözünün mənasına diqqət etmək lazımdır ki, bir şeyi tam və kamil almaq mənasınadır və eləcə də “kum” şəxs əvəzliyinə birinci ayədə diqqət etməklə bu məsələ aydınlaşır ki, bəşərin insanlığının həqiqəti elə ölüm mələyinin vasitəsi ilə alınan şeydir və həmin ruhdur. Bəs, bu ayədə bizim müzakirə etdiyimiz məsələlərin iki əsaslı nöqtəsinə toxunulub: 1-İnsanın hqəiqəti ki, “kum” (yən siz) şəxs əvəzliyi ilə xitab olunub və həmin alınandır ki, o da ruhdur. 2-Ruhun varlığının əsası da ruhda isbat olur, çünki yuxardakı ayədə “insanın tam varlığı elə həmin cismani bölmələrdə və bədən üzvlərində xülasələşir” təsəvvürünün əsassız olduğu izah edilib və bəşərin insanlığının qeyri-maddi bir cəhət üzərində dayandığı göstərilib.

İkinci ayədə birinci ayədən daha aşkar şəkildə nəzərdə tutulan məsələyə toxunulub, çünki buyurur: “Allah ölüm anında o şeyi ki, insanın həqiqəti və diriliyi ona bağlıdır onu alır (yəni, ölüm anında Allah insanın ruhunu və canını alır). Buna əsasən, həmin ayənin və birinci ayənin mənasına diqqət etməklə, bu nəticəyə yetişilir ki, insanın bədən üzvləri və duyğu orqanları ki, ölümdən sonra torpaqda dağılır və müəyyən mənada itir, insan diriliyinin və şəxsiyyətinin meyarı deyil, bəlkə, insanın ruhi cəhətidir ki, onun dirilik və şəxsiyyət meyarı sayılır.

-“Nisa” surəsi, ayə 97:

Mələklər öz nəfslərinə zülm edənlərin (Məkkədə kafirlər içərisində qalıb hicrət etməyənlərin) canlarını alarkən (onlara) deyəcəklər: “Siz (hicrət zamanı) nə işdə idiniz?” Onlar söyləyəcəklər: “Biz yer üzərində zəif (aciz) kəslər idik.” (Mələklər də onlara: ) “Allahın torpağı geniş deyildimi ki, siz də hicrət edəydiniz?” – deyəcəklər. Onların sığınacaqları yer Cəhənnəmdir. O necə də pis yerdir! (nisa\97)

Mələklər (küfr etməklə, Allaha şərik qoşmaqla) özlərinə zülm edənlərin canlarını aldıqda onlar (ölüm qorxusundan Allahın əmrinə) təslim olub: “Biz heç bir pislik etmirdik!” – deyəcək (mələklər də onlara belə cavab verəcəklər): “Xeyr, (elə deyildir) Allah sizin nələr etdiyinizi çox yaxşı bilir! (Nəhl\28)

Bu ayədən sonra həmin ayənin ardınca dərhal buyurur:

Haydı, girin əbədi qalacağınız Cəhənnəmin qapılarına (təbəqələrinə)… (Nəhl\29)

O kəslər ki, mələklər onların canlarını pak olduqları halda alıb: “Sizə salam olsun! Etdiyiniz (gözəl) əməllərə görə Cənnətə daxil olun!” – deyərlər. (Nəhl\32)

Yuxarıdakı ayələr Allahın mələkləri ilə cənnət və cəhənnəm əhli arasındakı danışıqları göstərir. Bu ayələrə diqqət etməklə aydın şəkildə məlum olur ki, bu danışıqlar ölümdən və maddi aləmlə vidalaşadıqdan sonra baş verir. Çünki bir tərəfdən mələklərin sualı keçmiş zaman formasındadır: “Fimə kuntum?” - yəni, “Hansı durumda idiniz” və digər tərəfdən

bu dəstələrin cavabı da onların keçmiş zamandakı durumundan hekayət edir: “Kunna mustəzəfinə” -yəni, “Biz imkansız və məzlum idik.” və ya sonrakı ayədə gəlib ki, cəhənnəm əhli deyərlər: “Ma kunna nəməlu min suu” -yəni, “ Biz pis iş görmürdük” və “Bima kuntum təməlun” –cümləsi də keçmişdəki bu qrupların dünyadakı rəftarından danışır və hekayət edir, yəni mələklər deyirlər: “Bu şeylər sizin keçmişdə gördüyünüz əməllərin mukafatı və ya cəzasıdır.”

Deyilənlərə diqqət edəndə aydın olur ki, bu danışıqlar ölümdən sonra baş verir, indi belə bir sual qarşıya çıxır ki, mələklərin xitab etdiyi və danışdığı tərəf kimdir? Yəni, bədən aradan gedib və artıq yaşamır və artıq danışmağa qadir deyil, mələklərlə kimin arasında və ya nəyin arasında bu danışıq baş verir? Aydın şəkildə başa düşmək olur ki, bu ayələrə əsasən, insanda digər bir cəhət var ki, onun ölümündən sonra aradan getmir və Allahın mələklərinin öz sualları və sözləri ilə xitab etdiyi tərəf də, elə həqiqətdə odur və bunun özü həmin məsələdən xəbər verir ki, həqiqi insan həmin ruh və danışan nəfsdir və ona görə mələklər onlara sual verirlər. Buna əsasən, yuxardakı üç ayədə məad prinsipinin hər üç təməl və əsas məsələsi –yəni, mücərrəd cəhətin varlığı, mücərrəd cəhətin təməl və əsas olması və ölümdən sonra mücərrəd cəhətin həmişəyaşarlığı aydınlaşmışdır.

### *1-1. Ruhun mahiyyəti*

Xristianlığın dini təlimlərinə əsasən, bu dinin davamçılarının hamısı Ruhun əsas, qeyri-maddi və mücərrəd olmasına

inanırlar. Xristianlar arasında bu məsələyə aid olan sual, budur ki, ruh və nəfs ya can bir şeydir yoxsa fərqli şeylərdir? Digər təbirlə desək, insan iki hissədən təşkil tapıb yoxsa üç hissədən?

Xristianlardan bəzisi ruh və canı eyni bilirlər, bəziləri isə onu bir-birindən ayrı bilirlər.

Ümumi olaraq qərb kilisələri birinci fikrin tərəfdarları və şərq kilsələri ikinci fikrin tərəfdarlarıdırlar. Bu iki dəstənin hər biri öz iddiasını isbatlamaq üçün Müqəddəs kitabdan dəlillər gətirirlər.1

Sonunda xristian ilahiyyatçıları iki fikri belə izah edərək, birləşdirirlər:

"İnsanın qeyri-maddi tərəfi birdir və eyni halda iki hissədən ibarətdir. Biri aşağı hissə və digəri yuxarı hissə. Nəfs ya can, təsəvvür, yaddaş və anlama mərkəzidir və ruh düşünmə, vicdan və azad iradə mərkəzidir."

Onlar bu izahla insanın iki hissədən yəni ruh və cismdən təşkil tapdığını vurğulayırlar və bildirirlər ki, insanın ölümdən sonrakı həyatda qayıdışı ruhani olacaq.2

Ruhun mahiyyəti haqda müsəlmanlar da Ruhun qeyri-maddi və mücərrəd olmasına təkid edirlər. Onlar "maddi" və

---

. yaradılış 2: 7 və 41: 8 və 1: 21-24; Nəğmələr Nəğməsi 42: 6; Matta 20: 28; 1 İbranilərə 12: 00 və 4: 12; 1 Saloniklilərə 5: 23; 1 Korinflilərə 2: 14.

. Tisin, Henri; Xristian Teologiyası; səh: 155 – 156.2

"mücərrəd" terminlərini izah edərək, ruhun mücərrədliyini aydınlaşdırırlar.

"Mücərrəd" sözünün mənası müəyyən mənada bir səlbi məna olduğu üçün,1 əvvəl gərək, maddi termininin mənası aydınlaşsın.

"Maddi termininin axırında gətirilən "ya"(maddiy) hərfi ərəb ədəbiyyatında mənsubluq bildiricisidir , ona görə "maddi" deyildikdə, yəni o şey ki, maddəyə mənsubdur. "Maddə" termininin özü fəlsəfə və məntiqdə müxtəlif mənalara malikdir ki, burada onları təfsilatı ilə aydınlaşdırmaq olmur.

Sadəcə, bilməyimiz lazımdır ki, bir fəlsəfi termin olaraq "maddi" o varlığa deyilir ki, maddi səbəbə malikdir. Yəni, özündən qabaqkı bir maddə və cisimdən yaranıb. Məsələn, deyirik: "İnsan torpaqdan yaranıb, bəs, torpaq insanın maddəsidir, ona görə insan da bir maddi varlıqdır. "Digər bir fəlsəfi termin əsasında "maddə" ilkin malekul adlanan bir cövhərə deyilir ki, Məşşa filosoflarının əqidəsinə əsasən , belə bir varlığın vücuduna inanırlar ki, o, tam bir potensialdır və digər cismlərin potensialına da malikdir, həmçinin "maddi" bu qaydaya əsasən, o şeyə deyilir ki, bir yolla onun "maddəyə" bağlılığı və nisbəti vardır.2

Burada xülasə şəkildə aydınlaşdıra biləcəyimiz şey budur ki:

---

"Səlbi" məfhumlar o məfhumlara deyilir ki, adətən, qeyri sözünü vücud 1 məfhumlarına şamil edərək ələ gətirilir, misal üçün, cahil, yənu "qeyri-alim", qaranlıq- "qeyri-aydınlıq" ... mənalarının hamısı səlbi mənalardır.

Bu terminlərlə və məsələlərlə bağlı daha çox tanışlıq üçün fəlsəfi kitablara 2 mücariət etmək lazımdır.

“Maddi, yəni maddənin özü və ya o şey ki, təbiətinə görə maddəyə ehtiyaclıdır.” Əlbəttə, bəzən “maddi” termini “cismani” termini ilə sinonim olaraq işlədilir ki, “cismani” dedikdə, yəni cism və ya o şey ki, bir yolla cismə bağlılığı var. Bu mənalara diqqət etməklə, “qeyri-maddi (mücərrəd), yəni bir varlıq ki, nə maddə deyil və nə əvvəlki maddədən yaranmayıb və nə varlığının bir hissəsi maddə deyil, nə də maddi cismlərin sifəti olmur.”

Yuxardakı izahata diqqət etməklə və “mücərrəd” və “maddi” terminlərinin mənaları aydın olmaqla, şübhə yoxdur ki, insanın bədəni ki, insanın vücudunun mühüm bir hissəsidir, maddidir və maddi varlığın bütün xüsusiyyətlərinə malikdir. Maddi hissiyyat üzvləri ilə qavranılan şeylər zaman və məkana, çəki, uzunluq, en və dərinliyə sahib olma və s. kimi maddi varlığın bütün xüsusiyyətlərinə malikdir. Amma dedik ki, insan təkcə elə həmin maddi və cismani cəhətdə xülasələşmir və ruh adlı digər bir cəhəti də var ki, elə bu ruhun var olması və varlığıdır ki, məad məsələsinin mümkünlüyünü zəruri edərək bu dünyanın insanlarının hər birinin o dünyada qayıtmalı olacağını təhlil və izah edir. İndi görmək lazımdır ki, insanda bu mücərrəd cəhətin olmağını sübuta yetirmək üçün hansı yollar var və hansı yolla ruhun varlığını əldə etmək olar?

Deyilənlərə əsasən bu nəticəni əldə edirik ki, hər iki din:

1. insanın iki tərəfli varlıq olmasına təkid edirlər; yəni insan ruh və cismdən təşkil tapıb.

2. İnsanda ruh adlanan varlıq qeyri-maddi cəhətə malikdir.

3. Ruh ölümdən sonra cismin əksinə olaraq, müstəqil olaraq qalma və yaşama patensialına malikdir.

Həmçinin qeyd etmək lazımdır ki, işarə olunduğu kimi xristianlar insanın ölümdən sonrakı həyatda qayıdışının ruhani olacağına inanırlar. (Tisin, Henri; Xristian Teologiyası; səh: 155 – 156.) Amma müsəlmanların inancına əsasən, axirət həm cismani həm də ruhani olacaq.

### *1-2. Ölüm*

Xristianlar bütün insanların istisnasız olaraq istər mömin olsun istərsə də kafir, ölümü dadacağına inanırlar; ölmək və hesaba çəkilmək üçün dirilmək Adəm evladının alın yazısıdır.1

Əhdi-Cədidin ayələrini araşdıranda görürük ki, orada iki növ ölümə işarə olunur:

Cismani olüm və ruhani ya əbədi ölüm.2

Cismani ölüm, ruhun bədəndən ayrılması və cismin torpağa qayıdaraq, orada parçalanaraq öz sadə ünsürlərinə çevrilməsindən ibarətdir. Bu həmin dünya yaşayışının sonudur.3

---

. Romalılara 5: 12;  Yəhuda 5: 28-29. 1

. Matta 10: 2; Luka 12: 4-5.2

3 . Amerikalı Ans, Ceymz; Düzgün səmavi elmdə təlim sistemi; 2- ci cild; ABŞ nəşriyyatı; Beyrut; 1890-cı il; səh 487-488; Əyyub 7: 9; Həvarilərin İşləri 5: 5.

Ruhani ya Əbədi ölüm, günahların və səhvlərin vasitəsi ilə ölməkdir.1

Bu ölümün həqiqəti günahlara xatir ruhun Allahdan uzaqlaşması, nəticə etibarı ilə də onun ruhi və cismi baxımdan Tanrının qəzəb atəşi və cəhənnəmində yanmasından ibarətdir.2

Müqəddəs İslam dini buna təkid edir ki, ölüm məhv olmaq deyil, bəlkə, bir aləmdən başqa aləmə keçməkdir. Bir müddət maddi qəlibdə yaşayan ruh ölümdən sonra da diridir və heç vaxt məhv olmur. Peyğəmbər (s) bir hədisdə buyurur:

"Allah-taala sizi məhv və fani olmaq üçün xəlq etməyib. Bəlkə, sizi həyat və diri qalmaq üçün yaradıb. Siz ölümlə bir mənzildən başqa mənzilə keçirsiniz."

### *1-3. Ruhun əbədiliyi*

Xristianların dini kitablarında ruhun əbidiliyi açıq şəkildə vurğulanır. Əhdi-Cədid müxtəlif yerlərdə, ölümdən sonra ruhun yaşamasına toxunur.

Lukada oxuyuruq:

"…hamı onun yanında diridir".3

İsa (ə) da özü ilə birlikdə iki çarmıxa çəkilən şəxsdən birinə deyir:

---

. Efeslilərə 2: 1.1

. Amerikalı Ans, Ceymz; həmin. 2

. Luka 23: 43.3

“hər an sənə deyirəm bu gün mənimlə cənnətdə olacaqsan”.1

Təbii ki, ölümdən sonra cənnətdə olmaq üçün, ruhun yaşaması qaçılmaz və gərəkən məsələdir.

Xatırladaq ki, bu həmişəyaşarlıq yalnız möminlərin ruhlarına aid deyil, onlarla birgə günahkarların və kafirlərin ruhlarına da aiddir.2 Bir fərqlə ki, möminlərin ruhlarının yeri kafirlərin

ruhlarının yerindən ayrıdır.3

Müqəddəs islam dini də ruhun əbədiliyinə və həmişəyaşarlığına təkid edir. Belə ki, insanın insanlığı onun ruhu ilədir və ruh bədəndən ayrılsa, “insan” termininin ruhsuz cismlə bağlı işlədilməsi həqiqi mənada olmayacaq.

Bu üzdən də, demək olar: “Nə qədər ki, insanın ruhu qalır, onun özü də həqiqətən, qalır və aradan getmir. İnsanların ruhları cismani bədənlərdən ayrıldıqdan sonra, qalaraq aradan getmədiyi üçün, demək olar ki, qiyamətdə də bu dünyanın insanlarının hər biri hazır olur və ilahi ədalət məhkəməsində dayanırlar və bu dünyadakı insanlardan ayrı və müstəqil insanlar deyillər.”

### *1-4. Ruhun ölümdən sonrakı durumu (Bərzəx)*

Ölümdən sonra və qiyamətdən öncə ruhun durumu haqda xristianlar Müqəddəs kitabın təlimləri əsasında buna inanırlar ki, insanların ruhlarının ölümü və yuxusu olmur. Tam pak

. Luka 20: 38.1
. Matta 11: 21-24, 2 Korinflilərə 5:10, Romalılara 2:11.2
. Luka 16: 19-31.3

insanların ruhları göyə qalxaraq tanrı dərgahına daxl olurlar. Tam pak olmayan və saflaşmağa ehtiyacı olan ruhlar isə, səmaya daxil olmazdan öncə, paklaşmaq üçün bir məkana götürürlər. günahkarlar və pis əməl sahiblərinin ruhları isə əzab üçün cəhənnəmə aparılır. Böyük qayıdış (Qiyamət) yetişənə qədər onlar qaranlıqda qalacaqlar.1

Saleh şəxslərin ruhları haqda Korenflilərə ikinci yazıda oxuyuruq:

“fikrimiz rahatdır və bunu daha çox bəyənirik ki, bədəndən səfər edək və tanrı yanında yerləşk”.2

Bundan əlavə filipililərə olan yazıda da oxuyuruq:

“köçüb məsihlə olmağıma yalvarıram, çünki bu çox yaxşıdır”.3

Ibranilərə məktubunun yazarı öz əməlisaleh oxucularına müjdə verir ki, onlar saysız mələklər, bayram məclisi və üzüvlərinin adı göydə qeyd olunmuş toplantıda, hamının hakimi olan Tanrının hüzurunda və pak insanların ruhları önündə yerləşəcəklər.4 İsa (ə) da özü ilə birlikdə çarmıxa çəkilən tövbə etmiş oğruya deyir:

---

. Amerikalı Ans, Ceymz; Düzgün səmavi elmdə təlim sistemi; 2- ci cild; ABŞ 1 nəşriyyatı; Beyrut; 1890-cı il; səh 488-489.

. 2 korinflilərə 5: 8. 2

. Filipililərə 16: 23.3

. İbranilərə 12: 22-23.4

“hər an sənə deyirəm bu gün mənimlə cənnətdə olacaqsan”.1

Korinflilərə ikinci yazıda oxuyurq:

“çünki bilirik ki, haçan bizim bu yerdəki evimiz dağılsa, Tanrıdan bir imarətimiz var, əllərlə tikilməmiş ev və göylərdə əbədi ev”.2

Yenə həmin yazıda oxuyuruq:

“bir şəx on dörd il öncə göyə aparıldı. Bilmirəm ruhu ya cismi. Yalnız Allah bilir. Bu şəxs özünü cənnətdə gördü”.3

Bəs deyilənlərə əsasən nəticə çıxarırıq ki, pakların ruhları həqiqətən də diri və öz durumlarından agahdırlar4 və sonsuz rahatlıqda və sevincdə yaşayırlar. 5 torpaq aləmində yaşayan bizlərin durumundan daha yaxşı vəziyyətdə; Paulos dediyi kimi:

“...bu çox yaxşıdır.”6

Ölümdən sonra pis insanların ruhlarının durumunu müəyyənləşdirən ayələrdən də həmin nəticəni çıxarırıq.

Peterin birici və ikinci yazılarında pis insanların ruhlarının həbsdə və əzabda olmağına toxunulur. Peter birdə belə gəlib:

“... nəsihət etdi həbsxanada olan ruhlara.”1

---

. Luka 20: 38.1
. 2 korinflilərə 5: 1.2
. 2 korinflilərə 12: 2-3-4.3
. Luka 16: 22, 1 Saloniklilərə 5: 10.4
. Yahuda 14: 13.5
. Filipililərə 1: 23.6

Peter ikidə də belə gəlib:

“bu minvalla Tanrı bilir gözəl əməl sahiblərini vəsvəsədən və imtahandan necə azad etsin və necə pis əməl sahiblərini sonuncu günə qədər əzabda saxlasın.”2

Araşdırmaya əsasən bu nəticəyə yetişirik ki, imanlı insan ölüm vaxtı Məsihin hüzuruna gedir. O, qayıdış zamanı öz əzəmətli bədəninə yetişənə kimi, tanrının hüzurunda agahlıqda və bərəkətli şəkildə qalır. Imansız insan ölüm zamanı agahlıq və əzab durumunda olur və qiyamət zamanı atəş dənizciyinə atılacaq.3

Müqəddəs islam dini də bərzəx aləminin varlığına işarə edərək təkid edir ki, onun olmasında heç bir şəkk və şübhə yoxdur.

Bərzəx aləmi bu dünya ilə axirət arasında bir vasitədir. Buna görə də ona “bərzəx” aləmi deyilir.

İnsanın ruhu bərzəxdə qiyamətə qədər ya ilahi nemətlərdən bəhrələnir, ya da Allahın əzabəna düçar olur. İnsanın ruhu dünyada etdiyi əməllərə görə, bərzəxdə də ya cənnətdə, ya da cəhənnəmdə olur. Amma bu cənnət və cəhənnəm bu dünyaya uyğundur. Ona görə də ona bərzəx cənnət və cəhənnəmi deyilir.

---

. Peter 1, 3: 19.1
. Peter 2, 2: 9.2
. Tsin, Henri; Xristiyan Teologiyası; səh 325-326.3

Bir çox ayələr və əqli dəlillər belə bir aləmin olduğunu təsdiqləyir. Bərzəx aləmi rütbə cəhətdən dünyadan üstün, axirətdən isə naqis bir dünyadır. Buna görə də "imkani-əşrəf"1 əqli qaydasına əsasən bərzəxin mövcud olmasının heç bir iradı yoxdur. Bəlkə, bu qaydaya əsasən. belə bir aləmin vücudu lazım və zəruridir.

Maddi aləmin varlıq aləminin vücudlarının silsiləsindən yaranması maddi aləmdən üstün mərtəbədə misal və bərzəx aləminin olmasını tələb edir (diqqət edin).2

Qeyd olunan əqli dəlillərdən əlavə, çoxlu nəqli dəlillər bərzəxin mövcudluğunu təsdiqləyir. Bu haqda ayələr və hədislər çoxdur. Biz bu haqda gələn ayələrdən yalnız birini qeyd edirik.

Nəhayət, (müşriklərdən) birinin ölümü gəlib çatdığı zaman o belə deyər: "Ey Rəbbim! Məni geri (dünyaya) qaytar!

Bəlkə, (indiyə qədər) zay etdiyim ömrüm müqabilində yaxşı bir iş görüm! (Yaxud, bu günə qədər tərk etdiyim imana qayıdıb saleh bir əməl edim!) Xeyr, bu onun dediyi boş (faydasız) bir sözdür. Onların önündə dirilib (haqq-hesab üçün Allahın hüzurunda) duracaqları günə (qiyamət gününə) qədər

---

Bu fəlsəfi bir qaydadır, mənası "maddə aləmində yaranışlar arasında ən üstün varlığın 1 olmasının mümkünlüyüdür".

Mətləbin mənasının dərk olunması üçün aşağıdakı misaldan istifadə edirik: Bir su 2 çeşmədən axır və onun yolunda kiçik gölməçələr vardır. Belə ki, ikinci gölməçə birincidən aşağı və üçüncüdən yuxarıdadır. Bu halda, üçüncü gölməçənin dolması lazımdır. Vücudlar silsiləsində də, gərək, əvvəl üstün mərtəbəli vücud yaransın, sonra ondan aşağıdakılar meydana gəlsin.

maneə (öldükdən sonra qiyamətədək qalacaqları bərzəx aləmi) vardır. (əl-Muminun surəsi\99-100)

## *2. Qiyamət*

Xrisitiyan dinində Qiyamət məsələsinə toxunmadan öncə "Axır zaman" və "minilliyə inam" məfhumunun izahına toxunmaq qaçılmazdır. Belə ki, "Axır zaman" termini bu dinində Xristiyanlıqda axirəti tanıma formasında məna tapır. Xristiyanlığın dini lüğətində bu kəlmənin izahı, onların minilliyə etiqad məfhumunun izahı ilə qarışıb. buna əsasən Xristiyanlıq teologiyasında bu mənanı izah etmək üçün, öncə minilliyə etiqad məfhumunu izah etmək lazımdır.

Minilliyə inam lüğəti (onun Latıncası "Millennium" və Yunancası "Chili"-dir) bir min il dövrü mənasınadır. Bu nəzəriyyəyə əsasən Məsih (ə) zühur etdikdən sonra İblisə qələə çalacaq və onu əsir edəcək; ondan sonra İlahi mələkutu yaratmaqla min il hökümranlıq edəcək.1

İsa Məsihin qayıdışı Əhdi-Cədiddə 300 dəfədən artıq təkrarlanıb və neçə bölüm bütövlükdə bu mövzuya aiddir; beləki onun onuçdə birinə şamil olur.2

Məsih (ə)-ın qayıdışı məələsi, ölülərin qayıdışı məsələsindən ayrı deyil. Həqiqətdə bu məsələ ölülərin qayıdışı məsələsi ilə nəticələnir. Müqəddəs kitabı mütaliə etməklə bu nəticəni əldə

---

. Davidd L. Silis (ed.), Internation Encyclopedia of the Sosial Sciences, "Millenarism."1

.7 . Tsin, Henri; Xristiyan Teologiyası; səh 322

edirik ki, Əhdi-Cədiddə Əhdi-ətiqdən daha çox ölülərin qayıdışı haqqında söz danışılıb. Əhdi-Cədid müxtəlif ayələrlə qiyamətin başvermə məsələsinə və ölülərin qayıdışına təkid edir. Misal üçün İsa Məsih (ə)-ın dilindən Yəhuda incilində oxuyruq:

“amin amin sizə deyirəm ki, bir saat gələr... ki, ölülər Allahın oğlunun avaz (səsini) eşidəllər və eşidən hər kəs, dirilər... bundan təəccüblənmyin... bütün qəbirlərdə olanlar, onun avazını eşidib, eşiyə gələcəklər; yaxşı iş görənər həyat qiyaməti üçün və pis iş görənlər, mühakimə qiyaməti üçün.”1

Bundan əlavə o həzrət qiyaməti inkar edənlərə, onun isabatı üçün Əhdi-Ətiqdən onlara dəlil gətirir:

“... amma ölülərin qayıdışı haqqında, səmavi kitabda oxumamısınız ki, Allah buyurur: mənəm İbrahimin, İshaqın və Yəqubun Allahaı? Bəs Allah, ölülərin Allahı deyil; bəlkə dirilərin Allahıdır.”2

Polos da Korinflilərə olan yazısında məadın inkarını, məsihilrin imanının puçluğuna bəraər sayır:

“... bizim elan etdiyimiz müjdə, Məsihin ölümdən sonra dirilməsdirsə, bəs sizlərdən bəziləri necə iddia edə bilərsiniz ki, Qiyamət yoxdur? Ölülərin dirilməsi olmasa demək Məsih də dirilməyib və əgər Məsih dirilməmiş olsa, həm bizim müjdəmiz əbəsdirhəm də sizin imanınız. Allah Məsihi

. Yəhuda 5: 25-29 və 6: 39, 40, 44, 45 və 11: 24-25.1
. Matta 22: 31-32 və 22: 23.2

dirildidir dediyimizdə, ölülərin dirilməsi doğru olmasa, Allah haqqında yalandan şəhadət vermişik; çünki əgər ölülər dirilməsə, Məsih dəqəti şəkildə dirilməyib və ...”.1

Qeyd olunan ayələrdən əlavə, Əhdi-Cədiddə ölülərin qayıdışı və Qiyamət haqqında danışan başqa mühüm ayələr də var.iz burada məsələ çox uzanmasın deyə onların hamısını gətirmirik. Misal üçün; 1 Saloniklilərə, 2 Korinflilərə və Yəhudaya müraciət etmək olar.2

Müqəddəs islam dini də “Məad”ın vacibliyini nəqli və əqli yolla isbat edərək, onun vacibliyini və zəruriliyini bəyan edir.

“Məad”ı birinci yolla (nəqli) isbat etmək üçün Qurani-kərimin “ məad” və “onun vacibliyi” haqda nazil olmuş ayələrinə müraciət etməyimiz kifayətdir. Biz burada “məad”ı və ölülərin yenidən dirilməsini Quran vasitəsi ilə isbat etmək üçün, iki ayə gətirməklə kifayətlənirik.

Quranın “məad” məsələsinə dəlalət edən ayələrinin sayı iki minə yaxındır. Onlardan ikisi bu aşağıda gələn ayələrdir:

(Ya Peyğəmbərim!) Səndən: “O (bizi qorxutduğun əzab və ya qiyamət günü) doğrudurmu?” – deyə xəbər alacaqlar. Onlara belə cavab ver: “Rəbbimə and olsun ki, o doğrudur. Siz ondan canınızı qurtara bilməzsiniz!” (Yunus surəsiə\53)

---

. 1 korinflilərə 15: 12-17.1
. 2 korinflilərə 5: 1-10 və Saloniklilərə 4: 13:16 və Yəhuda 20: 4-6.2

(Ayələrimizi) inkar edənlər: “Qiyamət bizə gəlməyəcəkdir!” – dedilər. (Ya

Peyğəmbər! Sən onlara) de: “Xeyr, qeybi bilən Rəbbimə and olsun ki, qiyamət sizə gələcəkdir. Nə göylərdə, nə də yerdə zərrə qədər bir şey Ondan gizli qalmaz. Bundan kiçik, yaxud böyük elə bir şey yoxdur ki, açıq-aydın kitabda (lövhi-məhfuzda) olmasın!” (Səba surəsi\3)

İzah: Qeyd olunduğu kimi, ayənin birinci hissəsində müxtəlif ədatlarla (Bəla və Rəbbi, Lam və Nuni-təkid) “məad”ın və qiyamətin vacibliyi bəyan olundu. Ayənin ikinci hissəsində isə “qiyamətdə insanların bəzi əməllərinin gizli qalması və Allahın hansı ruhun hansı bədənə aid olmasını bilməməsi mümkündürmü? və....”- bu kimi şübhələrə cavab verilir və qeyd olunur ki, heç bir şey Allaha gizli qalmayacaq. Hər şey dəqiqliklə yerinə yetiriləcək.

“Məad”ın vacibliyini bəyan edən ayələrdən əlavə, başqa ayələrin vasitəsi ilə “məad”ın vacibliyini iki əqli dəlil və arqumentlə isbat etmək mümkündür.

Bu dəlillər Allahın iki sifətinə söykənir:

A) İlahi hikmət. B) İlahi ədalət.

### *3-1. Qiyamətin başvermə zamanı və əlamətləri*

Öncə vurğulandığı kimi Qiyamətin başverməsi İsa Məsih (ə)-ın zühuru və dünyanın sonu ilə birgə olacaq və Allahdan başqa heçkəs onun başvermə zamanından xəbərdar deyil və onun

başverməsi birdən olacaq. Buna baxmayaraq Müqəddəs kitabda onun başvermə əlamətləri vurğulanıb.1 Matta incilində qiyamətin başvermə əlamətlərindən bunlar sadalanıb: günəşin qaralması, ay öz işığını itirməsi, ulduzların göydən yerə tökülməsi və yeri saxlayan güclərin lərzəyə gəlməsi. Bundan sonra Məsih Tanrının seçdiklərini dünyanın dörd tərəfindən yığmaq üçün göyün buludlarına minən halda gələr.2

Müqəddəs islsm dininin təlimlərinə əsasən Qiyamətin vaxtı heç kimə məlum deyil. Yəni, qeybi hadisələrdəndir ki, onun elmi Allahın yanındadır . Quranda da bu məsələyə çox toxunulmuşdur. Bu haqda Quranda buyurulur:

(Ya Rəsulum!) Səndən saat (qiyamət günü) haqqında soruşarlar ki, nə vaxt qopacaq? De: "O ancaq Rəbbimə məlumdur. (Qiyamətin) qopacağı vaxtı Allahdan başqa heç kəs bilə bilməz. Göylərdə və yerdə (Allahdan qeyri) bir kimsənin onu bilməsi çətindir. O sizlərə ancaq qəflətən gələr!" Sən onun haqqında bir şey bilirsənmiş kimi onlar (səndən) israrla soruşarlar. De: "O ancaq Allah dərgahında məlumdur, lakin insanların əksəriyyəti (bunu) bilməz!" (əl-Əraf surəsi\187)

Ölümdən sonrakı həyat bizə həm aydın olmadığı, həm də onun xüsusiyyətləri maddi şeylərlə dərk olunmadığından, axirəti yalnız Quran və hədislərdə gəlmiş xüsusiyyətlərlə tanımaq mümkündür. Bizim axirətin dərkindəki vəziyyətimizin misalı

---

. Yəhuda 20: 13-15.[1]
. Matta 24: 29-31 və Mark 13: 24-27.[2]

bu dünyada ana bətnindəki körpəyə bənzəyir. Onun bu dünyadan heç bir xəbəri və məlumatı yoxdur. Belə bir halda biz bu dünyanı xüsusiyyət və qəribə hadisələrini həmin körpəyə nə qədər izah etsək də, o dediklərimizin həqiqətini dək edə bilməyəcək.

Qurani-Kərimin müxtəlif ayələrində qiyamət üçün qəribə əlamətlər qeyd olunmuşdur:

Göz (heyrətdən) bərələcəyi; Ay tutulacağı; Günəşlə ay birləşəcəyi (hər ikisinin qərbdən çıxacağı, nurunun gedəcəyi) zaman  (əl-Qiyamə surəsi\7-9) Sizə vəd edilən (qiyamət) mütləq vaqe olacaqdır! Ulduzlar sönəcəyi; Göy yarılacağı; Dağlar parça-parça olub dağılacağı (toz kimi havada uçacağı zaman); (əl-Mursəlat surəsi\7-10)

Sur çalınacağı gün (qəbirlərinizdən çıxıb) dəstə-dəstə (məhşərə) gələcəksiniz.

(O gün) göy qapı-qapı (mələklərin yerə enməsi üçün göydə yarıqlar) açılacaqdır.

Dağlar yerindən qopardılıb (havada toz kimi uçaraq) ilğıma dönəcəkdir. (ən-Nəbə surəsi\18-20) Günəş (əmmamə kimi) sarınıb bükülacəyi (sönəcəyi) zaman; Ulduzlar (göydən qopub yağış dənələri kimi yerə) səpələnəcəyi zaman; Dağlar yerindən qopardılacağı (toz kimi havada uçacağı) zaman; (ət-Təkvir surəsi\1-3) Göy parçalanacağı zaman;

Ulduzlar dağılıb səpələnəcəyi zaman; Dənizlər (qaynayıb bir-birinə) qarışacağı zaman;  (əl-İnfitar surəsi\1-3)

(Yadda saxla! Qiyamət günü) elə bir gündür ki, Yer (yer kürəsi) başqa bir yerlə, göylər də başqa göylərlə əvəz olunacaq (Yer dəyişib başqa cür yer, göylər də başqa cür göylər olacaq; onların mahiyyəti, şəkli o qədər dəyişəcək ki, tanınmaz hala düşəcəklər)... (İbrahim surəsi\48)

Göyü kitab səhifəsi kimi büküb qatlayacağımız günü (qiyamət gününü) yadınıza salın… (əl-Ənbiya surəsi\104)

… Qiyamət günü yer bütünlüklə Onun ovcunun içində olacaq, göylər isə Onun sağ əli ilə büküləcəkdir (yerin də, göyün də hökmü ancaq Allahın əlindədir, bütün kainat Allahın qüdrətinə tabedir)… (əz-Zumər surəsi\67)

Qeyd olunan Quran ayələrindən belə nəticə alırıq ki, axirət aləminin varlıqları bu dünyadan fərqli olacaq. Axirətdə böyük dəyişikliklər və qəribə hadisələr olacaq. Amma axirətdəki varlıqların həqiqətini ağlımızın naqisliyinə görə dərk edə bilmirik.

### *3-2. Surun çalınması*

Xristianların inancında surun çalınması qiyamətin başlama əlamətlərindəndir. Sur bir tərəfi deşilmiş buynuzdur ki, bayramlarda və döyüşlərdə ondan şeypur olaraq istifadə edirdilər.

Sur iki dəfə çalınar: biri məsihin qayıdışı zamanı, digəri isə Qiyamət baş verdikdə. Onun çalınması ilə ölülər diriləcəklər. Matta İncilində deyilir:

“şeypur uca səslə sələndililəcək və o seçilmişləri dünyanın dörd guşəsindən toplamaq üçün, mələkləri göndərər”.1

Surun çalınması ilə Qiyamətin arasındkı bağlılıq haqda Korinflilər birinci yazıda oxuyuruq:

“Axır zamanda şeypur səmadan səsləndiriləndə, bir anda, bir göz qırpımında,

İslam dininin səmavi təlimlərinə əsasən Qiyamətdə əvvəl, yaxud qiyamətlə eyni zamanda baş verən hadisələrdən biri “surun üfürülməsi”dir.

“Sur” lüğətdə şeypura oxşar bir alətdir ki, ona üfürür və mühüm hadisələrin baş verməsini elan edirlər.

Quran ayələrində istifadə olunur ki, surun üfürülməsi iki dəfə baş verəcək: Birinci üfürmədə bütün varlıqlar öləcək. Bəzi hədislərdə nəql olunur ki, bütün varlıq öləcək. Sonda İsrafilin də canı Allahın qüdrəti ilə alınacaq. Bəzi hədislərdə birinci üfürmə haqda belə gəlmişdir. Bu vaxt insanların çoxu küçə və bazarlarda alış-veriş və gündəlik işləri ilə məşğul olacaq. Birdən hamı ölümlə üzləşəcək. Bu vaxt onlar vəsiyyət edə və ailə üzvləri və qohumları ilə görüşə bilməyəcəklər. Bu halda ölüm onları haqlayacaq. Quranda bu haqda buyurulur:

---

. Matta 24: 31.1

Onlar (küçədə, bazarda) bir-biri ilə çənə-boğaz olarkən özlərini saracaq yalnız bir dəhşətli (tükürpədici) səsə (İsrafilin surunun birinci dəfə çalınmasına) bənddirlər.

Artıq nə bir vəsiyyət etməyə iqtidarları olar, nə də ailələrinin yanına qayıda bilərlər! (Yasin surəsi\49-50)

İkinci üfürmədə bütün insanlar qəbirlərindən qalxıb Allahın ədalət məhkəməsində hazır olmağa hazırlaşacaqlar. Aşağıdakı ayə bu məsələyə toxunur:

Sur (birinci dəfə) çalınacaq, Allahın göylərdə və yerdə olan istədiyi kimsələrdən (Cəbrail, Mikail, Əzrail və İsrafildən, yaxud ərşi daşıyan mələklərdən və ya müsəlman şəhidlərindən) başqa, dərhal hamı yıxılıb öləcək. Sonra bir daha çalınan kimi onlar (qəbirlərindən) qalxıb (Allahın əmrinə) müntəzir olacaqlar! (əz-Zumər surəsi\68)

"Yasin" surəsinin 51-ci ayəsində iki üfürmə haqda buyurulur:

Sur (ikinci dəfə) çalınan kimi (qiyamət günü) qəbirlərindən qalxıb sürətlə Rəbbinin hüzuruna axışacaqlar. (Yasin surəsi\51)

Surun üfürülməsi hökmən baş verəcək hadisələrdən olsa da, onun necəliyi və incəlikləri qeybi məsələlərdəndir. Ona görə də bizə məlum deyil.

### *3-3. Son mühakimə*

Qayıdışdan sonrkı mühüm hadisələrdən biri, sonuncu mühakimədir ki, normal və ümumi bir məsələ olacaq. Bu inanca əsasən ölülər gördükləri işlər əsasında mühakimə olunmaq üçün diriəcəklər. Əhdi-Cədiddə dəfələrcə bu mühakiməyə işarə olunub. Matta İncilində gəlib:

"mən öz mələklərimlə atamın əzəmətində gələcəm və hər kəsi əməlləri üzündən mühakimə edəcəm."1

Piter Afinada elan etdi ki, Allah öz seçdiyi şəxsin vasitəsi ilə dünyanı ədalət və insafla mühakimə edəcəyi günü müəyyənləşdirib.2 Yenə o bildirib ki, Tanrı bizləri mühakimə etməsi üçün gərək bir gün onun mühakimə taxtı önündə dayanaq.3

Islamdinin təlimlərinə əsasən Qiyamətin digər hadisələrindən biri budur ki, o gün bütün ölü cin və insanlar4 cəm olarlar.

Qiyamətdə yalnız əməllər hesab ediləcək. Orada təklif olmayacaq

Buna görə də Quranda qiyamət haqda "yavmud-din" və "yavmul-hesab" təbirləri işlənmişdir.

---

. Matta 27: 16.1
. Həvarilərin İşləri 17: 31; Romalılara 2: 16.2
. Romalılara 14: 10.3
Bəzi hədislərdə gəlmişdir ki, məzlum olmuş heyvanlar və insanları incidən heyvanlar 4 qiyamətdə hazır olarlar və mühakimə olunarlar.

Onlar (səndən istehza ilə) haqq-hesab gününün nə vaxt olacağını soruşarlar.

O gün onlara cəhənnəm odunda əzab veriləcəkdir. (əz-Zariyat surəsi\12-13)

Haqq-hesab günü üçün (axirətdə) vəd olunduğunuz (nemətlər) bunlardır. (Sad surəsi\53)

Başqa bir ayədə həzrət Musanın (ə) dilindən belə buyurulur:

Musa (Firon və Bəni israil qarşısında) dedi: "Mən haqq-hesab gününə inanmayan hər bir təkəbbür sahibindən həm mənim Rəbbim, həm də sizin Rəbbiniz olan Allaha pənah aparıram!" (əl-Mumin surəsi\27)

Quran ayələrinə əsasən, qiyamət günü hesab-kitabda heç kimə zülm olunmayacaq. Ən kiçik haqq belə tapdalanmayacaq. Hər bir şəxs öz əməlinin nəticəsini alacaq:

Bu gün heç kəsə heç bir haqsızlıq edilməyəcəkdir. Siz ancaq etdiyiniz əməllərin cəzasını çəkəcəksiniz! (Yasin surəsi\54)

Biz qiyamət günü üçün ədalət tərəzisi quraraq. Heç kəsə əsla haqsızlıq edilməz. Bir xardal dənəsi ağırlığında olsa belə onu (hər hansı bir əməli tərəziyə) gətirərik. Haqq-hesab çəkməyə Biz kifayətik. (əl-Ənbiya surəsi\47)

Yuxarıdakı ayəyə əsasən, qiyamətdəki savab və əzabın bu dünya ilə birbaşa əlaqəsi var. Həqiqətdə, insanın dünyadakı

əməli axirətdə bir cism şəklində hazır olur. Buna görə də xüsusən, zülmdən danışmaq mənasızdır.

### *3-3-1. Mühakimədən məqsəd*

Allah əvvəldən bütün varlıqların durumunu bilir. Sonuncu gün yalnız allahın ədalətli mühakiməsinin aşkarlanması üçün olacaq. Bizim düşüncələr, vicdan və şəxsiyyətimiz aşkara çıxaraq bu mühakimədə şahidlik edəcəklər. Romalılara ikinci yazıda gəlib:

“rəftarları görsədir ki, şəriət qanunları qəlbərində yazılıb və onların vicdanları da bunun doğruluğunu təsdiqləyirlər; çünki düşüncələri ya onları müttəhəm edər ya da ki müdafiə edər. Mən verdiyim müjdəyə əsasən, Allah İsa Məsihin vasitəsi ilə insanların bütün gizli düşüncə və istəklərini mühakimə edəcəyi gün, bu iş baş tutacaq.”1

Müqəddəs islam dininin buyurduğuna əsasən qiyamət şübhəsiz ki, ilahi hakimiyyət və səltənətin təzahürüdür. Quran bu haqda buyurur:

(Allah buyuracaq: ) “Bu gün hökm kimindir?” (Heç kəsin qımıldanmağa belə cürəti çatmadığından Allah Özü cavab verəcəkdir:) “Bir olan (heç bir şəriki, bənzəri olmayan), (qüdrətilə hər şeyə) qalib olan Allahındır!” (əl-Mumin surəsi\16)

---

. 2 romalılar 2: 15-16.1

Ümümiyyətlə, zülm çatışmamazlıq və nöqsandan yaranır. Allah-taala bütün kamal sifətlərinə malik olduğundan, heç vaxt zülm etmir. Ədalətlə hər bir insanın mükafatını verir.

(Qiyamət günü hər kəsin) əməl dəftəri qarşısına qoyulacaq. (Ya Rəsulum! O zaman) günahkarların orada (yazılmış) olanlardan qorxduqlarını görəcəksən. Onlar belə deyəcəklər: "Vay halımıza! Bu necə bir kitab imiş! O Bizim heç bir kiçik və böyük günahımızı gözdən qaçırmadan hamısını sayıb yazmışdır ki!" Onlar (dünyada) etdikləri bütün əməllərin (öz qarşılarında) hazır durduğunu görəcəklər. Rəbbin heç kəsə haqsızlıq etməz! (Hər kəs öz əməlinin cəzasını alacaqdır!) (əl-Kəhf surəsi\49)

### *3-4. Nameyi-əməl*

Insanlar dəftərələrdə yazılmış əməlləri əsasında mühakimə olunacaqlar. Əhdi-Cədid iki cür dəftər tanıtdırır. Biri möminlərin adı içərisində yazılmış həyat və yaşayış dəftəri1 və digəri insanların əməlləri içərisində yazılan dəftər. Hamı bu dəftərlərdə yazılanların əsasında mühakimə ediləcəklər.

"və ölüləri kiçik və böyük gördüm ki, taxtın önündə dayanmışdılar; və dəftərləri açdılar. Həyat dəftəri olan digər bir dəftərin ardı ilə açıldı və ölülər mühakimə olundu, onların dəftərlərdə yazılmış əməlləri əsasında."2

---

. Yəhuda 21: 27 və 3: 5 və 13: 8.1

. yəhuda 20: 12.2

Bunlara əsasən insanlar öz yaxşı və pis əməlləri əsasında mühakimə ediləcəklər. Insanlar etdikləri yaxşı əməllərə görə mükafatlandırılacaqlar və pis əməllərinə görə də cəzalandırılacaqlar.

Müqəddəs islam dininin təlimlərinə əsasən Şübhə olunmayan əqidələrdən biri də, insanın bütün əməllərinin (pis və yaxşı) qeyd olunması və əməl dəftərində  yazılmasıdır. Quranda bu haqda buyurulur:

Sizin üstünüzdə gözətçi mələklər –

(Əməllərinizi) yazan və (Allah dərgahında) çox hörmətli olan mələklər vardır.

Onlar sizin nə etdiklərinizi bilirlər.  (əl-İnfitar surəsi\10-12)

Dediyi hər sözü (yazmaq üçün) onun yanında hazır durub gözləyən (iki mələk) vardır! (Qaf surəsi\18)

Əlbəttə, əməllərin necə qeyd olunduğu dəqiqliyi ilə bizə məlum deyil. Amma bu işin baş verməsi hədislərə və ayələrə əsasən, qəti bir məsələdir. Quran açıq şəkildə bu haqda buyurur:

Biz hər bir insanın əməlini öz boynundan asar və qiyamət günü (bütün əməllərini) açıq kitab kimi qarşısına qoyarıq.

(Və ona belə deyərik: ) “Oxu, kitabını (əməl dəftərini). Bu gün sən haqq-hesab çəkməyə özün-özünə (özün öz əməllərinin şahidi olmağa) kifayətsən!” (əl-İsra surəsi\13-14)

Buna görə dəqiq bilirik ki, bu kitab biz əməllərimizin dərc olunduğu kitabdır. Hərçənd, biz onların çoxunu unutmuşuq. Quran bu haqda buyurur:

Allah onların hamısını dirildəcəyi gün etdikləri əməlləri onlara xəbər verəcəkdir. Allah (onların əməllərini bir-bir) sayıb yazmış, onlar isə (etdiklərini) unutmuşlar. Allah hər bir şeyə şahiddir! (əl-Mücadələ surəsi\6)

Ayələrdən istifadə olunur ki, əməl dəftərinin şahid olması hamı üçün eyni deyil. Bəlkə, bəziləri əməl dəftərini görəndə sevinir və başqalarını da onu oxumağa dəvət edir. Amma bəziləri isə qəm və iztirabın şiddətindən əməl dəftərini görməməyi arzulayır.

### *3-5. Yeni yaradılış*

Insanların son durumu, onların bu dünyadan köçməsi və yeni yaradılışın aşkar olması ilə qabaqlanıb. Matta öz incilində yeni dünyadan danışır.1 İbranilərə olan yazıda gəlib ki, büdrəyən varlıqlar aradan gedəcək amma kökü və əsası möhkəm varlıqlar, həmişəyaşar olacaqlar.2 Piter deyir: “tanrının verdiyi sözə əsasən ədalətin sakin olacağı yeni göylərin və yerin intizarındayıq.”3 Yəhuda deyir: “və gördüm bir yeni göy və

---

. Matta 19: 28.1
. İbranilərə 12: 27.2
. 2 Piter 3: 13.3

bir yeni yer; çünki birinci göy və birinci yer köçdü və dərya atrıq yoxdur.”1

Yeni yaradlışdan sonra yeni Yerusəlim səmadan Tanrı tərəfdən, əri üçün bəzənmiş və hazırlanmış bir gəlin kimi aşağı enər və Allah evi olaraq insanlar arasında yerləşər; bir halda ki, Tanrının onda xeyməsi var və bir taxtüzərində əyləşibdir.2

Bu şəhər üşşə kimi saf və şəffafdır və küçələri xalis qızıldan düzəlib. onun müxtəlif cürə bahalı cəvahirlərdən bəzənərək düzəlmiş on iki hündür qapısı var. Bu qapıların hər birinin yuxarısında bir mələk dayanıb və Bəni-İsrailin on iki tayfasının adı onların  üzərinə yazılıb Və on iki peyğəmbər adı onlara yazılıb. Şəhərin məbədi yoxdur; çünki məbədi Allahdır. Onun günəşə və aya ehtiyacı yoxdur; çünki Tanrı əzəməti ona işıq saçar. O şəhərin gecəsi yoxdur. Yalnız adları həyat dəftərində yazılanları oraya buraxacaqlar.3 Onun ortasından Tanrı taxtından qaynaqlanan həyat çayı axar. Onun hər ətərəfinə bir həyat ağacı olar və bir ildə on iki dəfə meyvə gətirər.4

Buna əsasən o gündə hər şey təzələnəcək; amma o yaradılışın tam təzə olacağı ya indiki ysradılışın təzələnməsi haqqında fikirlər müxtəlifdir. Bəziləri tam təzə yaradılşa inanaraq,

---

. Yəhuda 21: 1.1
. Yəhuda 21: 2-3.2
. Yəhuda 21: 12-27.3
. Yəhuda 22: 13.4

Piterin ikinci yazısına istinad edirlər1 amma indiki yaradılışın təzələnəcəyinə inanan digər qrup İbranilərə istinad edirlər.2

Qurani-Kərimin Bir sıra ayə və rəvayətlərinə əsasən, axirətdə nizam-intizam dünyadakından fərqlidir. O dünyada dünyanın şəkli və keyfiyyəti dəyişəcək və bu dünyanın nizam-intizamı əvəz olunacaq. Quranda qeyd olunur ki, qiyamətdən əvvəl və ya onunla eyni vaxtda şiddət və dəhşətli bir zəlzələ baş verəcək. Bu zəlzələnin təsirindən hər şey dağılacaq, dağlar toz halına düşəcək və zərrələri fəzaya yayılacaq, yer öz daxilindəkini çölə tökəcək və bütün aləmi qəribə titrəyiş bürüyəcək.

Bəzi ayələrdə yer haqda "dəkk" təbiri istifadə olunmuşdur. Bunun mənası əzilməyin son həddi və xırdalanmaq və məhv olmağa yaxındır.

Quranda göylər və dağlar haqda buyurulur:

O gün göy göyərmiş mis kimi olacaq; Dağlar da didilmiş (rəngbərəng) yun kimi olacaqdır. (əl-Məaric surəsi\8-9) O gün… Dağlar didilmiş yun kimi olacaqdır! (əl-Qariə surəsi\4-5) O gün göy hərəkətə gəlib fırlanacaq (çalxalanacaq), Dağlar yerindən qopub (havada toz kimi) oynayacaqdır. (ət-Tur surəsi\9-10)

***3-6. Şəfaət***

. 2 Piter 3: 13.1
. İbranilər 12: 26-28.2

Şəfaət haqqı əda olunmayan tərəfdən, bağışlanma diləmək anlamınadır. Bu da Tanrı ilə xatakar insanın arasında bir şəxsin vasitəçiliyi ilə baş tutur. Rumlulara olan yazıda oxuyurq:

“və həmçinin ruh da bizim zəifliyimizə yardım edər; çünki dua edəcəyimizi gərəkən şəkildə bilmirik, lakin ruhun özü bizim üçün şəfaət edər, aşkarlanmağı mümkün olmayan nalələrə xatir vəo ki, qəlbləri yoxlayandır, düşüncəni bilir; çünki o müqəddəslər üçün Tanrının istəyi əsasında şəfaət edər.”1

Müqəddəs kitabın ayələrinin təfsirçiləri “ruhun özü bizim üçün şəfaət edər” ayəsinin təfsirində deyirlər: bu ayədən məqsəd, müqəddəs ruhun əzəmətinin bizim qəlbimzə hakim olmasıdır ki, bizi örgədir və hidayət edir ki, Cənabı-Haqqın bizlərdən şəfaətçi vasitəsi ilə qəbul edəcəyi müqəddəs duyğuları tapmağa o yolla güc tapaq.2

Müqəddəs Kitab Məsihin qurbanlığını və şəfaətin xatırladaraq deyir:

“ tanrı ilə xalq arasında İsa Məsih adında bir insan var ki, canı bütün bəşəriyyətə fəda etdi ki, bu işlə Allahı və insanı bu işlə barışdırsın.”3

Xristiyanlar bu inancadadırlar ki, İsa Məsihin şəfaətinə malik olduqları üçün heç bir şəkildə başqa bir şəxsin şəfaətinə ehtiyacları olmayacaq.1

---

. Romalılara 8: 26-27.1
. Mister Haks, Müqəddəs Kitabın lüğəti, səh 525.2
. 1 Timoteyə 2: 5-6. 3

Islam teologiyasında şəfaət məsələsi aşkar inanclardan biridir. Şəfaət "şəf" شفع maddəsindən olub lüğətdə "bir şeylə cütləşmək" və "uyğunlaşmaq" mənasınadır. Terminologiyada isə "şəfaət" bir şəxsdən "zərəri dəf etmək üçün vasitə olmaq" və ona "mənfəət yetirmək" mənasınadır. Vasitə olmağın üç tərəfi var:

Şəfaət edən; B) Şəfaət olunan; C) Şəfaəti qəbul edən.

Şəriətdə "şəfaət" sözü bir şəxsin Allah yanında başqasının bağışlanmasını istəməsi və ya günahının təsirinin götürülməsi və ya azaldılması haqda xahiş etməsi mənasında işlənir. Bu vaxt günahkar "şəfaət olunan" , Allah-taala isə "şəfaəti qəbul edən" sayılır.

"Şəfaət" qeyd olunan məna ilə dinin yəqin olunan məsələlərindəndir. Bu haqda çoxlu Quran ayələrindən əlavə, şiə və sünni mənbələrində peyğəmbərdən (s) çoxlu hədislər nəql olunmuşdur. Demək olar ki, "şəfaət" haqda bütün imamlardan da hədislər nəql olunmuşdur. Bu hədislər də "şəfaət" haqdakı bütün şəkk-şübhələri aradan aparır.

### *3-7. Cənnət, onun özəllikləri və nemətləri*

Müqəddəs Kitabın lüğətində gəlib ki, fİrdovs bütün bağlara deyilir; amma Əhdi-Cədiddə ondan məqd, gözəl əməl sahiblərinin və mömünlərin ond aəbədi həyata yetişdikiləri elə həmən cənnətdir. Onların cənnətdə yaşayış və həyat ağacından

---

. Mister Haks, Müqəddəs Kitabın lüğəti, səh 525.1

yemək ixtiyarları olacaq.1 Incillərdə dəfələrcə cəhənnəmin adı çəkilib; amma cənnət və onun nemətləri haqda az danışılıb və daha çox "əbədi həyat" təbiri ilə işlədilib. Lukada gəlib: "onlara dedi: həran sizə deyirəm, evini ya valideynini ya yoldaşını ya qardaşlarını yaevladlarını Tanrının mələkutu üçün tərk edən hər kəs, bu dünyada neçə bərabərini tapacaq və gələcək aləmdə əbədi həyatı."2 Buna oxşar məsələ Mattada da gəlib.3 əbədi həyatın kəlmələri Məsihin ysnındsndır4 İsa Məsih əbədi həyatı bəxş edəndir və əbədi həyat ondadır ki, şəxs tanrınıhəqiqi bir və İsa Məsihi onun göndərdiyi kimi qəbul etsin.5 Allah hər kəsi əməlləri əsasında cəzalandıracaq; amma yaxşı əməllər vasitəsi ilə dözməklə böyüklük və əbədi həyat axtaranlara, əbədi həyat bəxş edəcək.6

Yaxşıların mükafatı əbədi həyatdır.7 Elə bir həyat ki, nəinki təkcə tükənməzdir, həmdə bu yaşayışın nigərançılıqlarından və nöqsanlarından pak olan kamil bir həyat. O yaşayışın kamilliyi, tanrı ilə birlidə olmadan ləzzət almaqdır ki, əbədi həyatın əsası da elə budur. Yahudada oxuyuruq: "...indi Tanrının çadırı insanlarladır və (Tanrı) onlarla birgə olacaq."8 Yenə orada oxuyuruq: "əmin olun ki, hər kəs mənim sözümü eşidsə və məni göndərən Allaha iman gətirsə, əbədi həyata

---

. həmin, səh 647 və Luka 23: 43 və Yahuda 2: 7. 1
. Luka 18: 29-30.2
. Matta 19: 14.3
. Yahuda 6: 68.4
.Yhuda 17: 2-3.5
. Romalılara 2: 6-7.6
. matta 25: 46.7
. Yahuda 21: 3.8

malik olacaq."1 Yenə bu haqda gəlib ki, "mənim atamın istəyi budur ki, oğulu görən və ona iman gətirən hər kəs, əbədi həyat sahibi olar."2 Həvarilərin İşlərində gəlib ki, əbədi həyata nail olan şəxslər öncədən müəyyənlə.diriliblər.3

Cənnət haqqında deyiləsi ilk məsələ budur ki, orada heç bir günah yoxdur və ora bir pak və məsum yaşayış olacaq. Orada olanlar, Bu dünyada Tanrını və onun yaratdıqlarını sevənlər, pak, şərəfli, şücaətli və fədakar şəxslər olacaqlar. Məsihin qanı ilə paklananlar orada yerləşəcəklər. Məstliyin, napaklğın, nifrət və düşmənçiliyin, həsədin, xəstəliyin, xudxahlöğın və puçluğun heç bir forması Orada olmayacaq. Aclıq, susuzluq, ağrı və ağlamaq orada olmayacaq və Tanrı hər cürə ağlamağı, onların gözlərindən siləcək; çünki bunların hamısının səbəbi günahdır. Belə olduğu halda günah olmasa, onun nəticələri də olmayacaq.4 Cənnət yaşayışının əsası eşq və sevgi olacaq, özünü unudub digərlərini sevmək, hər şeyi sevən tanrı kimi. Korinflilər birinci yazıda gəldiyi kimi: "üç şey həmişə qalacaq: iman, ümid və məhəbbət. Amma unların hamısından daha böyüyü Tanrının məhəbbətidir."5 Yaşayış orada əbədi olacaq, çünki tanrının möminlərə hədiyyəsi əbədi həyatdır.

Barnabada gəlib:

---

. Yahuda 5: 24.1
. Yahuda 6: 40 və 47.2
. Həvarilərin İşləri 13: 48.3
Yahuda 21: 4.4
. 1 Korinflilərə 13: 13. 5

“cənnət, Tanrı özünün çox böyük ləzzətlərini orada topladığı yerdir. Pak və xoşbəxt insanların ayaqlarını qoyduqlarıyer belə, o dərəcədə bahalıdır ki, onun bir dirhəmi min dünyadan daha bahalıdır.” Bu həmin o ləzzətdir ki, həzrəti davudun ruhunu Allah öz yanına apararaq özü ilə bir etdikdən sonra, onu Allahın nuru ilə müşahidə etdi. Özünə gəldikdə gözlərini iki əli ilə bağladı və ağlayaraq dedi: “ey mənim gözlərim! Bundan sonra bu dünyaya baxmayın; çünki onun hər şeyi puç və yalandır və dəyərli bir şeyi yoxdur”1 və elə Yeşuanın dediyi də bu ləzzətlər haqqındadır. O buyurur: “Tanrı öz dostlarına hazırladığı şeyləri heç bir insanın gözü görməyib və qulağı eşitməyib və heç bir insanın düşüncəsi onu dərk etməyib.”2

Cənnətdən dörd çay axar. Biri baldan peyğəmbərlərə, biri süddən günahsız uşaqlara, üçüncüsü şərabdan qocalara və dördüncüsü yağdan bütün mömünlərə.3

Buna əsasən cənnət Allah dostlarının və bəndələrinin yeridir ki, orada etdikləri yaxşı əməllər sayəsində maddi yaşayışın çətiniklərindən uzaq olaraq böyük şadlıq içində olacqlar və heç bir gözün görmədiyi və barəsində heç bir qulağın eşitmədiyi və heç bir şəxsin ağlına gəlmyən nemətlərdən qidalanacaqlar. Oradakılar Allahı kamil şəkildə tanıyacaqlar ki, bu məslənin özü oradakı ləzzəti neçə dəfə artıracaq və oraya daxil olanların əbədi yeri oalcaq cənnət.

---

. Barnaba incili, 169 səh 91.1
. həmin , 169 səh 92.2
. Aştiyani, Cəlaluddin; xristiyan dinində bir araşdırma, səh 354.3

Quran müxtəlif təbirlər ilə cənnət və onun əhlini vəsf etmişdir. Bəzən onun asimani ləzzətlərini, bəzən isə gözəlliklərini və mənəvi ləzzətlərini bəyan edir. İndi gəlin Quranın kəlamlarına qulaq asaq. Görək Quran cənnət və onun əhlini necə təsvir edir. Quran buyurur:

“Salehlər və iman gətirənlərin işıqlı gələcəyi və gözəl aqibəti var. Həqiqi nicat onlarındır. 1 Həqiqətən, o, Allahın doğru və möhkəm vədəsidir. Onların aqibəti ilahi hidayət nurundan bəhrələnməkdir2. İlahi cənnətdən gözəl aqibət və Rəbbin rizvanından gözəl yer varmı3. Elə bir yer ki, orda Allahın rəhmət çayları axır4. Cürbəcür cənnət meyvələri insanların ixtiyarındadır. Orada çoxlu yaşıl bağlar vardır5. Gözəl simalı cənnət huriləri, kənizlər və qullar möminlərə və salehlərə xidmət edirlər. Gözəl qablarda ləzzətli qidalar cənnət əhlinə veriləcək6. Bəli, cənnət əhli gözəl içkilər və yeməklərdən istifadə edəcək və Allahın rəhmət və feyz çeşmələrindən bəhrələnəcəklər. Onlar aramlıqla yaşayacaqlar. Allah da bu qonaqlardan çox razı və şaddır və onları geniş süfrədən istifadə etməyə çağırır.”7

---

Nəbə 31 ayənin ərbcəsini yaz. Mütəffifin 22, Sad 49.1
Yunis 9, məryəm 61, Ənbiya 103, Zümər 20.2
Fəcr 29-30, Tur 17, Əl-haqqə 22, Tövbə 72.3
Nəhl 31.4
Vaqiə 20, Vaqiə 28-30, Sad 51.5
Vaqiə 17-23, Saffat 43-49, Ərrəhman 72-74.6
Hicr 45-46, Dəhr 5-6, 17-21, Mütəffifin 25-28, Əlhaqqə 24, Nəbə 36.7

Onların paltarları çox gözəl və qiymətlidir və cürbəcür cəvahirlərlə bəzədilib1. Onlar cənnətdə heç vaxt pis söz deməz və boş və günah söz eşitməzlər. Onların sözləri yalnız Allahın həmd-sənası və təhsib-təqdisidir2. Cənnət əhli yumşaq və rahat taxtlara söykəndiyi və bir-birinin yanında rahat əyləşdikləri halda, istədikləri şeylər onların ixtiyarına veriləcək və Allah onların bütün istədiklərini yerinə yetirəcək3.

Cənnət əhli bütün nemətlərdən istifadə etməklə yanaşı heç vaxt bu nemətlərin Allah tərəfindən olduğunu unutmur. Onlar bilirlər ki, Allah-taala onları bu nemətlərdən istifadə etməyə imkan yaradıb. Buna görə də, onlar heç vaxt qəmlənmirlər. Onlar bu nemətlərin şükrünü yerinə yetirməyin vacibliyini unutmurlar4.

Bütün bunlar yaxşı əməllərin və həqiqi imanın nəticəsidir. O kəslərin aqibəti ki, onlar təqvalı olmuş, Allaha bəndəlik etmiş, ilahi əmrlərə tabe olmuş və bu yolda bütün dünyəvi çətinlik və əzablara dözmüşlər5. Bəli, bunlar o şəxslərdir ki, qiyamət günü mələklər onarla görüşəndə deyərlər: “Bu həmin gündür ki, ona vədə verilmişdir.” və Allah da onlara xoş gəldin deyəcək və onları bu aqibətə görə təbrik edəcək6.

---

Dəhr 18-19,1
Yunis 10, Vaqiə 25-26.2
Vaqiə 15-21, Tur 20-22, Məryəm 62.3
Məryəm 61, Mütəffifin 22-24, Əraf 43, Nəbə 36, Ali-İmran 170.4
Yunis 9, Həcc 45, Sad 45, Məryəm 63, Dəhr 12.5
Ənbiya 103, Əlhaqqə 24.6

## *3-8. Cəhənnəm və onun əzab növləri*

Müqəddəs Kitabın lüğətində yazılana əsasən, Cəhənnəm Əhdi-Cədiddə “Haviyə” adı ilə gəlib. Bu kəlmə Əhdi-Cədidin bəzi yerlərində dibi gönməyən və sonsuz quyu anlamındadır; məsələn Yahudada oxuyuruq: “o şeytanı götürərək zincirlədi və min il müddətinə sonsuz quyuya atdı.”1 Kefar Nahum şəhəri haqda yazılıb: “cəhənnəmə başı aşağı düşəcəksən”.2

Bu təbirdən məqsəd budur ki, yüksək məqama ucaldıqdan sonra, haviy kimi unutduran bir yerdə basdırılacaq və unutdurulacaq. Bəzi yerlərdə də ondan məqsəd, ruhların ölümdən sonrakı yeridir ki, Məsih müvəqqəti olaraq orada yerləşib3 və orada “tutulmuşa” nəsihət etdi4 və Bəzən də məqsəd yalnız qəbrdir5 və məqsəd əzab məkanı olduğunda cəhənnəm termini ilə qeyd olunub.6 Qiyamət günü əzaba məhkum edilənlər buraya gətiriləcəklər;7 itaətdən boyun qaşıran mələklər də oradadırlar.8 Oranın odu heç vaxt sönməyəcək və əzabda olan insanların qurdları heç zaman ölməyəcək.9 Cəhənnəm, günahkarların çox ağlamaqdan dişlərini dişlərinə sıxdıqları qaranlıq yerdir. Əhdi-Cədiddə

---

.Yahuda 9: 1, 1 və 20: 3.1
. Matta 11: 23 və Luka 10: 15.2
. Həvarilərin İşləri 2: 27.3
. 1 Piter 3: 19.4
. 1 Korinflilərə 15: 55.5
. Mister Haks, Müqəddəs Kitabın lüğəti, səh 919.6
. Matta 25: 46.7
. 2piter 2: 4.8
. Mister Haks, Müqəddəs Kitabın lüğəti və Mark incili.9

cəhənnəm əzab yeridir; Matta incilində gəldiyi kimi: cismi və canı, hər ikisini cəhənnəmdə məhv etməyə qadir olan kəsdən qorxun.1 Və ya b uformada gəlib: "dostuna nalayiq söz desən, yerin cəhənnəm odududr."2 O an onun sol tərəfindəkilərə deyəcəklər: "Ey lənətlənmişlər! Buradan gedin və.eytan üçün və şeytani ruhlara hazırlanmış əbədi oda daxil olun".3

Cəhənnəmdə oddan çaylar axar və günahkarları özünə çəkər. Çirkin qurdları günahkarları çalan qara dərinliklər olar. Günahkar qadınları boğaza qədər batıran çirkin qanal və pis iyili nəcislə dolu yerlər. Kafirləri batıran oddan qaynayan bataqlıqlar... qulyabanılar və canavarlar orada insanlara əza verməklə məşğul olarlar. Günahkarlarn boynuna odlu zəncirlər asarlar; bəzi vaxtlar da günahkarları buz buzlu dənizdə batırarlar və daha çox ağrı hiss edərək əzaab çəkmək üçün bədənlərini cızarlar.4

***Əhdi-Cədid Cəhənnəm əzabını dörd qismə bölür. Onlar bunlardan ibarətdirlər:***

1. Tanrının qəzəbi əzabı: Yahudada bu haqda deyilir:

"hər bir kəs vəhşini və onun simasını pərəstiş etsə və nişanəsini alnında y aəlində qəbul etsə, o da Tanrının... qəzəbi şəraından içəcək və müqəddəs mələklərin və quzunun önündə

. Matta 10: 28.1
. Matta 5: 22. 2
. Matta 25: 41.3
. Aştiyani, Cəlaluddin; xristiyan dinində bir araşdırma, səh 354.4

odla cəzalandırılacaq və onların əzab tüstüləri həmişəlik göyə ucalacaq.”1

2. Od əzabı: Bu haqda da yenə Yahudada oxuyuruq:

“günahkarlar o və kükürd şölələrində cəzalandırılacaqlar.”2

3. Tanrını görməkdən məhrum olma: Allahı tanımayanlar və İsa Məsih vasitəsi ilə onun nicat planını tanımayanlar, əbədi cəzalandırılacaqlar, və həmişəlik tanrı huzurundan uzaq qalacaaqlar. Saloniklilərikinci yazıda bu haqda belə gəlib:

“Allahı tanımayanlardan və bizim Allahımız İsa Məsin İncilindən itaət etməyənlərdən şölələnən odda intiqam alacaqsınız. Onlar əbədi həlakət qisasına yetişəcəklər, Tanrının huzurundan və gücün əzəmətindən.”3

4. ikinci ölüm: Yəhudada bu haqda gəlib:

“amma qorxaqlar, imansızlar, xəbislər, qatillər, zinakarlar, cadugərlər, ütpərəstlər və bütün yalançıların payları, oddan yanan dərya olacaq. Budur ikinci ölüm.”4

Bunu vurğulamaq lazımdır ki, günahkarların cəzalarənın dərəcələri var; necə ki, Luka incilində gəəlib:

---

. Yahuda 14: 9-10.1
. Yahuda 14: 10 və 21: 8.2
. 2 Saloniklilərə 1: 8-9.3
. Yəhuda 21: 8.4

“öz məsuliyyətini bilib ona əməl etmyən, şiddətli şəkildə cəzalandırılacaq; amma biri bilmədən pis iş görsə az cəzalandırılacaq.”1

3-10-6. əzabın əbədiliyi

Xristiyanlar bu inancdadırlar ki, pis insanların düçar olacaqları əzab, əbədi və sonsuzdur. Onlar deyirlər: əzaba daxil olan şəxs həmişəlik olaraq orada qalar; çünki pislərin durumu axirətdə dəyişməz. Onlar bu haqda müxtəlif dini mətnlərə istinad edirlər; Misal olaraq Matta incilində yaxşı və pis insanların aqibəti hada belə gəlib:

“və onlar (pis insanlar) əbədi əzaba gedəcəkəlr, amma ədalətli (və yaxşı) insanlar əbədi həata.”2

Salonikililər ikinci yazıda pis insanların haqqında oxuyuruq:

“ onalr əbədi həlak olma qisasınayetişəcəklər, Tanrının hüzurundan və onun gücünün əzəmətindən.”3

Xatırladaq ki, xristiyan teoloqlarının bəziləri əbədi əzabı, tanrının ədaləti və rəhməti ilə uyğun saymayaraq ona etriaz ediblər; necə ki, Arigens elan etdi ki, sonunda hamı bağışlanacaq; lakin kilsə Əhdi-Cədidin əzabın əbədiliyi haqda dediklərinə təkid edərək bu nəzəriyyəyə qarşı çıxdı.4

əzabın həmişəliyi haqqında Barnaba incilində gəlib:

---

. Luka 12: 47-48.1
. Matta 25: 46.2
. 2 Saloniklilərə 1: 9.3
. Aştiyani, Cəlaluddin; xristiyan dinində bir araşdırma, səh 354-355.4

“bəs bu lənətlənmiş abidədədə, kafirlər həmişəlik qalarlar, əgər dünya taxıl dənələrindən dolsa vı bir quş dünyanın sonuna qədər hər yüz ildə bir dənə onlardan götürsə, kafirlər bu müddət başa çatdıqda cənnətə gedə bilsələr, hər an sevinərlər, lakin arzularına çatmazlar; çünki onların işkəncələrinin sonu olmaz. Ona gorə ki, bunlar istəmirdilər Tanrının sevgisi üçün öz günahlarına hədd qoysunlar.”1

Bu fəsildə deyilənlərdən belə nəticəəldə etmək olur:

1. xristiyanlıqda mühqkimə günü İsa Məsihin zühuru ilə eynidir. Həmin gün sur çalınar və bütün ölülər qəbirlərdən durarlar və Tanrının ədalət məhkəməsi Məsinhin hakimliyi ilə bərpa olar.

2. Qiyamət günü yaxşı əməl sahibləri cənnətə gedərək orada əbədi həyata qovuşarlar və pis əməl sahibləri, şeytan üçün hazırlamış əbədi oda düçar olarlar.

Qurani-kərim, müxtəlif ayələrdə cəhənnəm və onun əhli haqda söz açmış və onların pis sonluğunu, pis yerini və bədbəxtlərin aqibətini bəyan etmişdir. Biz Quran ayələrinə diqqət etməklə cəhənnəm əhlinin əzabları ilə qısada olsa tanış ola bilərik. Quran cəhənnəm əhli haqda buyurur:

---

. Barnaba incili, 136 səh 74.1

“Cəhənnəm haqqa və həqiqətə təslim olmayanların pis aqibəti və sonluğudur. Onlar Allahın qarşısında küfr bayrağı qaldıranlar və üsyan və tüğyan edənlərdir.”1

Münafiqlər, təkəbbür edənlər, iblislər, zülm edənlər, fitnəkarlar və haqqın qarşısında üsyan edən bütüb şəxslər cəhənnəmdən və Allahın əzabından başqa, bir şeyə malik olmayacaqlar2. Həqiqətən, onların yeri nə pis yerdir3. Orada yalnız bir parça atəş və zəncir var. Qaçış yeri də yoxdur4.

Peşimançılığın da heç bir faydası yoxdur5. Cəhənnəm əhlinin çirkdən və üfunətdən başqa, içkiləri yoxdur. Onlar susuzluqlarını yalnız əridilmiş qurğuşunla yatırarlar. Şəffaf və duru sular və sərin külək heç vaxt onlara çatmaz6. Paltarları oddandır7. O od ki, odunları onların özüdür. O, odda qaldıqca atəş sönmür. Onlar odda yanıb külə döndükdən sonra, yenidən əti və dəriləri yaranır və daim belə yanarlar8.

Bəli, bu, Allahın ayələrini təkzib edən və düz yoldan azan cəhənnəm əhlinin aqibətidir. Onlar özləri də bunu etiraf edirlər.9 Onlar Allahın qəzəbinin alovunda yandıqları halda, cəhənnəmin məmurlarından xahiş edirlər ki, Allahdan onların

---

Nəbə 21-22, Dəhr 3.1
Nəbə 40, Nəhl 29, Məryəm 68, Cin 15, Bəyyinə 6.2
Sad 56, İbrahim 29, Buruc 10, Cin 23, Təhrim 9.3
Möminun 104, Dəhr 3.4
Möminun 108, 5
Nəbə 24-25, Ənam 70.6
Həcc 19, İbrahim 50.7
Bəqərə 24, Ali-İmran 10, Cin 15.8
Möminun 104-107.9

əzablarının azalmasını istəsinlər. Amma bunun heç bir xeyri yoxdur1.

Bu vaxt cəhənnəm əhli bir-birini ittiham edir və hər kəs başqasını onun azğınlığının səbəbi kimi tanıtdırır. Allahdan istəyir ki, onu azdıranın əzabını çoxaltsın. Allah-taala onların cavabında buyurur: “Sizin günahınız onlardan az deyil. İndi hamının əzabı heçə bərabərdir.”2

Qurani-Kərim qiyamətdə xoşbəxtlərin və bədbəxtlərin bir-biri ilə danışma səhnəsini canlandırır:

Cənnət əhli ilahi nemətlərdən bəhrələndiyini və özlərinin gözəl aqibətlərini və Allahın onlar haqdakı vədəsinin reallaşdığını görəndən sonra, öz düşmənlərindən onların vəziyyətlərini soruşurlar ki, bu yolla onları xəbərdar etsinlər ki, cəhənnəm əhli dünyada Allahın vədələrinə və əzablarına etinasız olublar və hər şeyi istehza ediblər. İndi, gərək, özləri hazırladıqları əzabı dadsınlar3.

Bəli, möminlər dünyada onları xeyirli işlərə çağırdıqda, onları istehza edirdilər və gülürdülər. Bu günsə möminlərin onlara güldüyü və istehza etdiyi gündür4. Bu gün cəhənnəmdəkilər zillət, qəm və peşimançılıqla cənnət əhlinə tərəf əl uzadar və

---

Mömin 49-52.1
Əraf 38.2
Əraf 44.3
Mütəffifin 29 və 34.4

onlardan istəyərlər ki, cənnətin gözəl sularından bir qurtum onlara bağışlasınlar1. Yaxud, əgər bu iş mümkün deyilsə, azından onlara bir nəzər etsinlər. Bəlkə, bu nəzərin sayəsində əllərinə bir şey keçər və pis vəziyyətləri düzələr2. Əfsuslar olsun ki, indi heç bir işə çarə qılmaq vaxtı deyil və heç bir ümid yeri yoxdur, çünki cənnətdəkilər onlara deyərlər: "Bizim ixtiyarımız yoxdur ki, bizə verilən nemətləri sizin ixtiyarınızda qoyaq. Çünki Allah-taala sizə bu nemətlərdən istifadə etməyi haram buyurub3. Artıq sizin üçün nicat yolu yoxdur. Əgər bacararsınızsa, yenidən dünyaya qayıdın və Allaha ibadət və gözəl əməllər etməklə özünüzü xilas edin (amma bunu edə bilməyəcəksiniz)."4

Bu vaxt münafiq cəhənnəm əhli cənnətədəkiləri yenidən səsləyib  nigaran halda soruşarlar: "Məgər, biz dünyada birlikdə deyildik? Biz də sizin kimi ibadət etmirdik?" Cənnət əhli deyərlər: "Dedikləriniz düzdür. Amma siz münafiqliyinizə görə özünüz üçün belə bir pis aqibət hazırladınız və dünyanın zahirinə aldandınız. İndi elə bir çətinliyə düşmüsünüz ki, ondan xilas qeyri-mümkündür."5

Cənnət əhli də cəhənnəm əhlinin halından daha çox xəbərdar olmaq istəyir və onların belə pis və xoşagəlməz günə düşmələrinin səbəbini bilmək istəyirlər. Ona görə də onlardan soruşurlar: "Siz nə etmisiniz ki, özünüz üçün belə pis aqibət

---

Əraf 50.1
Hədid 13.2
Əraf 50.3
Hədid 13.4
Hədid 14-15, Ali-İmran 91, Məaric 11-16.5

hazırlamısınız?"1 Onlar etdiklərini etiraf edərək, deyərlər: "Biz dünyada namaz qılmırdıq. Yalnız qarınlarımızı doyurmağın fikrində idik. Kasıbları və yoxsulları fikirləşmirdik. Onlara kömək etmirdik. Ömrümüzün dəyərli vaxtlarını puç şeylərlə keçirirdik və həmişə azğınlarla birlikdə idik. Biz dünyada "məad"ı və qiyaməti inkar edirdik və ölümü həyatın sonu bilirdik. Birdən əcəlimiz çatdı və ölüm yaxamızdan yapışdı. Bu vaxt qiyamətə yəqin etdik və qəflət yuxusundan ayıldıq. Təəssüflər olsunlar ki, artıq bu ayılmağın heç bir xeyri yoxdur. Bizim heç bir nicat yolumuz da yoxdur. İndi isə Allahın hüzurunda xəcalətli və peşimanıq. Əfsus ki, bizə xeyri olan heç bir yaxşı əməlimiz yoxdur, digər tərəfdən də heç bir şəfaətçinin şəfaəti bizim haqqımızda qəbul deyil."2

## İslam və xristianlıq baxımından axirətə inamın ailədəki təsirləri

## Məada inamın zəruriliyi

Öncəki fəsillərdəki araşdırmalardan bu nəticəni əldə etdik ki, hər iki səmavi din məada və ona aid məsələəlrə inanırlar; bu da onların eyni qaynaqlı olmalarını görsədir. Bunu da vurğulamaq lazımdır ki, məad məsələsi İslam dinində o dərəcədə əhəmiyyətlidir ki, Quranın tövhiddən sonra ən çox məsələlərini özünə aid edib. Bu da məad məsələsinin İslam dinində fövqəladə əhəmiyyətli olmasından xəbər verir.

---

Müddəssir 40-42.1
"Müddəssir" 43-47.2

Bu iki səmavi dinin ölümdən sonrakı həyat və məad məsələsi ətrafındakı bütün göstərişlərinə və təkidlərinə baxmayaraq, yenə bu mövzu o cür deyil ki, hamı bu tezliklə və asanlıqla onu qəbul etsin. Xüsusən də, dayaz və maddi baxışlara malik olanlar və adətən, bütün həqiqətləri öz məhdud duyğuları dairəsində axtaranlar heç vaxt məad prinsipinin qəbul edilməsi yükü altına girmirlər.

Bugünkü dövrdə bir çox hadisələrlə üzləşirik ki, insanlar yaşayışın məşəqqət və çətinliyindən azad olmaq üçün dünya zəncirlərindən və bədbəxtçiliklərindən xilas olmaq baxımından intihar və ölümə əl atırlar. Onlar güman edirlər ki, ölümlə hər şey sona çataraq yox olur. Ona görə də, özlərini yox etməyə cəhd edirlər.

Digər tərəfdən, görürük ki, indiki dövrdə camaatın əksəriyyəti, xüsusən də, küfr yayılmış məntəqələrdə materialist fikirlərlə yaşayanlar həyatı yalnız naz-nemət içində yaşamaq və nəfsani istəkləri doyuzdurmaqda görürlər və bu yolda bütün azadlıqları və etik şərafətləri ayaqlayır və cəmiyyətin digər fərdlərinin heysiyyət və haqlarına əhəmiyyətsiz yanaşırlar.

Bütün bu sərhəddi aşmalar və ədalətsizliklər bu təfəkkürdən qaynaqlanır ki, hər nə varsa, elə bu dünya həyatındandır. Bu üzdən, insan bacardığı qədər dünya şadlıqlarından və ləzzətlərindən istifadə etməlidir və öz nəfsani istəklərini doyuzdurmalıdır.

Yaşadığımız dünyada görürük ki, sırf maddi və səthi baxışlara malik olmaqla və əbədi axirət dünyasını qəbul etməməklə,

necə etik dəyərlərin bünövrəsi yıxılıb dağılır və insani şərafət məhv olur. elə bu üzdən də yaşayış məcrasında insanların xoşbəxtliyi və nəhayət, kamillikləri ilə nəticələnən yolu seçə bilmələri üçün ölümdən sonrakı dünya və məad məsələsinə inam onların həyatında qaçılmaz olmalıdır. Çünki, o dünyanın olub-olmamasına inam bizim bu dünyadakı rəftar və əməllərimizdə bir başa təsirə malikdir.

Digər təbirlə desək bizim Məada inamımız olmasa, şübhəsiz, bizim yaşayış boyunca və daxili istəklərin çəkişmə məqamındakı seçimimiz, qiyaməti tanıyaraq etdiyimiz seçimlərdən qat-qat fərqli olacaq.

Biz elə bir varlığıq ki, mümkündür, hər an və hər bir məxsus zamanda onlarca istək bizdə olsun və həqiqət isə bundan ibarətdir ki, onların hamısına bir-birinin kənarında cavab vermək mümkün deyil. Və hökmən onlar arasından bir və ya bir neçə dənəsini seçmək hüququna malikik. Elə bu yerdə “məada inam” öz rolunu ifa edir və bu seçimin necəliyində öz layiqli təsirini göstərir.

Məad insan və onun fərdi həyatındakı aşkar təzahürdən əlavə, cəmiyyətə də öz təsirini göstərir və insanların bir-biri ilə olan rəftarını nəzarət altına alaraq tənzimləyir. Həqiqətdə, məad və axirətdəki mükafat və əzaba inanan bir kəs çox az halda özünə icazə verir ki, digərlərinin ictimai haqlarını tapdalasın və ya hansısa bir şəxsə qarşı zülm etsin, yaxud öz yaşayışı çərçivəsində etnik dəyərlər və insani keyfiyyətlərə əhəmiyyət

verməyərək üstündən keçsin. Bunun müqabilində məada inanmayan və hərəkəti istiqamətində əbədi və kamil yoxluq, həmçinin, ölümdən başqa, heç bir maneə görməyən insan aydındır ki, öz istəklərini və şəhvətlərini təmin etmək üçün heç vaxt bir sərhəd tanımır və prinsipcə bu məhdudiyyət üçün heç bir dəlil-sübutla kifayətlənmir. Elə bu üzdən, təkcə öz istəklərini təmin etmək fikirindədir. Baxmayaraq ki, bu iş digərlərinin məhvi və haqlarının tapdalanması ilə nəticələnə bilər. Belə bir cəmiyyətdə "fiziki güc" amilindən başqa, heç bir digər amil insanların təcavüzünün qarşısını ala bilməz. Aydındır ki,daxilində məad və ölümdən sonrakı həyata inam olmayan bir cəmiyyətdə güc sahibləri də, nəinki, təkcə öz hakimiyyət və güclərindən digər insanların ədalətsizlik və təcavüzkarlığının qarşısını almaq üçün istifadə etmirlər, bəlkə, özləri də insanlara qarşı hədlərini aşaraq onların haqlarını tapdalayır, özbaşınalıq və ədalətsizliyi cəmiyyətdə genişləndirirlər. Belə cəmiyyətlərin nümunəsini indi hal-hazırkı dünyada açıq-aydın müşahidə edir və görürük ki, bir çox yerlərdə o dünyaya inamın olmaması hansı müsibətləri və evlər yıxan bəlaları dünya xalqları üçün yaradıb. Bunun əksi olaraq insan bilsə ki, bu dünyada etdiklərinin savab və cəzasını kamil olaraq o dünyada alacaq, onda, sözsüz ki, öz hərəkət və işlərinə daha çox diqqət edəcək və daxili istəklərini təmin etməkdəki  sərhəd və məhdudiyyətlərə də riayət edəcəkdir.

## Nəticə

Təbii olaraq bizim mövzumuz burada bizə bu icazəni vermir ki, axirətə inamın insanın fərdi həyatındakı təsirləri ilə yanaşı,

insanın ictimai həyatında olan təsirlərini də qələmə alaq. O üzdən biz burada müqəddəs İslam və Xrisitiyan dnində göstərildiyi kimi axirət aləminə inanlıdığı təqdirdə, onun insanın fərdi və ailə həyatında nə kimi təsirlər bağışlayacağını sadalayırıq:

1. Axirətə inam yaşayışa məna verir!

İnsana əzab verən və yaşayışın şirinliyini ondan alan ən mühüm şey, nigarançılıqlardır. Əldən çıxan fürsətlərdən doğrulan narahatçılıq, gələcək və yaşayışın sonu haqqındakı nigarançılıq, dostların, qohumların və mal-mülkün əldən çıxması, və s ... öncədən görülə bilməyən hadisələr haqqındakı narahatçılıq. Bu nigarançılıqların əsas səbəbi adətən yaşayışda məqsəd görməmək və puçluq hiss etmək, insanı taqətdən salan problemlərdə sığınacağın olmamasını hiss etmək, ölümdən qorxunc təsəvvürün olması, gələcəyə qarşı bədbinlik, dünyanın gələcəyi və fərdi yaşayış haqqındakı qorxudur. Şübhəsiz ki, Axirətə və oradakı rahatlıq və ədalət dolusu əbədi həyata inam, insanın baxışını müsbətə doğru dəyişməklə bu narahatçılıqlara son qoya bilər və insan yaşayışına şirinlik qataraq ona məna verər.

2.Axirətə inam hər bir ailəyə aram bir həyat vəd edir

Axirətə inamı olmayan bir ailə çox zaman maddi sıxıntılardan əziyyət çəkir. Bəzi ailələr isə maddi sıxıntıları olmasa da doyumsuzluq, hərislik, tamahkarlıqdan əziyyət çəkirlər. Belə

olduğu surətdə təbii ki, heç bir şeyə qane olmurlar. Bunun nəticəsində də ailədə aramsızlıq yaranır. Həyatın heç bir dadı-duzu olmur. Belə bir ailə daima ruhi sıxıntılarla çalxalanır. Amma bir ailənin axirətə inanması və ölümü yad etməsi səbəb olur ki, insan bu dünyanın əbədi olmamasını xatırlasın. Həmçinin sahib olduğu həyata qane olsun. Beləliklə də çox böyük bir rifaha sahib olmamasına baxmayaraq, belə ailə yüksək ruhiyyə və aramlıqla gözəl bir həyat sürər. Necə ki, Əmirəl-möminin Əli (ə) bu barədə buyurur: "Ölümü çox yad edən bir şəxs doyumsuzluq və hərislikdən nicat tapar. Habelə dünya həyatında ehtiyacı olan az bir miqdara razı və qane olar1".

3. Axirətə inam ailə üzvlərinin vəzifələrini yerinə gətirməyə təşviq edir

Məsumların (ə) kəlamlarında ailə üzvləri öz öhdələrinə düşən vəzifələri yerinə gətirdikləri zaman axirət nemətləri və mükafatları ilə təqdir olunacaqlarını bilirlər. Bu nemətlər və axirət həyatındakı rahatlığa diqqət etdikləri zaman ailə üzvləri təşviq olurlar ki, bu nemətləri əldə etmək üçün öz ailədəki rəftarlarını islah etsinlər. Nümunə üçün aşağıdakı ayələri zikr edirik ki, insanları öz vəzifələrini yerinə gətirmək üçün təşviq edir və həvəsləndirir.

"O bəndələr ki, ayələrimizə iman gətirib (Bizə) təslim olmuşlar. Siz də, zövcələriniz də sevinc içində cənnətə daxil olun!” (cənnətdə) onlar üçün qızıl teştlər və qədəhlər (yemək-

---

- Nəhcül-bəlağə, h 3491

içmək) dolandırılacaqdır. Orada onların ürəkləri istəyən və gözlərini oxşayan hər şey olacaqdır. Siz orada əbədi qalacaqsınız! Bu sizin (dünyada) etdiyiniz (yaxşı) əməllər müqabilində varis olduğunuz cənnətdir! Orada sizin üçün bir çox meyvələr vardır, onlardan yeyəcəksiniz!1"

Bu mükafatlar ayədə qeyd olunduğu kimi o şəxslər üçündür ki, ilahi göstərişlərin qarşısında təslim olublar. Allah bəyənən, bir-birləri ilə mehriban olan bir ailəyə sahib olmaq Mütəal Allahın nümunəvi ailə üçün qoyduğu qanunlardandır. Beləliklə, bu qanunlara riayət edən bir ailə axirət günündə sevinc içində cənnətə daxil olub onun gözəl nemətlərindən bəhrələnəcəklər.

Axirətə inam bir ailə üçün müsibət və çətinliklərə səbr etməyi asanlaşdırır

Axirətə inam hər bir ailənin müsibət və çətinliklərini bir növ həll edir. Çünki, dünyada baş verən hadisələr bundan əlavə ki, Allahın hikməti üzündəndir, müsibətlər qarşısındakı hər növ səbrin axirətdə böyük bir mükafatı və savabı olacaq. Elə bu axirət mükafatları və savablarına xatir dünyanın müsibətləri axirətə inanan insanın nəzərində kiçik görsənir. Quranda belə gəlmişdir:

«إِنَّما يُوَفَّى الصَّابِرُونَ أَجْرَهُمْ بِغَيْرِ حِسابٍ»

---

- Zuxruf / 69-721

"Yalnız (dünyada Allah yolunda çətinliklərə) səbr edənlərə (axirətdə) saysız-hesabsız mükafat veriləcəkdir!1"

Beləliklə, axirətə inanan ailə dünya müsibətlərinə və çətinliklərinə səbr edir. Çünki, bilir ki, Mütəal Allah bu səbrin qarşısında onlara saysız-hesabsız mükafat verəcəkdir.

Axirətə inam dünya məhəbbətini ailələrin qəlbindən çıxardır:

Rəvayətlərimizdə dünya məhəbbəti insanın səhvinin başlanğıcı kimi qələmə verilmişdir. Yəni dünya məhəbbətinə sahib olan hər bir insandan hər bir səhvi gözləmək olar. Həmçinin dünya məhəbbəti insanı öz həqiqi səadətindən uzaqlaşdırır. Ailələrdə əgər dünya məhəbbətinə mübtəla olduqları təqdirdə öz həqiqi səadətlərindən uzaqlaşmış olarlar. Nəticədə, həm dünya həm də axirət səadətindən özlərini məhrum edərlər. Amma əksinə, axirətə inanaraq dünya məhəbbətini qəlblərindən çıxardan ailələr öz həqiqi səadətlərini əldə etmiş olurlar. Quran Fironun xanımı Asiyə barədə buyurur:

«... رَبِّ ابْنِ لِی عِنْدَکَ بَیْتًا فِی الْجَنَّةِ وَنَجِّنی مِنْ فِرْعَوْنَ».

"Allah iman gətirənlərə isə Fironun zövcəsini (Asiyə bint Məzahimi) misal çəkdi. O zaman o: “Ey Rəbbim! Mənim üçün Öz dərgahında -cənnətdə bir ev tik. Məni Firondan və onun əməlindən qurtar. Məni zalım qövmdən xilas et!”-demişdi2.

Belə bir sual yaranır ki, Fironun zövcəsi nədən o möhtəşəm saraydan, çoxlu var-dövlətdən üz döndərdi? Çünki, o başqa bir

_ Zumər / 101
- Təhrim / 112

yerə göz dikmişdi. Çünki, o həqiqi səadəti dünya malına sahib olmaqda deyil, axirətə inamda görürdü. Elə buna xatir də Mütəal Allah onu bütün möminlərə nümunə kimi göstərdi. Bəli deyə bilərik ki, axirətə inam və behişt sevdası ilə yaşamaq Firon sarayını belə insan üçün zindana çevirir.

Müqəddəs Kitabda deyilir ki, ərlər arvadlarını sevməli və onlara hörmət etməlidirlər. Zəhmət olmasa, (Efeslilərə 5:25—29) ayələrini oxuyun. Ər həmişə arvadı ilə məhəbbətlə davranmalıdır. O, arvadını qorumalı, qeydinə qalmalı və ona yara vuran heç nə etməməlidir.

Bəs arvadı səhv edəndə ər necə davranmalıdır? Allah ərlərə buyurur: «Arvadlarınızı həmişə sevin və onlarla sərt davranmayın» (Koloslulara 3:19). Ərlər, unutmayın ki, siz də çox səhvlərə yol verirsiniz. Amma Allahın sizin səhvlərinizi bağışlamasını istəyirsinizsə, siz də arvadlarınızı bağışlamalısınız (Mətta 6:12, 14, 15). Ailəsinin xoşbəxt olmağını istəyən ər və arvad bir-birini bağışlamalıdır.

Allah ərlərə arvadlarının ləyaqətinə hörmətlə yanaşmağı buyurur. Ər arvadının tələbatlarını nəzərə almalıdır. Bu çox ciddi məsələdir. Allah arvadı ilə pis rəftar edən kişinin dualarını eşitmir (1 Butrus 3:7). İnsanı Allahın gözündə ucaldan onun kişi və ya qadın olması deyil, Yaradanına olan məhəbbətidir.

İsa Məsih demişdir ki, ərlə arvad «iki yox, bir bədəndir» (Mətta 19:6). Onlar bir-birilərinə sədaqətli olmalı və heç vaxt xəyanətə yol verməməlidirlər (Məsəllər 5:15—21; İbranilərə 13:4). Ərlə arvad cinsi münasibətlərdə bir-birini nəzərə almalıdır, ancaq özlərini düşünməməlidirlər (1 Korinflilərə 7:3—5). Ər İncildə  yazılan növbəti prinsipi heç vaxt yaddan çıxartmamalıdır: «Elə bir adam yoxdur ki, öz bədəninə nifrət etsin, əksinə, insan öz bədəninin qeydinə qalır, onu əzizləyir». Bu o deməkdir ki, ər arvadını sevməli və onu əziz tutmalıdır. Hər bir qadının ən ümdə arzusu odur ki, əri onu sevsin və onunla mehriban davransın (Efeslilərə 5:29).

Kamil xüsusiyyətlərin və əxlaqi fəzilətlərin təzahürü

Axirət aləmində ədalətli və dəqiq hesaba inam, səbəb olur ki, insan bütün işləri görmədə özünü tam azad bilməsin. Bununla da öz həyatında napaklığa tərəf getməsin və İlahi və insani dəyərlərə zidd olan məsələlərə bələşməsin. Nəticə etibarı ilə də əxlaqi fəzilətləri və kamil xüsusiyyətləri özündə təzahür etdirsin.

Haqqı görmə

Axirətdə hakimi Allah olan ədalət məhkəməsinə inam, insanı öz ailə həyatınad insaflı və İlahi çərçivələrdən kənara çıxmamaqla, tanrının meyarları əsasında davranmağa məcbur edir.

Nəfsani və şəhəvanı istəklərinin kontrol edilməsi

nəfsani istəklərinin kontrol edilməsi insanların xüsusi olaraq da cavanların yaşayışının ən önəmli məsələsidir. Cinsi istəklər kontrol edilmədiyi təqdirdə, insanların ailə həyatın nə kimi zərbələri vuracağından heç kəs xəbərsiz deyil. Axirətə və Tanrının əzablarına inam, bu istəyi istər qadın istərsə də kişi cinsində kontrol edə bilər.

Məsuliyyət hissi

Axirətə inamın ailə həyatındakı faydalı təsirlərindən biri, insan öz vücudunun dərinliyində məsuliyyət hiss etməsidir. Beləki, bu inam insanın bütün düşüncə və davranışlarını öz təsiri altına salmaqla onda ailə üzüvlərinə qarşı və ailədə dəyərlərin yaranmasına və yaşamasına qarşı məsuliyyət hissi yaradır.

Zülm və ədalətsizlikdən yayınma

Mənafelərin toqquşması insanın ailə həyatının qaçılmaz cəhətlərindəndir. Belə ki, burada güclü və zəif ir yerdə yaşayırlar. Güclülər həmişə istəyirlər ki, hər şey onların olsun. Axirət aləminə və hesaba inam, insanı başqasına zülm etməyə qoymur. Bilmək lazımdır ki, Axirət aləminə inamsızlıq insanların ədalətsizliyinin və zülmkarlığının köklü səbəbidir.

Qəzəbi söndürmək

əsəb və qəzəb hissi güclülükdə heç də cinsi istəkdən zəif və geri qalan deyil. Bu xüsusiyyət bəzi vaxtlar, insanda intiqam hissini öz zirvəsinə çatdırır; belə ki, hər hansə bir maniəni öz

nəfsani istəyi əsasında, önündən qaldırmağa hazır olur. Belə yerdə Tanrı intiqamı və Cəhənnəm əzabından qorxudan başqa heçnə insanların qəzəb alovunu söndürə bilməz. Insandakı digər nəfsani istəklər də elə bu cürdür; çünki Müqəddəs İsalm dinində və Xristiyanlıqda görsədildiyi kimi, Qiyamət qorxulu hadisələrin başverəcəyi yerdir. Buna inann hər bir şəxs çərçivələrdən çıxmamaqla, yoluna davam etmək məcburiyyətindədir.

## Qaynaqlar

1. Qurani-Kərim

2. Müqəddəs Kitab

3. Nəhcül-bəlağə

4.Amerikalı Ans, Ceymz; Düzgün səmavi elmdə təlim sistemi; 2- ci cild; ABŞ nəşriyyatı; Beyrut; 1890.

5.Tsin, Henri; Xristiyan Teologiyası.

6.Davidd L. Silis (ed.), Internation Encyclopedia of the Sosial Sciences, “Millenarism.”

7.Mister Haks, Müqəddəs Kitabın lüğəti.

8.Aştiyani, Cəlaluddin; xristiyan dinində bir araşdırma.

9. Maraqlı hekayələr.

10.Hüseyni Tehrani (r.ə), Seyid Məhəmmədhüseyn; “Məadşünaslıq”, 1-ci cild.

11.Hüseyni Tehrani (r.ə), Seyid Məhəmmədhüseyn; “Məadşünaslıq”, 2-ci cild.

12.Təbatəbai Məhəmmədhüseyn; Əlmizan təfsiri, 14-cü cild.

13. Təbatəbai Məhəmmədhüseyn; "Ölümdən sonrakı həyat" məqaləsi.

14. Məclisi, Məhəmməd Baqir; Biharul-ənvar, 3-cü cild; "Mələkul mövt" babı.

15.Məclisi, Məhəmməd Baqir; Biharul-ənvar, 6-cü cild.

16.Məclisi, Məhəmməd Baqir; Biharul-ənvar, 7-cü cild.

17.Məclisi, Məhəmməd Baqir; Biharul-ənvar, 8-cü cild.

18. Məhdi Nəraqi, Mollah Məhəmməd; Camius-səadat, "Həsəd" bəhsi.

19. Mütəhhəri, Mürtəza; İlahi Ədalət.

# Meysəm Təmmar və Muxtar Səqəfinin oxşar və fərqli mənəvi xüsusiyyətləri

Rövşən Əhmədzadə[1]

**Abstarkt**

"Muxtarnamə" serialının yayımlanması bu cərəyanların nüfuzlu simalarının dəyərləndirilməsi yolu ilə hicri 60-cı illərin taleyüklü hadisələrini bir daha təhlil etmək və kökünü tapmaq, beləliklə gələcəyimizin enişli-yoxuşlu yolunda bəsirət çırağı yandırmaq üçün mübarək fürsət yaratdı.

Muxtar və Meysəm Təmmar kimi şəxsiyyətlər Aşuradan sonra baş verən hadisələrdə şücaətli və nüfuzlu simalar olaraq tarixçilər tərəfindən həmişə təhlil edilib. Bu arada Meysəmin qiyamı Muxtarın qiyamından daha önəmli sayılır. Çünki o, heç kimin başını kəsməsə də, heç kimi öldürməsə də, Əməviləri rüsvay etdi.

Meysəm və Muxtar hər ikisi Əhli-beyt (ələyhimussalam) aşiqi idi. Meysəm Təmmar fədakar müsəlman, vəfalı və ixlaslı bir şiə idi. Quran təfsirçisi və vilayət yolçusu olan Meysəm Təmmar yanmağın lazım olduğunu hiss edəndə pərvanə kimi yanırdı. Muxtar isə siyasətçi və cəsur bir sərkərdə idi, eyni

---

- Əl-Mustafa Beynəlxalq Universiteti, bakalavr məzunu, Qum, İran.[1]

zamanda Keys (zirək və zəkalı) ləqəbini də İmam Əlidən (əleyhissalam) müsbət rütbə olaraq almışdı. Lakin İmam Hüseynin (əleyhissalam) dövründə bu iki mücahidin yolu maraqlı və düşündürücü olmaqla yanaşı, həm də ibrətamizdir.

**Açar kəlmələr:** Meysəm, Muxtar, imamət, mənəviyyat

## Meysəm Təmmar

Yəhyanın oğlu Meysəm əvvəlcə Bəni Əsəd qəbiləsindən olan bir qadının qulu idi. Həzrət Əli (əleyhissalam) onu alaraq azad etdi. Meysəm, Peyğəmbərin (salləllahu əleyhi və alihi və səlləm) dövründə yaşamışdır. Həmin dövrə aid hadisələrdə Meysəmin adı çəkilməsə də, onu Peyğəmbərin (salləllahu əleyhi və alihi və səlləm) səhabələrindən olduğunu deyiblər.

Meysəm Təmmar İmam Əli (əleyhissalam) ilə birlikdə olduğu müddətdə O Həzrətdən bir çox qeybi xəbərlər eşitmiş və bir çox hallarda bunu danışmışdır.

Meysəmin zülmkar hökumətə qarşı açıqlamaları və təqdirəlayiq mövqeləri dövrün hökmdarlarını hiddətləndirdi və Əməvilərə qarşı növbəti rüsvayçılığın qarşısını almaq üçün onu həbs etmək istəyirdilər. Meysəm Təmmar vəzifəsini yerinə yetirməkdə özünü ixtiyar sahibi bilmirdi və vəzifəsini yerinə yetirmək üçün özünü məcbur hesab edirdi. Muxtar isə vəzifəsini yerinə yetirmək hissindən uzaq olaraq, öz məqsədinə uyğun məsləhətin nədə olduğunu düşündü və öz iradəsi ilə vəzifəsini yerinə yetirməkdən imtina etdi.

## Meysəmin şücaəti

Meysəm Təmmar həbs edildikdən sonra onu Kufə valisi Übeydullah ibn Ziyadın yanına apardılar. O, tam şücaətlə və qorxmadan İbn Ziyadın qarşısında dayandı, haqqın batil qarşısında müqavimətini və sarsılmazlığını bir daha göstərdi.

Übeydullah ondan soruşdu: - Allahın haradadır? Meysəm dedi: - Allahım zalımların yolunu gözləyir və sən də onlardan birisən.

Übeydullah Meysəmə təzyiq göstərdi ki, müttəqilərin mövlası Əmirəlmömininini lənətləsin. Lakin Meysəm onun tələbinə tabe olmadı və bu yolda bütün işgəncələrə dözdü.

İbn Ziyad dedi: - Eşitmişəm ki, Əli sənin necə öləcəyin haqda xəbər verib. Miqdad dedi: - Bəli, Həzrət mənə buyurdu ki, səni alçaq, muzdur və günahkar qadının oğlu həbs edəcək, əllərini, ayaqlarını və dilini kəsəcək.

İbn Ziyad bu sözləri eşidəndən sonra qəzəbləndi və əmr etdi ki, Meysəmin əl-ayağını kəssinlər, amma dilini kəsməsinlər. O, beləliklə öz naqis düşüncəsi ilə İmam Əlinin (əleyhissalam) yalanını üzə çıxarmaq istəyirdi.

## Meysəmin qiyamı

Əlləri və ayaqları kəsilmiş halda dar ağacından asılmış Meysəm Təmmar fürsətdən istifadə etdi, öz mövlası və rəhbərinə son dərəcə sevgisini, Əhli-beyt (ələyhimussalam) düşmənlərinə isə qəzəb və nifrətini nümayiş etdirdi. O, həmin vəziyyətdə danışmağa başladı və yüksək səslə camaata xitab edərək dedi: "Hər kim İmam Əlinin (ələyhissalam) dəyərli hədisini eşitmək istəyirsə, yaxına gəlsin. Allaha and olsun ki, bu gündən Qiyamətə qədər baş verəcək hadisələrdən sizə xəbər verəcəyəm və Qiyamətə qədər baş verəcək hər bir fitnə haqqında sizinlə danışacağam."

Beləliklə, onun ətrafına çoxlu adam toplaşaraq sözlərinə qulaq asırdı. Bu xəbər Darul-İmərəyə çatanda İbn Ziyad onun ağzına cilov taxmağı əmr etdi. Lakin Meysəm, zalım Əməvi hökumətini ifşa etməyə davam edirdi. Bundan sonra İbn Ziyadın əmri ilə onun dilini kəsdilər. Bununla da, Əmirəlmömininin (ələyhissalam) sözlərinin doğruluğu sübuta yetdi.

## Muxtar Səqəfi

Muxtar da Əhli-beyt (ələyhimussalam) aşiqi idi. Onun qılınc vurmaqda şücaət və igidliyi dillərə düşmüşdü. Muxtarın ümumi gücü onun qollarında idi və vaxtı tanımaqda diqqətli olmadığı üçün bəsirət vasitələrini əldə edə bilmədi.

Muxtar, “Səqif” qəbiləsindən idi. Bu böyük qəbilə Həvazindən və Taifin ərəb bölgəsinin qəbilələrindən sayılırdı. Muxtarın atası Əbu Ubeydə Səqəfidir. O, Ömərin xilafətinin əvvəlindən Taifdən Mədinəyə gəlmiş və orada məskunlaşmışdır. Əbu Ubeydə, Ömərin dövründə Kəsra (İran) ordusu ilə döyüşün böyük sərkərdələrindən sayılırdı.

**Muxtarın məqsədəuyğunluğu düşünməsi**

İmam Həsən Müctəbanın (ələyhissalam) zamanında Müaviyənin təbliğat səs-küyünün təsiri altına düşən Muxtar, adi həyatını yaşamağa başladı və İmam Həsən Müctəbaya (ələyhissalam) kömək etməkdən imtina etdi. İmam Hüseynin (ələyhissalam) zamanında da Həzrət Müslimə (ələyhissalam) öz evində yer verməsinə, onun etibarlı dostu olmasına və Müslüm ibn Əqilin ordusunu təchiz etmək üçün Kufə ətrafında qiyam qaldırmasına baxmayaraq, təhlükə zamanı siyasi məqsədəuyğunluğu əsas vəzifədən üstün tutdu və Əmrə dəstək olmaq üçün İbn Ziyadın yanına getdi. İbn Ziyad Muxtarı görəndə qışqırdı: - Əqilin oğluna kömək etməyə tələsən sən idinmi? Muxtar şəhərdə olmadığı və gecəni Əmr ibn Harisin yanında olduğu barədə and içdi. Əmr ayağa qalxaraq Muxtarı müdafiə etdi, onun bu hadisələrdə iştirak etmədiyi və ona sığınması barədə şəhadət verdi.

İbn Ziyad bir az sakitləşib dedi: - Əgər Əmrin şahidliyi olmasaydı, sənin boynunu vurardım.

Sonra Muxtarı həbsə atmağı əmr etdi. İmam Hüseyn (əleyhissalam) şəhid olanda Muxtar hələ də zindanda idi.

## Muxtarın Yeziddən əfv diləməsi

Muxtarın Əməvi hökumətindən əfv istəməsi bununla bitmədi. O, Zaidə ibn Qüdaməni bir daha gizli şəkildə bacısının əri, Ömər ibn Xəttabın oğlu Abdullahın yanına Mədinəyə göndərdi və ona dedi ki, əhvalatı Abdullaha danışsın və Abdullah da Yeziddən onun haqqında əfv istəsin. Abdullah Muxtarın bacısı Səfiyyənin əri idi. Yezid və digər Əməvilər ona hörmət edirdilər. O, Yezidə məktub göndərdi və kürəkəni olan Muxtar üçün bağışlanma dilədi. Yezid dərhal ibn Ziyada məktub yazdı və əmr etdi ki, bu məktub sənə çatan kimi Muxtarı həbsdən azad et! Ölüm ayağında olan Muxtar Yezidin məktubu ilə xilas oldu.

İbn Ziyad onu çağırıb dedi: - Əgər əmirəlmömininin (Yezidin) məktubu olmasaydı, səni öldürərdim. İndi get və Kufədə qalma! Muxtar dedi: - Çox yaxşı, mən ümrə etmək üçün Məkkəyə gedirəm.

O, bu bəhanə ilə ibn Zübeyrin yanına getdi. İbn Zübeyrin adamları Muxtarı həbs edib zindana saldılar. Muxtar ikinci dəfə həbs olundu. Muxtarın həbsinin Təvvabin qiyamı ilə eyni vaxtda olduğu bildirilir. Muxtar yenə də həbsxanadan

bacısının əri Abdullah ibn Ömərə məktub yazdı. Əvvəlki kimi o, həbsdən buraxıldı, amma bu dəfə zəmanətlə.

İbn Zübeyrin zindanından xilas olan Muxtar hesablanmış bir hərəkətlə qiyamı planlaşdırmağa başladı. Bir qrup şiə başçıları və Təvvabin qiyamından sağ qalanlar onun tərəfindən camaatdan beyət almağa başladı.

**c) İki şəxsiyyətin müqayisəsi**

1. Meysəm və Muxtar hər ikisi Əhli-beyt (əleyhimussalam) və vilayət tərəfdarları idi. Biri dini təfsir və sözlə yayırdı, digəri isə İslamın cəngavərlərindən idi.

2. İslamda bəsirət qılıncdan üstün tutulur. Meysəm Təmmar şərəfli ömrünün sonlarında Həcc ziyarətinə yollandı və orada Ümmü Sələmənin görüşünə getdi. Peyğəmbərin (salləllahu əleyhi və alihi və səlləm) xanımı onun adını soruşdu. Meysəm ona adını dedi. Ümmü Sələmə dedi: “Dəfələrlə eşitmişəm ki, Allahın Rəsulu (salləllahu əleyhi və alihi və səlləm) Əmirəlmömininlə (əleyhissalam) sənin barəndə danışırdı.”

Ümmü Sələmənin bu rəvayəti Peyğəmbərin (salləllahu əleyhi və alihi və səlləm) nəzərində Meysəmin böyüklüyünə işarə edir. Belə ki, dəfələrlə onun haqqında Əmirəlmömininlə (əleyhissalam) danışmışdır.

3. Meysəm Təmmarın insanları agah etməsi və yorulmaz mübarizəsi, haqqı çatdırması və İslam Peyğəmbərinin (salləllahu ələyhi və alihi və səlləm) ailəsinə sevgisi onu yadda qalan və sevimli bir şəxsiyyətə çevirdi. Belə ki, Meysəm Məsum İmamlar (ələyhimussalam) tərəfindən də sevilmişdir. Şəhidlər sərvəri İmam Hüseyn (ələyhissalam) həmişə Meysəmi yaxşılıqla xatırlamışdır. Necə ki, Ümmü Sələmə də Meysəmə deyir: "Ey Meysəm, Hüseyn həmişə səndən danışır."

İmam Baqir (ələyhissalm) də buyurur: "Mən Meysəmi çox sevirəm." İmam Sadiq (ələyhissalam) da onun adını ehtiramla yad etmiş və ona salam göndərmişdir.

4. Meysəm Təmmar maarifçiliklə və insanları agah etməkə məşğul olduğu üçün şəhid oldu. Muxtar isə İbn Ziyad və Yezidə qarşı ordu toplasa da, Yezidin və dostlarının əfvi ilə iki dəfə zindandan azad edildi.

5. Meysəm Təmmar yoxsul bir ailədən idi. O, həm də əcəm idi və irqinə görə ərəblər tərəfindən məsxərəyə qoyulurdu. Amma Muxtar tanınmış nəslinə görə hətta Yezid hökumətində də nüfuz sahibi idi.

6. Meysəmin bütün varlığı və sərvəti vilayəti müdafiə etmək idi, hər vaxt müdafiə üçün uyğun şərait yaransaydı, bu işi edirdi. Amma cəsur sərkərdə olan Muxtar, İbn Ziyadın həyasız sözləri və gözünə batan qılıncı qarşısında bir söz demədi.

7. Muxtar siyasət adamı idi və öz siyasəti ilə Yezidin polis mühitindən ağlabatan çıxış yolu axtarırdı. Öz susması və

hökumətdən əfv diləməsi ilə zalımların hakimiyyətinə qanunilik bağışladı. Meysəm isə onları qeyri-qanuni övlad hesab edir və onların insan olmalarını şübhə altına sala bilmişdi.

8. Muxtarla Meysəm arasındakı ən mühüm fərq - şübhə xəttindədir. Meysəm kimi köhnə geyinmiş bir şəxs elə dərin bəsirət əldə edir ki, qızıl kisələr, əridilmiş çuxurlar, kəsilmiş əllər və ayaqlarla, kökündən çıxarılmış dil ilə dar ağacından asılmaq onu qorxutmur. Mövlası və rəhbəri Əliyə (əleyhissalam) söz verdiyi kimi ibn Ziyadın təzyiqi ilə söyüşdən istifadə etmir. Amma Muxtarın şübhə xətti əsilzadəni elə sındırır ki, təhqirdən qurtulmaq yolunu yalnız neçə ildən sonra Yezidin zülmkar hökumətinə qarşı çıxmaqda görür.

9. Meysəmin vilayəti müdafiə etməsi, zülmkar hökumətdən heç kimin öldürülməsi ilə müşayiət olunmasa da, Muxtarın qiyamından daha təsirli idi. Çünki Meysəmin müdafiə etməsi tələb olunan zamanda idi və bu, onun qiyamında bir növ zamanı tanımaq sayılır. Amma Muxtar qanlı Kərbəla hadisəsindən beş il və Təvvabin hərəkatından bir il sonra Hüseyn bin Əlinin (əleyhiməssalam) və Kərbəla şəhidlərinin qatillərindən intiqam almaq adı altında qiyam etdi. Muxtar hökuməti ələ aldıqdan sonra Kərbəla hadisəsinin qatillərini öldürdü, başqa əraziləri ələ keçirmək və cinayətkarları orada

cəzalandırmaq üçün ətraf bölgələrə qoşun göndərdi. Uzun müddət bu hərəkatlar və Əməvilər tərəfdarları ilə döyüşlər davam etdi. Muxtarın qiyamında öldürülənlərin sayının 3000 nəfərdən çox olduğu deyilir, o cümlədən: Ömər ibn Səd və onun oğlu, Şimr ibn Zil-Cövşən, Həkim ibn Tufeyl, Ziyad ibn Malik, Xuli, Munqiz ibn Murrə, Abdullah ibn Useyd, Sənan, Zeyd ibn Ruqad, Malik ibn Bəşir, Hərmələ, Həccac, Rəbiə ibn Məxariq.

## Nəticə

Meysəm və Təmmar kimi şəxsiyyətlər, Mənəvi həyat üçün yaşayana gözəl qəlbə sahib, Allah adamları olmuşlar. Onlar daim öz nəfsi istəklərilə mübarizə aparıblar. Əgər bir hər bir insan da fərdi və ictimai işlərində, həmişə bu fikirdə olsa və bilsə ki, təbii istəklərin və meyllərin doyuzdurulmasında inhirafa yol verməк, hər növ ifratçılıq və tüğyan etmək əsarətlərə, süqutlara, fəsadlara səbəb olur və bu əməllər axirətdə öz ardı ilə əzab və atəşdən başqa bir şey gətirməyəcək, bu zaman o çalışacaq ki, nəfsani istəklərini mötədilləşdirsin, Quran və İslam yolunda hərəkət etsin.

Nəfsə ən böyük və ən təsirli zərbə, ölümü yada salmaqdır. Bu qiymətli əməli hər hansı şəkildə mümkündürsə, diri saxlamaq lazımdır. Unutmayaq, İslam dünya məhəbbətini qəlbdən silmək və nəfsani istəklərin azaldılması üçün həmişə ölümü yada salmağı, xatırlamağı çox tövsiyə etmişlər. Aydındır ki, ölümü yada salmaq və dünya məhəbbətini qəlbdən çıxarmaq,

dəf etmək insanı həmişə yaşamaq üçün zəruri olan şeylərlə kifayətlənməyə, ismətlə təmiz yaşamağa dəvət edir, çağırır və bu dünyadan mənasız və qayda-qanunsuz şəkildə bəhrələnməyi məhdudlaşdırır.

İmam Sadiqdən (ə) nəql olunmuşdur ki, həzrət Rəsulallah (s) bir ordunu döyüşə göndərir, onlar qayıtdıqdan sonra həzrət (s) buyurur: "Afərin o şəxslərə ki, kiçik cihadı yerinə yetirdilər, amma böyük cihad hələ öhdələrində qalır. Onlar dedi: Ya Rəsulallah (s)! böyük cihad nədir? O həzrət (s) buyurdu: Nəfs ilə mübarizə."1

Mənbələr:


1. Qurani-kərim
2. Nəhcül-bəlağə (Xoyi, Nəhcül-Bəlağənin şərhi)
3. "Məqtəlul-Husəyn (ələyhissalam)", Əbu Məxnəf.
4. "Ənsabul-Əşraf."
5. "Əl-bidayətu vənnihayəh."
6. "Kamil ibni Əsir."
7. "Tarixi Təbəri."


- Xoyi, ***Nəhcül-Bəlağənin şərhi***, c .6, s. 132[1]

# Şəhidlik, azadlığa aparan yol

## (Mənəvi və fiqhi araşdırma)

Məhəmməd Nicat[1]


# Abstrakt

Hər bir millətdə və dində məna baxımından biri – birinə oxşayan kəlmələr var. Misal üçün düzgünlük, alim, filosof, qəhrəman, tələbə və sair. Təbii ki, bu kəlmələr deyil, ona sahib olanların (yəni alim insan, qəhrəman insan) əzəmət və müqəddəsliyini bildirir.

İslamda "müqəddəs" deyilən bir lüğət vardır. Müqəddəs sözü lüğətdə, toxunulmaz deməkdir. İslamdan azacıq məlumatı olan şəxs hiss edir ki, bu kəlmənin bir vəziyyəti vardır ki, sanki insanı öz əhatəsini alıb. O kəlmə "Şəhid" kəlməsidir. Bu kəlmə bütün millətlərdə müqəddəsliyi və əzəməti ilə seçilir. İnsanların əksəriyyəti alim,tələbə, filosof ola bilər. Amma şəhidlik hamıya nəsib olmur. İslam baxımından düzgün əqidəsinin və torpağının qorunması yolunda canını verən, insanlığın uca pilləsinə yetişmiş olur.


**Açar kəlmələr:** şəhid, mənəvi, azadlıq, din, vətən

[1] - İslam Araşdırmaları fakültəsinin məzunu, İslam Araşdırmaları institutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, Qum, İran.

## Şəhid müqəddəsliyinin mənşəyi

Şəhadət öz müqəddəsliyini haradan almışdır? Təbiidir ki, şəhadət ölümlə müqəddəsləşmir. Çox ölülər vardır ki, fəxr olunası deyillər. Bilirik ki, insan ölümünün növləri vardır.

1)Təbii ölüm. İnsan öz təbii hayatını yaşayır və təbii olaraq ölür. Bu növ ölüm, adətən adi qələmə verilir. Nə fəxr ediləsidir nə də utanc verici. Hətta elədə təəssüf ediləsi olmur.

2)Səbəb ölümü. Xəstəlik, qəza hadisəsi, zəlzələ, sel nəticəsində yaranan ölüm. Bu cür ölümlərdə nə fəxr ediləsidir nədə utanc verici. Amma təəssüf ediləsidir.

3)Cinayət ölümü. Bir nəfər cinayət işlədərək bilərəkdən digərinin hayatına son qoyur. Halbuki ölən günahsız idi. Bu barədə cox məlumatlar var. Misal üçün bir kişiyə bir qadın yox cavabı verirsə, onu öldürür. Yaxud keçmiş ərinin ikinci dəfə ailə qurmasına dözməyən qadın, onu öldürür. Belə cinayətlərdə cinayətkar qınanır. Bu ölüm təəssüf edilir amma fəxr ediləsi deyil. Çünki ölənin heç bir müdaxiləsi olmamışdır.

4)İntihar. Çıxış yolu kimi bu yolu seçənlər, yanılıblar. Bü cür ölüm pisdir. Allah bu yolu bəyənmir. Ən pis ölümlərdən biridir. Bilərəkdən qəza şəraiti yaradaraq avtomobil qəzasında ölənlərdə, bu sinifə aiddir.

5)Şəhadət. İnsan öz insanlıq və müqəddəs hədəfinin qorunması üçün, bu yolu seçir. Şəhadət özü - özlüyündə iki hissəyə ayrılır. Biri budur ki, insan Allah yolunda və müqəddəs hədəfi yolunda canından keçir. İkincisi isə, məlumatlı yəni məsələyə agah formada atılan addımdır. Adətən şəhadətdə cinayətdə var. Yəni müqəddəs hədəf yolunda ölmək baxımından şəhadət sayılır amma kimisə öldürmək baxımından cinayət. Şəhadət,

ixtiyar, agahlıq və müqəddəs hədəf üzündən baş verərsə, düzgündür. Fəxredici, alqışa layiq və qəhrəmanlıq nişanəsidir. Ölümlər içərisində yalnız bu ölüm o biri ölümlərdən daha üstündür. Deməli, şəhadətin müqəddəsliyi öz hədəfinin yolunda məsələyə agah olan halda fəda etməkdən mənşələnib. İnsan Allahdan ölüm dilyə bilməz. Şəhiddən başqa.

## Şəhidin haqqa qovuşması

Allah müqəddəs kitabı Qurani – Kərimdə, şəhidlərin həqiqətdə ölmədiyini, onların diri olduqlarını və Allah yanında ruziləndiklərini buyurur. (Alimran surəsi ayə 169)

İslamda bir şəxsin yüksək məqam sahibi olmasını bildirməkdən ötrü deyərlər, filankəsin məqamı filan şəhid məqamı kimidir. Və ya mükafatı, filan şəhidin mükafatı kimidir. Misal üçün deyərlər, cəmiyyətinə xeyir vermək məqsədi ilə elm ardınca gedən orada ölərsə, şəhiddir. Elm tələb edənə bu adı vermək, əslində şəhidliyin üstünlüyünə bir daha sübutdur. Həmçinin öz ailəsinin təminatı üçün başqa ölkə və şəhərə gedən şəxs o yolda ölsə, ona da şəhid deyərlər. İki – üç nəfərdən təşkil olunmuş ailənin təminatı yolunda ölmək o qədər əhəmiyyətli addımdır ki, hətta ona şəhid deyirik. Deməli milyonlarla əhalisi olan bir ölkənin qorunmasında canını verən şəxs, ailəsinin təminatı yolunda canını verən o şəxsdən, daha yüksək insani pilləyə malikdir.

## Şəhidin haqqı

Bəşərə hər növ xidmət edən şəxs, bəşərin boynunda haqqı vardır. Heç fərq etməz ki, istər elm öyrətsin, sənət öyrətsin və

ya istər nə isə kəşf etsin. Amma heç kim şəhidin haqqı kimi bəşəriyyətə haqq üstünlüyü yoxdur. Şəhidin bəşərə olan haqqı, diğər sahə sahiblərinin haqqından daha yüksəkdir. Cünki bunlar hamısı şəhidin onlara bəxş etdiyi azadlığın sayəsində rahat iş görürlər. Amma şəhidlər onların sayəsində şəhidliyə nail olmurlar. Alim öz elmində, filosof öz fəlsəfəsində, ixtiracı öz ixtirasinda azad, əlverişli mühüt və makana ehtiyacları vardır. O azadlığı onlara bəxş edən şəhidlərdir. Şəhid öz canından keçməyi ilə, bədəninin yanması ilə, diri – diri torpağa basdırılması ilə, bəşəriyyətə əlverışli həyat verir. Şəhid, şam kimidir. Şam ətrafına işıq saçması ilə, işlərimizi qaydasına salmaqda, derslerimizi oxumaqda bizə kömək edir. Amma şam özü yanıb, yox olur. Şəhid də həmçinin. İnsanlar rahat və azad yaşasınlar deyə canlarından keçirlər. Onlar şam kimi yandılar, amma bəşərə azadlıq işığı verdilər. Əgər bu qaranlıq qalsaydı, heç bir dəzgah işləyə bilməzdi, nə elmdə və nə kəşflərdə heç bir irəlləyiş ola bilməzdi. Şəhid kəlməsi, şəhid pilləsi hər kəlmədən müqəddəs, hər pillədən yüksəkdir.

## Şəhidin bədəni

İslam hikmətli bir dindir. Heç bir qanunu yersiz deyil. Qanunlarından biri budur ki, bir müsəlman dünyasını dəyişərsə, ona meyyit quslu verilsin, kəfənə bükülsün, meyyit namazı qılınsın və sonda dəfn olunsun. Bunların hər birinin fəlsəfəsi və sirri vardır. Amma bu qanunun bir istisnası vardır. Yəni bir halda bu qanun tətbiq olunmaz. O istisna, şəhiddir. Şəhidə yalnız meyyit namazı qılınar və dəfn olunar. Onu nə yuyarlar, nə də əynindən döyüş libasını çıxararlar. Bu istisna özü bir rəmzdir. Mənası budur ki, şəhidin bədəni və ruhu o

qədər təmizdir ki, sanki gözəllik və təmizlik onun bədəninə, qanına və hətta libasına hopubdur.

Şəhidin bədəni şərəfli cəsəddir. Çünki şəhidliyi ilə yuyulmasına ehtiyac duyulmur. Şəhidin libasıda şərəfli libasdır. Çünki şəhidliyi ilə kəfənə ehtiyac duyulmur. Dünyanın ən şərəfli libası, şəhid libasıdır. İnsanlar bahalı və şahşöhrətli libaslar üçün nə qədər pul xərcləməli olurlar. Amma o insanlar dünyalarını dəyişərkən, İslam dininə əsasən onlara toxunmaq olmaz. Toxunsan, gərək qusl alasan. Həmin insanın bədənində yuyulmayana qədər, insan sağlamlığlna mənfi təsir bağışlayan mikroblar olur. Dünya malı arxası ilə gedənlərin sonunu və şəhidin sonunu müqayisə etmək, təsəvvür olunmazdır. Damla ilə dəryanı müqasiyə etmək qədər mümkünsüzdür. Şəhid yuyulmadan təmizdir. Əgər şəhid döyüş meydanında can tapşırarsa, onu həmin libasda və həmin qanla dəfn edərlər. Qusl onun qanı, kəfəni onun libası olsun. Su təmiz olmayan bir şeyi təmiz edər. Şəhidin qanı suya çəkilmədən təmizdir. Şəhidin qanı sudan üsündür.

## Şəhidin məsuliyyəti

Pasifist – Bu Xristianlıqda bir ideologiyadır. Yəni biri sənin üzünə sillə vurarsa, çevir o birinədə vursun. Bir növ insan həddindən artıq güzəşt və əvfli olmaqa dəvət edilir. Amma bu insan ağlında qəbul olunası bir şey deyil. İnsanlıq ümdə olaraq iki şeyin üzərində qurulub. Biri nə haqq kəs, biri də haqqıni kəsməsinlər. Haqqını kəsənlərə qarşı susmaq, onlarla o zülmə və haqsızlığa razı olmaq deməkdir. Bu da qiyamət günündə onlarla birgə əzab çəkməklə nəticələnəcək. Gərək hər bir insan

bacardığı səviyyədə öz etirazını bildirsin. Desək ki, Allah işini Allaha, bəndə işini bəndənin öhdəsinə qoyaq, bu düzgün olmayacaq. Çünki şəhidin döyüşə getməsinə səbəb, ictimai məsuliyyətini hiss etməsidir. Bu məsələni fərdi iş bilmək özü bir növ məsuliyyətdən qaçmaqdır. Nəticədə kimin düşmənlə vuruşması sual altında qalacaq. İnsan fitrətən haqsızlığa etiraz bildirən bir məxluq kimi yaradılıb. Hətta bu yolda canından və malından da keçir. Düşmən başqa məntəqədədirsə, öz diyarından çıxıb ora üz tutar. Bu insanın imanından xəbər verir. Buna cihad deyərlər.

## Şəhidlik və İslam dini

İmam Əli (ə) buyurur: "Cənnət qapılarından biri, cihad qapısıdır. Allah onu müəyyən şəxslərin üzünə açıq qoyub" . Hamının üzünə açıq olmayan bu qapı, hamının döyüşçü ola bilməməsini bildirir. O qapı müəyyən şəxslərin üzünə açıqdır. Müəyyən şəxslər döyüşçü olmaq qabiliyyətindədirlər. Allah bu qapını xüsusi dostlarının üzünə açıq qoyub. Quranda cənnətin səkkiz qapıdan ibarət olması qeyd olunur. Bu qədər qapı nəyə lazımdır? Bəlkə, cəmiyyət çox olacaq ? Bəlkə varlılarla kasıbların bölümüdür? Bəlkə vəzifəlilərin xüsusi yeri var? Xeyr. O dünya bu dünya kimi deyil. Hər cəhətdən fərqlənir. Bu insanların biri – birindən iman və əməl baxımından üstün olmalarına görədir. O dünyada təbəqə yoxdur, dərəcə vardır. İman və əməl çox olduqca, dərəcədə yüksəlir. Cihad, Allahdan qorxunun libasıdır. Özünü paxıllıqdan, lovğalıqdan uzaq etməlidir. Pislikləri, əxlaqi çirkinlikləri insan özündən uzaq etməmiş, Allahdan qorxu yaranmaz. Allahdan qorxu olmasa, döyüşə qarşı məsuliyyət olmaz. Döyüşdən, mübarizədən boyun qaçırdığı üçün qiyamətdə Allaha nə cavab verəcəyindən

və ya Allah qarşısında başı aşağı olmasından qorxur. Allah qarşısında başıdik və üzügülər olması üçün vuruşar. Deməli həqiqi döyüşçü Allahdan qorxanların birincisidir. Özündən pislikləri uzaqlaşdıran amma döyüşməyəndən, bu şəhid üstündür. Çünki həm özünü daxili baxımdan təmizləyib, döyüşüb, qaçmayıb və bu yolda şəhid olub. Deməli cənnətdəki qapının biri şəhidlər üçündür. Döyüş ən güvəniləsi qala və etibarlı zirehdir.

**Şəhidlikdən imtina etmək**

Əgər bir şəxs üzürsüz döyüşdən imtina edərsə, Allah ona zillət libasını geyindirər, malını yox edər, çətinliklərə düçar edər, onu xar edər. Döyüşdən imtina edən millət, başı aşağı olar. Təsəvvür etmədikləri bəlalara düçar olarlar. Ruhi və psixoloji pozğunluq olar. Öz uzaq görənliklərini əldən verərlər. Qəlbləri daşlaşar. Dövlət verdiyi maaşdan onu məhrum edər. Cəmiyyət tərəfindən qınanar  və onu şəxs kimi hesab etməzlər. Ona insaf və güzəşt etməzlər. Həzrəti Muhəmməd (s) buyurub: “ Xeyir və bərəkət qılıncda və qılıncın kölgəsinin altındadır. Allah mənim ardıcıllarımı atların cilovu və nizələrin ucu ilə hörmətli etdi“. Veyl demişdir: Heç bir din İslam kimi millətini qüvvətə və gücə səsləmir. Həzrəti Muhəmməd (s) buyurub: “ Döyüşməyən və buna heç önəmdə verməyən, imansız  ölər “. Bu məsələ ilə hamının əslində kim olması bəlli olur. Həzrəti Muhəmməd (s) – dan soruşdular: Niyə qəbrdə şəhiddən sorğu – sual olunmaz?  Həzrəti Muhəmməd (s) buyurdu: “ O, artıq öz imtahanını qılınclar altında verib “. Yəni şəhid öz sədaqətini artıq göstərib. Ona görədə qəbrdə  sual – cavaba

ehtiyac yoxdur. Allah bir kasıbdan bir də şəhiddən sorğu – sual etməyə utanar.

## Şəhidin şad olması

Döyüşdən öncə , döyüşçülərdə xüsusi ruhiyyənin olması gözə çarpır. Buna "şəhadət sevinci" deyərlər. Onlar, öz ölümlərinə sevinirlər. İmam Əli (ə) buyurub: "Ömrüm boyu yatadqa xəstə yatmaqdansa, yüz zərbə almağımı üstün tutaram". İslam tarixində görürük ki, Həzrəti Muhəmməd (s) İmam Əlinin (ə) ölümünün nə vaxt və necə olduğunu bildirir. İmam Əli (ə) buyurur: Ya Peyğəmbər, öz din və əqidəmdə möhkəm qaldığım üçün bu yolda öldürülməyimə niyə qəmgin olum?... . Bu insanlar şəhadət ümüdü ilə, yaşayırlar. Əgər bu ümüdü onlardan alsan, həyatlarında xeyir görməyəcəklər. Bu insanlar dünyaya gələndən ölmək – ölmək deyirlər. Hədəfləri yaşamalarının amalı yalnız ölüm şərbətini içmək fikri olanları necə bu yoldan ayırmaq olar?

Onların qəlbində yalnız bir istək olub. Mümkündür ki, Allah onlara bu şəhadəti ruzi olaraq versin? Mübarək ramazan ayının dualarında belə bir cümlə vardır: " Allahım, mənə sənin yolunda ölməyi nəsib elə ". Çox maraqlıdır. Bu şəhidlərin ölümə olan məhəbbəti, körpə uşağın ana südünə olan məhəbbətdən qat – qat çoxdur. Hətta Peyğəmbərin hüzuruna gəlib , deyərdilər: "Ey Allahın elçisi, Allahdan bizim üçün şəhid olmağı dua edin ". Tarixdə, döyüşə birinci atılmaq üçün biri – biri ilə mübahisə edən hətta sonda püşk atan ata – balanı, qardaş – qadaşı çox görürük.

## Şəhid ata və oğul

Hicrətin 3 – cü ili yəni miladi tarixlə 625 – ci ildə İslamın Bədr adlı ilk müharibəsi baş verir. Ata və oğul hər ikisi döyüşə mən gedəcəyəm deyə, mübahisə edirlər. Ata deyir ki, sən cavansan. Peyğəmbərə daha çox lazımsan. Mən gedəcəyəm döyüşə. Oğul isə deyir: Xeyr, ata. Sən get evə yaşlı insanlara döyüşmək vacib deyil. Sonda püşk atdılar. Oğul döyüşə gedəsi olur və şəhadət şərbətini içir. Bir müddət sonra ata Peyğəmbərin hüzuruna gələrək, şəhid olmaq istədiyini və bunun üçün də dua etmələrini istədi. Peyğəmbər dua etdi. Çox keçmədi ki, bir il sonra miladın 626 – cı ilində İslamın ikinci müharibəsi olan, Ühüd döyüşündə şəhid olur.

Bir ayağı axsaq olan yaşlı bir ata oğulları ilə birgə döyüşə getmək arzusunda olur. Oğulları sənə döyüş vacib deyil deyərək, onu bu fikirdən döndərmək istədilər. Heç bir xeyri olmamasını görən qardaşlar, sonda Peyğəmbərin hüzuruna gəlib, məsələni bildirdilər. Peyğəmbər, döyüş sənə vacib deyil deməsinə baxmayaraq yaşlı ata çox israr etdi. Peyğəmbər, sənə vacib də deyil, yasaqda deyil. Bunu eşidən yaşlı ata çox sevindi və axsaq ayağı ilə döyüşdü. Bir oğlu ona kömək etmək istəməsinə baxmayaraq, ata razılaşmadı. Nəhayət özü və bir oğlu o döyüşdə şəhid oldu.

## Şəhidin məntiqi

Hər bir şəxsin və hər bir dəstənin danışığı vardır. Yəni təfəkkür tərzi. Hər bir şəxsin qarşısında meyarlar vardır və o meyarlarla işləri barəsində qəzavət edir. Şəhidin özünə məxsus

məntiqi vardır. Şəhidin məntiqini adi insanın məntiqi ilə ölçmək mümkün deyil. Şəhidi adi insanın yerinə qoymaq olmaz. Onun məntiqi yüksəkdir. Eşqlə dolu olan məntiq ölçülməz həddədir. Əgər iki məntiqi yanyana qoyub ölçsək, birinin məntiqi öz cəmiyyəti üçün ürək ağrıdan, şəhidin məntiqi isə ilahi eşqlə dolu olduğu üçün nəinki öz cəmiyyətinə, hətta dünyaya əks səda salan bir nitq olacaq. Kərbəla hadisəsində İmam Hüseyn (ə) oğlu Həzrəti Əliəkbərdən ölümü necə görürsən deyə soruşduqda, belə cavab verir: " Baldan da şirin". Onların danışığı mənfəətli və siyasidir. Onların nitqi, işıq verici və yandırıcıdır. Onların məntiqi bir cəmiyyəti cəhalət yuxusundan oyatmaq üçündür.

Bəli, Şəhid elə kəlmədir ki, onu əvəz edən münasib bir kəlmə yoxdur.

**Şəhidin qanı**

Şəhid nə edir? Şəhid nəinki düşmən qarşısında dayanır, ona zərbə endirir, zərbə alır. Əgər tək bu olsaydı, düşməndən aldığı zərbə nəticəsində itirdiyi qan hədər olardı. Xeyr, heç vaxt şəhidin qanı hədər olmur. Şəhidin qanı torpağa tökülmür. Şəhidin qanı yüzlərcə, minlərcə damla hətta qanlardan təşkil tapmış dəryaya çevrilir. Həzrəti Muhəmməd (s) buyurmuşdur: "Allah yanında haqq üstündə axıdılan qandan üstün qan yoxdur ". Şəhadət, qanın simvoludur. Bu şəhidlərdirlər ki, bütün bədən və damarlarında olan qanları ilə azadlığa susamış milləti, sanki qanları ilə sirab edirlər. Zülmün və haqsızlığın tüğyan etdiyi bir zamanda, azadlıq çürümüş ağaca bənzər. Şəhidlər, öz qanları ilə o ağaca su verərək onu dirildib, cəmiyyətin ixtiyarına verirlər.

## Şəhid və ibrət dərsi

Şəhidlər bu addımları ilə nəinki insanlara azadlıq bəxş edirlər, hətta cəmiyyəttin qəlbində haqsızlığa nifrət, ölümdən qorxmamaq, sona qədər mübarizə etməyi cəmiyyətə dərs keçirlər. Şəhidlərin bu addıminda dirilər üçün böyük bir ibrət dərsi vardır. Qəlblərində mübarizə hissi olmayan millətdə, mübarizə hissini oyadan, şəhidlərdir. Ona görədə hər bir ölkə və hər bir millət həmişə şəhidlərə ehtiyaclı və borcludur. Şəhid, gecə vaxtı səhrada su axtarışında olan şəxsə bənzər. Susuz insan su quyusunu taparsa, necə sevinər? Sevincinin həddi – hüdudu olmaz. Ölkəsini azdlığa çıxarmaq fikri ilə hərəkətdə olan bu insanları heç kim saxlaya bilməz. Şəhid olmaq arzusu bunların qanında axırsa, kim bunları fikirlərindən döndərə bilər?

Hər bir millətin anım günü var. Azərbaycan xalqında 20 yanvar, 26 fevral, 31 mart və s... xalqımızın anım günüdür. Hindistan xalqının anım günü isə, 31 yanvardır. Həmin gün 1946 – cı ildə Mahatma Qandi və 32 nəfər tərəfdarı ilə xalqının azadlığı uğrunda dünyalarını dəyişdilər. Mahatma Qandidən soruşdular ki, İngilislərin bu qədər silahı olduğu təqdirdə, sənin heç bir silahın olmadan, bu xalqı neçə illik müstəmləkədən necə azad etdin? Dedi: “Müsəlmanların İmam Hüseyn (ə) adlı liderlərinə baxdım. Gördüm ki, o insan dinini öz və yaxınlarının canından keçməsi ilə qoruyub saxladı. Anladım ki, azadlğa aparan yol, şəhidlikdir” .

## Şəhidlik nağılı

Bir tacir həmişə olduğu kimi yenə səfərə çıxır. Qəfəsdə saxladığı tutuquşudan soruşur: Geri qayıdarkən sənin üçün nə gətirim? Tutuquşu deyir: Heç bir şey istəmirəm. İstəyim budur ki, orada mənim tutuquşu doslarımı görsən, salamımı çatdır. Tacir alverini bitirdikdən sonra, tutuquşularla dolu olan bir məkandan keçərkən, onlara evində qəfəsdə saxladığı tutuquşunun salamını çatdırır. Bunu deyən vaxt, bütün tutuquşular hamısı ölür. Öz – özünə düşünür. Axı mən nə etdim ki, bunlar öldülər... Kor – peşiman geri qayıdır. Vəziyyəti qəfəsdəki tutuquşuna danışır. Elə bunu eşidən tutuquşu, o da ölür. Tacir, ölü quşu qəfəsdən çıxarıb atır. Çox keçməmiş tutuquşunu ağacın budağı üzərində görüb, deyir: Sən axı ölmüşdün... Sən indi azadsan. Səni tutmaq mənə çətindir. Amma oradakı quşların və öz vəziyyətini mənə başa sal. Tutuquşu deyir, oradakı qardaşlarım ölməyiblər. Sadəcə mənə azadlığın yolunu başa saldılar. Məndə anladım ki, azadlıq ölümdən keçir. Ölməsən, azad ola bilməzsən.

## Şəhidin əbədiliyi

Alim öz elmi ilə cəmiyyətə xidmət edir. Əslində o, öz fərdiliyindən xaric olub, cəmiyyətə bitişib, cəmiyyətin bir üzvü olur. Fərdi şəxsiyyəti elm məcrasından cəmiyyətin şəxsiyyəti ilə bir olur. Necə ki damla, dətya ilə qovuşub, onunla bir olur. Alim öz şəxsiyyətindən bir hissə yəni fikr və düşüncəsini bu birləşmə ilə əbədiləşdir. İxtiraçı şəxsdə, kəşf etmək baxımından cəmiyyətə bitişir. O, özünü və sənətini öz cəmiyyətində əbədiləşdirir. Müəllim və şair də həmçinin. Biri də şəhiddir. Öz qanının yolu ilə özünü cəmiyyətdə əbədiləşdirir. Yəni əbədi və unudulmaz qan cəmiyyətdə əmələ

gəlir. Öz qanı ilə cəmiyyətdə qiymətli şəxs və əbədi simvola çevrilir. Şəhidin qanı həmişə olaraq cəmiyyətin damarında yaşayır. Heç bir sahə mütəxəssisi şəhid qədər cəmiyyətdə əbədiləşmir. Hər bir əməldən üstün digər əməl var. Amma şəhidin əməlindən üstün bir əməl yoxdur.

**Şəhidin şəfaəti**

Şəfaət yəni günahın məhvi. Müqəddəs Qurani – Kərimdə qiyamət aləmində günahlarının bağışlanmasına layiq olanları, Allahın icazəsi ilə Peyğəmbərlər, İmamlar və şəhidlər tərəfindən bağışlana bilər. Bu insanlar Allah yanında pillə və hörmət sahibləri olduqları üçün, onların sayəsində şəfaət mümkündür. (Əlbəqərə surəsi ayə 255, Əlmuddəssir surəsi ayə 46 – 47, Əssəbə surəsi ayə 23, Ğafir surəsi ayə 18, Taha surəsi ayə 109, Sunəni ma caə kitabı cild 2 səhfə 1441 və s…)

(Qeyd: Bu iş hamı tərəfindən görülməz, hamıya şamil olmaz və Allahın izni olmalıdır) Bu şəfaət, hidayət verici şəfaətdir. İmam Əli (ə) buyurub: “Allah şəhidləri çox böyük ehtiramla qiyamətə gətirər. Hətta Peyğəmbərlər belə onlara hörmət qail olarlar ”.

**Şəhidə ağlamaq**

İnsanın daxilində maddi ehtiyaclar adlı deyilən bir anlam var. Misal üçün yatmaq, yemək, içmək, gülmək, ağlamaq və s... . İnsan bunları etməlidir. Bunları etməmək qaçılmazdır. İnsan yaxınını itirəndə, istər – istəməz gözündən yaş axır. Faciəli

halda, millətinin yolunda canını verən şəhidə necə ağlamayasan? Hətta Peyğəmbərimiz belə oğlu İbrahim öləndə ağlamışdı. Şəhidə ağlamaq, onun vida mərasimində iştirak etmək, onun bu addımına razı olmağı və şücaətinə müsbət yanaşmağı bildirir. Şəhidə ağlamaq, İslamdan bizə yetişib. İslam bizə şəhidə ağlamağı vəzissət edib. Məsihilər İsa peyğəmbəri ölü bilərək, həmin gün gülüb, sevinərlər. Şəhidin bu yolu seçməsi, insanlarda vətənpərvərlik hissini oyadır. Millət, bununla fəxr edir qürur duyur və digər millətin yanında başı dik və alniaçıq olur. Milləti dünyada tanıdan o şəhiddir. İnsan şəhidə öldüyü üçün deyil, faciəli halda və haqqsızlıqla öldürüldüyünə görə ağlayar.

Mani adında Peyğəmbərlik iddiasında olan şəxs deyərdi ki, intihar düz seçimdir. Ölüyə şadlanmaq gərəkdir. Cünki ölüm yox olmaq deməkdir. Düz fikir deyil. Çünki insan ölmür. İnsan dünyasını dəyişir. Əgəg ölüm son olsa və o biri dünya olmasa, torpaq işğal edən, əsir götürən, körpəyə, qocaya, qadına rəhm etməyən, onlara şikəncə verən, Qarabağı mənimsəyən şəxslərdən necə və harada intiqam alınmalıdır? Həm bu dünyada və həm o dünyada. İnsan şəhidə ağlamaqla, ona qarşı olan məhəbbətini daha artırır. Onu unutmur. Onu qətlə yetirənlərə qarşı qəlbində qəzəb yaranır. Bu, eşqlə ağlamağdır. Amma gülmək, əksinə insanın unutqan olmasına səbəb olar.

## Şəhid və biz

Şəhidin cəmiyyətlə iki əlaqəsi vardır. Biri, əgər sağ qalsaydı ondan cəmiyyət bəhrələnərdilər. Amma bu fürsət əldən çıxıb. Biri də, haqsızlığa təməl qoyanlarladır ki, onların əleyhinə vuruşub və onların əli ilə şəhid olub. Şəhidin özü olmasada,

onun cəmiyyətdə qoyduqu izlər var. O izlərdən biri də ona baxıb vətənpərvərlik dərsini alan, yeni şəhidlərin meydana çıxmasıdır. Cəmiyyətin boynunda bir neçə vəzifə vardır. Biri budur ki, yenidən bu haqsızlığın, işğalın yaranmasına şərait yaratmasınlar. İkincisi budur ki, şəhidlər haqqında, onların keçdikləri şanlı yol haqqında cəmiyyətə məlumat verilsin. İnsanlar şəhidlərin adlarını uca tutmalıdırlar.

## Şəhidin türbəti

Həzrəti Muhəmməd (s) qızı Fatimeye Zəhra (ə) – a təsbeh zik etməyi öyrətmişdi. (Allahu Əkbər 34, Əlhəmdulillah 33, Subhənəllah 33 dəfə) O da, İslamın ikinci müharibəsi olan Ühüd müharibəsində şəhid olmuş Peyğəmbərin əmizi Həmzənin qəbri üstə gedib, o şəhidin qəbrinin torpağından özü üçün təsbeh düzəltdi. Bu nə deməkdir? Yəni şəhidin qəbri, torpağı ehtiramlıdır. İnsan şəhid qəbri üstə olanda, dua zikr etmək üçün təsbehə ehtiyacı olur. Fərqi yoxdur təsbehin dənəsi taxtadan, daşdan ya torpaqdan olsun. Amma biz bunu şəhidin torpağından götürürük. Bu da bir növ şəhadət və şəhidlik məktəbinə hörmətdir. Onların qəbri bizim üçün tarixi yaddaşımızdır. Tarixini unudan millət, artıq millət deyil. Ziyarət məkanımız, ibrət dərsi alan yerimiz, ruhumuzun təskinlik tapdığı və rahatlandığı bir yerdir. Həmçinin düşmənə ölkəmizin insanlarını sübut etməyimiz üçün, möhkəm və tutarlı bir dəlildir.

## Şəhid və Kərbəla

Kərbəla hadisəsindən sonra çox insanlar İmam Hüseynin (ə) müqəddəs qəbrindən torpaq götürüb, təsbeh yaxud möhür düzəltdilər. İslam alimləri deyərlər ki, torpaq götürmək istədikdə, şəhid qəbrinin torpağından götür. Çünki ondan şəhidin iyi gələr. Mükafatında yüz bərabər artar. Kərbəla torpağına səcdə etmək, yeddi qat göyü yarmaq deməkdir. Kərbəlanı müqəddəs məkana çevirən, Kərbəla şəhərinin özü deyil. Baxmayaraq ki tarixə əsasən orada iki yüz peyğəmbər və nəvələri şəhid olub. Oranı müqəddəs məkana çevirən miladi 682 – ci ildə canlarından keçmiş 72 nəfər şəhidlərdir. Şəhidlər özləridə haradansa qaynaqlanıblar. Onların qəlbində millətinin və dininin qorunması ruhiyyəsini yaradan, tarixdə faciəsi ilə seçilən və zülmləri ilə məşhur olan, Kərbəla hadisəsidir. Şəhidlərimiz bu şəhidlərin həyat tərzlərindən, şücaətlərindən dərs alaraq onlarda canlarını tapşırıblar. Sanki biri – biri ilə yarışırmışlar. Kərbəla, sanki indiki şəhidlərimizin təqlid etdiyi bir məkandır. Kərbəla, qəlbində vətən və din sevgisi olanların, qeyrət simvoludur. Şəhidlər, bu yola olan sevgini sanki analarından süd yeməklə alıblar. Ruhsuz bədəni təsəvvür etmək çətindir. Şəhidlərin ruhu, onların şəhid olma arzularıdır. Onlarıda şəhid olmadan təsəvvür etmək, mümkün deyil.

## Şəhidin gecəsi

Müəllimlər, həkimlər, qadınlar və s... günü qeyd olunur. Həmçinin bayram. İnsan bayramdan bir gün öncə bayram axşamı keçirir. Yəni bayrama hazırlıq və bayram adət - ənənələrini qoruyub saxlamaq. Bu da bir növ bayrama olan hörmətdir. Sanki bu addım qanun halını alıb. Dünyada qanun halını almış məsələlərdən biridə, şəhidlər gecəsidir. Yəni il

dönümünə, anım mərasiminə hazırlıq. Buda o şəhidə xalq tərəfindən qoyulan hörmət və əzəmətini saxlamaq üçün atılan bir addımdır. Baxmayaraq ki, bu halda şəhid haqqını ödəmək sayılmır. Şəhidin haqqı o vaxt ödənilir ki, onun qanı yerdə qoyulmasın. Yəni yolunu davam etdirmək, yarımçıq qalan işini sona çatdırmaq və s... . O gecə onlar öz rəşadətlərini göstərdilər. Şəhidlər bütün qoşun içərisində nur kimi parıldayırdılar. Onları o parıltıya görə seçmək, çox asan idi. O gecə hər biri təkliyə çəkilib, Allahla danışıb bir – bir döyüşə atılırdılar. Görəsən şəhid son gecəsində nə deyir nə istəyir? Təbii ki ora qədər gələn bir insan, ondan sonra oradan saq - salamat çıxması barədə Allahdan bir şey istəməz. Allahla dərdləşəndə o qədər özlərini zəif göstərərlər, sanki bunlardan zəifi yoxdur. Amma döyüşdə tam fərqli olurlar. Sanki bir az öncə zəif görünən onlar deyildirlər. Onlar bu gücü Allahdan necə aldılar? Bura qədər gəlib çıxmaq hamıya nəsib olmadığı bir halda, bunlar bunu necə bacardılar? Qaçmadılar, əsir düşdülər amma sirr vermədən can tapşırdılar. Axı niyə qorxmadılar? Bu insanlar tankın qarşısına qorxmadan nə cür çıxırlar? Hamısına bir cavab var. Düzgün əqidələri, təmiz niyyətləri və yalnız Allahdan qorxuları ilə. Çünki Allahdan qorxmayan, hər şeydən qorxar. Allahdan qorxan, heç nədən qorxmaz.

## Şəhid və Allah

O gecənin şəhid pıçıltısı: ”Allah, bütün gözəllik və və böyüklük sənə aiddir. Allah, sən dostlarına qarşı mehriban, düşmənə qarşı isə qəzəblisən. Allah, dostlarının duasını qəbul edənsən. Allah, əgər dostluquna layiqəmsə, mənə şəhidiyi

nəsib elə. Allah, bura qədər gəlib cıxdım sənə şükr olsun. Allah, mənə bu gözəl anı fürsət veridiyin üçün, sənə şükr olsun. Allah, hamıdan qabaq şəhid olmağı mənə nəsib elə. Allah, əgər haqq olaraq qələbə çalsaq, bu sevinci cənnətdə qeyd etməyimi mənə qismət elə. Allah, əgər məğlub olsaq, şəhidliyim üçün sevinərəm. Çünki biz məğlub olsaqda, əslində qalibik. Allah, mənim ölməyimlə ölkəm düşmən təhlükəsindən amanda qalacaqsa, buna şükr edirəm. Allah, bu xeyirli işdə hamımıza kömək ol".

## Şəhid və son an

Şəhidlərin biri – biri ilə son danışıqları da diqqətdən yayınmır. Deyərlər: Bu düşmən yalnız mənim torpağımı deyil, məni də istəyir. Mənim olmağım onlara mane olur. Məndən təslim olmağı istəyirlər ki, məndə təslim olmaram. Məni tikə - tikə etsələrdə, yenə fikrimdən dönməyəcəm. Onlar əgər məni təslim etsələr, ölkəmizi böyük fəlakət gözləyir. Onların dözə bilmədiyi bir şey var. Bizimlə vuruşmasalar, hücuma keçməyimizdən qorxurlar. Bizi öldürsələr bir şey qazanacaqlar. Onların qazandığı yalnız dünyada hər hansı bir mal olacaq. Amma biz ölsək belə, iki şey qazanacağıq. Biri dünya, biri də o biri dünya. Dünyada hamı bizi rəhmətlə yad edəcək, o biri aləmdə də cənnətdə o biri şəhid qardaşlarımızla bir olacağıq. Biz, ölkəmizin müdafiəsi yolunda vuruşduğumuz üçün, yolumuz haqqdır. Yolumuz haqq olduğu üçün, bu yolda məglubiyyət yoxdur. Cisim baxımından ölə bilərik, amma əslində ölü deyilik. Çünki şəhidlər ölməzlər. Bizim qurmaq istədiyimiz dövlət bizim ölümümüzlə qurulursa, deməli biz qalib gəlmişik. Dünya bizə təəccüb edəcək. Deyəcəklər, axı necə olur bunlar öldürlər, amma yaşatmaq istədikləri dövlət

yaşandı və qorundu... . Cavabımız bütün dünyaya budur ki, bizim yolumuz ölü yolu deyil. Bu yola şəhidlik deyərlər. Bu yoldada yalnız qələbə var. Həztəti Muhəmməd (s) buyurmuşdur: ” Vətəni sevmək, imandandır ”. Vətənini sevməyən, onun müdafiəsinə qalxmayan necə iman sahibi ola bilər? İmanı olmayanın Allah yanında heç bir dəyəri olmaz.

## İslamın fiqhi məzhəblərində şəhidin hökmü

***Şəhidin quslu***

Hər iki məzhəbin fiqh alimləri qeyd etmişlər ki, döyüş meydanında şəhid olmuş şəxsə qusul verilməz. İstər imamın zamanında onun əmri ilə olsun, istər islam ölkəsinin və istərsədə islam dininin müdafiəsi üçün olsun.

Cəvahirul kəlam. Cild 4, səhifə 86. (Şiə mənbəəsi)

Əlumm. Cild 1, səhifə 267. (Şafei mənbəəsi)

Peyğəmbər (s), ühüd döyüşünün şəhidlərinə və əmisi Həmzəyə qusl vermədi. Əyinlərindəki paltarlarla dəfn etdi. Amma meyyit namazı qıldı.

Peyğəmbər (s), Ühüd döyüşündə şəhid olmuş Hənzələyə qusl vermədi. Buyurdu ki, "ona mələklərin qusl verdiyini görürəm". O gündən Hənzələnin ləqəbi "ğəsilul məlaikə" (mələklərin qusl verdiyi) oldu.

İmam Əli (ə), siffeyn döyüşünün şəhid olan Əmmar ibn Yasir və Utbəyə qusl vermədi. Kəfənə bükmədi. Əyinlərindəki paltarla dəfn etdi. Amma namaz qıldı.

Kifayətul əxyar. Cild 1, səhifə101.

Bədayətul muctəhid. Cild 1, səhifə 227.

Sünni məzhəbinin yalnız iki fiqh alimi Səid ibn Musəyyib və Həsən Bəsri bildirmişlər ki, üç dəlilə əsasən şəhidə qusl vermək vacibdir:
1)İnsanın bədənindən ruh çıxan vaxtı, ona cənabət quslu vacib olur.
2)Ühüd şəhidlərinə qusl verilməməsinin səbəbi, quslun mümkünsüzlüyü yaxud suyun olmaması idi. Yoxsa qusl veriləcəkdi.
3)İbn Munzirin sualına cavab veren Əbu Ömər demişdir ki, Ömər ibn Xəttab şəhid olduğu halda ona qusl verildi və kəfənə büküldü.
Dəlilləri araşdıraq:
1)Hər iki məzhəb alimlərinin məşhur nəzəri "şəhidə qusl verilməz" fətvasıdır. Məşhurun qarşısında iki alimin nəzəri qəbul olunmazdır.
2)Təbii ölüm səbəbi ilə dünyasını dəyişən şəxslə, şəhid arasında fərq var. Bu, şəhidə Allah tərəfindən verilən xüsusi dəyərdir.
3)Ümumi rəy (qusl yoxdur) xüsusi rəyi (qusl var) təsdiq etmirsə, xüsusi rəyi ümumi rəy kimi qəbul etmək olmaz.
Həmçinin xüsusi rəyi ümumi rəydən üstün tutmaq üçün, heç bir dəlil yoxdur.
4)Ömər ibn Xəttab döyüş meydanında ölməsini təsdiq edən heç bir etibarlı mənbəə ya dəlil yoxdur.
5)Ühüddə suyun olmamasını bildirən dəlil yoxdur. Su olmasaydı yaxud qusl mümkünsüz olsaydı, təyəmmümlə quslu əvəz etmək olardı. Bir haldakı hər yer torpaq idi amma təyəmmüm belə edilmədilər.
Nəticə: Şəhidə qusl verilməz.

***Şəhidə qusl verməmək vacibdir, ya müstəhəb?***

Cavab:

1)İslamın hər iki məzhəb alimlərinin məşhur nəzəri: vacibdir ki, şəhidə qusl verilməsin. Qusl vermək düzgün deyil. Çünki hədislərimizdə "şəhidə qusl verməyin" deyə qadağa vardır. Bu qadağanın günah, ya məkruh olmasını dəqiq bilmək üçün bu hədisin əksini tapmalıyıq. Əksi isə yoxdur. Deməli qusl vermək olmaz. (Usul elminin qanunlarının tətbiqi ilə)

2)Şəhidin bədəninə toxunmaqla, insanın boynuna məssi meyyit quslu (meyyitə toxunmaq quslu) gəlməz. Çünki o, qusl verilmiş ünvanındadır.

Təhrirul vəsilə. Cild 1, səhifə 63.

***Malını, canını, namusunu qoruyanda ölən şəxsə, elm tələb edərkən ölən tələbəyə, ailəsinin təminatı yolunda ölən insana və ya övladını dünyaya gətirən vaxt vəfat edən anaya qusl verilməlidirmi?***

Cavab:

Şiə alimlərinin ümumi rəyi budur ki, bu şəxslər şəhid hökmündə deyillər. Gərək bunlara qusl verilsin. Amma şəhidlik bir neçə növ olduğu üçün şəhidlik savabını qazanırlar.

Amma sünni fiqhində fərqli fikirlər vardır:

1)Əvzai məzhəbinin banisi Əbdurrəhman Əvzai və Hənbəli məzhəbinin banisi Əhməd ibn Hənbəl bildirmişlər ki, bu şəxslər də şəhid hökmünə daxildir. Yəni qusl verilməz.

Bidayətul muctəhid. Cild 1, səhifə 227.

2)Maliki məzhəbinin banisi Malik ibn Ənəs Əsbəhi, şafei məzhəbinin banisi Muhəmməd ibn İdris Şafei və hənəfi məzhəbinin banisi Əbu Hənifə (əsl adı Noman ibn Sabit; 2 il

imam Sadiqdən ə. dərs alıb) bildirmişlər ki, şəhid hökmündə deyil. Yəni qusl verilməlidir. (Həmin mənbə)

***Şəhidin kəfəni***

Bu barədə də müxtəlif fikirlər vardır:

1)Şiə və hənəfilərin fikrinə əsasən, şəhid döyüş meydanında vəfat edərsə, ona qusl yoxdur. Kəfənsiz dəfn olunması vacibdir, nəinki müstəhəbb. Amma yaralı olsa döyüş meydanından kənarda (məs: xəstəxanada) vəfat edərsə, kəfənlənməlidir.

2)Maliki, şafei və hənbəlilər bildirmişlər ki, şəhidin sahibinin ixtiyarından aslıdır. Kəfənlə ya döyüş paltarında dəfn etməkdə ixtiyar sahibidirlər. Amma müstəhəbdir ki, əynindəki paltarla dəfn etsinlər.

İmam Şafei. Cild 1, səhifə 267.

***Qeyd:***

Şəhidin əynində hər hansı bir geyim olsa və döyüş meydanında ölsə, kəfənsiz və qusulsuz dəfn olunar.

Amma şəhid çılpaq olsa, onu kəfənə bükmək vacibdir. - Şəhidin ayaqqabısı, papağı, kəməri, əmmaməsi və digər əşyalarını onunla birgə dəfn etmək olmaz. Amma bu əşyalar qan içində olsa, şəhidlə birgə dəfn etmək olar.

Vəsailuş şiə. c-2, səh-701.

Şəhidin əynindəki geyim başqasının malı olsa və malın sahibi razı olmasa, gərək əynindən çıxarsınlar.

***Şəhidin namazı***

Məzhəblər arasında fikir ayrılığı vardır:

1)Şiələr və hənəfilər: Vacibdir.

2)Sünni məzhəbləri6 Malikilər, şafeilər, hənbəlilər: Vacib deyil.
İrad: Peyğəmbər (s) ühüd şəhidlərinə, İmam Əli (ə) isə Əmmar ibn Yasirə və Haşim ibn Utbəyə namaz qılmamağı tapşırdı.
Bidayətul muctehid. Cild 1, səhifə 227.
Vəsailuş şiə. Cild 2, səhifə 699.
Cavab:
1)Şeyx Tusi deyir: "Namaz qılmayın" cümləsi, hədisi söyləyənin öz sözüdür. Yəni hədisə öz fikrini əlavə edib. Nəinki peyğəmbər və imamın sözüdür.
2)Yaxud peyğəmbər özü qılmasın. Ola bilsin peyğəmbərdən öncə artıq qılan olub.
3)Yaxud sırf müəyyən şəxs və ya şəxslərin şəhidə namaz qılmasını bildirib. Yənı hamı yox, sırf bu şəxs ya şəxslər qılsın.
4)Yaxud peyğəmbərdən öncə kimlərsə qılıb deyə, yenidən qılmaqlıq vacib deyil.
Məsələni araşdıraq:
Namaz məsələsi həddi buluğ olana ya olmayana (9 yas qadında, 15 yas kişidə), kişiyə ya qadına, qul ya azad insana aiddir. Yalnız Əbu Hənifə həddi buluğ olmayana namazın, quslun və kəfənin vacib olmasını bildirmişdir. Amma bu məşhur və qəbul olunan nəzər deyil. Çünki, şəhid ümumi sözdür. Hər bir yaşda olan şəxsə aiddir. Bədr və ühüddə yaşı az olan olub. Peyğəmbərdə onların qusl, kəfən olunmamasını və onlara namaz qılınmamasını bildirmişdir.

## Nəticə

Yetərin qədər mükafata, böyük insani pilləyə malik olan şəhid, nəinki şəfaət edər hətta bədəni çürümür desək, yanılmarıq. Allahın şəhidə verdiyi bir mükafatda budur. İslam rəvayətlərinə əsasən, bir neçə şəxs vardır ki, öldükdən sonra bədənləri çürüməz. Misal üçün İslamda çox böyük alimlərdən sayılan Şeyx Səduqun indidə əsərləri oxunur. O dünyasını dəyişir. Şah Qacarın vaxtında İranın Rey deyilən məntəqəsini sel nəticəsində su basır. Nəticədə bütün qəbirstanlıq su altında qalır. Şah qəbirləri təmir etmək əmrini verir. Şeyxin qəbrini təmir etmək istəyən ustalar, təəccüblərini gizlədə bilmirlər. Bədən çürüməyib heç, kəfən də heç saralmayıb. Sanki indi qəbrə qoymusan. Halbuki Şeyxin ölümündən səkkiz əsr keçmişdi.

Başqa tarix: Kərbəla hadisəsində on min qoşunu ilə İmam Hüseyn (ə) – ın qarşısını kəsən Riyahi qəbiləsindən olan Ziyadın oğlu Hürr. Bu şəxs döyüşdən öncə etdiyi əməllərə görə peşiman olur və İmamın razılığl ilə İslam qoşununa keçir. Hətta bəzi mənbəələrə əsasən İmam nəslindən olmayanlar cərgəsində birinci şəhid olan, Hürrdür. İmam başı üstə gəlib, onun alnına bir yaylıq bağlayır. Hürr şəhid olur. Bu hadisə Miladi 682 – ci ildə baş verir. Əsrlər sonra Şah İsmail Hürrün alnında olan yaylığı hədiyyə və təbərrük ünvanında götürmək və yaxud şəhidlərin bədənə çürümür fikrini dəqiqləşdirməkdən ötrü, qəbri açdırır. Sanki Hürr indi dəfn olunub. Hərbi libası əynində. Şah, yaylığı açır, qan axmağa başlayır. Nə qədər edirsə, qan dayanmır. Sonda məcbur olub, İmam bağlayan yaylığı bağlayır. Qan dayanır. Bu addım səhv olmasını anlayan Şah, Xətai yəni səhv edən ləqəbini özünə götürür. (İslamda bir neçə yer istisna olmaqla, qəbri açmaq düzgün deyil). Səkkiz əsr keçməsinə baxmayaraq, Hürrün bədəni çürüməmişdi. Buna

səbəb, şəhidlik məqamıdır. Hədis: Qırx cümə, zöhr namazına qədər cümə quslu alan şəxsin bədəni çürüməz, təbii ki, əməllər düz olmaq şərti ilə.

## Qaynaqlar

1-Qurani-Kərim.

2- Nəhcülbəlağə

3-Səhifeyi-Səccadiyyə

4- Məclisi, Məhəmməd Baqir, Biharul-ənvaril-camiəti lidurəri əxbaril-əimmətil-əthar.

5- Nuri, Hüseyn, Müstədrakül-Vasail.

6- ibni Yəqub, Kuleyni, Məhəmməd, Üsuli-Kafi.

7- Hurr Amili, Əbu Cəfər, Məhəmməd, Vəsaiuş-Şiə.

8- İbni Əbi Əhməd, Seyyid Rəzi, Məhəmməd, Nəhcül-Bəlağə.

9- Ayətullah əl-üzma Nasir Məkarim Şirazi, “Təfsiri nümunə” (2018)